## İxtisas: Məktəbəqədər təhsil

## Kafedra: Pedaqogika, Psixologiya və sosial fənlər

## Fənn: Pedaqoji kadrların etik davranış qaydaları

## Müəllim: Nəsibova Ülviyyə

**Mühazirə 1: Müəllim peşəsi, cəmiyyətdə müəllimin rolu və vəzifələri**

**Plan**

**1. Görkəmli şəxsiyyətlərin müəllimin cəmiyyətdə böyük rola malik olması haqqında fikirləri;**

**2. Pedaqoji fəaliyyət məqsədyönlü fəaliyyət olaraq həyata keçirilməsi;**

**3. Müəllimin peşə fəaliyyəti.**

"Müəllim məsələsi yalnız bizim deyil, hər bir millətin ölüm-dirim məsələsidir".

**Ömər Faiq Nemanzadə**

İslam dininin banisi, ulu peyğəmbərimiz Məhəmməd (s.ə.s.) başqalarına elm öyrətməyi dini vacibatlardan üstün tutmuş, alimin mürəkkəbinin şəhidin qanına bərabər olduğunu demişdir. Dini vacibatları müsəlmançılığın əsas əlamətləri hesab edən peyğəmbərimizin bu kəlamları olduqca dərin məna və əhəmiyyət kəsb edir. Hikmət bundadır ki, əgər dini vacibatlar yalnız onu yerinə yetirənlər üçün xeyirlidirsə, başqalarına elə öyrətmək, başqaları üçün xeyirli işlər görmək, yeni nəsli gələcəyə hazırlamaq kimi bir işlə məşğul olmaq bütün cəmiyyətə xidmət etməklə həyat sürmək və yaşamaqdır. Belə bir həyat müəllimə məxsusdur. Ərəb dilindən dilimizə tərcümə edəndə "öyrədən" mənasını verən "**Müəllim**" sözü özündə çox dərin mənalar və hikmətlər birləşdirən müqəddəs bir kəlamdır. Müəllim dedikdə biz yalnız dərs deyən, sinfə girib-çıxan, məktəbdə çalışan adamları düşünmürük. Bu kəlam göz önünə müdrik, həyatı dərindən bilən, gözəl mənəviyyata və əqidəyə malik, "el içində pak oturub, pak duran" *(Aşıq Ələsgər)*, yaşından asılı olmayaraq ağsaqqal, gəncliyə nümunə ola bilən kamil bir insan gətirir. Məhz buna görədir ki, xalqımız həmişə müəllim adını hörmətlə tutmuş, ona dərin məhəbbət və ehtiram bəsləmişdir. Hörmətli, nəcabətli adamlara "müəllim" deyə müraciət etmiş və bu gün də edirlər. Özünün bir çox çıxışlarında müəllimə, onun əməyinə dərin hörmətini ifadə edən xalqımızın ümummilli lideri **H.Ə.Əliyev** demişdir: "Müəllim adı dünyada ən yüksək addır. Şəxsən mən yer üzündə müəllimdən yüksək ad tanımıram. Çünki hər birimizə təhsil, bilik verən, bu səviyyəyə çatdıran məktəbdir, məktəbdə təhsil verən müəllimdir".

Bu kəlamlar müəllimə verilən böyük qiymətdir, onun həqiqi və halal qiymətidir.

Saraya gecikənlərin heç birini əfv etməyən Əmir Teymurun vəziri bir gün gecikir. Teymur qəzəbləndikdə vəzir deyir ki, şah sağ olsun, mən gələndə gördüm ki, müəllimim qabaqda yolla gedir. Arxamın ona tərəf düşməməsi üçün onu ötüb, keçə bilmədiyimdən gecikdim.

Teymur vəzirinin bu hərəkətinə görə onu bağışlayır. Çünki o, özü də müəllimə böyük hörmət bəsləyirdi. Elə bu hörmətin nəticəsi idi ki, vəsiyyət etmişdir ki, öləndə onu müəlliminin qəbri üstündə tikdirdiyi məqbərədə, onun ayaq tərəfində dəfn etsinlər.

Müəllim öyrədəndir, tərbiyə edəndir. Buna görə də gələcək cəmiyyətin necəliyi də çox vaxt müəllimdən asılı olur. Doğru deyilmişdir ki, məktəbi, müəllimləri güclü olan xalq və millət güclü olar.

Müəllim bu gün yaşayır və fəaliyyət göstərir. Ancaq onun fəaliyyəti gələcəyə doğru yönəlmiş fəaliyyət olur. O, bugünkü işi ilə gələcəyi qurur, gələcək cəmiyyəti hazırlayır. Bu baxımdan, onun əməyi, işi xalq üçün, onun gələcəyi üçün sərf olunan şərəfli əməkdir.

Müəllim əməyini başqa sahələrdə fəaliyyət göstərən insanların hamısının işindən ən gərəkli və lazımlı hesab edən ümummilli liderimiz H.Əliyev Azərbaycan müəllimlərinin XI qurultayına təbrik məktubunda (24 sentyabr 1998-ci il) demişdir: "Bu gün ölkəmizin qarşısında duran problemlərin həllində müəllimlərin fəal iştirakı xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan müəlliminin bir məqsədi, bir amalı olmalıdır: Azərbaycanımızı çiçəklənən, inkişaf edən, firavan, qüdrətli bir dövlətə çevirməyə qadir, müstəqillik ideyalarına sadiq, özünü vətənin azadlığı naminə fəda etməyə hər an hazır olan, yeni təfəkkür tərzini qavrayaraq müasir tələblərə cavab verən, sağlam əqidəli, milli ruhlu nəsil yetişdirmək".

Müəllimin cəmiyyətdə böyük rolu vardır. O, gənc nəsli həyata hazırlayır, onlara elmlərin əsaslarını öyrədir, bir sıra zəruri keyfiyyətlər aşılayır və onlarda dünyagörüş formalaşdırır. Buna görə də müəllim peşəsi həm də məsuliyyətli peşədir. Bu əməkdə məsuliyyətsizlik, laqeydlik və səriştəsizlik cəmiyyətdə elə deformasiyalara səbəb olur ki, sonradan onları heç nə ilə düzəltmək mümkün olmur.

**Qədim Roma pedaqoqu M.F.Kvintilian müəllimi yüksək təhsilli, təmkinli, nümunəvi şəxs hesab etmişdir.** O yazırdı ki, müəllim uşaqları sevməli, onları diqqətlə öyrənməli, mükafat və cəzanı tətbiq etməyi bacarmalıdır. Tərbiyədə nümunəyə böyük qiymət verən Kvintilian uşaqları pis yoldaşların təsirindən uzaqlaşdırmağı lazım bilirdi. Dahi Azərbaycan şairi, böyük mütəfəkkir **N.Gəncəvi** təlim-tərbiyə işində müəllimin roluna xüsusi əhəmiyyət vermiş və müəllimi geniş bilikli, saf əxlaqlı bir şəxsiyyət kimi təsvir etmişdir. Görkəmli şair M.Füzuliyə görə insanın tərbiyəsi ilə ən təcrübəli adamlar məşğul olmalıdırlar.

**Dahi çex padaqoqu Y.A.Komenski** müəllimi gah fəal heykəltaraş ilə, gah "ağıl zülmətini dağıtmağa, bütün fikirlər və əməllər üzərinə işıq saçmağa ehtirasla can atan saf və sədaqətli maarif xadimi" ilə, gah hər gün göyü hər tərəfdən işıqlandıran günəşlə, gah da böyük axar çayla müqayisə edir, məktəbi insanlıq emalatxanası, müəllimi isə kamil ustad adlandırırdı. Komenski yazırdı: "Müəllim əməkdə və geyimdə sadəliyin, fəaliyyətdə gümrahlıq və əməksevərliyin, davranışda təvazökarlıq və gözəl əxlaqın, nitqdə danışmaq və susmaq sənətinin nümunəsi, ictimai həyatda ağıllılığın örnəyi olmalıdır". Görkəmli alman pedaqoqu A.Disterveq deyirdi ki, yaxşı dərs deyən müəllim, yaxşı da tərbiyə edir. O, müəllimi bütün maşını hərəkətə gətirən qüvvənin mənbəyi hesab edir və deyirdi ki, müəllim bu maşına can və hərəkət verməyi bacarmalıdır.

Müəllim cəmiyyətdə ən inanılmış, etibar edilmiş şəxsdir. Cəmiyyət müəllimə inanır və ona etibar edir. **Böyük rus pedaqoqu K.D.Uşinski yazırdı**: "Əgər biz həkimlərə öz

sağlamlığımızı etibar ediriksə, müəllimlərə uşaqlarımızın əxlaqını, ağlını, ruhunu və bütün bunlarla bərabər öz vətənimizin gələcəyini etibar edirik".

Müəllim bu etibarı özünün biliyi, dünyagörüşü, mənəviyyatı, öyrədə bilmək bacarığı, erudisiyası və pedaqoji ustalığı ilə doğrultmalı, cəmiyyət üçün layiqli vətəndaşlar hazırlamalıdır.

Pedaqoji fəaliyyət bəşər mədəniyyətinin ixtisaslı mütəxəssislər tərəfindən kiçik nəslə öyrədilməsinə istiqamətlənən fəaliyyətdir. Müəllim bu prosesdə özünün dərin biliyi ilə şagirdlərinə elmə yiyələnməyin yollarını öyrədir, onları gələcək həyata hazırlayır. Buna görə də pedaqoji fəaliyyət uşaqların hər birinin intellektual, mənəvi və fiziki inkişafı, cəmiyyətdə fəal həyat mövqeyi tutmağa hazırlanmasını nəzərdə tutur. Bu işdə müəllimlərin üzərinə böyük vəzifələr düşür.

Pedaqoji fəaliyyət məqsədyönlü fəaliyyətdir. Onun məqsədi gənc nəsli elmlərin əsasları ilə silahlandırmaq, onlarda dünyagörüş formalaşdırmaq, milli və ümumbəşəri dəyərlər tərbiyə etməkdir. Bu strateji məqsədə təlim, tərbiyə və təhsilin müxtəlif istiqamətləri üzrə konkretləşdirilmiş vəzifələrin həyata keçirilməsi ilə nail olunur.

Pedaqoji fəaliyyətin mərkəzində şagird şəxsiyyətinin formalaşması dayanır. Bu məqsədə nail olmaq üçün həm tərbiyə olunanların fəaliyyəti (fəallığı, motivləri, münasibətləri və s.), həm də tərbiyəçilərin xüsusiyyətləri (peşəkarlığı, həvəsi, məsuliyyəti və s.) əsaslı rol oynayır.

Pedaqoji fəaliyyətdə az əhəmiyyət kəsb etməyən məsələlərdən biri bu fəaliyyətin məqsəd və məzmunu arasında **vahidliyin** təmin olunmasıdır. Bu təminat məqsəddən nəticəyə kimi böyük bir yolun prosesin bir-biri ilə elə əlaqəsini, bağlılığını tələb edir ki, burada həll edilən bütün vəzifələr məhz məqsədin reallaşmasına xidmət etmiş olsun. Təbii ki, belə bir məqsəd böyüyən nəslin savadlı, elmli, geniş dünyagörüşlü, saf əqidəyə malik, yaradıcı düşünə və fəaliyyət göstərə bilən vətəndaşlar kimi tərbiyə edilməsindən ibarətdir. Belə bir ali məqsədin reallaşması isə müəllimdən dərin bilik, öyrətmə bacarığı, yeni pedaqoji təfəkkür tələb edir.

Müəllimlik fəaliyyəti təlim-tərbiyə məqsədilə bir şəxs tərəfindən başqasına (adamlar qrupuna) edilən pedaqoji təsirdir. Bu təsirin güclü, nəticəyönümlü təsir olması müəllim qarşısında pedaqoji fəaliyyətə maraq, uşaqlara məhəbbət, onlarla işləmək arzusu, uşaq kollektivini təşkil etmək bacarığı, onlara rəhbərlik bacarığı, aydın, emosional, inandırıcı nitq, tələbkarlıq, obyektivlik, doğruçuluq, ədalətlilik kimi xüsusi tələblər qoyur. Elmi pedaqogikanın banisi Y.A.Komenski yazırdı ki, öz peşəsini, tədris etdiyi fənni sevməyən müəllim cisimsiz kölgə, yağışsız bulud, işıqsız çıraqdır. Elmini, tədris etdiyi fənni sevən, daim çalışan müəllim öz kökü üzərində bitən, öz şirəsi ilə bəslənən və buna görə daim artan, yaşıllaşan, çiçəklənən, bəhrə verən ağacdır. Yaxşı müəllim şagirdlərin şüurunu başqa çaylardan axıdılan sularla deyil, məktəblinin şüurunda gizlənmiş idrak bulağını açıb, onun suyu ilə sulayır. Müəllim əməkdə və geyimdə sadəliyin, fəaliyyətdə gümrahlıq və əməksevərliyin, davranışda təvazökarlıq və gözəl əxlaqın, nitqdə danışmaq və susmaq sənətinin nümunəsi, ictimai həyatda ağıllılığın örnəyi olmalıdır.

Müəllimin peşə fəaliyyəti **çoxcəhətli** bir prosesdir. O, təkcə öyrətmir, həm də tərbiyə və inkişaf etdirir. Bu xüsusiyyətlər vahid istiqamətdə bir-birini tamamladıqda müəllim üzərinə

dü- şən vəzifələri müvəffəqiyyətlə yerinə yetirə bilir və yaxşı müəllim kimi özünü göstərir. Bu cəhətdən müəllimin qarşısında aşağıdakı bir sıra vəzifələr durur:

• şagirdləri elmlərin əsasları haqqında biliklərlə möhkəm və dərindən silahlandırmaq, onların təfəkkürünü inkişaf etdirmək;

• şagirdlərin mənəvi inkişafının yüksək səviyyəsini təmin etmək, vətəndaş tərbiyəsinə nail olmaq;

• təhsilin və tərbiyənin metod, vasitə və formalarını daim təkmilləşdirmək;

• yenilikləri izləmək və tətbiq etmək, yaradıcılıq axtrışları aparmaq, öz üzərində daim çalışmaq və s.

Müəllim ziyalı işıqlı şəxsiyyət olmalıdır. O, öz ixtisasını yaxşı bilir və onu yaxşı öyrədirsə, lakin cəmiyyətin siyasi, sosial, iqtisadi həyatında fəal iştirak etmir, öz bilik ziyası ilə kimlərisə, nələrisə işıqlandıra bilmir, xalqın dərdinə biganə qalırsa, onun həllinə öz köməyini vermirsə, ziyalı adını doğrulda bilməyəcəkdir. Buna görə də o, məktəb və öz ixtisas çərçivəsinə qapanıb qalmamalı, cəmiyyətin həyatında yaxından iştirak etməlidir.

Azərbaycanın görkəmli xalq yazıçısı Süleyman Rəhimov "Ecazkar dəzgah" adlı məqaləsində yazırdı: "Xalq müəllimi gərək yüksək sənətkar olsun, yamaqçı bir peşəkar olmasın. Müəllim gərək öz vəzifəsinin aşiqi olsun, yüksək qayəli vətəndaş olsun, yaradıcı sənətkar olsun. Xalq müəllimində öz xalqına xidmət etmək qayəsi onun üçün bir ülviyyət olsun, mənəvi məbədgah olsun"."

Gələcək cəmiyyətin necəliyinin müəyyən mənada müəllimdən asılı olduğunu dərk edən hər bir müəllim öz fəaliyyətinin xalqına, millətinə xidmət olduğunu da anlamalı və gələcək cəmiyyətin məhz onun əlləri ilə qurulacağından fərəh duymalıdır.

**İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI**


1. Məktəbəqədər təhsil haqqında Azərbaycan respubıikasının Qanunu. Bakı: 2017.

2. Əliyev H. Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002.

3. İlyasov M. Müəllimin pedaqoji ustalığı. Dərs vəsaiti. Bakı: Elm və təhsil, 2013.215s.

4.Həsənov A.Məktəbəqədər pedaqogika. Dərs vəsaiti. Bakı:“Nasir nəşriyyatı”.2000.367s.


**ELEKTRON RESURSLAR**


• http://web2.anl.az:81/read/page.php?bibid=vtls000338011


**Mühazirə 2: Müəllimin pedaqoji ustalığı və onun mahiyyəti**

**Plan:**

1. **Pedaqoji fəaliyyətin əsas istiqamətləri**
2. **Pedaqoji ustalıqda peşə bilikləri**

3. **Pedaqoji prosesdə müəllimin əsas qabiliyyətləri**
4. **Pedaqoji texnika**

*"Öz üzərində işləməyən müəllim yaxşı müəllim ola bilməz".*

*Heydər Əliyev*

Pedaqoji ustalıq nədir, o nələrdən təşkil olunur? "Usta" müəllimi başqalarından hansı keyfiyyətlər fərqləndirir? Bütün müəllimlər pedaqoji ustalığa yiyələnə bilərmi? Bu və bunun kimi onlarca suallar pedaqoji yaradıcılığa yenicə başlayan gənc mütəxəssisləri düşündürən məsələlər kimi diqqəti cəlb edir.

Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramında deyilir: "Pedaqoji ali və orta ixtisas müəssisələrində hələ də əsas diqqət tələbələrə fənn üzrə elmlərin nəzəri əsaslarının dərindən öyrədilməsinə yönəldilmişdir. Lakin onların pedaqoji ustalıqla bağlı vərdişlərə yiyələnməsinə, psixologiya elmi- ni dərindən mənimsəmələrinə lazımi əhəmiyyət verilmir".

**Pedaqoji fəaliyyət** (müəllimin fəaliyyəti) digər fəaliyyətin (şagirdlərin fəaliyyətinin) idarə edilməsi kimi çətin və mürəkkəb bir prosesdir. Tərbiyə olunanların şəxsiyyətinə, onun formalaşmasına doğru istiqamətlənən bu fəaliyyət çoxcəhətli və məqsədyönlü fəaliyyət kimi müəllimdən dərin bilik, bacarıq, səriştəlilik, mahirlik, işinə dərin maraq tələb edir. Pedaqoji ustalıq bu xüsusiyyətlərin kompleksi olub, müəllimin peşə biliklərinin, pedaqoji qabiliyyətlərinin və pedaqoji texnikasının vəhdətindən ibarətdir. Bu xüsusiyyətlər bir-biri ilə sıx surətdə bağlı olub, pedaqoji ustalığın ahəngdarlığını təmin edir.

Pedaqoji fəaliyyət biristiqamətli proses deyildir. Eyni zamanda bu fəaliyyətin obyekti olan insana-şagirdə bir deyil, onlarla, yüzlərlə gözə görünməyən amillər təsir edir: bir tərəfdən, şagirdin özü, onun fərdi psixofizioloji xüsusiyyətləri, pedaqoji prosesdə iştirak səviyyəsi, digər tərəfdən isə, onu əhatə edən sosial mühit. Bütün bunlar isə heç də həmişə müsbət təsirə və nəticələrə səbəb olmur. Buna görə də müəllim yaradıcı düşünməli və fəal fəaliyyətə qoşulmalıdır.

Bu baxımdan pedaqoji fəaliyyətin aşağıdakı **əsas istiqamətlərini** qeyd etmək olar:

- şagirdlərin elmlərin əsasları ilə silahlandırılması, onlarda elmi dünyagörüşün formalaşdırılması;

- cəmiyyətin müəyyənləşdirdiyi əxlaq normaları ilə şagirdlərin tanış edilməsi, onlarda əxlaqi davranışın tərbiyə edilməsi;

- şagirdlərin gələcək müstəqil həyata hazırlanması məqsədilə onlarda bacarıq və vərdişlərin formalaşdırılması;

- gənc nəsildə mənəvi əqidə və inamın formalaşdırılması;

- şagirdlərin intellektual səviyəsinin və psixi xüsusiyyətlərinin inkişaf etdirilməsi;

- mühitin neqativ təsirinə qarşı fəaliyyətin təşkili və onların təshih edilməsi;

- valideynlərlə pedaqoji əməkdaşlığın təşkili, şagird şəxsiyyətinin inkişafında birgə fəaliyyətin təşkili və s.

Bu istiqamətlərdə fəaliyyətin məzmunlu və məqsədəyönlü təşkili müəllimdən yüksək pedaqoji ustalıq tələb edir.

Bir sıra alimlər belə hesab edirlər ki, pedaqoji ustalıq intuisiya ilə biliklərin, hər bir pedaqoji çətinliyi dəf edə bilən rəhbərliyin, uşaq qəlbinin duyğularını hiss edə bilmək bacarığının, daxili aləmi kövrək və incə olan uşaq şəxsiyyətinə nəcib və qayğı ilə yanaşmanın, müdriklik və yaradıcı cəsarətin, elmi təhlil bacarığı, təxəyyül və təsəvvürün birləşməsidir.

Professor M.Həmzəyev müəllimin pedaqoji ustalığını şərtləndirən xüsusiyyətləri **iki qrupa** ayırır. Uşaqlara məhəbbət və seçdiyi ixtisasa marağı daxil etdiyi **birinci qrupu**- müəllim şəxsiyyətinin peşə-pedaqoji istiqaməti, müəllimin bir sıra pedaqoji, psixoloji bacarıq və qabiliyyətini daxil etdiyi **ikinci qrupu**- müəllimin pedaqoji bacarıq və qabiliyyətləri adlandırır. Müəllif burada bir sıra pedaqoji qabiliyyətlərin üzərində xüsusi olaraq dayanır, onları pedaqoji ustalıq üçün başlıca xüsusiyyətlər hesab edir və çox doğru olaraq, bunların hamısını müəllim şəxsiyyətinin formalaşmasının əsas əlamətləri kimi izah edir.

Başqa bir pedaqoji ədəbiyyatda isə bu xüsusiyyətlərin bir- biri ilə əlaqədar olan aşağıdakı dörd elementdən ibarət olduğu göstərilir: a) müəllim fəaliyyətinin humanist istiqamətliliyi; b) peşə bilikləri c) pedaqoji qabiliyyətlər; ç) pedaqoji texnika. Bunun da hər biri öz növbəsində müəyyən komponentlərə ayrılır və pedaqoji ustalığın məzmununu və pedaqoji fəaliyyətin ahəngdarlığını təmin edir. Belə ki, müəllim fəaliyyətinin humanist istiqamətliliyi onun fəal mövqeyində ifadə olunur: 1) özünəinamda; 2) vasitələrə qarşı pedaqoji təsirdə; 3) şagirdlərə və uşaq kollektivinə qarşı humanistlikdə və 4) pedaqoji fəaliyyətin məqsədinə qarşı strategiyada vasitələrə, fəaliyyət obyektinə yaradıcı təsirdə qiymətlilik təmayülü kimi aşkara çıxır.

Pedaqoji ustalığın fundamental əsasında peşə bilikləri, pedaqoji biliklərin formalaşmasının əsasında isə pedaqoji şüur və düşüncə, yəni fəaliyyət və yanaşmanın prinsip və qaydaları durur. Pedaqoji qabiliyyətlər - konstruktiv, kommunikativ, perseptiv, qnostik, təşkilatçılıq, suqqestiv və s. qabiliyyətlərə ayrılaraq həm tədris olunan fənn üzrə dərin biliklərə yiyələnməklə, həm də təlim-tərbiyə işlərini səmərəli surətdə həyata keçirməklə həlledici rol oynayır. Pedaqoji texnikaya gəldikdə isə o, müəllim davranışını təşkiletmə forması kimi özündə iki qrup bacarıqları: 1) öz orqanizminə sahib olmaq, emosional vəziyyət, ünsiyyət texnikası və 2) didaktik, təşkilatçılıq, qarşılıqlı təsirin əlaqə texnikasına malik olmaq bacarıqlarını birləşdirir. Tərbiyənin məqsədinin gələcəyə yönələn olması ilə əlaqədar olaraq müəllimin də fəaliyyəti ilk növbədə tərbiyə etdiyi şəxsiyyətin gələcəyinə yönəldilir. Başqa sözlə desək, müəllimin fəaliyyəti şagirdlərin təlim-tərbiyəsinin gələcək nəticəsinin bu gün məqsəd kimi qarşıya qoyulub, gələcəyə istiqamətlənən olması ilə səciyyələnir.

Müəllimin peşə fəaliyyəti **çoxcəhətli** bir prosesdir. Təhsil, müəllim və məktəb haqqında bir sıra dövlət sənədlərində və pedaqoji ədəbiyyatlarda bu prosesin üç mühüm istiqaməti: öyrədici, tərbiyəedici və ictimai-pedaqoji istiqaməti daha qabarıq şəkildə qeyd edilir. Müəllim o zaman tam, yetkin və yaxşı müəllim kimi özünü göstərə bilir ki, onda bu üç mühüm vəzifə, is- tiqamət vahid yönümdə bir-birini tamamlasın və sıx surətdə əlaqələnə bilsin. Buna görə də

müəllim həm öyrətməli, həm tərbiyə etməli, həm də ictimai-pedaqoji istiqamətdə fəal iştirak etməlidir. Bunun üçün müəllimdən bir sıra peşə keyfiyyətlərinə malik olmaq tələb olunur.

Pedaqoji ustalığın əsasında **peşə bilikləri** durur. Peşə bilikləri müəllimi ilk növbədə müəllim kimi tanıdan və xarakterizə edən keyfiyyətdir. Peşə biliyinin zəifliyi müəllimi nüfuzdan salır, onu öz işinin ustası-yaxşı müəllim olmaqdan "saxlayır". Heç şübhəsiz ki, öz işinin ustası və novator kimi tanınan, xalq içərisində hörmət və nüfuz qazanan müəllimlər ilk növbədə özlərinin dərin peşə-ixtisas bilikləri ilə fərqlənən müəllimlərdir.

A.S.Makarenko qeyd edirdi ki, şagirdlər müəllimlərinə ciddiliyi, soyuqluğu, quruluğu və hətta yersiz irad tutmalarını bağışlayar, lakin zəif peşəkarlığını bağışlamazlar. Hər şeydən əvvəl, onlar müəllimlərində aydın və dəqiq bilik, bacarıq, səriştə, qabiliyyət, təmkin, işə daim hazırlıq, məntiqi düşüncə, tərbiyə prosesini bilmək, tərbiyəetmə bacarığını üstün tuturlar.

Peşə bilikləri **iki istiqamətdə** özünü göstərir: 1) müəllimin pedaqogikanı, psixologiyanı dərindən bilməsi, pedaqoji şüura, düşüncəyə malik olması və pedaqoji qaydaları dərindən mənimsəməsi; 2) müəllimin öz ixtisasını onun incəliklərinə qədər dərindən bilməsi.

Təcrübə göstərir ki, bunların hər ikisi birləşdikdə və müəllimin yiyələndiyi təcrübə ilə zənginləşdikdə müəllim özünün fərdi üslubunu yaradır, onun peşəkarlıq səviyyəsi yüksəlir.

Peşə bilikləri pedaqoji ustalıqda mühüm yer tutur. Peşə biliklərinin dərinliyi pedaqoji ustalığa geniş meydan açır. Lakin bu biliklərin necə, hansı səviyyədə verilə bilməsi, şagirdlərə çatdırılması heç də bunlardan az əhəmiyyət kəsb etmir. Buna görə də burada bir neçə vacib məsələnin nəzərə alınması olduqca vacibdir:

1. Tədris materialının və bütövlükdə təlim məqsədinin müəllim tərəfindən düzgün müəyyənləşdirilməsi.

2. Məqsədəmüvafiq vəzifələrin aydınlaşdırılması və onların konkretləşdirilməsi.

3. Tədris materialının məzmununun aydın dərk olunması və əsas ideyanın, başlıca arqumentin müəyyənləşdirilməsi.

4. Tədris prosesinin məqsəd, vəzifə və məzmununa uyğun, əlverişli metodların seçilməsi.

5. Şagirdlərin dərketmə səviyyəsinə və proqram tələblərinə uyğun, onu aydın, asan həll etməyə səbəb olan təlim formalarının müəyyən edilməsi.

6. Şagirdlərin nəzəri bilikləri ilə praktik bacarıq və vərdiş- lərinin optimal həcmini müəyyən edə bilmək və onları reallaşdırmaq.

7. Təlim nəticələrinin aydın dərk olunması və ona nail olunması.

Pedaqoji ustalığa yiyələnmək müəllimdən bir çox **keyfiyyətlər, bacarıq və qabiliyyətlər** tələb edir.

Pedaqoji ustalıqda mühüm yer tutan peşə keyfiyyətlərini üç qrupda təsnif etmək olar: ümumvətəndaş keyfiyyətləri, müəllim peşəsinin spesifikasını müəyyənləşdirən keyfiyyətlər və xüsusi bilik, bacarıq və vərdişlərə malik olmaq keyfiyyətləri. Pedaqoji biliklər nə qədər dərin və geniş olsa da, pedaqoji bacarıqlar olmadan onlar pedaqoji ustalıq üçün kifayət

etməyəcəkdir. Görkəmli pedaqoq Ş. Amonaşvili pedaqoji ustalığa aparan üç mənbənin olduğunu göstərirdi: 1) şəxsiyyətə humanist yanaşma mövqeyi; 2) pedaqoji prosesdə mövqe qazanmaq texnologiyasına yiyələnmə; 3) elmlə ünsiyyət etmək, böyük mütəfəkkirlərin, alimlərin kitablarını "qazımaq".

Pedaqoji proses pedaqoji yaradıcılıq üçün əsas laboratoriyadır. Bu prosesdə müəllim bir sıra mühüm qabiliyyətlərə yiyələnir ki, bunlar da onun usta müəllim kimi formalaşmasının əsasını təşkil edir. Bir çox pedaqoq və psixoloqların bu sahədə gəldikləri ümumiləşdirilmiş nəticələr aşağıdakılardan ibarətdir:

**1. Didaktik qabiliyyətlər**. Bu qabiliyyətlərə uşaqlara təd- ris materialını aydın şəkildə çatdırmaq, fənnə maraq oyatmaq, onlarda fəal, sərbəst düşüncəni stimullaşdırmaq qabiliyyətləri aiddir. Didaktik qabiliyyətlərə malik olan müəllim lazım olduq- da tədris materialını müvafiq şəkildə rekonstruksiya etməyi, mürəkkəb olanı sadələşdirməyi, çətin olanı asanlaşdırmağı, ay- dın olmayanı aydınlaşdırmağı bacarır.

**2. Akademik qabiliyyətlər.** Müvafiq elm sahəsinə (riya- ziyyata, fizikaya, ədəbiyyata və s.) olan qabiliyyətlər. Müəllim fənni təkcə tədris kursu həcmində bilməməli, öz elmində baş verən yenilikləri də izləməli, az da olsa tədqiqat işi aparmalıdır.

**3. Perseptiv qabiliyyətlər.** Şagirdin daxili aləminə varma qabiliyyəti, psixoloji müşahidəçilik, şagirdin keçici psixoloji vəziyyətini anlamaq qabiliyyəti. Qabiliyyətli pedaqoq cüzi xarici əlamətlərə görə şagirdin daxili vəziyyətini hiss etməyi bacarmalıdır.

**4. Nitq qabiliyyəti.** Öz fikir və hisslərini nitqin, habelə mimika və pantomimikanın köməyi ilə ifadə etmək qabiliyyəti. Qabiliyyətli müəllimin nitqi dərsdə həmişə şagirdlərə, tələbələrə yönəlmiş olur. Yeni materialı izah edib-etməməsindən, şagirdin cavabını şərh edib-etməməsindən və s. asılı olmayaraq pedaqoqun nitqi daxili qüvvəsi ilə fərqlənir. Pedaqoq öz fikrini dəqiq, sadə dildə çatdırmalıdır.

**5. Təşkilatçılıq qabiliyyətləri:** a) şagird kollektivini mühüm məsələlərin həllinə səfərbər etmək qabiliyyəti; b) öz şəxsi işini düzgün təşkil etmək, onu düzgün planlaşdırmaq və ona nəzarət etmək qabiliyyətləri (təcrübəli pedaqoqda tədricən zaman hissi, yəni işi təyin olunmuş müddətdə başa çatdırmaq bacarığı formalaşır).

**6. Avtoritar qabiliyyətlər**. Şagirdlərə bilavasitə emosional-iradi təsir etmək və bu yolla onların hərəkətini tənzimləmək, idarə etmək onlar qarşısında özünə nüfuz qazanmaq qabiliyyətləri. Fənni yaxşı bilməklə də şagirdlər qarşısında nüfuz qazanmaq olar. Avtoritar qabiliyyətlər bir sıra şəxsi keyfiyyətlərdən (qətilikdən, dözümlülükdən, inadkarlıqdan, tələbkarlıqdan və s.), habelə şagirdlərin təlim-tərbiyəsinə görə məsuliyyət hissindən də asılıdır.

**7. Kommunikasiya qabiliyyətləri**. Tələbə və şagirdlərlə ünsiyyətə qabil olmaq, onlara düzgün yanaşmanı tapıb tətbiq etmək, onlarla məqsədəmüvafiq qarşılıqlı münasibət qurmaq qabiliyyətləri.

**8. Pedaqoji təxəyyül.** Proqnostik qabiliyətlərə aiddir. Bu xüsusi qabiliyyət öz hərəkətlərini proqnozlaşdırmaq bacarığında öz ifadəsini tapır.

**9. Diqqətin paylanması qabiliyyəti.** Müəllim üçün diqqəti eyni zamanda bir neçə fəaliyyət növləri arasında bölüşdürməyi bacarmaq da çox əhəmiyyətli məsələdir. Qabiliyyətli,təcrübəli pedaqoq materialın çatdırılmasının məzmununa və formasına nəzarət edir, bütün şagirdləri öz diqqət mərkəzində saxlayır, uşaqlarda yorulma əlamətlərinə, nizam-intizamın pozulmasına dərhal reaksiya verir, özünün davranışına (pozasına, mimika və pantomimikasına) nəzarət edir.

Bunlarla yanaşı, bəzi pedaqoji-psixoloji ədəbiyyatlarda şagirdlərə emosional təsir göstərə bilmək bacarıqlarından ibarət olan **suqqestiv qabiliyyətlərin**, müəllimin öz ixtisası üzrə bilikləri mənimsəmə bacarıqlarından ibarət olan **elmi-idrakı qabiliyyətlərin** və digərlərinin də olduğu göstərilir. Bəzi pedaqoji və psixoloji ədəbiyyatlarda isə bu qabiliyyətlər bacarıqlarla eyniləşdirilir və bacarıqlar kimi təqdim olunur.

Pedaqoji ustalığa yiyələnməyin zəruri elementlərindən biri də **pedaqoji texnikaya** yiyələnməkdir. Pedaqoji məharətə və ustalığa pedaqoji biliklər və intuisiyadan əlavə, pedaqoji texnika sahəsindəki biliklər də daxildir. Bunlar tərbiyəçiyə minimum əmək sərf etməklə böyük nailiyyətlər əldə etməyə imkan verir. Belə olan təqdirdə müəllimin ustalığı əldə edilən nailiyyətlərin hüdudundan kənara çıxır, daha da genişlənir. Pedaqoji texnika özü də bacarıqlarla sıx əlaqədə olur.

Pedaqoji ədəbiyyatlarda pedaqoji texnikanın iki qrup bacarıqları özündə birləşdiyi qeyd edilir:

1) öz orqanizminə sahib olmaq, emosional vəziyyəti idarə edə bilmək və ünsiyyət texnikası;

2) didaktik bacarıqlarına, təşkilatçılıq bacarığına və qarşılıqlı təsirin əlaqə texnikasına malik olmaq.

Pedaqoji ustalığı müəllimin peşə fəaliyyətinin səmərəli təşkili, pedaqoji prosesin nəticəsinin yüksək səviyyədə təmin olunması, pedaqoji vəzifələrin həllinə maksimum səviyyədə nail ola bilmək kimi başa düşmək lazımdır.

Pedaqoji proses olduqca mürəkkəb bir fəaliyyət sistemidir. Bura həm pedaqoji prosesin özünün qanunauyğunluqları, həm də burada iştirak edən subyektlər arasındakı münasibətlər mühüm təsir göstərir. Bu baxımdan pedaqoji ustalığın şablon üsulunu göstərmək mümkün deyildir. Və bu heç lazım da deyildir. Burada müəllimin pedaqoji-psixoloji bilikləri, qabiliyyət və bacarıqları, erudisiyası, pedaqoji təfəkkürü, yaradıcılıq qabiliyyəti, çevik düşüncə tərzi, həmçinin şərait, şagirdlərin öyrənmə marağı, müəllim-şagird, müəllim-valideyn münasibətləri mühüm rol oynadığından hər bir müəllimin pedaqoji ustalığında spesifik xüsusiyyətlər, fərdi üslublar mühüm yer tutur.

Pedaqoji ustalığa yiyələnmək olduqca çətin və uzun bir yol keçir. Bu, məktəbdə, bilavasitə təlim-tərbiyə prosesində, şagirdlərlə qarşılıqlı ünsiyyətdə formalaşır və tərbiyə olunur. Burada müəllimdən yüksək bilik və onu verə bilmək qabiliyyəti, rəhbərlik nüfuzu, uşaqları duya bilmək, onların hiss və həyəcanını, qəlbini hiss etmək, pedaqoji intuisiya, humanstlik, yaradıcılıq qabiliyyəti, dözümlülük, səbr və təmkinlilik, təhlil etmə və nəticə çıxarma və s. tələb olunur.

Respublikamızda özünü, həyatının ən qaynar, gözəl dövrlərini müəllimliyə həsr edən pedaqoji məharəti, öyrətmə bacarığı, şagirdlərinə və tələbələrinə qayğı və məhəbbətlə yanaşan, yetirmələrinin qəlbində silinməz izlər buraxan əsil müəllimlər çox olmuş və indi də vardır. Şagirdlərinin və tələbələrinin xatirələrində yaşayan belə müəllimlər haqqında çox dəyərli olan xatirələrdən. bəzilərinə nəzər yetirsək bu müəllimlərin böyüklüyünü bir daha görə bilərik.

Professor Yaşar Qarayevin professor Əli Sultanlı haqqında, professor Təhsin Mütəllimovun professor Mir Cəlal haqqında, xatirələri əsl müəllim simasının xüsusiyyətlərini öyrənmək baxımından təsirlidir, yaddaqalandır. Y.Qarayev yazır: "Professor Əli Sultanlı dərs dediyi bütün tələbələrinin həyatında silinməz izlər buraxan ən sevimli müəllimlərdən biridir. Biz onun qeyri-adi, həssas pedaqoq nəfəsini indi də hiss edirik. O, müallimliklə yaşayar, nəfəs alardı, auditoriya onun mənəvi vətəni idi. O, auditoriyasız yaşaya bilməzdi: auditoriyadan kənarda, tələbə nəfəsi olmayan yerdə özünü həmişə mənəvi ünsiyyətdən məhrum bir havasızlıqda hiss edərdi... Əli Sultanlı təkcə fikrin, hissin qüvvəti ilə yox, öz ədaları, səsinin avazı, sözün, tələffüzün sövti-təntənəsi ilə də bizi mütəəssir edərdi. Hər mühazirədən sonra həmin əsərləri mütləq oxumaq təbii bir ehtiyaca çevrilərdi... Müəllim Əli Sultanlı böyük ədəbiyyat vurğunu və fədaisi idi və bizi ədəbiyyatın vurğunlarına, fədailərinə çevirə bildi. Onun sənətə, elmə, müəllimin vəzifəsinə fədakar məhəbbəti bizim zövq və meyillərimizin formalaşmasında böyük rol oynadı... Əli Sultanlı yaxşı müəllimlər içərisində seçilən yaxşı müəllim idi..."

Görkəmli ədib, müəllim və alim Mir Cəlal Paşayev haq- qında Təhsin Mütəllimovun xatirlərindən oxuyuruq: "Müəllimlik Mir Cəlalın həyatında xüsusi yer tutmuş, yazıçılığı və alimliyi ilə qırılmaz əlaqədə olmuşdur. Onun şirin söhbətlərini, təbii müsahibəni andıran mühazirlərini, aramla, təmkinlə auditoriyanı dolanmasını, hərdənbir kənarda oturan tələbənin çiyninə zarafatla, ehmalca vurmasını, uşaqları yorğun gördükdə, duzlu, maraqlı haşiyələrə çıxıb öz həyatından, yaradıcılığından məzəli əhvalatlar danışmasını, sakit, səmimi səsini, nəfəsini indi də tələbələri dərin həsrətlə, həyəcanla xatırlayırlar..."

Müəllim əməyi şərəfli olduğu qədər də çətindir, əziyyətlidir. Təkraredilməzliklə müşayiət olunan yaradıcı əməkdir. Buna görə də hər bir müəllim öz işini sevməli, ona sonsuz ilhamla yanaşmalı, tədqiqatçılıq qabiliyyətinə yiyələnməli, ən çətin situasiyalardan belə çıxa bilmək bacarıqlarına, öz hərəkət, davranışına nəzarət edə bilmək qabiliyyətinə malik olmalıdır.

Pedaqoji ustalıq pedaqoji biliyi, vasitə və metodları özündə birləşdirməklə bütov bir sistem yaradır. Bura uşaqlar, onların psixoloji xüsusiyyətləri, təlim-tərbiyə prosesinin məzmunu, təşkil formaları, metodları və texnologiyaları haqqında geniş, hərtərəfli bilik və onların həyata keçirilməsi bacarıqları daxildir.

Beləliklə, **müəllimin pedaqoji ustalığı** - savadlılığın müəyyən səviyyəsi ilə pedaqoji peşə fəaliyyətinin həyata keçirilməsi təcrübəsinin qarşılıqlı təsiri nəticəsində yaranır və inkişaf edir. Başqa sözlə, pedaqoji ustalıq dedikdə müəllimlərin pedaqoji fəaliyyəti **yüksək səviyyədə, peşəkarlıqla** həyata keçirə bilmə qabiliyyəti başa düşülür.

"**Müəllimə**" adlı belə bir hekayəni nəzərdən keçirək:

Xədicə müəllimə V sinif şagirdlərinin qarşısında olduğu ilk gün onlara bir yalan söyləmişdi. O da bir çox digər müəllimlər kimi onlara baxmış və hamısını eyni dərəcədə sevdiyini

söyləmişdi. Bu ola bilməzdi, çünki orada ilk sırada partasına qısılmış kiçik bir şagird var idi - Murad Can.

Daha əvvəlki il, Xədicə müəllimə Murad Canı müşahidə etmiş, onun digər uşaqlarla oynamadığını, paltarlarının kirli və özünün də həmişə çimməyə ehtiyacı olduğunu görmüşdü. Murad həmişə kədərli olurdu.

İşlədiyi məktəbdə Xədicə müəllimə hər uşağın keçmiş fəaliyyətini araşdırması da tapşırılmışdı və o, Murad haqqında məlumatları ən sona saxlamışdı.

Müəllimə onun şəxsi işini oxuyarkən təəccübləndi. Çünki birinci sinif müəlliməsi:

"Murad savadlı uşaqdır və hər an gülməyə hazırdır. Tapşırıqlarını müntəzəm olaraq hazırlayır və çox yaxşı xasiyyətə malikdir... Və dostları onunla birlikdə olmaqdan məmnundurlar..." - deyərək bəhs etmişdi.

İkinci sinif müəlliməsi:

"Mükəmməl bir şagirddir, dostları tərəfindən sevilən, ancaq evdə anasının amansız xəstəliyi onu kədərləndirir və düşünürəm ki, evdəki yaşayışı çox çətindir..." - deyirdi.

Üçüncü sinif müəlliməsi:

"Anasının vəfatı onun üçün çox ağır oldu. Atası ona kifayət qədər diqqət göstərmir və əgər bir tədbir görülməzsə, evdəki ağır həyat şəraiti ona təsir edəcək”- deyə yazmışdı.

Dördüncü sinif müəlliməsinə gəlincə:

"Murad özünə qapalıdır və məktəbə heç maraq göstərmir, heç dostu da yoxdur və bəzən də sinifdə yatır" - demişdi. İndi Xədicə müəllimə məsələni aydınlaşdırmışdı və özündən utanırdı. Şagirdlər ona gözəl kağızlara bükülmüş, lentlərlə bəzədilmiş yeni il hədiyyələri gətirdikləri vaxt özünü daha da pis hiss etdi. Çünki Muradın hədiyyəsi kobud qəhvə rəngli bir kisə kağızına səliqəsiz şəkildə bükülmüşdü. Bunu digər şagirdlərin qarşısında açmaq onu çox məyus etdi. Şagirdlərin bəziləri bağlamadan çıxan üzəri saxta daşlarla bəzədilmiş və bir neçə qaşı düşmüş bilərziyi və üçdə biri dolu olan ətir şüşəsini görəndə gülməyə başladılar. Ancaq müəllimə nə qədər zərif bir bilərzik olduğunu söyləyərək və ətirdən də bir neçə damla biləyinə damladaraq onların gülməyinin qarşısını aldı. O gün dərsdən sonra Murad müəllimənin yanına gələrək: "Xədicə müəllimə, bu gün sizdən anamın ətri gəldi"-dedi. Uşaqlar getdikdən sonra müəllimə bir saata qədər ağladı. O gündən sonra da uşaqlara oxuma, yazma, riyaziyyat öyrətməyi dayandıraraq onları tərbiyə etməyə başladı. Murada da xüsusi bir diqqət göstərdi. Onunla məşğul olarkən zəkasının təkrar canlandığı gördü.

Onu ruhlandırdıqca uşaq inkişaf edirdi. İlin sonuna qədər Murad sinfin ən çalışqan şagirdlərindən biri olmuşdu. Müəllimin "Hamınızı eyni dərəcədə sevirəm" - yalanının əvəzində, Murad onun ən çox sevdiyi şagird olmuşdu.

Bir il sonra qapısının önündə bir məktub tapdı. Muraddan idi.

Bütün həyatı boyu rast gəldiyi ən yaxşı müəllimənin o olduğunu yazırdı. Ondan yeni bir məktub alana qədər altı il keçdi. Məktubda liseyi bitirdiyini və sinifdəki ən yaxşı üç şagirddən biri olduğunu, Xədicə müəllimənin onun həyatında ən yaxşı müəllimə olduğunu yazırdı.

Dörd il sonra Muraddan daha bir məktub aldı. O, həmin müddətdə zamanın onun üçün çətin olduğunu, çünki universitetdə oxuduğunu və çox yaxşı nəticə ilə məzun olması üçün çox çalışmaq lazım gəldiyini yazırdı. Və Xədicə müəllimə hələ də onun həyatında tanıdığı ən yaxşı müəllimə idi.

Sonra daha dörd il keçdi və yeni bir məktub gəldi.

Çox yaxşı nəticə ilə universitetdən məzun olduğunu, amma daha irəlilərə getmək istədiyini yazırdı. Və hələ də Xədicə müəllimə onun tanıdığı və həyatında ən çox sevdiyi müəlliməsi idi. Bu dəfə məktubun altındakı imza bir az daha uzun idi. Tibb doktoru Murad Can.

Bu hekayə burada bitmədi. Yazda Xədicə müəlliməyə daha bir məktub gəldi. Murad həyatında çox sevdiyi bir qızla tanış olduğunu və onunla evlənəcəyini yazmışdı. Atasının bir neçə il öncə öldüyünü, Xədicə müəllimənin onun toyunda bəyin ana və atası üçün ayrılan yerdə oturub-otura bilməyəcəyini soruşurdu. Təbii ki, otura bilərdi.

Təxmin edin, nə oldu?

Xədicə müəllimə şənliyə gedərkən diqqətlə qoruyub saxladığı bir neçə qaşı düşmüş olan o bilərziyi taxdı, Muradın ona verdiyi və anası kimi ətir saçdığını söylədiyi ətirdən vurmağı da unutmadı. Bir-birlərini sevgiylə qucaqlayarkən Murad onun qulağına: "Mənə inandığınız üçün Sizə çox təşəkkür edirəm, Xədicə müəllimə. Özümə dəyər verməyimə səbəb olduğunuz və məni belə dəyişdirdiyiniz üçün də...", - deyə pıçıldadı.

Gözləri yaşaran Xədicə müəllimə ona cavab verdi: "Yanılırsan, Murad Can. Mən deyil, sən mənə öyrətdin. Səninlə qarşılaşıncaya qədər mən müəllimliyi bilmirmişəm...!"

Hər kəsin həyatına məna verən və coşqu qaynağı olacaq bir "mələk" olduğunuzu heç unutmayın... Nə xoşbəxtdir "müəllim" olan müəllimlər...!!

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYATLAR


1. Əliyev H. Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002.

2. İlyasov M. Müəllimin pedaqoji ustalığı. Dərs vəsaiti. Bakı:  Elm və təhsil, 2013.215s.

3.Həsənov A.Məktəbəqədər pedaqogika. Dərs vəsaiti. Bakı:“Nasir nəşriyyatı”.2000.367s.


## ELEKTRON RESURSLAR


• https://anl.az/el/Kitab/2018/07/cd/2018-1050.pdf

• http://web2.anl.az:81/read/page.php?bibid=vtls000338011


**Mühazirə 3: Müəllimin pedaqoji peşəkarlığı**

**PLAN:**

**1.Tərbiyəçi-müəllim peşəsinin professioqramı,**

**2.Cəmiyyətdə müəllimlik peşəsinin əhəmiyyəti və yeri,**

**3.Bu peşənin şəxsiyyətə təsiri haqqında məlumatlar**

## Müəllim peşəsinin professioqramı

"Əgər məndən soruşsalar ki, ən şərəfli peşə hansıdır, mən o zaman iftixarla deyərdim:-Müəllimlik!"

H.Zərdabi

Peşələr aləmi geniş və rəngarəngdir. Bunlar həyatın tələbi ilə yaranmış, meydana çıxmış peşələrdir. Onların içərisində müəyyən vaxt ərzində mövcud olmuş, lakin öz həyatını yaşayaraq köhnəlmiş, tarixin arxivinə verilmiş peşələr də çox olmuşdur. Elə peşələr də olmuşdur ki, onlar cəmiyyətin inkişafı ilə əlaqədar yeniləşmiş, modernləşmiş, yeni məna və əhəmiyyət kəsb etmişdir. Lakin elə peşələr, sənətlər vardır ki, onlar lap qədimlərdə yaranmış, inkişaf etmiş, formalaşmış, bütün dövrlər üçün zəruri mahiyyət kəsb etmiş, nüfuzlu, hörmətli və şərəfli bir peşə kimi bu gün də öz şərəfini, hörmətini saxlamışdır. Belə peşələrdən biri, bəlkə də, birincisi müəllim peşəsidir.

Digər peşələr və ixtisaslar kimi müəllim peşəsinin də özünəməxsus xüsusiyyətləri çoxdur. Əvvəla, ona görə ki bu peşə "insan insan" peşələr qrupuna daxil olub, insanların bir-birinə təsir etməsidir. Onun əsas mahiyyəti böyüyən nəsli gələcəyə, həyata hazırlamaqla müşayiət olunur. İkincisi isə, bu peşə onu seçəndən bütün ömrü boyu öyrənmək, yeniləşmək, dövrün tələbləri ilə ayaqlaşmaq tələb edir. Buna görə də onu sevən, seçmək istəyən hər bir gənc onun xüsusiyyətlərini bilməli və bu peşə haqqında dərin məlumata malik olmalıdırlar. Belə məlumat mənbələrindən biri müəllim peşəsinin professioqramıdır.

**Professioqram** - İnsana təqdim olunmuş hər hansı peşənin spesifik xüsusiyyətlərini və bu sahədə peşəkar fəaliyyətə dair tələbləri əks etdirən əlamətlər sistemidir. Müəllim peşəsinin professioqramı bu baxımdan şagirdlər üçün əsas məlumat mənbəyi kimi dəyərlidir.

Bir nümunəni nəzərdən keçirək.

**Cəmiyyətdə müəllimlik peşəsinin əhəmiyyəti və yeri.** Müəllim gələcək cəmiyyətin memarı və qurucusudur. Müəllim gənc nəslin tərbiyə olunması, onların gələcək həyata hazırlanması kimi nəcib və şərəfli bir işi yerinə yetirir. Müəllim bu gün yaşayır, işləyir, bu işi ilə gələcəyi qurur. Yaxşı deyilmişdir: "Bağ bağbansız keçinə bilmədiyi kimi, bəşəriyyət də müəllimsiz keçinə bilməz" (S.M.Qənizadə). Cəmiyyət öz gələcəyini məhz onlara etibar etdiyindən müəllim peşəsi cəmiyyətdə ən şərəfli və ali məqsədlərə xidmət edən peşələrdən biri sayılır.

Vətənimizin insanlıq tarixinin gələcək səhifələrinin yazılmasında müəllimin öz yeri və öz rolu vardır. Çünki gələcək cəmiyyətin necəliyi müəllimdən çox asılıdır. Bu baxımdan müəllim peşəsi ən məsuliyyətli peşələrdən biridir. Məhz buna görə də dövlətimiz hər vasitə ilə

müəllimlərin sosial və mədəni həyatını diqqət mərkəzində saxlayır və bu sahəyə qayğını artırır.

**Əmək növü:** Müəllim peşəsi "insan insan" peşələr qru- puna daxildir. Bu qrupun əsas əlaməti nitqdən ünsiyyət kimi istifadə edilməsidir. Burada "əmək aləti" rolunu müəllimin nitqi oynayır. Bu qrupda fəaliyyət insanların ünsiyyəti əsasında qurulur.

**Əməyin obyekti və məhsulu**: Müəllim əməyinin obyekti böyüməkdə, inkişaf etməkdə olan insanlar şagirdlərdir. Müəllim onlarla təlim-tərbiyə işləri apararaq onları elmlərin əsasları ilə silahlandırır, onlarda dünyagörüşü və şəxsiyyət üçün zəruri bir sıra mənəvi keyfiyyətləri formalaşdırır. Müəllim əməyinin məhsulu onun necə vətandaşlar yetişdirib tərbiyələndirməsidir.

**İşi yerinə yetirmək üçün lazım olan bilik və bacarıqlar:**

✔öz ixtisasını dərindən bilmək və onun tədrisi;

✔ biliyinə inam və bu inamı şagirdlərə çatdırmaq;

✔pedaqoji talant və təxəyyül;

✔ dövlətin təhsil siyasəti və müəllimlərin qarşısında duran məsuliyyətin ağırlığı;

✔ uşaqların yaş və fərdi xüsusiyyətləri, yaş və pedaqoji psixologiyanın əsaslarını bilmək;

✔müasir pedaqoji texnologiyalara, təhsil, təlim və tərbiyə nəzəriyyələrinin xarakterinə və əsaslarına yiyələnmək.

**Əmək şəraiti və iş yeri:** Gigiyenik tələblərə və normal həyat şəraitinə uyğun, estetik cəhətdən müəyyən tərtibata malik, xüsusi avadanlıqlar və vəsaitlərlə təmin olunmuş iş yeri məktəb və digər təhsil ocaqları.

**Əmək rejimi və istirahət**: Ayda 48 saat (həftədə 12 saat) dərs yükü. Hər həftə 2 gün (altıncı və bazar günləri) istirahət. Hər bir saatdan (45 dəqiqədən) sonra tənəffüs və ildə 48 iş günü haqqı ödənilməklə məzuniyyət.

**Tibbi əksgöstərici:** Nöqsanlı nitq, əsəb zəifliyi, təmkin və səbrliliyi bacarmamaq.

**Şəxsiyyətə olan iradi, iş və digər keyfiyyət tələbləri:**

➢ peşəsinə maraq, uşaqları sevmək və onlarla işləməyə həvəs;

➢ yüksək müşahidəçilik qabiliyyəti və pedaqoji sayıqlıq;

➢ ünsiyyət mədəniyyətinə malik olmaq, ünsiyyətə girməyi bacarmaq;

➢ tələbkarlıq keyfiyyətlərinə malik olmaq;

➢işgüzarlıq, əməksevərlik, yeniliyə can atma;

➢ciddilik və incə yumor hissinə malik olmaq;

➢pedaqoji incəsənətə yiyələnmək;

➢ öyrətməyə həvəs;

➢yüksək ziyalılıq, əxlaqi və intellektual keyfiyyətlərin ahəngdarlığı;

➢emosional və ifadəli nitqə, səsə, mimikaya, jesta, pedaqoji texnika və takta malik olmaq;

➢cəmiyyətin müəyyənləşdirdiyi əxlaqi-etik qaydalara yiyələnmək;

➢səmimilik, saflıq, düzgünlük;

➢sözü ilə hərəkətləri arasında ahəngdarlıq;

➢geniş elmi, siyasi dünyagörüş və erudisiya; kollektivçilik və kollektivlə əməkdaşlıq;

➢təşkilatçılıq bacarığı;

➢özünənəzarət və özünü ələ alma bacarığı, emosional vəziyyətini idarə edə bilməsi, səbrlilik;

➢təmkinlilik və möhkəmlik;

➢ünsiyyətdə olduğu şəxsə və ya qrupa qarşı diqqətlilik;

➢psixoloji mədəniyyətə malik olmaq.

**Peşənin şəxsiyyətə təsiri:** Müəllim peşəsi incəsənətdir. Bu peşə onu seçənlərdən bir sıra keyfiyyətlərin olmasını tələb etməklə yanaşı, bu peşə sahibinin ümumi mədəniyyətinin formalaşmasına da ciddi təsir göstərir. Müəllim öz şəxsiyyətinin nümunəvi təsirə malik olduğunu dərk etdikdə onun öz şəxsiyyətinə qarşı tələbkarlığı da artır. Özününəzarət, özünün hərəkət və davranışına tənzimləyici münasibət onu nəcibləşdirir, yüksək mədəniyyət və ziyalılıq keyfiyyətlərinə yiyələnməyə səbəb olur.

Müəllimin öz fənnini, ixtisasını dərindən bilməsi, yüksək elmi dünyagörüşə malik olması tələbi onun əqli qabiliyyətlərinin inkişafına, dərin və geniş elmi biliklərə malik olmasına imkan yaradır.

Müəllim peşəsinə yiyələnmə həmçinin möhkəm xarakterin, əqidə və ideyalılığın da formalaşmasına mühüm təsir göstərir.

**Müəllimlik peşəsinə yiyələnməyin yolları:** Cəmiyyət ən qiymətli kapitalı olan uşaqları müəllimə etibar etdiyindən bu peşəyə yiyələnmək istəyənlər yüksək elmi biliyə və bir sıra keyfiyyətlərə malik olmalıdırlar. Respublikamızda müəllimlik peşəsinə yiyələnmək üçün kifayət dərəcədə geniş yollar-təhsil müəssisələri mövcuddur. Bunlar həm ali təhsil ocaqları-universitet və institutlar, həm də orta ixtisas məktəbləri-kolleclər formasında fəaliyyət göstərir. Ali pedaqoji təhsil verən universitetlərdə təhsil iki pillədə-bakalavr (təhsil müddəti əyani - 4 il, qiyabi - 5 il) və magistr (əyani - 2 il, qiyabi-2 il 6 ay) pillələrində aparılır. Ali məktəblərə qəbul tam orta təhsil əsasında, test üsulu ilə müvafiq ali məktəblər üzrə müəyyən olunmuş fənlərdən qəbul imtahanları verməklə aparılır. Orta ixtisas məktəblərinə (kolleclərə) qəbul isə ümumi orta və tam orta təhsil bazaları əsasında aparılır. Təhsil müddəti müvafiq olaraq 4 və 2 ildir. Respublikamızda iki təhsil forması əyani və qiyabi formalar mövcuddur. Yeganə meyar bilikdir.

**Peşə üzrə yüksəlmək perspektivi:** Müəllim peşəsi üzrə yüksəlmək imkanları çox genişdir. Bu, iki istiqamətdə mümkündür: 1) elmi yaradıcılıq yolu ilə (doktoranturaya daxil olmaq, dissertasiya müdafiə etmək və elmi adlara, dərəcələrə yiyələnmək); 2) məktəbdə, təhsil şöbələrində və nazirlikdə müvafiq vəzifələrə irəli çəkilmə yolu ilə. Hər ikisi müəllimdən gərgin əmək, zəhmətsevərlik, işgüzarlıq və qabiliyyətlər tələb edir.

**Yaxın olduğu peşələr:** Müəllim peşəsinin "insan - insan" peşələr qrupuna daxil olan bir sıra peşələrlə həkimliklə, rejisorluqla, aktyorluqla, mədəni-maarif peşələri ilə müəyyən sahələrdə yaxınlığı vardır.

**Əmək haqqının səviyyəsi:** Təhsil sistemi büdcədən maliyyələşən iqtisadiyyat sahəsinə aiddir. Dövlətimiz müəllimlərin əmək haqqının artırılmasına daim qayğı ilə yanaşır. Son on ildə müəllimlərin əmək haqqının on dəfələrlə artırılması, kənd məktəbləri müəllimlərinə verilən imtiyazlar buna bariz nümunədir. Respublikamızda müəllimlər minimum əmək haqqından 1,5-2 dəfə çox əmək haqqı alırlar. Ali pedaqoji təhsilli gənc müəllimin 1 stavka dərs yükü hazırda 123 manatdır. Lakin bu son hədd deyildir. Müxtəlif vaxtlarda dövlət tərəfindən müəllimlərin maaşı artırılmaqla yanaşı, müəllimlərin stajları artdıqca maaşları da yüksəlir.

Müəllimlik peşəsi bir şəxsin başqasına (və ya adamlar qrupuna) təlim-tərbiyə məqsədi ilə pedaqoji təsir bacarığı ilə əlaqələndiyindən şəxsiyyət qarşısında pedaqoji fəaliyyətə maraq, uşaqlara məhəbbət, uşaq kollektivini təşkil etmək bacarığı, kiçik uşaqlarla işləmək arzusu, onlara rəhbərlik, aydın, inandırıcı nitq, tələbkarlıq, obyektivlik, doğruçuluq, ədalətlilik kimi xüsusi tələblər qoyur. Bu tələblərə müvafiq gələ bilməyən şəxsdən müəllim ola biləcəyinə zəmanət vermək çətindir.

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYATLAR


1. Əliyev H. Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002.

2. İlyasov M. Müəllimin pedaqoji ustalığı. Dərs vəsaiti. Bakı: Elm və təhsil, 2013.215s.

3.Həsənov A.Məktəbəqədər pedaqogika. Dərs vəsaiti. Bakı:"Nasir nəşriyyatı".2000.367s.

4. Kazımov N. Pedaqoji ustalığın problemləri. Bakı: Çaşıoğlu, 2009.

5. İlyasov M. Müəllimin peşəkarlığı və pedaqoji səriştəlilik. Azərbaycan Respublikası Təhsil Prob- lemləri İnstitutu. "Elmi əsərlər", Bakı, 2015, №1, səh.10-12.

6. ƏliyevV.Müəllim hazırlığı prosesində peşə keyfiyyətlərinin formalaşdırılması yolları. Bakı: 2010.


## ELEKTRON RESURSLAR


• https://anl.az/el/Kitab/2018/07/cd/2018-1050.pdf

• http://web2.anl.az:81/read/page.php?bibid=vtls000338011

**Mühazirə 4: Müəllimin peşə mədəniyyəti və onun formalaşması yolları**

**PLAN:**

**1. Müəllimin pedaqoji peşə mədəniyyətinin mahiyyəti və məzmunu;**

**2. Pedaqoji peşə mədəniyyəti anlayışı;**

**3. Tərbiyəçi-müəllim şəxsiyyəti və onun vəzifələri;**

**4. Pedaqoji peşə mədəniyyətinin əsas göstəriciləri və peşə mədəniyyətinin formalaşması yollarına yiyələnirlər.**

"Müəllim məktəbin canı və camaatın çırağıdır. O, öz peşəsini sevməli, şagirdlərini övladı kimi istəməli, xeyir verən biliklər aşılamaqla əhalinin rəğbət və məhəbbətini qazanmalıdır".

F. Köçərli

Cəmiyyətimizin müasir inkişaf mərhələsində müəllimin üzərinə mühüm vəzifələr və məsuliyyət düşür. Bu gün parta arxasında əyləşən hər bir məktəbli bir neçə ildən sonra müstəqil həyata atılacaq və cəmiyyətin ümumxalq həyatında fəaliyyət göstərəcəkdir. Buna görə də müəllimin başlıca vəzifələrindən biri məhz gənc nəsli gələcək həyata hazırlamaqdır. Bu işi isə yüksək pedaqoji ustalığa, hərtərəfli hazırlığa və dərin peşə keyfiyyətlərinə malik olan əsl müəllimlər müvəffəqiyyətlə həyata keçirə bilərlər. Görkəmli Azərbaycan maarifçisi və ictimai xadimi S.M.Qənizadə yazırdı: "Müəllimlik dünyanın ən nəcib peşələrindən biri, bəlkə də, birincisidir. Bağ bağbansız keçinə bilmədiyi kimi bəşəriyyət də müəllimsiz keçinə bilməz. Hünərli usta dəmirdən səbr ilə misri qılınc yona bildiyi kimi yaxşı müəllim də kəctab millətdən xoşbəxt cəmiyyət hazırlayır".

Pedaqoji ustalıq geniş məfhumdur. Müəllimin peşə fəaliyyətində bütün uğurlar onun məhz pedaqoji ustalığının olmasında, uğursuzluqları isə bu ustalığın çatışmamasındandır. Buna görə də müəllimin həm bir şəxsiyyət kimi, həm də peşəkar kimi bütün müsbət keyfiyyətlərini onun pedaqoji ustalığı ilə əlaqələndirsək səhv etmərik.

Müəllimin pedaqoji ustalığı dərin məzmunlu və geniş sahəli elə bir problemdir ki, ona yiyələnmək, öz işinin əsl ustası olmaq hər bir müəllim üçün uğurdur, şan-şöhrətdir. Pedaqoji ustalıq-müəllimlik fəaliyyətində səriştəlilik, bacarıqlılıq, mahirlik deməkdir. O, müəllimin dərin nəzəri biliyi ilə praktik fəaliyyətinin üzvi vəhdətinin birləşməsindən yaranan elə bir sənətkarlıqdır ki, burada artıq onun bütün xüsusiyyətləri-bacarıq və qabiliyyətləri, şəxsi

keyfiyyətləri özünü göstərir. Buna görə də "Pedaqoji ustalığı peşə fəaliyyətinin özünütəşkilini yüksək səviyyədə təmin edən şəxsiyyətin kompleks xüsusiyyətləri kimi başa düşmək lazımdır".

Bəs bu xüsusiyyətlər hansılardır? Müəllim şəxsiyyətində hansı xüsusiyyətlər vardır (olmalıdır) ki, bunlar onu usta müəllim səviyyəsinə, pedaqoji ustalığa malik olan bir novator müəllim yüksəkliyinə qaldıra bilsin?

Aparılmış bir sıra pedaqoji, psixoloji tədqiqatlarda müəllimlərin pedaqoji ustalığını şərtləndirən bir sıra xüsusiyyətlər vardır. Müəllimin peşə fəaliyyətində bunların da hər birinin öz rolu və funksiyası vardır. Bu xüsusiyyətlərin təsnifatında ziddiyyətli fikirlər olmasa da bəzi müəlliflərin (məsələn: V.A.S- lastenin, V.A.Kan-Kalik, A.İ.Şerbakov, N.Kazımov, Ə.Ə.Əlizadə, M.Həmzəyev, İ.Musayev və b.) söylədikləri fikirlər arasında bir sıra fərqli cəhətlər vardır.

Görkəmli rus pedaqoqu F.İ. Yankoviçin 1776-cı ildə Vena- da çap etdirdiyi “Əl kitabı", həmçinin onun öz həmkarları ilə birlikdə 1783-cü ildə yazdıqları "Xalq məktəbinin birinci və ikinci dərəcəli müəlliminə rəhbərlik” əsəri müəllimin peşə keyfiyyətlərini xarakterizə etmək baxımından faydalıdır. "Rəhbərlik" dörd hissədən ibarətdir. Onlardan biri belə adlanır: "Müəllimin adı, keyfiyyətləri və əxlaqı haqqında".

Bu hissənin bəzi yerlərinin bu günümüzlə səsləşdiyini və dəyərini saxladığını nəzərə alaraq onu aşağıda veririk:

**I. Müəllimin vəzifələri haqqında**

1) Müəllim özünün vəziyyətinə görə şagirdlərin yanında onların valideynlərini əvəz etməlidir.

3) Müəllim adı onları həmçinin məcbur edir ki, öz şagirdlərinin cəmiyyətin faydalı üzvləri kimi böyütmələrinə səy göstərsinlər; bunun üçün də onlar gəncliyin ictimai vəzifələri izləmələrini rəğbətləndirməli, şagirdlərin idrakını inkişaf etdirməli, onlara düşündükləri kimi də ağıllı, təmiz, xeyirxah olmağı öyrətməlidirlər. Və yazılmış elmləri gəncliyə elə mənimsətməlidirlər ki, onlar ümumi həyatda gərəkli olsunlar.

**II. Müəllimin keyfiyyətləri haqqında**

Müəllimin xeyirxah keyfiyyətinin mahiyyəti:

**1. Xeyirxahlıq**

5) Öz evində o sülhsevər, vicdanlı, saf olmalı, hamıya mehribanlıq, xeyirxahlıq münasibəti göstərməli, onların xidmətində dayanmalıdır.

6) Xüsusilə o, başqalarına şər atmaqdan, yalan danışmaqdan, and içməkdən... böhtan atmaqdan və ədəbsiz sözlər işlətməkdən, əxlaqsız qadınlarla ünsiyyətdən uzaq olmalıdır.

**2. Müəllimin sevgisi**

1) O, bütün şagirdlərə ata münasibəti, ata məhəbbəti ilə, başqa sözlə, nəvazişlə, böyük sevgi ilə yanaşmalıdır.

2) O, şagirdlərlə rəftarında səmimi, mehriban və təvazökar olmalı və onların məktəbə gəldikləri vaxtda, yaxud müəllimin təkliflərini, məsləhətlərini dərhal anlamadıqları zaman peşmançılıq çəkmələrinə, pərt olmalarına yol verməməlidir.

3) Müəllim şagirdlərin xoşladıqları şeyə diqqət yetirməyə imkan verməlidir. Bu zaman onlar məktəbə tez-tez, həvəslə, səylə gəlir və müəllim də onları sevir.

4) Sevgi adi uşaq sevgisi deyil, daimi və əhəmiyyətli vasitələri özündə birləşdirən sevgi olmalıdır. O, uşaqların valideynlərinin var-dövlətinə, firavan həyatına əsaslanmamalı, uşaqların əxlaqı, tərbiyəsi, səyi, çalışqanlığı üzərində qurulmalıdır.

**3. Cəsarət**

Müəllim süst, tutqun, qaş-qabaqlı, yaxud yalnız uşaqları tərifləmək üçün gərəkli, soyuqqanlı olmamalıdır. O, özlərini yaxşı aparan, nəvazişli, inandırıcı sözləri ilə başqalarını ruhlandıran uşqaları tərifləməlidir.

**4. Səbr**

1) Müəllimin dərs dediyi şagirdlər içərisində tənbəl, fərsiz, çevik və inadkar uşaqlar olduqda və valideynlər bunların hamısını onun fəaliyyəti ilə əlaqələndirdikdə müəllim səbrli olmalı, təmkinini pozmamalıdır.

2) Müəllim təsəvvür etməlidir ki, o, çox zəhmətli, əzablı işlər üçün yaranmışdır.

**5. Say**

1) O adam səy göstərir ki, o, nə üçün, nəyə işlədiyini yaxşı bilir, heç nədən, heç bir çətinlikdən çəkinmədən məqsədinə çatmağa ciddi cəhd edir. Müəllimdə səy son dərəcə güclü olmalıdır ki, o, şəxsi timsalında bu keyfiyyəti şagirdlərində də aşılaya bilsin.

2) Əgər müəllim ən adi, kiçik səbəb üzündən məktəbin mənafeyini güdmürsə, yaxud tez-tez gecikirsə və ya lazım olmayan vaxtda öyrətməyə başlayırsa, yaxud dərs keçmək əvəzinə özünün ev işləri ilə məşğul olursa, şagirdlər də onun kimi işə can yandırmayan, başısoyuq olur, məktəbə gec gəlir, oxumağa səy göstərmir, yaxud da məktəbdən tamam uzaqlaşırlar.

3) Müəllim özünün başısoyuqluğu ilə valideynlərin etimadını, uşaqların məhəbbətini və özünün qazancını itirir...

Görkəmli pedaqoq F.İ. Yankoviçin qeyd etdiyi bu keyfiyyətlərdən bu gün də faydalanmalı cəhətlər çoxdur.

Bəzi müəlliflər peşə keyfiyyətləri dedikdə, müəllimin malik olduğu bütün xüsusiyyətləri-şəxsi keyfiyyətlərini, peşə bacarıq və qabiliyyətlərini, peşə etikasını, pedaqoji ünsiyyətini, pedaqoji texnikanı və s. hamısını bura daxil edirlər. Bəzi müəlliflər isə müəllimin peşə keyfiyyətlərinə yalnız şəxsi psixoloji keyfiyyətlər zəminində olan keyfiyyətləri daxil etməklə, onların şəxsiyyəti xarakterizə edən keyfiyyətlər olduğunu göstərirlər.

Bu sahədə bir sıra maraqlı və sanballı tədqiqatlar aparmış V.A.Slastenin isə müəllimlər üçün aşağıdakı bir sıra peşə keyfiyyətlərinin vacibliyini göstərir:

1) uşağa maraq və sevgi pedaqoji fəaliyyətdə əks olunan tələbat kimi;

2) ədalətlilik;

3) pedaqoji sayıqlıq və müşahidəçilik;

4) pedaqoji talant;

5) pedaqoji təxəyyül;

6) ünsiyyətlilik;

7) tələbkarlıq, inadkarlıq, aydın məqsədi olma;

8) təşkilatçılıq bacarığı;

9) təmkinlilik və möhkəmlik;

10) peşəkarlıq bacarığı.

M.Ə.Həmzəyev problemə bir qədər geniş aspektdən yanaşaraq pedaqoji fəaliyyət zamanı müəllimin malik olduğu keyfiyyətləri onun şəxsiyyətinə daxil edir və bu keyfiyyətlərin aşağıdakılardan ibarət olduğunu göstərir:

1) öz fənninə dərindən yiyələnmək;

2) idrak nəzəriyyəsini və pedaqoji elmi mükəmməl əvəz etmək;

3) ayrı-ayrı anlayışlar arasındakı əlaqə və münasibətləri açmağı bacarmaq;

4) şagirdləri fəallaşdırmaq məqsədilə müxtəlif kommunikativ vasitələrdən istifadə edə bilmək.

Müəllif bunlarla bərabər, digər bir sıra keyfiyyətlərin- dözümlülük, təvazökarlıq və özünə qarşı tələbkarlıq, uşaqlara məhəbbət, seçdiyi ixtisasa maraq, pedaqoji bacarıq və vərdişlərə malik olmaq, pedaqoji qabiliyyətlər və s. olmasını da zəruri hesab edir.

İbn Akninə görə, müəllim aşağıdakı yeddi keyfiyyətə malik olmalıdır:

1. Dərs dediyi fənni mükəmməl bilməlidir.

2. Hərəkətləri biliyinə uyğun gəlməlidir.

3. Təhsil üçün nəmərdən imtina etməlidir.

4. Şagirdlərlə öz övladları kimi rəftar etməlidir.

5. Biliyinə və ona uyğun olaraq, hərəkətinə dərin inamı olmalı, eyni zamanda bu inamı şagirdlərinə aşılamalı və bununla da onlara xoşbəxtliyin yolunu göstərməli.

6. Şagirdlərinə qarşı xeyirxah və səbrli olmalı.

7. Tədris planını şagirdlərin əqli qabiliyyətinə uyğun ola- raq, ardıcıllıqla tətbiq etməlidir.

Bunların hər biri müasir müəllim üçün zəruri keyfiyyətlər olsa da, müəllif onları, yəni müəllimin əxlaqi, mənəvi keyfiyyətlərini də, didaktik bacarıq və qabiliyyətlərini də, ümumi mədəniyyət göstəricilərini də ümumiləşdirərək peşə keyfiyyətləri kimi təqdim edir. Belə olduqda konkret olaraq belə bir suala cavab axtarmalı oluruq ki, müəllimin peşə keyfiyyətləri hansılardır?

Pedaqoji elmlər üzrə fəlsəfə doktoru, dosent Vəli Əliyev müəllimlərin peşə keyfiyyətlərini aşağıdakı qruplar üzrə təsnif edir:

1. **Müəllimin ümumi peşə keyfiyyətləri**: Yüksək mənəvi və əxlaqi keyfiyyətlər (məsələn: düzlük, doğruçuluq, səmimilik, saflıq, uşaqlara hörmət və məhəbbət, mehribanlıq), ümumi mədəniyyət, özünənəzarət, özünü ələ alma bacarığı, tələbkarlıq, pedaqoji incəsənət, məsuliyyətlilik, peşəsinə məhəbbət və s.

2. **Müəllimin xüsusi peşə keyfiyyətləri:** aydın və emosional nitq mədəniyyəti, ünsiyyət mədəniyyəti, peşəsinə maraq, aktyor talantına malik olmaq, pedaqoji texnika, psixoloji əql, təşkilatçılıq bacarığı və s.

3. **Müəllimin spesifik peşə keyfiyyətləri**: tədris etdiyi fənn üzrə həmin fənnə aid spesifik xüsusiyyətlər (məsələn: ibtidai sinif müəllimi üçün aydın, səlist, intonasiyalı və emosional oxu və danışıq mədəniyyəti, şifahi hesablama vərdişi və s.; dil- ədəbiyyat müəllimi üçün şifahi və yazılı nitq mədəniyyəti, bədii əsərləri təhlil edə bilmə bacarığı, sinif qarşısında intonasiyalı, aydın, obrazlı, ifadəli oxu və danışıq qabiliyyəti, fikirlərini obrazlı ifadə edə bilməsi və s.).

Müəllimin pedaqoji ustalığında xüsusi yeri və rolu olan bu keyfiyyətlər hər bir müəllim üçün zəruri və vacib keyfiyyətlərdir.

## Müəllimin pedaqoji etikası

"Bizə kim dərs deyirsə ona müəllim deyirik, fəqət hər dərs deyən adam müəllimlik ləyaqətini doğrulda bilmir".

V.A.Höte

Pedaqoji prosesdə müəllimin müvəffəqiyyətinin başlıca amillərindən biri də onun şagirdlərlə düzgün və müsbət emosional zəmin üzərində qurulmuş səmimi qarşılıqlı münasibətdə olmasıdır. Bu da birbaşa müəllimin pedaqoji etikası ilə bağlıdır.

Müəllimin pedaqoji etikası müəllim-şagird münasibətinin və pedaqoji əməkdaşlığın yaradılmasında çox mühüm vasitələrdən biridir. Pedaqoji etika ünsiyyətin müsbət emosiyalar üzərində qurulmasında və şagirdlərlə psixoloji əlaqələr yaradılmasında mühüm rol oynayır. Pedaqoji etikanın incəliklərinə yiyələnən müəllim həm də ünsiyyətin demokratik tərzinə yiyələnmiş olur. Pedaqoji etikaya aid biliklər şagirdlərlə ünsiyyətdə münaqişədən qaçmaqda və ikitərəfli qarşılıqlı münasibətlərin formalaşmasında müəllimə yaxından kömək edir.

Müəllimin şəxsiyyəti, eyni zamanda onun pedaqoji nəzakəti, hərəkət və davranışında qəbul olunmuş ölçünü, ədəb qaydalarını gözləməsi təlim-tərbiyə işində həmişə mühüm amil olmuş və olaraq da qalır. Bu baxımdan müəllimin pedaqoji etikası onun pedaqoji əməyinin səviyyəsi və nəticəsinin yüksək olmasında mühüm amillərdən birinə çevrilir.

Bəs pedaqoji etika nədir, onu necə başa düşmək lazımdır?

**Pedaqoji etika** (ədəb, mərifət, ölçü) müəllimin təlim-tərbiyə prosesində yaranmış müəyyən vəziyyətə (hadisəyə) görə qısa vaxtda ən düzgün, məharətli hərəkət etməsi, ustalıqla və

mərifətli üsul işlətməsidir. Pedaqoji etika müəllimin şagirdə məqsədyönlü pedaqoji təsir ölçüsü, ünsiyyətin məhsuldar tərzdə yaradılması bacarığıdır. Müəllim hər bir hərəkətində, davranışında, şagirdlərə münasibətində dəqiq olmalı və müəyyən ölçünü, həddi aşmamalıdır. Şagirdlərin şəxsiyyətinə hörmətlə yanaşmaq, onları bir şəxsiyyət kimi qəbul etmək müəllimi onların gözündə ucaldır və uşaqlara hörmət edən müəllim uşaqların da hörmətini qazanmış olur.

Şagirdlərə hörmət etmək və qayğı göstərmək heç də tələbkarlığı azaltmır. Müəllim nə qədər hörmət edirsə, o qədər də tələbkar olmalıdır. Təcrübə göstərir ki, hörmət tələbkarlıqla əlaqələndirildikdə həm hörmət, həm də tələbkarlıq yüksək tərbiyəvi təsirə malik olur.

ABŞ-ın "Ceneral elektrik" firması zavodlarında müəllimin də pedaqoji etikasına nümunə ola biləcək rəhbər işçilər üçün **davranış qaydalarından** bəzilərinə diqqət edək:

"Hətta düzgün olmasa da başqasının fikrinə diqqətli ol. Sonsuz hövsələn olsun. Nəzakətli ol, heç vaxt hirslənmə. Ədalətli ol (xüsusilə tabeliyində olanlar barədə) üçüncü şəxsin yanında tabeliyində olanlara irad tutma. Tabeliyində olana yaxşı iş üçün həmişə təşəkkür et. Həyat üçün təhlükə ilə əlaqədar olan hallardan başqa tabeliyində olanların görə bildiyi işləri heç zaman onların əvəzində görmə. Əgər əməkdaşlarının etdikləri sənin fikrindən köklü sürətdə fərqlənmirsə, ona maksimum fəaliyyət azadlığı ver. Tabeliyində olanların səndən qabiliyyətli olmasından qorxma, əksinə beləlləri ilə fəxr et. Xırda məsələlər üstündə mübahisə etmə, xırda məsələlər ümumi işi yalnız çətinləşdirir. Bütün digər vasitələrdən istifadə edilməyincə, heç vaxt öz hakimiyyətindən istifadə etmə, lakin bu halda da ondan mümkün qədər az istifadə et. Əgər sənin sərəncamların yanlış olmuşsa, səhvini etiraf et".

Müəllimin pedaqoji etikası pedaqoji prosesin bütün sahələrində, xüsusən dərsdə və tərbiyəvi tədbirlərin həyata keçirilməsi prosesində daha çox aşkarlanır və özünü büruzə verir.

Pedaqoji ünsiyyət prosesində müəllimin bacarıqları o zaman həqiqi tərbiyəvi səmərə verir ki, onun təşkil etdiyi təlim- tərbiyə işləri qarşılıqlı olsun. Bu münasibətdə müsbət emosional vəziyyət yaranmış olsun. Təcrübə göstərir ki, yalnız pedaqoji etika müəllimə imkan verir ki, o, ünsiyyəti müsbət emosi- yalar üzərində qursun və uşaqlarla müsbət psixoloji əlaqə yarada bilsin.

Pedaqoji etikanın tələblərinə uyğun olaraq müəllim özündə uşaqlarla ünsiyyətin demokratik stilini yarada bilər və şagirdlərlə ünsiyyətin həqiqi mədəniyyətinə yiyələnər.

Pedaqoji etikaya aid olan biliklər müəllimə şagirdlərlə ünsiyyətdə münaqişədən qaçmaqda və qarşılıqlı münasibətləri formalaşdırmaqda yaxından kömək edir. Pedaqoji etikanın mühüm komponentlərindən biri müəllimin pedaqoji taktıdır.

**Pedaqoji takt -** müəllimin şagirdlərlə, valideynlər və öz həmkarları ilə məqsədyönlü pedaqoji təsir ölçüsü, ünsiyyətin məhsuldar stildə yaradılması bacarığıdır. Pedaqoji taktın mahiyyətini təşkil edən bu məsələ müəllimin öz fəaliyyətini nəzarətdə saxlamaq bacarığı, konkret situasiyalarda pedaqoji təsir vasitələrini düzgün seçə bilməsidir. Pedaqoji taktda müəllim

dəqiq və optimal hərəkət etməlidir. Bu baxımdan pedaqoji takt eyni zamanda həm ölçü hissi, həm fəaliyyətin şüurlu miqdarı, həm onu nəzarətdə saxlamaq bacarığı, həm də zəruri olduqda bir vasitənin digəri ilə əvəzləndirməsini nəzərdə tutur. Bütün hallarda müəllimin davranış taktikası ondan ibarətdir ki, o, bu taktikanın nəticələrini qabaqcadan görməklə, pedaqoji fəaliyyətin üsul və tonunu, zaman və yerini seçmək və eləcə də onların müvafiq hallarda müəllimin şəxsi keyfiyyətləri, onun dünyagörüşü, mədəniyyəti, iradəsi, vətəndaş mövqeyi və peşəkarlıq ustalığından asılıdır. Dərman tibdə dəqiq təyinetmə və qəbul rejimi tələb etdiyi kimi müəllimin sözündən, metodundan da optimal istifadə edilməlidir. Ölçünün müəyyən həddi keçməsi, ola bilsin ki, əks reaksiya versin; eşitməməzliyinə, kobudluğa səbəb olsun. Şagirdlərə hörmət etməklə müəllim özünün uşaqlara hörmətini göstərə bilmək bacarığını əks etdirir. Buna görə də pedaqoji takt müəllimin şəxsi keyfiyyətləri, dünyagörüşü, mədəniyyəti, iradəsi, peşəkarlıq səviyyəsindən çox asılı olan bir keyfiyyətdir. Burada müəllimin diqqətliliyi, ədalətli olması hadisə və prosesləri düzgün qiymətləndirə bilməsi mühüm rol oynayır.

Pedaqoji takt müəllimin davranışının müvazinətində aşkarlanır. O, şagirdlərə inam və optimistcəsinə fərziyyələrlə yanaşmağı tələb edir. Müəllimin inamı şagirdlərə işləməyə stimul ola bilər.

Pedaqoji takt müəllimin şagirdlərlə qarşılıqlı təsirində müxtəlif formalarda: dərsdə, sinifdənkənar tədbirlərdə və asudə vaxtda aşkarlanır. Dərsdə pedaqoji taktın ən zəruri göstəricisi müəllimin öz fənnini gözəl bilməsi, onu sevməsi və şagirdlərə sevdirə bilməsidir.

Dərsdə şagirdlərin müəllimlə münaqişəsinin təhlili göstərir ki, bunun əsas səbələrindən biri dərsin məqsəd və mahiyyətindən uzaqlaşaraq müəllimin şagirdlərin xarici görünüşünə, fikrinə, bacarığına kobud iradları, yəni taktsızlığıdır. Bəzən müəllim şagirdlərdən kiminsə küçədə necə və hansı geyimdə göründüyünü sinifdə deyir, şagirdə irad tutur və bununla da onların arasında münaqişə başlayır.

Müəllimin taktı dərsin bütün mərhələlərində lazımdır. Xüsusən şagirdlərin biliyinin yoxlanılması və qiymətləndirilməsində müəllim özünün davranışına xüsusi diqqət yetirməlidir. Burada takt şagirdlərin cavablarını dinləmə bacarıqlarında özünü göstərir.

Bütün şagirdlər o vaxt cavab verməyi xoşlayırlar ki, onlar diqqətlə, hörmətlə dinlənilir, onların cavablarına obyektiv yanaşılır və düzgün qiymətləndirilirlər.

Buna görə də müəllim şagirdlərin biliyinin qiymətləndirilməsində taktiki hərəkət etməli, şagirdləri öyrənməyə həvəsləndirməli, onlarda idraki tələbatların formalaşdırılmasına xüsusi qayğı və diqqət göstərməlidir.

Pedaqoji takt müəllimin davranışının çevikliyini, mütəhərrikliyini, yəni taktikalı olmasını tələb edir. Müəllim şagirdlər qarşısında müxtəlif taktlar tələb edən rollarda çıxış edir. Məsələn, dərsdə dəqiq, ciddi, düzəlişedici, sinifdənkənar işlərdə ürəyiaçıq, mülayim, səmimi, oyunda yoldaşlıq münasibəti, inam və s. Buna görə də müxtəlif iş formaları: iclas, disput, asudə vaxt müəllimdən ünsiyyətin müxtəlif stillərini tələb edir.

Pedaqoji takt pedaqoji ustalıqla birlikdə qazanılır və tərbiyə edilir. O, müəllimin öz üzərində müntəzəm, yorulmadan işləməsi, xüsusi bilik və bacarıqlara yiyələnməsi nəticəsində baş verir və formalaşır.

Pedaqoji takta yiyələnmək üçün müəllim aşağıdakı bir sıra bacarıqlara malik olmalıdır:

➢ uşaqları sevmək, onlara öz məhəbbətini göstərmək;

➢ müşahidə etmək, uşaqların davranışının daxili mexanizmini görmək;

➢ yaranmış vəziyyətə istiqamət götürməyi bacarmaq;

➢ qarşılıqlı təsir bacarığını seçə bilmək;

➢ uşaqlarla söhbət mədəniyyətinə malik olmaq.

Müəllimlər, xüsusən ilk yaradıclığa başlayan gənc müəllimlər şagirdlərlə münaqişəli situasiyalarda bir sıra davranış qaydalarını bilməlidirlər. Bunlar, əsasən, aşağıdakılardır:

**Birinci qayda.** Hər şeydən əvvəl, münaqişəli situasiyaları aradan qaldıra bilmək və emosional gərginliyi götürmə bacarıqlarına yiyələnməlidir. Bunun üçün müəllim yüksək mədəniyyətə, o cümlədən pedaqoji etikaya malik olmalı, münaqişə

nin mahiyyətini dərk edərək qısa vaxtda onu aradan qaldırmalıdır.

**İkinci qayda.** Özünün davranışı ilə qarşısındakı şəxsə (şagirdə, həmkarına) təsir göstərmək üçün müəllim inandırıcı və təsirli arqumentlə, həmçinin yüksək mədəniyyəti ilə qarşısındakı şəxsə təsir göstərmək qabiliyyətinə malik olmalıdır. Münaqişəli situasiyalarda təmkinlilik göstərməli və bu hərəkəti ilə qarşısındakı şəxsə təsir etməlidir.

**Üçüncü qayda.** Həmsöhbətin davranış motivlərini başa düşməyə cəhd etmək. Müəllim münaqişəli situasiyalarda münaqişəni yaradan səbəbləri və münaqişə tərəfinin məqsədini, motivlərini başa düşməyə çalışmalıdır. Niyə, nə üçün münaqişə yarandığını və qarşı tərəfin nə məqsədlə, hansı motivlə buna səbəb olduğunu dərk etməlidir.

**Dördüncü qayda.** Qərar qəbulunda özünün mövqeyinə inamı möhkəmləndirməli. Müəllim son qərarı verərkən bu qərara möhkəm inam bəsləməli və onun qəbuluna çalışmalıdır.

## Müəllim nüfuzu

"Hazır əqidəni nə lütfkar tanışlardan soruşmaq, nə də kitab köşkündən almaq olmaz. Əqidə hökmən hər kəsin öz beynində şəxsi düşüncə və fəaliyyəti prosesində yaranmalıdır".

D.İ.Pisarev

Pedaqoji prosesdə mühüm tərbiyəvi təsirə malik olan amillərdən biri də müəllim nüfuzudur. Müəllim nüfuzu şagirdlərin tərbiyəsində həmişə mühüm amil olmuş, olaraq da qalır.

Müəllim nüfuzu birdən-birə qazanılmır. Onun formalaşması bir çox amillərlə şərtlənir. Görkəmli pedaqoq A.S.Makarenko bu münasibətlə yazırdı ki, nüfuzun mənası bundan ibarətdir ki, o heç bir sübut tələb etmir, yaşlı adamın şəksiz ləyaqəti kimi, uşaq gözü ilə tez görünən qüdrəti və qiyməti kimi qəbul olunur. Bu sözlər eynilə müəllim nüfuzuna da aiddir.

Müəllimin nüfuzu böyük tərbiyəvi gücə malikdir. Hələ XIX əsrdə böyük rus pedaqoqu K.D.Uşinski yazırdı ki, "Tərbiyəçinin şəxsiyyətinin cavan ruha olan təsiri elə bir tərbiyə qüvvəsidir ki, onu nə dərs kitabları ilə, nə əxlaqi nəsihətlərlə və nə də cəza, mükafat sistemi ilə əvəz etmək olar. Əlbəttə, müəssisənin ruhunun da böyük əhmiyyəti vardır, lakin bu ruh kağızlar üzərində yaşamır, əksinə müəllimlərin əksəriyyətinin səciyyəsində yaşayır və oradan da tərbiyə edənlərin səciyyəsinə keçir".

Müəllim nüfuzu yalnız peşə nüfuzu kimi dərk edilsə də o, özündə şəxsiyyət nüfüzu və vəzifə nüfuzu mahiyyətini də daşıyır. Çünki peşə nüfuzu o zaman həqiqi rolunu oynamış olur ki, onda şəxsiyyət nüfuzu ilə vəzifə nüfuzu birləşmiş olsun. Məhz bu üçlüyün sintezi müəllim nüfuzunun həqiqi tərbiyəvi təsirini özündə əks etdirə bilir. "Şəxsiyyət nüfuzu şəxsiyyətin həyata baxışı, onu dərki, inamı, dünyagörüşü bazasında əmələ gəlir. Bunun əsasında həyat mövqeyi və şəxsiyyətin inkişafı təmin olunur".

**Müəllimin şəxsiyyət nüfuzu** onun şəxsi keyfiyyətləri- prinsipiallığı, xeyirxahlığı, bütün şagirdlərə qarşı qayğıkeşliyi və həssaslığı, tələbkarlığı, siniflə əməkdaşlıq edə bilməsi, kollektivi öz ardınca apara bilməsi və s. ilə bağlıdır.

**Müəllimin vəzifə nüfuzu** birbaşa bu vəzifənin mahiyyəti, daşıdığı funksiya ilə bağlıdır. "Müəllimdir-hörmət edilməlidir, müəllimdir-yolu saxlanmalıdır" kimi baxışlar bu nüfuzun əsasını təşkil edir. Burada qazanılan nüfuz müəllimin kimliyindən asılı olmayaraq yalnız bu vəzifəyə aid olan nüfuzdur.

**Müəllimin peşə nüfuzu** onun savadından, öz ixtisasını dərindən bilməsindən, müəllimlik peşəsinə məhəbbətdən, təşkilatçılıq bacarığından, ünsiyyət münasibətlərindən, səriştəliliyindən, uşaqları öz övladları kimi sevə bilməsindən və s. amillərdən asılıdır.

Müəllimin peşə nüfuzunun əsasında müəllimin əxlaqi siması, şəxsi mədəniyyəti və peşə-ixtisas bilikləri durur. Məhz bunların vəhdəti müəllim nüfuzunun formalaşmasında mühüm rol oynayır. Bu komponentləri özündə birləşdirən müəllim nü- fuzu həqiqi nüfuz olub, sünilikdən, saxta nüfuzdan fərqlənir və daha təsirli olur.

**Müəllimin əxlaqi siması.** Müəllim paklıq, təmizlik və ülvilik rəmzidir. O, yüksək əxlaqi keyfiyyətlərə malik olmalı, zəngin daxili aləmi, incə hərəkət və davranışı ilə şagirdlərə nümunə olmalıdır.

Müəllim özünün hərəkət və davranışı, danışıq tərzi ilə başqa peşə və ixtisas sahiblərindən fərqlənir, daha doğrusu, seçilir. Çünki təkcə uşaqlar şagirdlər deyil, başqa adamlar da müəllimə bir əxlaqi "etalon" kimi baxırlar. Onun hərəkət və davranışında cüzi nöqsan belə böyük görünür. Bu, elə də olmalıdır. Axı müəllim tərbiyəçi, tərbiyə edəndir. Onun səhvləri tərbiyə etdikləri tərəfindən həm bağışlanmır, həm də təəccüb doğurur. Buna görə də onun hər bir hərəkət və davranışı, geyimi, insanlara, cəmiyyətə münasibəti, dünyagörüş və mədəni səviyyəsi insanların diqqət mərkəzində olur, onların nəzərindən yayınmır.

Görkəmli rus mütəfəkkiri N.A.Dobrolyubov yazırdı ki, müəllim uşaqlar üçün heyranedici təəccüb doğuran bəşəri kamilliyin ali nümunəsidir. Uşaqlar üçün mümkün olan bütün ideallar onun simasında həyata keçirilir. Müəllimlə şagirdlər arasında, valideynlər arasında ən dəhşətli münasibət müəllimin biliyi haqqında onlarda şübhə əmələ gəlməsidir. Uşaqların bu şübhəsi müəllimin əxlaqi ləyaqətinə aid olduqda onun vəziyyəti daha da dəhşətli olur. Əxlaqi etimad itdikdə və ya müəyyən dərəcədə sarsıldıqda müəllimin sözü öz kəsərini, qüvvəsini itirir, onun tərifi və məzəmməti əhəmiyyətsiz olur.

Müəllim uşaqların gözündə həmişə təmizlik, paklıq, ülvilik rəmzi olur. Onun danışığında, hərəkəti, davranışı və münasibətlərində etik və estetik cəhətlər, mənəvi zənginlik, yüksək əxlaqi keyfiyyətlər vəhdət yaratdıqda o, uşaqların sevimlisinə çevrilir. Şagirdlər onu özlərinin yaxşı dostu, tərbiyəçisi və hakimi kimi qəbul edir, ondan nümunə götürməyə çalışırlar. Şagirdlər müəllimdən bunun əksini gördükdə sanki etimadları qırılır, ümüdləri heçə enir.

Müəllimə ideal şəxsiyyət kimi baxan şagirdlər onların istər elmi dünyagörüşündə, savadında, istərsə də davranışında hər hansı bir çatışmazlıq gördükdə ona olan yüksək münasibət yavaş-yavaş yox olur və müəllim nüfuzu itirilmiş olur.

Müəllim şəxsiyyətdir və elə bir şəxsiyyətdir ki, onun işi, fəaliyyəti ilə yeni nəsil formalaşır, həyata ilk addımlarını atır. Onun şəxsiyyəti yeni nəslin tərbiyəsində həmişə mühüm amil olmuş və olaraq da qalır. Bunu hər bir müəllim dərindən dərk etməli və onu qorumağa, bununla da müəllimlərin nüfuzunu yüksəltməyə çalışmalıdır.

Professor N.Kazımov yazır: “İstəsə də, istəməsə də, müəllimin dediyi hər bir söz, atdığı hər bir addım elə-obaya, xalqa, dövlətə, vətənə münasibətin göstəricisinə çevrilir. Müəllim unutmamalıdır ki, onun apardığı təlim-tərbiyə işinin yüksək səviyyədə olması və ya bu işə barmaqarası baxması, lakin hər hansı ehtiyacı olan şagirdə lazımi qayğı göstərməməsi və ya ona qarşı biganə qalması öz xalqına, öz vətəninə necə xidmət etdiyinin bariz nümunəsi olur; necə vətənpərvər olduğundan xəbər verir... Müəllimin gündəlik pedaqoji fəaliyyəti əsl vətənpərvərlik nümunələri üçün real meydandır".

Müəllim nüfuzu təkcə onun adı ilə yaranmır. Bu, şagirdləllə fəal fəaliyyət, ünsiyyət və pedaqoji etikanın tələblərini gözləməklə yaranır, inkişaf edir. Başqa sözlə, bunu müəllim özü, özünün fəaliyyəti ilə qazanır. Nüfuza malik olmayan müəllim bunun səbəbini başqa yerlərdə yox, məhz özündə axtarmalı və tapmalıdır. Bunun üçün şagirdlərin inamını, etibarını və etimadını qazanmaq lazımdır. Onları isə başqa heç nə ilə, yalnız özünün biliyi, bacarığı, mədəni dünyagörüşü, təmizliyi, ləyaqəti və vicdanı ilə qazanmaq mümkündür.

Əxlaqi simanın bir sıra atributları vardır ki, bunların da hər birininin müəllim şəxsiyyətində öz yeri, öz rolu vardır. Bunlara sadalamaqla qurtara bilməyən:

* hərəkət və davranışda düzgünlük;

* danışıqda doğruçuluq;

* vətənpərvərlik, vətənə dərin məhəbbət bəsləmək;

* vətəndaşlıq, vətəndaş olmağı bacarmaq;

* borc hissini dərindən dərk etmək;

* müəllimin adını, şərəfini qorumaq;

* uşaqlara və öz peşəsinə məhəbbət bəsləmək və s. misal göstərmək olar.

Müəllimin şəxsi mədəniyyəti müəllim adının özündə mədəniyyət, mədəni olmaq mənaları vardır. Müəllim deyəndə göz önünə gələn xüsusiyyətlərdən biri onun mədəniyyəti, mədəni davranışına malik olmasıdır. N.Q.Çernişevski yazırdı ki, tərbiyəçi tərbiyə etdiyi uşaqdan nə düzəltmək istəyirsə, özü də elə olmalıdır. Bəli, müəllim əgər öz yetişdirmələrini savadlı, mədəni, yüksək mənəvi keyfiyyətlərə malik şəxslər kimi görmək istəyirsə, ilk növbədə özü bu keyfiyyətlərə malik olmalıdır.

Müəllimin şəxsi mədəniyyəti onun özünəməxsus keyfiyyət kimi nüfuzunu yüksəldir, onu hörmətli edir. Ümumi mədəniyyətin tərkib hissəsi olan şəxsi mədəniyyət bəzən cəmiyyətin müəyyənləşdirdiyi ümummədəni maraqlardan da yüksəyə qalxır və müəllimin nüfuzunu daha da artırır.

Müəllimin şəxsi mədəniyyətinin bir sıra komponentləri içərisində əxlaq mədəniyyəti və estetik mədəniyyəti xüsusi qeyd etmək olar.

**Əxlaq mədəniyyəti** müəllimin hərəkət və davranışının əxlaqi prinsip və normalara uyğun olması, əxlaqi keyfiyyətlərinin yerindən, zamanından asılı olmayaraq sabitliyi, ünsiyyət mədəniyyətinin olması, dinləməyi bacarmaq, çətin situasiyalarda özünü ələ ala bilmək, obyektivlik, şagird şəxsiyyətinə hörmətlə yanaşmaq, danışıq və davranışında müəyyən həddi gözləmək, tələb etdiklərinə özünün əməl etməsi və s.-dən ibarətdir.

Müəllimin bu keyfiyyətlərə malik olması əxlaqi sərvətlər, dəyərlər kimi onun nüfuzunu artırır. Bunlar həmçinin müəllimin mədəni dünyagörüşünü atrırır. Onun xarakterinin formalaşmasına təsir göstərir.

**Müəllimin estetik mədəniyyəti** onun nüfuzunun yüksəlməsində, əxlaqi mədəniyyətində heç də az rol oynamır. Onun estetik sərvətlərə dəyərlərə yiyələnməsi ziyalılıq səviyyəsinin əsas göstəricilərindən birinə çevrilir. Müəllimin təbiətə və cəmiyyətə estetik münasibəti, bədii mədəniyyətə yiyələnməsi, xalq sənətinə, həmçinin dünya bədii sənətinə, incəsənətinə bələd olması, nəhayət, estetik zövqə, hissə və qabiliyyətə malik olması onun bir müəllim-ziyalı nüfuzunun yüksəlməsinə mühüm təsir göstərir. Mədəni xarici görünüş, təmiz, səliqəli, zövqlü geyim də bu prosesdə az əhəmiyyət kəsb etmir. Müəllimin, xüsusən qadın müəllimlərin moda dalınca qaçması, ultra modabazlığı, həddindən çox "qrimlənməsi" onun nüfuzuna xələl gətirir.

**Peşə-ixtisas bilikləri.** Bu, müəllim nüfuzunu yüksəldən ən vacib və əsas amillərdən biridir. Praktika sübut edir ki, müəllim nə qədər yüksək mənəviyyata, əxlaqi simaya, mədəniyyətə sahib olsa da, peşə-ixtisas bilikləri zəyifdirsə, gözlənilən müvəffəqiyyəti qazana bilməyəcəkdir. Müəllim ilk növbədə tədris etdiyi fənni, o fənnin aid olduğu elm sahəsini gözəl bilməlidir. Fənnin hər hansı bir sahəsi, bölməsi, mövzusu və ya tapşırığı ilə əlaqədar müəllimin heç bir problemi olmamalıdır. Həmçinin müəllim geniş dünyagörüşə malik olmalıdır. Tədris etdiyi fənlə yanaşı, başqa sahələr üzrə də məlumatlı olmalıdır. İxtisasından asılı olmayaraq, respublikamızın tarixini, coğrafiyasını yaxşı bilməli, bəşəri mədəniyyət nümunələrindən xəbərdar olmalı, xalqımızın mədəniyyəti, incəsənəti, adət-ənənəsini bilməli və onları şagirdlərinə də verməyi bacarmalıdır.

**Müəllim öyrədən və öyrənəndir. Öyrətmək isə çətindir. Buna görə də müəllim öyrətməyin yollarına, metodikasına dərindən bələd olmalıdır.**

İxtisasını yaxşı bilib, onu yaxşı öyrədə bilməyənlər də yaxşı müəllim ola bilməz. Müəllim öyrətməyin bütün sirlərinə vaqif olmaqla və onu yüksək səviyyədə yerinə yetirməklə usta müəllim səviyyəsinə yüksələ bilər.

Lakin bunlar da azdır. Müəllim peşəsi yüksək peşəkarlıq və yaradıcılıq tələb edən işdir. Müəllim nəinki yazılmış tövsiyə, məqalə, əsərlərdən, qabaqcıl təcrübə və nümunələrdən istifadə etməli, həmçinin özü təşəbbüskar olmalı, öz işinə yaradıcılıqla yanaşmalı, yenilikçi, novator olmalıdır. Bunun üçün müəllim pedaqoji mətbuatı daim izləməli, pedaqogikanı, psixologiyanı və tədris etdiyi fənnin metodikasını dərindən bilmədir.

Müəllimin peşə bilikləri bilavasitə pedaqoji peşənin incəlikləri ilə bağlı, ona aid olan biliklərdir. Pedaqogika, psixologiya və pedoqoji psixologiyanı bilməkdir. Burada əsas rol müəllimlik peşəsinə, onun xarakterik xüsusiyyətlərinə aid olan biliklərə məxsusdur. Müəllimin ixtisas bilikləri isə bilavasitə tədris etdiyi fənnə aid olan, onun metodikası ilə bağlı biliklərdir. Peşə və ixtisas bilikləri vəhdət təşkil etdikdə müəllim öz ixtisasını yaxşı bilir və onu yaxşı da öyrədir.

Müəllim nüfuzu heç nədən və birdən-birə yaranmır. Bu, damla-damla, zərrə-zərrə toplanaraq formalaşan bir keyfiyyətdir. Onun yaranmasına demək olar ki, müəllimin bütün fəaliyyəti-şəxsi keyfiyyətləri, peşə-ixtisas səviyyəsi, müəllim-şagird münasibətləri, cəmiyyət içərisində özünü apara bilmək səviyyəsi, geyimi, danışıq tərzi və s. keyfiyyətləri təsir göstərir. Buna görə də müəllim nüfuz qazanmaq üçün özünün bilik, bacarıq və ustalıq səviyyəsini artırmaqla yanaşı, onu daim nəzarətdə saxlamalı, qazandığı nüfuzu qoruyub saxlamağı bacarmalıdır.

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası.“Azərbaycan müəllimi”, 2013, 25 oktyabr.

2. Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiyası və

3. Azərbaycan  Respublikasında məktəbəqədər təhsilin yeniləşməsi  Proqramı (2007 -2010-cu illər).Bakı:2007

## ELEKTRON RESURSLAR

• https://anl.az/el/Kitab/2018/07/cd/2018-1050.pdf

• http://web2.anl.az:81/read/page.php?bibid=vtls000338011

**Mühazirə 5: Pedaqoji peşənin spesifik xüsusiyyətləri**

**Plan:**

**1. Yenilikçi-novator müəllimlərin iş təcrübəsinin, bacarıqlarının**

**formalaşdırılması.**

**2. Müəllim əməyində yaradıcılıq meyillərinin olması pedaqoji peşənin yaradıcı bir peşə olması və pedaqoji ustalıqda bunun mühüm şərt olması.**

**3. Tarixi şəxsiyyətlərin müəllimlik haqqında fikirləri**

Hər bir peşənin özünəməxsus elə xüsusiyyətləri vardır ki, bunları nəzərə almadan, onların mahiyyətinə varmadan həmin peşə sahəsində yüksək müvəffəqiyyət qazanmaq mümkün deyildir. Müəllim peşəsi də bunlardan biridir. Bu peşənin ixtisasdan asılı olmayaraq və bütün ixtisaslara uyğun gələn elə xüsusiyyətləri vardır ki, onları heç bir başqa peşə, ixtisasla müqayisə etmək mümkün deyildir. Bu, yalnız müəllimlik peşəsi ilə bağlı olan spesifik xüsusiyyətlərdir ki, bilavasitə bu peşə üçün xasdır.

Görkəmli psixoloq E.A.Klimov tərəfindən verilmiş təsnifata görə pedaqoji peşə “İnsan – insan” peşələr qrupuna daxil edildiyindən onun obyekti insandır. Lakin demək olmaz ki, bütün “insan – insan” peşələr qrupuna məxsus olan peşələrin hamısında eyni xüsusiyyətlər özünü göstərir. Bunların hamısında tərəf – müqabil insanlar olsa da peşənin özünün spesifikası, ona yanaşma tərzi, insanların ona münasibəti bu peşələrin özünə- məxsusluğunu qabarıq şəkildə üzə çıxarır. Pedaqoji peşədə bu məsələlər daha spesifik olduğundan bu

peşənin “insan – insan” peşələr qrupunda daha önəmli, daha vacib yeri vardır. Belə ki, bu peşə standart, şablon göstərişlə və təlimatlarla işləyən peşələrdən fərqli olaraq yaradıcı bir peşədir. Burada qabaqcıl təcrübə, yaradıcılıq, şəxsi intuisiya, peşəyə maraq, öz işini və uşaqları sevmək, təşkilatçılıq, idarəçilik və s. xüsusiyyətlər vardır ki, bunlarda pedaqoji peşənin özünməxsusluğunun əsas göstərişləri kimi özünü göstərir.

Görkəmli Çin mütəfəkkiri Konfutsi yazırdı ki, müəllim və şagird birlikdə boy atırlar. Müəllim oz şagirdlərinə nümunə olmalı, öz biliyini təkmilləşdirməli, ciddiliyi, təmkinliliyi ilə seçilməli, şagirdlərin fəallığını inkişaf etdirməli, onlara məntiqli və müstəqil düşünməkdə yardımçı olmalı, öyrətdiklərini daim təkrar etdirməli, biliklərin möhkəmlənməsinə çalışmalıdır. Müəllim, pedaqoq yeni insan tərbiyə edir, onun intellektual, mənəvi aləmini inkişaf etdirir, şəxsiyyət formalaşdırır. Görkəmli türk alimi və maarifçisi Aydın Özdəmir yazırdı ki, millətləri qurtaranlar yalnız və ancaq müəllimlərdir.Cümhuriyyət müəllimlərdən fikri nur, vicdanı nur, irfanı nur nəsillər istəyir. Təbii ki, belə bir istəyin yerinə yetirilməsi müəllimdən əhatəli və dərin bilik, səriştəlilik, bacarıq, yaradıcı düşüncə, öz pedaqoji məharətini daim inkişaf etdirmək istəyi və vərdişi tələb edir. Müəllim təkcə bilik vermir, o, istiqamət verir, idarə edir, tərbiyəvi keyfiyyətlər aşılayır. Buna görə də o, bir tərəfdən öyrədən, tərbiyə edəndir, digər tərəfdən isə bunlar üçün özü bir çox keyfiyyətlərə malik olmalıdır.

Pedaqoji peşənin özünəməxsusluğu təkcə sadalananlarla məhdudlaşmır. Bir sıra xüsusiyyətlər onun mahiyyətindən irəli gəlir ki, onlardan da başlıca olanları bunlardır: **Humanistlik və Yaradıcılıq.**

**1.Pedaqoji peşənin humanist xarakteri.** Müasir məktəb müəllimin “hakimi - mütləq” olduğu və avtoritar üslublarla hərəkət etdiyi bir müəssisə deyildir. Müasir məktəb müəllimin bütün pedaqoji məharətinin aşkarlandığı, gənc nəslin həyata hazırlığının formalaşdırıldığı, gələcək cəmiyyətimizin təməlinin qoyulduğu, əsaslarının möhkəmləndirildiyi müqəddəs bir yerdir. Buradakı fəaliyyətin əsas məzmunu humanizm prinsipi üzərində qurulur. Humanizm, pedaqoji fəaliyyətdə humanistlik pedaqoji peşənin bilavasitə daxili mahiyyəti, məqsədi və məramı ilə bağlıdır. Pedaqoji peşənin bu xarakteri müəllim şəxsiyyətinin əsas parametrlərini, onun necə olduğunu, yaradıcılığının səviyyəsini və fərdiyyətinin əsas mahiyyətini özündə əks etdirir. Müəllim əməyi özü humanist bir missiyanın həyata keçirilməsi ilə bağlıdır. Müəllim elə bir fəaliyyətlə məşğuldur ki, bu fəaliyyət bilavasitə tərbiyə olunan şəxsiyyətin və bunun nəticəsi kimi cəmiyyətin gələcəyi ilə bağlıdır. Bu isə ümumibəşəri humanist məqsəddir. Müəllim bu gün yaşayır, bu gün çalışır. Lakin onun gördüyü işlər gələcəyə yönələn işlərdir. O, bu gün apardığı təlimtərbiyə işləri ilə öz xalqının milli-mənəvi sərvətlərinin,eləcə də ümumbəşəri dəyərlərin qoruyucusu kimi çıxış etməklə yanaşı,həm də gələcək cəmiyyətin əsasını qoyur. Humanizm ilk növbədə bu məqsədin,bu missiyanin özünün daxilində və müəllim ifadəsinin özündə mövcuddur.Müəllim o zaman əsl müəllim kimi uşaqların qəlbinə yol tapır ki,məhz bu keyfiyyət onun biliyi, elmi, öyrətmək həvəsi ilə birləşərək bir vəhdət təşkil etsin.Görkəmli rus yazıçısı və pedaqoqu L.N.Tolstoy bu münasibətlə yazırdı: “Əgər müəllim yalnız işi sevirsə, o yaxşı müəllim olacaqdır. Əgər müəllim şagirdi yalnız bir ata və bir ana kimi sevirsə, o bütün kitabları oxuyan,lakin nə işə, nə də şagirdlərə məhəbbəti olmayan müəllimdən daha yaxşı müəllim olacaqdır. Əgər müəllim sənətinə və şagirdlərə olan məhəbbətini özündə birləşdirirsə, o

kamil müəllimdir" (38, 362). Görkəmli Azərbaycan maarifçi-pedaqoqu F.Köçərlinin: "Müəllim məktəbin canı, camaatın çırağıdır. O, öz peşəsini sevməli, şagirdlərini övladı kimi istəməli, xeyir verən biliklər aşılamaqla əhalinin rəğbət və məhəbbətini qazanmalıdır" – fikri L.N.Tolstoyun müəllim haqqındakı düşüncələri ilə həmahəng səsləşir. XX əsrin sonlarından pedaqogikada humanist meyllərin güclənməsi, insan amilinin önə çəkilməsi,şəxsiyyətyönümlü təhsil məsələsinə böyük diqqət verilməsi müəllim peşəsinin humanist istiqamətinə daha ciddi yanaşmalara səbəb olmuşdur.

Müəllimin(avtoritar üslubunun əksinə olaraq) sinifdə şagirdləri fəal əməkdaşlığa cəlb edə bilməsi, şagirdi obyekt səviyyəsindən çıxararaq özünə tərəf – müqabil etməsi, fəaliyyətini "subyekt-subyekt" əsasında təşkil etməsi,təlim- tərbiyə işlərində şagird şəsiyyətinə hörmətlə yanaşması kimi məsələlər müəllim fəaliyyətinin humanist istiqamətinə yeni çalarların daxil olması zəruriyyətini daha da artırmışdır. Əbdül və Hikmət Əlizadələr yazırlar: "Məktəbin humanistləşdirilməsi təlim prosesində yeni tipli müəllim – şagird münasibətlərinin bərqərar olmasını nəzərdə tutur.Şagirdin insan ləyaqətinə hörmət etmək, ona etibar və inamla yanaşmaq, bir şəxsiyyət kimi onun,tələbatları vəmənafeyi ilə hesablaşmaq – məhz bu keyfiyyətlər müəllimlərin şagirdlərlə münasibət-lərinə nurlu insani çalarlar bəxş edir"(6, 138 ). Şagirdlərdə inam və cəsarət formalaşdırmaq lazımdır. Müəllim şagirdlərə inandığını, onları sevdiyini, hər bir şagirdə güvəndiyini özünün sözü, hərəkət və davranışı ilə hiss etdirməli, bildirməlidir. Şagirdlərə elə münasibət göstərilməlidir ki, onlar sadəcə uşaq və şagird deyil, cəmiyyətin fəal və gərəkli bir üzvü olduqları inamına gəlsinlər. Məktəblərin birində haqqında məktəb direktorunun və təlim tərbiyə işləri üzrə direktor müavininin xeyli müsbət danışdığı bir müəllimənin VI sinifdə dərsində iştirak etdikdə şagirdlərin intizamlı olduğu və dərsdə yüksək fəallıq nümayiş etdirdikləri özünü göstərdi. Müəllimənin çoxlu sayda suallarına hamı cavab verməyə hazır idi. Nə artıq hərəkət var idi, nə yoldaşı ilə söhbət edən, nə də dərsə qulaq asmayan. Dərsdən sonra şagirdlərdən bu müəlliməni və onun tədris etdiyi fənni sevdiklərini soruşduqda cavab təəccübləndirici oldu:

- Biz onu sevirik? Nə danışırsınız! Biz ondan qorxuruq! – deyə hamı bir səsləcavab verdilər.

- Necə yəni qorxuruq?

- Çox sadə,

- deyə uşaqlar izah etdilər: - nə isə düzgün olmayanda o dəqiqə qışqırır, təhqir edir!

- Valideynlərimizə şikayət edir!

- Onun fənnini əzbərləyirik, - deyə oğlanlardan biri fikrini gizlətmədən söhbətə yekun vurdu.

Bəs buna səbəb nə idi?

Bunu yaradan səbəblər içərisində çoxluq təşkil edəni məhz müəllimin öz peşəsinin humanist xarakterini nəzərə almaması idi.

Humanizm pedaqoji peşənin təkcə xüsusiyyəti deyil, eyni zamanda onun atributlarından biridir. Süni, avtoritar yolla qazanılan nüfuzdan fərqli olaraq, öz yetirmələrinə hörmətlə, qayğı ilə yanaşan, onu şəxsiyyət kimi qəbul edən, onları sevən müəllimlərin şagirdlərə məhəbbəti həmişə dərin, şagirdlərin isə onlara inamı möhkəm olur. O müəllim özünü xoşbəxt hesab edə

bilər ki, uşaqlar onun dərslərinə həvəslə gəlirlər, ayrıldıqda isə onunla yenidən görüşmək arzusu ilə sabahı gözləyirlər. Pedaqoji peşədə humanizm heç də müəllim tələbkarlığını inkar etmir və hamıya, hər şeyə güzəşt edilməsi demək deyildir. Əksinə, burada hörmət və tələbkarlığınelə bir sintezi reallaşır ki, şagird şəxsiyyətinin inkişafı üçün real imkanlar yaranır. Belə şəraitdə şagird öyrənməyə, daha çox bilməyə həvəsli və maraqlı olur. Yaradılmış şərait, qarşılıqlı münasibət şagirdlərin gələcək inkişafına yeni-yeni impulslar verir, onlarda stimullar yaradır. Buna görə də "Müəllim – şagird münasibətlərinin humanistləşdirilməsi böyük bir anlama – şagirdin bir şəxsiyyət kimi formalaşmasına, inkişaf etməsinə, özünüaktuallaşdırması üçün şəraitin yaradılmasına xidmət etməlidir" (6, 137).

Şagird şəxsiyyətinə humanist yanaşma mövqeyi həmçinin, pedaqoji ustalığa gedən ən mühüm yollardan biri, bəlkə də birincisidir.

*Qabaqcıl və novator müəllimlərin təcrübəsi göstərir ki, pedaqoji prosesin əsasında bu varsa pedaqoji ustalığın digər yollarını tapmaq, onun incə çalarlarını öyrənmək, tətbiq etmək bir o qədər çətin olmur. Əgər bu yoxdursa hətta ən kəsərli metodların, yolların tətbiqi belə faydasız olacaqdır. Ən qabaqcıl texnologiyaların tətbiqi də, müəllimin öz üzərində daimi işləməsi də, özünü təkmilləşdirmə marağı da məhz ilk növbədə bundan – humanizmdən, öz peşəsini və uşaqları sevməsindən irəli gəlir.*

Bu gün adları hörmətlə çəkilən İ.H.Pestalossi, L.N.Tolstoy, Y.Korçak, V.A.Suxomlinski, M.T.Sidqi, F.Köçərli, Ü.Hacıbəyov, A.Şaiq və digər klassik pedaqoq və maarifçilərin və bu gün müasirlərimiz olan onlarla, yüzlərlə ustad müəllimlərin həyatı və peşə, sənət uğurları bunu sübut edir.

**2. Pedaqoji peşənin yaradıcı xarakteri.** Pedaqoji peşənin bu xüsusiyyəti müəllim əməyinin yaradıcı xarakterə malik olduğunu göstərir. Müəllimin pedaqoji fəaliyyətində yaradıcılıq meyllərinin olması bilavasitə onun pedaqoji bacarıqları ilə əlaqədardır. Müəllimin pedaqoji bacarıqları yüksək səviyyədə olduqda, mövcud qayda-qanunlar bu bacarıqlar qarşısında sadə, asan göründükdə müəllimin yaradıcı düşüncəsi özünü göstərir. Bu baxımdan müəllimin pedaqoji bacarıqlarının səviyyəsi yüksək olduqca və ya yüksəldikcə onun yaradıcı imkanları da artır, çoxalır. Pedaqoji fəaliyyətin bir başlıca məqsədi vardır: dərin elmi biliyə, hərtərəfli dünyagörüşə, yüksək mənəvi keyfiyyətlərə malik vətəndaş – şəxsiyyət formalaşdırmaq. Bu məqsəd hər bir müəllim fəaliyyətinin əsas məramını, məqsədini ifadə edir. Lakin başlıca məsələ, fərqli cəhət ondan ibarətdir ki, hansı müəllim bu problemə necə yanaşır. Müəllimin yaradıcılıq potensialı, imkanları və bacarıqları da məhz burada özünü göstərir. Kimi mövcud qayda-qanunlarla hərəkət edir, təlimatlar əsasında fəaliyyət göstərir. Kimi özü yeni metodlar əsasında hərəkət etməyə cəhd edir, kimi də özü yeni yollar axtarır, yeniliklər edir, pedaqoji problemlərin optimal yollarını axtarıb tapır. Özünün yolunu, cığırını tapan belə müəllimlər novator – yenilikçi müəllimlər kimi tanınır və yüksək müvəffəqiyyət qazanırlar. Belə müəllimlər pedaqoji fəaliyyət-lərində tapdanmış yollarla getmir, öz sistemlərini yaradır, özlərinə məxsus yeni yollarla öz fəaliyyətlərini həyata keçirirlər. Onlar mövcud sistemləri təkmilləşdirir, çox halda isə özləri başlanğıc kimi nə isə yeni bir sistem yaradırlar. Keçmiş ittifaqda tanınan Ş.Amonaşvili, V.F.Şatalov, Zahid Şöyübov, Məhər Quliyev kimi belə müəllimlər həm də böyük məktəb yaratmışlar. Onlar novatorluğu pedaqoji prosesin çətin, mürəkkəb məsələlərinin həllinə kömək etməklə yanaşı, həm də belə bir həqiqəti sübut

etmişdir ki, müəllim əməyi heç də şablon qayda-qanunlara riayət etməklə məhdudlaşmır. Burada yaradıcı düşüncə, məqsədə nail olmaq üçün daha optimal metodlar və yollar axtarışında olmaq, çətinliklərdən qorxmamaq, bu peşəyə ürəyinin hərarətini vermək lazımdır. Bir çox yenilikçi – novator müəllimlərin iş təcrübəsi onu göstərir ki, bu müəllimlər əslində pedaqoji prosesdə "inqilablar" etmirlər. Onlar sadəcə olaraq (hərçənd ki, bunlar heç də sadə məsələlər deyildir) pedaqoji fəaliyyətdə daha orijinal metodlar axtarıb tapır, yeni – intensiv metodlarla elə əlverişli nəticələrə nail olurlar ki, bunlar da pedaqoji prosesi təkmilləşdirir, daha yüksək nəticələr əldə etməyə səbəb olur. Bəs konkret olaraq kimləri yaradıcı müəllimlər hesab etmək olar? – sualına pedaqoji ədəbiyyatlarda birmənalı cavab tapmaq çətindir. Bəziləri bunu pedaqoji vəzifələrin həllini qeyri- standart yollarla həyata keçirməklə, bəziləri müəllimin pedaqoji fəaliyyətindəki özünəməxsusluqlarla, bir qismi isə situativ məsələlərin həllində özünü büruzə verən kommunikativ bacarıqlarla əlaqələndirməklə yaradıcı müəllimin malik olduğu xüsusiyyətləri konkretləşdirməyə çalışırlar. Əslində isə pedaqoji peşənin yaradıcı xarakteri çoxsahəli bir prosesdir. Müəllim öz üzərində daima çalışdıqca, öz pedaqoji-psixoloji səviyyəsini dərinləşdirdikcə, ixtisas biliyini artırdıqca onu yaradıcılığa, uğura aparan yollar da aydınlaşır. Onda pedaqoqların yaradıcı müəllimlərə şamil etdikləri təşəbbüskarlıq, müstəqillik, yaradıcı təfəkkür, ətaləti dəf etmə bacarığı, yenini dərk etmə hissi və buna can atması, məqsədyönlülük, assosasiyalar genişliyi, müşahidəçilik və inkişaf etmiş peşəkarlıq yaddaşı kimi keyfiyyətlərin formalaşması imkanları da genişlənir. Yaradıcı müəllim özündən əvvəl və özünün qazandığı nailiyyətlərlə kifayətlənmir, daim yeniliyə can atır, yenilik axtarır. Bəzən bu yeniliklər ilk baxışdan müsbət qarşılanmasa da, nəticəsi üzə çıxdıqdan sonra təkzib edilməz olur.

Lakin, öz işinin ustası olan, yaxşı müəllim kimi tanınan müəllimlərin heç də hamısı yaradıcı müəllimlər olmurlar. Öz işini yüksək səviyyədə həyata keçirən yaxşı müəllimlərdən fərqli olaraq, yaradıcı müəllimlər yenilikçidirlər, pedaqoji prosesə özlərinin fərdiliklərini, fərdi üslublarını gətirənlərdirlər. Pedaqoji peşənin hər iki xüsusiyyəti onun peşələr sistemində tutduğu yerdə özünəməxsusluğunu, bu peşənin daxil olduğu qrupda isə özünün xüsusi bir qrup təşkil etdiyini göstərir. Nəticə olaraq deyə bilərik ki,pedaqoji peşənin özünəməxsus bir sıra xüsusiyyətləri içərisində humanistlik və yaradıcılıq xüsusi yer tutur. Humanist xarakter bu peşənin ümumbəşəri bir missiya ilə bağlı olmasından və bilavasitə onun daxili mahiyyətində humanizmin olmasından irəli gəlir. Yaradıcı xarakteri isə müəllim əməyində yaradıcılıq meyllərinin olması pedaqoji peşənin yaradıcı bir peşə olması və pedaqoji ustalıqda bunun mühüm şərt olması zərurətindən irəli gəlir.

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI

1. Əliyev H. Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002.

2. İlyasov M. Müəllimin pedaqoji ustalığı. Dərs vəsaiti. Bakı: Elm və təhsil, 2013.215s.

3.Həsənov A.Məktəbəqədər pedaqogika. Dərs vəsaiti. Bakı:"Nasir nəşriyyatı".2000.367s.

4. Kazımov N. Pedaqoji ustalığın problemləri. Bakı: Çaşıoğlu, 2009.

**ELEKTRON RESURSLAR**

• https://anl.az/el/Kitab/2018/07/cd/2018-1050.pdf

• http://web2.anl.az:81/read/page.php?bibid=vtls000338011

**Mühazirə 6: Müəllim peşəkarlığının inkişaf istiqamətləri**

**PLAN:**

**1. Müəllim peşəkarlığının inkişafı pedaqoji fəaliyyətdə**

**yeniliklərin, innovasiyaların tətbiqinin rolu.**

**2. Təhsilin əhəmiyyətinin artması.**

**3. Konsepsiyaların, yanaşmaların, baxışların, düşüncələrin, mədəniyyətlərin  və s. polifoniyası (çoxcəhətliyi, rəngarəngliyi).**

Pedaqoji peşəkarlıq nə fitri istedadın, nə də uzun müddət bu sahədə işləməyin nəticəsidir. Düzdür, bu işdə qabiliyyət və staj müəyyən təsir gücünə malik olur,lakin peşəkarlıq təkcə onların nəticəsi olaraq formalaşmır. Pedaqoji peşəkarlıq inkişafda olan bir prosesin nəticəsi kimi meydana gəlir. Yəni müəllim təkcə ali məktəbdə aldığı biliyə arxayın olub öz üzərində işləmirsə, peşə-ixtisas biliyini təkmilləşdirmirsə və ya pedaqoji yaradıcılığa meylli deyilsə bu zaman nə staj, nə də gündəlik fəaliyyət onun peşəkar kimi formalaşmasına yardımçı ola bilməyəcəkdir. Həyat sübut edir ki, o müəllimlər peşəkar və səriştəli müəllimlər kimi formalaşırlar ki, onlar daim axtarışda, yeniliklər etməkdə və bunları işlərində tətbiq etməkdədirlər. Müəllim peşəkarlığının inkişafı pedaqoji fəaliyyətdə yeniliklərin, innovasiyaların tətbiqi ilə birbaşa bağlıdır. Hələ keçən əsrin 60-cı illərindən başlayaraq təhsildə aparılan islahatlar, təlimə gətirilən innovasiyalar, o cümlədən inkişafetdirici təlim texnologiyalarının tətbiqi, dərsdə texniki təlim vasitələrindən istifadəyə geniş yer verilməsi, müəllif texnologiyalarının yaranması, informasiya texnologiyalarından dərsdə istifadə, fəal-interaktiv təlim metodların tətbiqi və digər yeniliklər müəllim peşəkarlığının müəyyən mərhələlərlə inkişafına zəmin yaratmışdır. **XX əsrin sonları və XXI əsrin əvvəllərində müasir dünyanın əsas xarakterik xüsusiyyətləri müxtəlif səviyyəli ekspertlər tərəfindən aşağıdakı kimi səciyyələndirilmişdir:**

**1) qloballaşma** –mədəniyyətlərin inteqrasiyası, texnogen mühitin fasiləsiz olaraq dinamik yeniləşməsi, genişlənməsi və köçürülməsi, vahid mədəni, iqtisadi, informasiya və təhsil məkanının formalaşması;

**2) hər bir fəaliyyətin texnologiyalaşdırılması** (alqoritmləşdirilməsi);

**3) təhsilin əhəmiyyətinin** (rolunun) **artması**;

**4) intellektin rolunun və yeni biliklərinəldə edilməsininəhəmiyyətinin artması;**

**5) insanların, sosial, peşə və qeyri-peşə biliklərinin bir –birilə qarşılıqlı təsirininkonstruktivliyi və destruktivliyi;**

**6) insanın, cəmiyyətin, mühitin, elmin, şüurun, mədəniyyətin, həyatşəraitinin və s. dəyişmə sürətininartması;**

**7) insan həyatının qeyri-müəyyənliyinin və qeyri –sabitliyinin artması;**

**8) konsepsiyaların, yanaşmaların, baxışların, düşüncələrin, mədəniyyətlərin və s.polifoniyası (çoxcəhətliliyi, rəngarəngliyi).**

Bütün bunlar təhsilin, pedaqoji fəaliyyətin, müəllimin peşəkar fəaliyyətinin məzmununa da təsirsiz qalmamış və ötən illər ərzində bu sahədə bir çox yeniliklər, dəyişikliklər olmuşdur. Pedaqoji peşəkarlığın əsası, onun özülü ali pedaqoji təhsil prosesində, ilkin müəllim hazırlığı, yəni bakalavr təhsili zamanı qoyulur. Əgər tələbə seçdiyi ixtisası sevirsə bu, onda öyrənmə marağının, yaxşı müəllim olmaq üçün yaxşı təhsil almaq motivinin formalaşmasına da öz təsirini göstərəcəkdir. Lakin heç də həmişə belə olmur. Çox hallarda pedaqoji ali məktəblərə daxil olan tələbələrin müəyyən qisminin pedaqoji peşə seçmələrinin onların maraq və motivlərindən, yaxşı müəllim olmaq arzusunun reallaşdırılmasından irəli gəlmədiyi özünü göstərir. Fənnə olan marağın və qəbul imtahanı zamanı yığılan balların bu sahəyə düşmək şansınınseçilən ixtisasa və müəllimliyə olan maraq və motivlərdən üstün olması onu deməyə əsas verir ki, pedaqoji ali təhsil ocaqlarında təhsil alan gənclərin heç də hamısı müəllimliyi seçim motivlərinin pedaqoji istiqamətliliyinə görə etməmişlər. Lakin son illər ali pedaqoji təhsil müəssisələrinə və onların bayraqdarı sayılan Azərbaycan Dövlət Pedaqoji Universitetinə qəbul olunanlar arasında 500 və ondan çox bal toplayan abituriyentlərin sayının ilbəil artması onların motiv və maraqlarının pedaqoji təmayüllü olması nəticəsində peşəkar müəllim kadrları hazırlanmasına ümidləri artırır. Pedaqoji təmayüllü ali məktəblərdə peşəkar müəllim kadrlarının hazırlanmasında tədris prosesinin imkanları və bu imkanların reallaşdırılması mühüm rol oynayır. Əvvəlcə tədris planlarının imkanlarını nəzərdən keçirək. Azərbaycan Dövlət Pedaqoji Universitetinin tədris planlarının təhlili göstərir ki, bütün fakültələr üzrətədris planları üç bölmədən – "Humanitar elmlər bölümü", "İxtisas –peşə hazırlığı fənləri bölümü" və "İxtisas-peşə hazırlığı bölümünün seçmə fənləri" bölümlərindən ibarətdir. Dörd il müddətində tədris ediləcək 2520 saat auditoriya məşğələlərinin 15 faizi "Humanitar elmlər bölümü"nə, 67- 68 faizi "İxtisas-peşə hazırlığı fənləri bölümü"nə, 18 faizi isə "İxtisas - peşə hazırlığının seçmə fənləri bölümü"nə verilmişdir. "Humanitar elmlər bölümü"nün başlıca məqsədi gələcək müəllimlərin dünyagörüşünün genişləndirilməsi, onların həyata, cəmiyyətə, pedaqoji fəaliyyətə münasibətlərinin formalaşdırılması, bir-iki xarici dilə yiyələnməsi, bəşər mədəniyyəti ilə tanış olması və s.- dən ibarətdir. Burada tədris olunan fənlər bakalavr təhsilinin əsasən birinci və ikinci illərini əhatə edir ki, bu da müəllimlərim ümumi hazırlığında əsas yer tutur.

**"İxtisas–peşə hazırlığı fənləri bölümü" müəllim hazırlığının əsas nüvəsini təşkil edir. Onun əsas məqsədi tələbələrin peşə hazırlığı üçün əsas baza olan pedaqogika, psixologiya, fənlərin tədrisi metodikası üzrə biliklərə malik olmaları, pedaqoji peşənin incəlikləri ilə tanış olmaları, müəllim fəaliyyətinin metodlarına yiyələnmələri və seçilmiş ixtisas üzrə ixtisas bilikləri ilə silahlandırılmalarından ibarətdir. Bu bölümdə peşə və ixtisas bilikləri bir sistem yaradır və bir-biri ilə inteqrasiya olunmuş şəraitdə müəllimin peşəkar fəaliyyəti üçün əsas biliklərin daşıyıcısı olur.**

**“İxtisas - peşə hazırlığının seçmə fənləri bölümü”nün başlıca məqsədi müəllimin peşəkar fəaliyyəti üçün zəruri olan bilik, bacarıq və vərdişlərin daha dərindən, dərinləşdirilmiş proqramlar əsasında öyrənilməsindən, ixtisas və peşə üzrə daha çox ehtiyac duyulan sahələrin tələbələrə nəzəri və praktik cəhətdən aşılanmasıdır.** Ali pedaqoji təhsilin bakalavriat səviyyəsində tədris edilən fənlərin 85 faizi məhz peşə-ixtisas hazırlığına verilir ki, bu da gələcək mütəxəssislərin peşəkar səviyyədə hazırlanacaqlarına olduqca böyük imkanlar yaradır. Lakin burada diqqəti cəlb edən bir neçə məqamlar vardır. **Bunlar əsasən peşə - ixtisas hazırlığına verilən saatlar içərisində peşə hazırlığına ayrılan vaxtın ixtisas hazırlığına nisbətən çox aşağı olmasıdır. Burada aşağıda göstərilən iki hal olduqca narahatlıq doğurur:**

1. Bütün fakültələrdə peşə hazırlığının əsas fənləri sayılan pedaqogika və psixologiya fənlərinə ayrılan saatlar (105 saat pedaqogika, 90 saat psixologiya) xeyli azdır. Bu da peşə hazırlığı üçün aydındır ki, kifayət deyildir.

2. Tədris planında verilən 3-cü blokun adı və istiqaməti “İxtisas-peşə hazırlığı fənləri bölümü” olmasına baxmayaraq, bu blokda ixtsas hazırlığına verilən fənlər çox olduğu halda,“İbtidai sinif müəllimliyi”, “Məktəbəqədər təlim və tərbiyə” ixtisasları və “Kimya müəllimliyi” ixtisasında bir fənn (Müasir pedaqoji texnologiyalar fənni) istisna olmaqla digər fakültələrin heç birində peşə hazırlığına xidmət edən bir seçmə fənn belə bu bloka daxil edilməmişdir. Bu hal isə gələcək müəllimlərin peşəkar kimi hazırlanmalarını xeyli çətinləşdirir. Pedaqoji yönümlü ali məktəblərdə tələbələrin ixtisas hazırlığı peşə hazırlığı ilə vəhdət təşkil edir. Bunlar bir - birindən ayrılmazdır. Lakin blokunyalnız ixtisas fənləri üzrə komplektləşdirilməsi yolverilməzdir. Təkcə müasir dövr deyil, cəmiyyətimizin gələcək inkişafı peşəkar və səriştəli müəllim hazırlığını nəzərdə tutan infrastrukturun və sistemin yaradılmasını tələb edir. **Ölkədə ali pedaqoji təhsili inkişaf etdirmək və səriştəli müəllim hazırlığını təmin etmək məqsədilə bir sıra işlərin görülməsi bu baxımdan çox önəmlidir. Bunları əsasən aşağıdakı kimi qruplaşdırmaq olar:**

1. Ali pedaqoji təhsil müəssisələrinin müasir informasiya və kommunikasiya texnologiyaları ilə təmin edilməsi. Tədris prosesində onlardan gündəlik istifadə edilməsi mühitinin yaradılması.

2. Ali pedaqoji təhsil müəssisələrinin tədris planlarının, proqramlarının yeniləşdirilməsi və onlarınbeynəlxalq təcrübəyə əsaslanaraq təkmilləşdirilməsi. Yeni təhsil texnologiyalarına əsaslanan tədris planı, proqramı və dərsliklərin tətbiqinə nail olunması.Proqramların praktik istiqamətinin gücləndirilməsi.

3. Pedaqoji prosesə məzmunu pedaqoji sistemlərin özünü-təşkilatlandırma nəzəriyyəsində, prinsiplərində və qanunauyğunluqlarında əks olunmuş pedaqoji bilik sahəsindən ibarət olan sinergetik yanaşmanın təmin olunması.

4.Müəllim peşəsinin nüfuzunun yüksəldilməsi və tələblə təklifin uzlaşdırılması. Keyfiyyətin kəmiyyətdən və müvəffəqiyyətdən üstün olmasına nail olunması.

5. Pedaqoji təhsil sahəsində dünyada tanınmış ali məktəblərin təcrübəsinin öyrənilməsi və onların təcrübəsindən yaradıcılıqla istifadə edilməsi.

6. Ümumtəhsil məktəblərilə əməkdaşlığın genişləndirilməsi və onlarla müntəzəm əlaqəyə nail olunması. Ali pedaqoji təhsil müəssisələrinin bilavasitə tabeliyində olan baza məktəblərinin şəbəkəsinin genişləndirilməsi.

7. Ali pedaqoji təhsil müəssisələrində aparılan elmi-tədqiqat işlərinin səviyyəsinin və ona nəzarətin gücləndirilməsi. Elmi tədqiqat işlərinin daha kompetensiyalı, müasir mövzulara həsr olunması və onların praktik istiqamətini gücləndirməklə tətbiqinə nail olunması.

8. Pedaqoji yönümlü ali məktəb məzunlarının işlə təmin olunmasına pedaqoji dəstəyin verilməsi.

Bütün bunlar müəllimlərin peşəkarlığı və səriştəliliyi ilə bilavasitə bağlı olduğundan ali məktəblərdə müəllimlərin peşəkarlığının və səriştəliliyinin səviyyəsinin yüksəldilməsi bu işlərin reallaşdırılmasında əsas yerlərdən birini tutur. Bu baxımdan ali məktəblərdə çalışan müəllimlərin özlərinin peşəkarlığının yüksək səviyyədə olması müəllim peşəkarlığının inkişaf istiqamətlərindən birini təşkil edir."Yalnız yaxşı öyrənə bilənlər yaxşı öyrədə bilərlər" - kontekstindən yanaşsaq deməliyik ki, ali məktəb məzunlarının **peşəkar və səriştəli müəllimlər kimi olmasını istəyiriksə ilk növbədə pedaqoji təhsil ocaqlarında çalışan professor-müəllim heyətinin peşəkarlıq və səriştəlilik səviyyəsinin yüksəldilməsinə nail olmaq lazımdır. Bunun üçün aşağıdakı məsələlərin reallaşdırılmasını vacib hesab edirik:**

1. Ali məktəb müəllimlərinin ixtisasartırma, stajkeçmə və özünütəhsil işlərinin təkmilləşdirilməsi və bu prosesin gücləndirilməsi.

2. Ali pedaqoji təhsil müəssisələrinəişə qəbul edilən gənc mütəxəssislərin xüsusi təhsil komissiyası tərəfindən yoxlanılması, peşəkar və səriştəli müəllimlərin işə götürülməsinə üstünlük verilməsi.

3. Professor-müəllim heyətinin yaradıcılıq imkanlarının genişləndirilməsi və dünyanın qabaqcıl ali məktəblərinin təcrübəsini öyrənmək məqsədilə xarici ölkələrə yaradıcılıq ezamiyyələrinə və staj keçmələrə göndərilməsi.

4.Ali pedaqoji təhsil müəssisələrində çalışan müəllimlərin vaxtaşırı olaraq attestasiyadan keçirilməsi və əməkhaqqının nəticələrə görə diferensiallaşdırılması.

5. Ali məktəb müəllimlərinin peşəkar müsabiqələrdə iştirakı və beynəlxalq səviyyədə tanınmış sertifikatlar almalarına imkan və şəraitin yaradılması.

6. "Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi"(5804.01) ixtisası üzrə doktoranturaya sənəd verən şəxslərdən ümumtəhsil məktəblərində və digər təhsil müəssisələrində ən azı iki il müəllim işləmələri haqqında iş stajının tələb edilməsi və s. Nəzərə almaq lazımdır ki, bu il birinci kursa qəbul olunan tələbələr dörd ildən sonra məzun olacaq və müəllim kimi orta ümumtəhsil müəssisələrində işə başlaya biləcəklər. Ona görə də pedaqoji kadr hazırlığına bu günün tələbləri səviyyəsində deyil, məhz gələcəyin məktəbi, gələcəyin tələblərinin necə olacağı proqnozları səviyyəsində yanaşmaq lazım gəlir.

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI:

1. Əliyev H. Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002.

2. İlyasov M. Müəllimin pedaqoji ustalığı. Dərs vəsaiti. Bakı:  Elm və təhsil, 2013.215s.

3.Həsənov A.Məktəbəqədər pedaqogika. Dərs vəsaiti. Bakı:“Nasir nəşriyyatı”.2000.367s.

4. Kazımov N. Pedaqoji ustalığın problemləri. Bakı: Çaşıoğlu, 2009.

## ELEKTRON RESURSLAR

• http://web2.anl.az:81/read/page.php?bibid=vtls000338011

**Mühazirə 7: Müəllimin peşə keyfiyyətləri. Müəllimin peşə-mədəniyyətinin formalaşması yolları**

**PLAN:**

**1.Müəllimin üzərinə düşən vəzifələr;**

**2.Müəllimin xeyirxah keyfiyyətinin mahiyyəti**

**3.Əsas peşə keyfiyyətləri**

Ərəb dilindən dilimizə tərcümə edəndə "öyrədən” mənasını verən "Müəllim" sözü özündə çox dərin mənalar və hikmətlər birləşdirən müqəddəs bir kəlamdır. Müəllim dedikdə biz yalnız dərs deyən, sinfə girib-çıxan, məktəbdə çalışan adamları düşünmürük. Bu kəlam göz önünə müdrik, həyatı dərindən bilən, gözəl mənəviyyata və əqidəyə malik, "el içində pak oturub, pak duran" (Aşıq Ələsgər), yaşından asılı olmayaraq ağsaqqal, gəncliyə nümunə ola bilən kamil bir insan gətirir. Məhz buna görədir ki, xalqımız həmişə müəllim adını hörmətlə tutmuş, ona dərin məhəbbət və ehtiram bəsləmişdir. Hörmətli, nəcabətli adamlara "müəllim" deyə müraciət etmiş və bu gün də edirlər. Müəllim öyrədəndir, tərbiyə edəndir. Buna görə də gələcək cəmiyyətin necəliyi də çox vaxt müəllimdən asılı olur. Doğru deyilmişdir ki, məktəbi, müəllimləri güclü olan xalq və millət güclü olar.

Müəllim bu gün yaşayır və fəaliyyət göstərir. Ancaq onun fəaliyyəti gələcəyə doğru yönəlmiş fəaliyyət olur. O, bugünkü işi ilə gələcəyi qurur, gələcək cəmiyyəti hazırlayır. Bu baxımdan, onun əməyi, işi xalq üçün, onun gələcəyi üçün sərf olunan şərəfli əməkdir. Ulu öndər H.Əliyev demişdir: “ Müəllim adı dünyada ən yüksək addır. Şəxsən mən yer üzündə müəllimdən yüksək ad tanımıram. Çünki hər birimizə təhsil, bilik verən, bu səviyyəyə çatdıran məktəbdir, məktəbdə təhsil verən müəllimdir.” Bu kəlamlar müəllimə verilən böyük qiymətdir, onun həqiqi və halal qiymətidir.

Cəmiyyət müəllimə inanır və ona etibar edir. Böyük rus pedaqoqu K.D.Uşinski yazırdı: "Əgər biz həkimlərə öz sağlamlığımızı etibar ediriksə, müəllimlərə uşaqlarımızın əxlaqını, ağlını, ruhunu və bütün bunlarla bərabər öz vətənimizin gələcəyini etibar edirik".

Müəllim bu etibarı özünün biliyi, dünyagörüşü, mənəviyyatı, öyrədə bilmək bacarığı, erudisiyası və pedaqoji ustalığı ilə doğrultmalı, cəmiyyət üçün layiqli vətəndaşlar hazırlamalıdır.

Pedaqoji fəaliyyət başər mədəniyyətinin ixtisaslı mütəxəssislər tərəfindən kiçik nəslə öyrədilməsinə istiqamətlənən fəaliyyətdir. Müəllim bu prosesdə özünün dərin biliyi ilə

şagirdlərinə elmə yiyələnməyin yollarını öyrədir, onları gələcək həyata hazırlayır. Buna görə də pedaqoji fəaliyyət uşaqların hər birinin intellektual, mənəvi və fiziki inkişafı, cəmiyyətdə fəal həyat mövqeyi tutmağa hazırlanmasını nəzərdə tutur. Bu işdə müəllimlərin üzərinə böyük vəzifələr düşür.

Pedaqoji fəaliyyət **məqsədyönlü fəaliyyətdir**. Onun **məqsədi** gənc nəsli elmlərin əsasları ilə silahlandırmaq, onlarda dünyagörüş formalaşdırmaq, milli və ümumbəşəri dəyərlər tərbiyə etməkdir. Bu strateji məqsədə təlim, tərbiyə və təhsilin müxtəlif istiqamətləri üzrə konkretləşdirilmiş vəzifələrin həyata keçirilməsi ilə nail olunur.

Pedaqoji fəaliyyətin mərkəzində **şagird şəxsiyyətinin formalaşması** dayanır. Bu məqsədə nail olmaq üçün həm tərbiyə olunanların fəaliyyəti (fəallığı, motivləri, münasibətləri və s.), həm də tərbiyəçilərin xüsusiyyətləri (peşəkarlığı, həvəsi məsuliyyəti və s.) əsaslı rol oynayır.

Pedaqoji fəaliyyətdə az əhəmiyyət kəsb etməyən məsələlərdən biri bu fəaliyyətin məqsəd və məzmunu arasında **vahidliyin** təmin olunmasıdır. Bu təminat məqsəddən nəticəyə kimi böyük bir yolun-prosesin bir-biri ilə elə əlaqəsini, bağlılığını tələb edir ki, burada həll edilən bütün vəzifələr məhz məqsədin reallaşmasına xidmət etmiş olsun. Təbii ki, belə bir məqsəd böyüyən nəslin savadlı, elmli, geniş dünyagörüşlü, saf əqidəyə malik, yaradıcı düşünə və fəaliyyət göstərə bilən vətəndaşlar kimi tərbiyə edilməsindən ibarətdir. Belə bir ali məqsədin reallaşması isə müəllimdən dərin bilik, öyrətmə bacarığı, yeni pedaqoji təfəkkür tələb edir.

Müəllimlik fəaliyyəti təlim-tərbiyə məqsədilə bir şəxs tərəfindən başqasına (adamlar qrupuna) edilən pedaqoji təsirdir. Bu təsirin güclü, nəticəyönümlü təsir olması müəllim qarşısında pedaqoji fəaliyyətə maraq, uşaqlara məhəbbət, onlarla işləmək arzusu, uşaq kollektivini təşkil etmək bacarığı, onlara rəhbərlik bacarığı, aydın, emosional, inandırıcı nitq, tələbkarlıq, obyektivlik, doğruçuluq, ədalətlilik kimi xüsusi tələblər qoyur.

Müəllimin peşə fəaliyyəti **çoxcəhətli** bir prosesdir. O, təkcə öyrətmir, həm də tərbiyə və inkişaf etdirir.

Bu xüsusiyyətlər vahid istiqamətdə bir-birini tamamladıqda müəllim üzərinə düşən vəzifələri müvəffəqiyyətlə yerinə yetirə bilir və yaxşı müəllim kimi özünü göstərir. **Bu cəhətdən müəllimin qarşısında aşağıdakı bir sıra vəzifələr durur:**

• şagirdləri elmlərin əsasları haqqında biliklərlə möhkəm və dərindən silahlandırmaq, onların təfəkkürünü inkişaf etdirmək;

• şagirdlərin mənəvi inkişafının yüksək səviyyəsini təmin etmək, vətəndaş tərbiyəsinə nail olmaq;

• təhsilin və tərbiyənin metod, vasitə və formalarını daim təkmilləşdirmək;

• yenilikləri izləmək və tətbiq etmək, yaradıcılıq axtrışları aparmaq, öz üzərində daim çalışmaq və s.

Müəllimin pedaqoji ustalığı dərin məzmunlu və geniş sahəli elə bir problemdir ki, ona yiyələnmək, öz işinin əsl ustası olmaq hər bir müəllim üçün uğurdur, şan-şöhrətdir. Pedaqoji ustalıq-müəllimlik fəaliyyətində səriştəlilik, bacarıqlılıq, mahirlik deməkdir. O, müəllimin dərin nəzəri biliyi ilə praktik fəaliyyətinin üzvi vəhdətinin birləşməsindən yaranan elə bir

sənətkarlıqdır ki, burada artıq onun bütün xüsusiyyətləri-bacarıq və qabiliyyətləri, şəxsi keyfiyyətləri özünü göstərir.

## I. Müəllimin vəzifələri haqqında

1) Müəllim özünün vəziyyətinə görə şagirdlərin yanında onların valideynlərini əvəz etməlidir.

3) Müəllim adı onları həmçinin məcbur edir ki, öz şagirdlərinin cəmiyyətin faydalı üzvləri kimi böyütmələrinə səy göstərsinlər; bunun üçün də onlar gəncliyin ictimai vəzifələri izləmələrini rəğbətləndirməli, şagirdlərin idrakını inkişaf etdirməli, onlara düşündükləri kimi də ağıllı, təmiz, xeyirxah olmağı öyrətməlidirlər. Və yazılmış elmləri gəncliyə elə mənimsətməlidirlər ki, onlar ümumi həyatda gərəkli olsunlar.

## II. Müəllimin keyfiyyətləri haqqında

Müəllimin *xeyirxah keyfiyyətinin* mahiyyəti:

**1. Xeyirxahlıq**

5) Öz evində o sülhsevər, vicdanlı, saf olmalı, hamıya mehribanlıq, xeyirxahlıq münasibəti göstərməli, onların xidmətində dayanmalıdır.

6) Xüsusilə o, başqalarına şər atmaqdan, yalan danışmaqdan, and içməkdən... böhtan atmaqdan və ədəbsiz sözlər işlətməkdən, əxlaqsız qadınlarla ünsiyyətdən uzaq olmalıdır.

**2. Müəllimin sevgisi**

1) O, bütün şagirdlərə ata münasibəti, ata məhəbbəti ilə, başqa sözlə, nəvazişlə, böyük sevgi ilə yanaşmalıdır.

2) O, şagirdlərlə rəftarında səmimi, mehriban və təvazökar olmalı və onların məktəbə gəldikləri vaxtda, yaxud müəllimin təkliflərini, məsləhətlərini dərhal anlamadıqları zaman peşmançılıq çəkmələrinə, pərt olmalarına yol verməməlidir.

3) Müəllim şagirdlərin xoşladıqları şeyə diqqət yetirməyə imkan verməlidir. Bu zaman onlar məktəbə tez-tez, həvəslə, səylə gəlir və müəllim də onları sevir.

4) Sevgi adi uşaq sevgisi deyil, daimi və əhəmiyyətli vasitələri özündə birləşdirən sevgi olmalıdır. O, uşaqların valideynlərinin var-dövlətinə, fıravan həyatına əsaslanmamalı, uşaqların əxlaqı, tərbiyəsi, səyi, çalışqanlığı üzərində qurulmalıdır.

**3. Cəsarət**

Müəllim süst, tutqun, qaş-qabaqlı, yaxud yalnız uşaqları tərifləmək üçün gərəkli, soyuqqanlı olmamalıdır. O, özlərini yaxşı aparan, nəvazişli, inandırıcı sözləri ilə başqalarını ruhlandıran uşqaları tərifləməlidir.

**4. Səbr**

1) Müəllimin dərs dediyi şagirdlər içərisində tənbəl, fərsiz, çevik və inadkar uşaqlar olduqda və valideynlər bunların hamısını onun fəaliyyəti ilə əlaqələndirdikdə müəllim səbrli olmalı, təmkinini pozmamalıdır.

2) Müəllim təsəvvür etməlidir ki, o, çox zəhmətli, əzablı işlər üçün yaranmışdır.

**5. Səy**

1) O adam səy göstərir ki, o, nə üçün, nəyə işlədiyini yaxşı bilir, heç nədən, heç bir çətinlikdən çəkinmədən məqsədinə çatmağa ciddi cəhd edir. Müəllimdə səy son dərəcə güclü olmalıdır ki, o, şəxsi timsalında bu keyfiyyəti şagirdlərində də aşılaya bilsin.

2) Əgər müəllim ən adi, kiçik səbəb üzündən məktəbin mənafeyini güdmürsə, yaxud tez-tez gecikirsə və ya lazım olmayan vaxtda öyrətməyə başlayırsa, yaxud dərs keçmək əvəzinə özünün ev işləri ilə məşğul olursa, şagirdlər də onun kimi işə can yandırmayan, başısoyuq olur, məktəbə gec gəlir, oxumağa səy göstərmir, yaxud da məktəbdən tamam uzaqlaşırlar.

3) Müəllim özünün başısoyuqluğu ilə valideynlərin etimadını, uşaqların məhəbbətini və özünün qazancını itirir...

Görkəmli pedaqoq F.İ. Yankoviçin qeyd etdiyi bu keyfiyyətlərdən bu gün də faydalanmalı cəhətlər çoxdur.Bəzi müəlliflər peşə keyfiyyətləri dedikdə, müəllimin malik olduğu bütün xüsusiyyətləri şəxsi keyfiyyətlərini, peşə bacarıq və qabiliyyətlərini, peşə etikasını, pedaqoji ünsiyyətini, pedaqoji texnikanı və s. hamısını bura daxil edirlər. Bəzi müəlliflər isə müəllimin peşə keyfiyyətlərinə yalnız şəxsi psixoloji keyfiyyətlər zəminində olan keyfiyyətləri daxil etməklə, onların şəxsiyyəti xarakterizə edən keyfiyyətlər olduğunu göstərirlər.

**Bu sahədə bir sıra maraqlı və sanballı tədqiqatlar aparmış V.A.Slastenin isə müəllimlər üçün aşağıdakı bir sıra peşə keyfiyyətlərinin vacibliyini göstərir:**

1) uşağa maraq və sevgi pedaqoji fəaliyyətdə əks olunan tələbat kimi;

2) ədalətlilik;

3) pedaqoji sayıqlıq və müşahidəçilik;

4) pedaqoji talant;

5) pedaqoji təxəyyül;

6) ünsiyyətlilik;

7) tələbkarlıq, inadkarlıq, aydın məqsədi olma;

8) təşkilatçılıq bacarığı;

9) təmkinlilik və möhkəmlik;

10) peşəkarlıq bacarığı.

M.Ə.Həmzəyev problemə bir qədər geniş aspektdən yanaşaraq pedaqoji fəaliyyət zamanı müəllimin malik olduğu keyfiyyətləri onun şəxsiyyətinə daxil edir və bu keyfiyyətlərin

aşağıdakılardan ibarət olduğunu göstərir: 1) öz fənninə dərindən yiyələnmək; 2) idrak nəzəriyyəsini və pedaqoji elmi mükəmməl əxz etmək; 3) ayrı-ayrı anlayışlar arasındakı əlaqə və münasibətləri açmağı bacarmaq; 4) şagirdləri fəallaşdırmaq məqsədilə müxtəlif kommunikativ vasitələrdən istifadə edə bilmək.

Müəllif bunlarla bərabər, digər bir sıra keyfiyyətlərin- dözümlülük, təvazökarlıq və özünə qarşı tələbkarlıq, uşaqlara məhəbbət, seçdiyi ixtisasa maraq, pedaqoji bacarıq və vərdişlərə malik olmaq, pedaqoji qabiliyyətlər və s. olmasını da zəruri hesab edir.

**İbn Akninə görə, müəllim aşağıdakı yeddi keyfiyyətə malik olmalıdır:**

1. Dərs dediyi fənni mükəmməl bilməlidir.

2. Hərəkətləri biliyinə uyğun gəlməlidir.

3. Təhsil üçün nəmərdən imtina etməlidir.

4. Şagirdlərlə öz övladları kimi rəftar etməlidir.

5. Biliyinə və ona uyğun olaraq, hərəkətinə dərin inamı olmalı, eyni zamanda bu inamı şagirdlərinə aşılamalı və bununla da onlara xoşbəxtliyin yolunu göstərməli.

6. Şagirdlərinə qarşı xeyirxah və səbrli olmalı.

7. Tədris planını şagirdlərin əqli qabiliyyətinə uyğun olaraq, ardıcıllıqla tətbiq etməlidir.

Bunların hər biri müasir müəllim üçün zəruri keyfiyyətlər olsa da, müəllif onları, yəni müəllimin əxlaqi, mənəvi keyfiyyətlərini də, didaktik bacarıq və qabiliyyətlərini də, ümumi mədəniyyət göstəricilərini də ümumiləşdirərək peşə keyfiyyətləri kimi təqdim edir.

**Pedaqoji elmlər üzrə fəlsəfə doktoru, dosent Vəli Əliyev müəllimlərin peşə keyfiyyətlərini aşağıdakı qruplar üzrə təsnif edir:**

1. **Müəllimin ümumi peşə keyfiyyətləri**: Yüksək mənəvi və əxlaqi keyfiyyətlər (məsələn: düzlük, doğruçuluq, səmimi- lik, saflıq, uşaqlara hörmət və məhəbbət, mehribanlıq), ümumi mədəniyyət, özünənəzarət, özünü ələ alma bacarığı, tələbkarlıq, pedaqoji incəsənət, məsuliyyətlilik, peşəsinə məhəbbət və s.

2. Müəllimin xüsusi peşə keyfiyyətləri: aydın və emosional nitq mədəniyyəti, ünsiyyət mədəniyyəti, peşəsinə maraq, aktyor talantına malik olmaq, pedaqoji texnika, psixoloji əql, təşkilatçılıq bacarığı və s.

3. **Müəllimin spesifik peşə keyfiyyətləri**: tədris etdiyi fənn üzrə həmin fənnə aid spesifik xüsusiyyətlər (məsələn: ibtidai sinif müəllimi üçün aydın, səlist, intonasiyalı və emosional oxu və danışıq mədəniyyəti, şifahi hesablama vərdişi və s.; dil- ədəbiyyat müəllimi üçün şifahi və yazılı nitq mədəniyyəti, bədii əsərləri təhlil edə bilmə bacarığı, sinif qarşısında intonasiyalı, aydın, obrazlı, ifadəli oxu və danışıq qabiliyyəti, fikirlərini obrazlı ifadə edə bilməsi və s.).

Müəllimin pedaqoji ustalığında xüsusi yeri və rolu olan bu keyfiyyətlər hər bir müəllim üçün zəruri və vacib keyfiyyətlərdir.

**İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI**

1. Əliyev H. Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002.

2. İlyasov M. Müəllimin pedaqoji ustalığı. Dərs vəsaiti. Bakı: Elm və təhsil, 2013.215s.

3.Həsənov A.Məktəbəqədər pedaqogika. Dərs vəsaiti. Bakı:"Nasir nəşriyyatı".2000

**ELEKTRON RESURSLAR**

• http://web2.anl.az:81/read/page.php?bibid=vtls000338011

**Mühazirə 8: Müəllimin pedaqoji səriştəliyi və ona verilən tələblər**

**PLAN:**

1. **Pedaqoji fəaliyyət tərbiyəçi-müəllim üçün vacib keyfiyyət kimi;**
2. **Pedaqoji ustalıqda mühüm yer tutan peşə keyfiyyətləri**
3. **Səriştəli müəllimləri xarakterizə edən keyfiyyətlər;**
4. **Müəllim səriştəliliyinə verilən tələblərə yiyələnirlər**

**Pedaqoji fəaliyyət** (müəllimin fəaliyyəti) digər fəaliyyətin (şagirdlərin fəaliyyətinin) idarə edilməsi kimi çətin və mürəkkəb bir prosesdir. Tərbiyə olunanların şəxsiyyətinə, onun formalaşmasına doğru istiqamətlənən bu fəaliyyət çoxcəhətli və məqsədyönlü fəaliyyət kimi müəllimdən dərin bilik, bacarıq, səriştəlilik, mahirlik, işinə dərin maraq tələb edir. Pedaqoji ustalıq bu xüsusiyyətlərin kompleksi olub, müəllimin peşə biliklərinin, pedaqoji qabiliyyətlərinin və pedaqoji texnikasının vəhdətindən ibarətdir. Bu xüsusiyyətlər bir-biri ilə sıx surətdə bağlı olub, pedaqoji ustalığın ahəngdarlığını təmin edir.

**Pedaqoji fəaliyyət** biristiqamətli proses deyildir. Eyni zamanda bu fəaliyyətin obyekti olan insana-şagirdə bir deyil, onlarla, yüzlərlə gözə görünməyən amillər təsir edir: bir tərəfdən, şagirdin özü, onun fərdi psixofizioloji xüsusiyyətləri, pedaqoji prosesdə iştirak səviyyəsi, digər tərəfdən isə, onu əhatə edən sosial mühit. Bütün bunlar isə heç də həmişə müsbət təsirə və nəticələrə səbəb olmur. Buna görə də müəllim yaradıcı düşünməli və fəal fəaliyyətə qoşulmalıdır. **Bu baxımdan pedaqoji fəaliyyətin aşağıdakı əsas istiqamətlərini qeyd etmək olar:**

- şagirdlərin elmlərin əsasları ilə silahlandırılması, onlarda elmi dünyagörüşün formalaşdırılması;

- cəmiyyətin müəyyənləşdirdiyi əxlaq normaları ilə şagirdlərin tanış edilməsi, onlarda əxlaqi davranışın tərbiyə edilməsi;

- şagirdlərin gələcək müstəqil həyata hazırlanması məqsədilə onlarda bacarıq və vərdişlərin formalaşdırılması;

- gənc nəsildə mənəvi əqidə və inamın formalaşdırılması;

- şagirdlərin intellektual səviyəsinin və psixi xüsusiyyətlərinin inkişaf etdirilməsi;

- mühitin neqativ təsirinə qarşı fəaliyyətin təşkili və onların təshih edilməsi;

- valideynlərlə pedaqoji əməkdaşlığın təşkili, şagird şəxsiyyətinin inkişafında birgə fəaliyyətin təşkili və s.

Bu istiqamətlərdə fəaliyyətin məzmunlu və məqsədəyönlü təşkili müəllimdən yüksək pedaqoji ustalıq tələb edir.

Bir sıra alimlər belə hesab edirlər ki, pedaqoji ustalıq intuisiya ilə biliklərin, hər bir pedaqoji çətinliyi dəf edə bilən rəhbərliyin, uşaq qəlbinin duyğularını hiss edə bilmək bacarığının, daxili aləmi kövrək və incə olan uşaq şəxsiyyətinə nəcib və qayğı ilə yanaşmanın, müdriklik və yaradıcı cəsarətin, elmi təhlil bacarığı, təxəyyül və təsəvvürün birləşməsidir.

*Professor M.Həmzəyev müəllimin pedaqoji ustalığını şərtləndirən xüsusiyyətləri iki qrupa ayırır.* Uşaqlara məhəbbət və seçdiyi ixtisasa marağı daxil etdiyi **birinci qrupu** müəllim şəxsiyyətinin peşə-pedaqoji istiqaməti, müəllimin bir sıra pedaqoji, psixoloji bacarıq və qabiliyyətini daxil etdiyi **ikinci qrupu** müəllimin pedaqoji bacarıq və qabiliyyətləri adlandırır. Müəllif burada bir sıra pedaqoji qabiliyyətlərin üzərində xüsusi olaraq dayanır, onları pedaqoji ustalıq üçün başlıca xüsusiyyətlər hesab edir və çox doğru olaraq, bunların hamısını müəllim şəxsiyyətinin formalaşmasının əsas əlamətləri kimi izah edir.

**Başqa bir pedaqoji ədəbiyyatda isə bu xüsusiyyətlərin bir- biri ilə əlaqədar olan aşağıdakı dörd elementdən ibarət olduğu göstərilir:** a) müəllim fəaliyyətinin humanist istiqamətliliyi; b) peşə bilikləri c) pedaqoji qabiliyyətlər; ç) pedaqoji texnika. Bunun da hər biri öz növbəsində müəyyən komponentlərə ayrılır və pedaqoji ustalığın məzmununu və pedaqoji fəaliyyətin ahəngdarlığını təmin edir. Belə ki, müəllim fəaliyyətinin humanist istiqamətliliyi onun fəal mövqeyində ifadə olunur: 1) özünəinamda; 2) vasitələrə qarşı pedaqoji təsirdə; 3) şagirdlərə və uşaq kollektivinə qarşı humanistlikdə və 4) pedaqoji fəaliyyətin məqsədinə qarşı strategiyada vasitələrə, fəaliyyət obyektinə yaradıcı təsirdə qiymətlilik təmayülü kimi aşkara çıxır.

Pedaqoji ustalığın fundamental əsasında peşə bilikləri, pedaqoji biliklərin formalaşmasının əsasında isə pedaqoji şüur və düşüncə, yəni fəaliyyət və yanaşmanın prinsip və qaydaları durur. **Pedaqoji qabiliyyətlər** - konstruktiv, kommunikativ, perseptiv, qnostik, təşkilatçılıq, suqqestiv və s. qabiliyyətlərə ayrılaraq həm tədris olunan fənn üzrə dərin biliklərə yiyələnməklə, həm də təlim-tərbiyə işlərini səmərəli surətdə həyata keçirməklə həlledici rol oynayır. Pedaqoji texnikaya gəldikdə isə o, müəllim davranışını təşkiletmə forması kimi özündə iki qrup bacarıqları: 1) öz orqanizminə sahib olmaq, emosional vəziyyət, ünsiyyət

texnikası və 2) didaktik, təşkilatçılıq, qarşılıqlı təsirin əlaqə texnikasına malik olmaq bacarıqlarını birləşdirir.[1]

Tərbiyənin məqsədinin gələcəyə yönələn olması ilə əlaqədar olaraq müəllimin də fəaliyyəti ilk növbədə tərbiyə etdiyi şəxsiyyətin gələcəyinə yönəldilir. Başqa sözlə desək, müəllimin fəaliyyəti şagirdlərin təlim-tərbiyəsinin gələcək nəticəsinin bu gün məqsəd kimi qarşıya qoyulub, gələcəyə istiqamətlənən olması ilə səciyyələnir.

Müəllimin peşə fəaliyyəti çoxcəhətli bir prosesdir. Təhsil, müəllim və məktəb haqqında bir sıra dövlət sənədlərində və pedaqoji ədəbiyyatlarda bu prosesin üç mühüm istiqaməti: öyrədici, tərbiyəedici və ictimai-pedaqoji istiqaməti daha qabarıq şəkildə qeyd edilir. Müəllim o zaman tam, yetkin və yaxşı müəllim kimi özünü göstərə bilir ki, onda bu üç mühüm vəzifə, istiqamət vahid yönümdə bir-birini tamamlasın və sıx surətdə əlaqələnə bilsin. Buna görə də müəllim həm öyrətməli, həm tərbiyə etməli, həm də ictimai-pedaqoji istiqamətdə fəal iştirak etməlidir. Bunun üçün müəllimdən bir sıra peşə keyfiyyətlərinə malik olmaq tələb olunur.

**Pedaqoji ustalığın əsasında peşə bilikləri durur.** Peşə bilikləri müəllimi ilk növbədə müəllim kimi tamdan və xarakterizə edən keyfiyyətdir. Peşə biliyinin zəifliyi müəllimi nüfuzdan salır, onu öz işinin ustası-yaxşı müəllim olmaqdan "saxlayır". Heç şübhəsiz ki, öz işinin ustası və novator kimi tanınan, xalq içərisində hörmət və nüfuz qazanan müəllimlər ilk növbədə özlərinin dərin peşə-ixtisas bilikləri ilə fərqlənən müəllimlərdir.

A.S.Makarenko qeyd edirdi ki, şagirdlər müəllimlərinə ciddiliyi, soyuqluğu, quruluğu və hətta yersiz irad tutmalarını bağışlayar, lakin zəif peşəkarlığını bağışlamazlar. Hər şeydən əvvəl, onlar müəllimlərində aydın və dəqiq bilik, bacarıq, səriştə, qabiliyyət, təmkin, işə daim hazırlıq, məntiqi düşüncə, tərbiyə prosesini bilmək, tərbiyəetmə bacarığını üstün tuturlar.

**Peşə bilikləri iki istiqamətdə özünü göstərir:** 1) müəllimin pedaqogikanı, psixologiyanı dərindən bilməsi, pedaqoji şüura, düşüncəyə malik olması və pedaqoji qaydaları dərindən mənimsəməsi; 2) müəllimin öz ixtisasını onun incəliklərinə qədər dərindən bilməsi.

Təcrübə göstərir ki, bunların hər ikisi birləşdikdə və müəllimin yiyələndiyi təcrübə ilə zənginləşdikdə müəllim özünün fərdi üslubunu yaradır, onun peşəkarlıq səviyyəsi yüksəlir.

**Peşə bilikləri pedaqoji ustalıqda mühüm yer tutur. Peşə biliklərinin dərinliyi pedaqoji ustalığa geniş meydan açır. Lakin bu biliklərin necə, hansı səviyyədə verilə bilməsi, şagirdlərə çatdırılması heç də bunlardan az əhəmiyyət kəsb etmir. Buna görə də burada bir neçə vacib məsələnin nəzərə alınması olduqca vacibdir:**

1. Tədris materialının və bütövlükdə təlim məqsədinin müəllim tərəfindən düzgün müəyyənləşdirilməsi.

2. Məqsədəmüvafiq vəzifələrin aydınlaşdırılması və onların konkretləşdirilməsi.

3. Tədris materialının məzmununun aydın dərk olunması və əsas ideyanın, başlıca arqumentin müəyyənləşdirilməsi.

4. Tədris prosesinin məqsəd, vəzifə və məzmununa uyğun, əlverişli metodların seçilməsi.

5. Şagirdlərin dərketmə səviyyəsinə və proqram tələblərinə uyğun, onu aydın, asan həll etməyə səbəb olan təlim formalarının müəyyən edilməsi.

6. Şagirdlərin nəzəri bilikləri ilə praktik bacarıq və vərdişlərinin optimal həcmini müəyyən edə bilmək və onları reallaşdırmaq.

7. Təlim nəticələrinin aydın dərk olunması və ona nail olunması.

Pedaqoji ustalığa yiyələnmək müəllimdən bir çox keyfiyyətlər, bacarıq və qabiliyyətlər tələb edir.

**Pedaqoji ustalıqda mühüm yer tutan peşə keyfiyyətlərini üç qrupda təsnif etmək olar: ümumvətəndaş keyfiyyətləri, müəllim peşəsinin spesifikasını müəyyənləşdirən keyfiyyətlər və xüsusi bilik, bacarıq və vərdişlərə malik olmaq keyfiyyətləri.** Pedaqoji biliklər nə qədər dərin və geniş olsa da, pedaqoji bacarıqlar olmadan onlar pedaqoji ustalıq üçün kifayət etməyəcəkdir. Görkəmli pedaqoq **Ş.Amonaşvili pedaqoji ustalığa aparan üç mənbənin olduğunu göstərirdi:** 1) şəxsiyyətə humanist yanaşma mövqeyi; 2) pedaqoji prosesdə mövqe qazanmaq texnologiyasına yiyələnmə; 3) elmlə ünsiyyət etmək, böyük mütəfəkkirlərin, alimlərin kitablarını "qazımaq".

Pedaqoji proses pedaqoji yaradıcılıq üçün əsas laboratoriyadır. Bu prosesdə müəllim bir sıra mühüm qabiliyyətlərə yiyələnir ki, bunlar da onun usta müəllim kimi formalaşmasının əsasını təşkil edir. **Bir çox pedaqoq və psixoloqların bu sahədə gəldikləri ümumiləşdirilmiş nəticələr aşağıdakılardan ibarətdir:**

**1. Didaktik qabiliyyətlər.** Bu qabiliyyətlərə uşaqlara tədris materialını aydın şəkildə çatdırmaq, fənnə maraq oyatmaq, onlarda fəal, sərbəst düşüncəni stimullaşdırmaq qabiliyyətləri aiddir. Didaktik qabiliyyətlərə malik olan müəllim lazım olduqda tədris materialını müvafiq şəkildə rekonstruksiya etməyi, mürəkkəb olanı sadələşdirməyi, çətin olanı asanlaşdırmağı, aydın olmayanı aydınlaşdırmağı bacarır.

**2. Akademik qabiliyyətlər.** Müvafiq elm sahəsinə (riyaziyyata, fizikaya, ədəbiyyata və s.) olan qabiliyyətlər. Müəllim fənni təkcə tədris kursu həcmində bilməməli, öz elmində baş verən yenilikləri də izləməli, az da olsa tədqiqat işi aparmalıdır.

**3. Perseptiv qabiliyyətlər.** Şagirdin daxili aləminə varma qabiliyyəti, psixoloji müşahidəçilik, şagirdin keçici psixoloji vəziyyətini anlamaq qabiliyyəti. Qabiliyyətli pedaqoq cüzi xarici əlamətlərə görə şagirdin daxili vəziyyətini hiss etməyi bacarmalıdır.

**4. Nitq qabiliyyəti.** Öz fikir və hisslərini nitqin, habelə mi- mika və pantomimikanın köməyi ilə ifadə etmək qabiliyyəti. Qabiliyyətli müəllimin nitqi dərsdə həmişə şagirdlərə, tələbələrə yönəlmiş olur. Yeni materialı izah edib-etməməsindən, şagirdin cavabını şərh edib-etməməsindən və s. asılı olmayaraq pedaqoqun nitqi daxili qüvvəsi ilə fərqlənir. Pedaqoq öz fikrini dəqiq, sadə dildə çatdırmalıdır.

**5. Təşkilatçılıq qabiliyyətləri:** a) şagird kollektivini mühüm məsələlərin həllinə səfərbər etmək qabiliyyəti; b) öz şəxsi işini düzgün təşkil etmək, onu düzgün planlaşdırmaq və ona nəzarət etmək qabiliyyətləri (təcrübəli pedaqoqda tədricən zaman hissi, yəni işi təyin olunmuş müddətdə başa çatdırmaq bacarığı formalaşır).

**6. Avtoritar qabiliyyətlər.** Şagirdlərə bilavasitə emosional-iradi təsir etmək və bu yolla onların hərəkətini tənzimləmək, idarə etmək onlar qarşısında özünə nüfuz qazanmaq qabiliyyətləri. Fənni yaxşı bilməklə də şagirdlər qarşısında nüfuz qazanmaq olar. Avtoritar qabiliyyətlər bir sıra şəxsi keyfiyyətlərdən (qətilikdən, dözümlülükdən, inadkarlıqdan, tələbkarlıqdan və s.), habelə şagirdlərin təlim-tərbiyəsinə görə məsuliyyət hissindən də asılıdır.

**7. Kommunikasiya qabiliyyətləri.** Tələbə və şagirdlərlə ünsiyyətə qabil olmaq, onlara düzgün yanaşmanı tapıb tətbiq etmək, onlarla məqsədəmüvafiq qarşılıqlı münasibət qurmaq qabiliyyətləri.

**8. Pedaqoji təxəyyül.** Proqnostik qabiliyətlərə aiddir. Bu xüsusi qabiliyyət öz hərəkətlərini proqnozlaşdırmaq bacarığında öz ifadəsini tapır.

**9. Diqqətin paylanması qabiliyyəti.** Müəllim üçün diqqəti eyni zamanda bir neçə fəaliyyət növləri arasında bölüşdürməyi bacarmaq da çox əhəmiyyətli məsələdir. Qabiliyyətli, təcrübəli pedaqoq materialın çatdırılmasının məzmununa və formasına nəzarət edir, bütün şagirdləri öz diqqət mərkəzində saxlayır, uşaqlarda yorulma əlamətlərinə, nizam-intizamın pozulmasına dərhal reaksiya verir, özünün davranışına (pozasına, mimika və pantomimikasına) nəzarət edir.

Bunlarla yanaşı, bəzi pedaqoji-psixoloji ədəbiyyatlarda şagirdlərə emosional təsir göstərə bilmək bacarıqlarından ibarət olan suqqestiv qabiliyyətlərin, müəllimin öz ixtisası üzrə bilikləri mənimsəmə bacarıqlarından ibarət olan elmi-irakı qabiliyyətlərin və digərlərinin də olduğu göstərilir. Bəzi pedaqoji və psixoloji ədəbiyyatlarda isə bu qabiliyyətlər bacarıqlarla eyniləşdirilir və bacarıqlar kimi təqdim olunur.

Pedaqoji ustalığa yiyələnməyin zəruri elementlərindən biri də pedaqoji texnikaya yiyələnməkdir. Pedaqoji məharətə və ustalığa pedaqoji biliklər və intuisiyadan əlavə, pedaqoji texnika sahəsindəki biliklər də daxildir. Bunlar tərbiyəçiyə minimum əmək sərf etməklə böyük nailiyyətlər əldə etməyə imkan verir. Belə olan təqdirdə müəllimin ustalığı əldə edilən nailiyyətlərin hüdudundan kənara çıxır, daha da genişlənir. Pedaqoji texnika özü də bacarıqlarla sıx əlaqədə olur.

**Pedaqoji ədəbiyyatlarda pedaqoji texnikanın iki qrup bacarıqları özündə birləşdiyi qeyd edilir:**

1) öz orqanizminə sahib olmaq, emosional vəziyyəti idarə edə bilmək və ünsiyyət texnikası;

2) didaktik bacarıqlarına, təşkilatçılıq bacarığına və qarşılıqlı təsirin əlaqə texnikasına malik olmaq.

Pedaqoji ustalığı müəllimin peşə fəaliyyətinin səmərəli təşkili, pedaqoji prosesin nəticəsinin yüksək səviyyədə təmin olunması, pedaqoji vəzifələrin həllinə maksimum səviyyədə nail ola bilmək kimi başa düşmək lazımdır.

Pedaqoji proses olduqca mürəkkəb bir fəaliyyət sistemidir. Bura həm pedaqoji prosesin özünün qanunauyğunluqları, həm də burada iştirak edən subyektlər arasındakı münasibətlər

mühüm təsir göstərir. Bu baxımdan pedaqoji ustalığın şablon üsulunu göstərmək mümkün deyildir. Və bu heç lazım da deyildir. Burada müəllimin pedaqoji-psixoloji bilikləri, qabiliyyət və bacarıqları, erudisiyası, pedaqoji təfəkkürü, yaradıcılıq qabiliyyəti, çevik düşüncə tərzi, həmçinin şərait, şagirdlərin öyrənmə marağı, müəllim-şagird, müəllim-valideyn münasibətləri mühüm rol oynadığından hər bir müəllimin pedaqoji ustalığında spesifik xüsusiyyətlər, fərdi üslublar mühüm yer tutur.

Pedaqoji ustalığa yiyələnmək olduqca çətin və uzun bir yol keçir. Bu, məktəbdə, bilavasitə təlim-tərbiyə prosesində, şagirdlərlə qarşılıqlı ünsiyyətdə formalaşır və tərbiyə olunur. Burada müəllimdən yüksək bilik və onu verə bilmək qabiliyyəti, rəhbərlik nüfuzu, uşaqları duya bilmək, onların hiss və həyəcanını, qəlbini hiss etmək, pedaqoji intuisiya, humanstlik, yaradıcılıq qabiliyyəti, dözümlülük, səbr və təmkinlilik, təhlil etmə və nəticə çıxarma və s. tələb olunur.

Pedaqoji ustalıq pedaqoji biliyi, vasitə və metodları özündə birləşdirməklə bütov bir sistem yaradır. Bura uşaqlar, onların psixoloji xüsusiyyətləri, təlim-tərbiyə prosesinin məzmunu, təşkil formaları, metodları və texnologiyaları haqqında geniş, hərtərəfli bilik və onların həyata keçirilməsi bacarıqları daxildir.

Beləliklə, **müəllimin pedaqoji ustalığı** - savadlılığın müəyyən səviyyəsi ilə pedaqoji peşə fəaliyyətinin həyata keçirilməsi təcrübəsinin qarşılıqlı təsiri nəticəsində yaranır və inkişaf edir. Başqa sözlə, pedaqoji ustalıq dedikdə müəllimlərin pedaqoji fəaliyyəti yüksək səviyyədə, peşəkarlıqla həyata keçirə bilmə qabiliyyəti başa düşülür.

**İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI**


1. Əliyev H. Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002.

2. İlyasov M. Müəllimin pedaqoji ustalığı. Dərs vəsaiti. Bakı:  Elm və təhsil, 2013.215s.

3.Həsənov A.Məktəbəqədər pedaqogika. Dərs vəsaiti. Bakı:"Nasir nəşriyyatı".2000.367s.

4. Kazımov N. Pedaqoji ustalığın problemləri. Bakı: Çaşıoğlu, 2009.


**ELEKTRON RESURSLAR**


• https://anl.az/el/Kitab/2018/07/cd/2018-1050.pdf

• http://web2.anl.az:81/read/page.php?bibid=vtls000338011


**Mühazirə 9: Müəllim səriştəliyinin başlıca istiqamətləri**

**PLAN:**

**1. Müəllimin peşə səriştəliliyinin əsas meyarları;**

**2. Pedaqoji dəstək müəllim səriştəliliyinin amili kimi;**

**3. Uşaq şəxsiyyətinin sosiallaşmasında tərbiyəçi-müəllimin səriştəli**

**mövqeyi**

Müəllimlərin səriştəliliyinin artırılması inkişaf etməkdə olan Azərbaycan təhsil siyasətində başlıca yerlərdən birini tutur. Səriştəlilik pedaqoji prosesin yüksək səviyyədə təşkili və aparılması, keyfiyyətlinəticələr əldə edilməsi üçün əsasdır. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasında müəllimin peşə səriştəliliyinə xüsusi diqqət verilməsi də onun bu funksiyasından irəli gəlir. Pedaqoji prosesə müxtəlif cür yanaşmaların olduğu indiki şəraitdə təhsilə səriştəli yanaşma şagirdlərin nəzəri və praktik bilik, bacarıq və vərdişlərə yiyələnmələrinin elə bir yoludur ki, bu zaman Y.A.Komenski-nin dediyi kimi, öyrədənlər az öyrədir, öyrənənlər isə çox öyrənirlər. Müəllim elə bir situasiya, təhsilalma şəraiti, öyrənmə mühiti yaradır ki, burada öyrənilən bilik, mənimsənilən bacarıq və yiyələnilən vərdişlər onun trasformasiyası ilə deyil, bilavasitə bələdçiliyi, oriyentasiyası ilə əldə edilir. Şagirdlər elə bir fəal fəaliyyətə cəlb edilirlər ki, onlar biliyə daha çox müstəqil çalışmaqla yiyələnirlər. Pedaqoji səriştəlilik müəllimin pedaqoji hadisə və proseslərə ustalıqla, peşəkarlıqla yanaşmasıdır. Təhsilverənlərin öyrətməyin və öyrənməyin çoxlu metodları, yolları içərisindən ən optimalını, ən asanını, ən qısa yolla və zamanla həll edilə biləni seçib tətbiq edə bilməsidir.

Müəllim səriştəliliyinin müxtəlif parametrləri, göstəriciləri olduğu kimi, müasir dövrdə onun strukturunda da müxtəliflik özünü göstərir. **Pedaqoji ədəbiyyatlarda məktəb müəlliminin səriştəlilik modelinin strukturunun - yeni səriştəliliyin və bu çərçivədə fəaliyyət növlərininaşağıdakılardan ibarət olduğu göstərilir:**

**Texnoloji** (tədris-təlim və tərbiyə prosesində pedaqoji texnologiyaların mənimsənilməsi və səmərəli istifadəsi);

**Layihə**-konstruktiv (tədris (işçi) proqramlarının layihələndirilməsi, təhsil müəssisəsinin əsas təhsil proqramlarının işlən-

məsində iştirak, universal tədris fəaliyyətinin və əsas səriştəliliklərin formalaşdırılmasını təmin edən tapşırıqların konstruksiya edilməsi);

Analitik (tədris-metodik komplekslərin dövlət standartlarına uyğunluğunun təhlili; əsas səriştəliliklərin və universal tədris

fəaliyyətinin formalaşmasını təmin edən tapşırıqların seçilməsi);

**Proqnostik** (təklif olunan tədris-metodik komplekslərin təhlili əsasında əsas təhsil proqramlarının mənimsənilmə nəticələrinin proqnozlaşdırılması);

**Qiymətləndirmə** (əsas təhsil proqramlarının mənimsənilmə nəticələrinin qiymətləndirilməsi üçün yeni sistemin tətbiqi: bal reytinq sistemi, təlim nəticələrinin portfeli və s.);

**Monitorinq** (tədris-təlim prosesinin və dərs vermənin keyfiyyəti-nin müəyyən edilməsi üçün texnoloji monitorinqin mənimsənilməsi və istifadə olunması.

Peşə səriştəliliyi peşənin məzmunu ilə bilavasitə bağlı olan keyfiyyətdir. Bu baxımdan müəllimin peşə səriştəliliyi pedaqoji fəaliyyətin bütün mərhələlərində özünü göstərməklə bir tamlıq yaratmalıdır. Müəllim həm tədris prosesində şagirdlərlə

qarşılıqlı təsirdə, həm dərsdənkənar vaxtlardaaparılan tədbirlərdə peşəkarlıqla yanaşı səriştəlilik də nümayiş etdirməli, hər bir şeyə səriştəli yanaşmalıdır. Müəllimin peşə səriştəliliyi pedaqoji prosesdəki bütün gərginliyi aradan qaldırmaqla yanaşı, təlim-tərbiyə işlərinin nəticəyönümlüyünü də təmin edir. Səriştəli müəllimin keçdiyi dərsdə təkcə şagirdlər deyil, müəllimin özü də heç bir əsəb gərginliyi, sıxıntı, naratlıq keçirmir. Rozenfeld tərəfindən aparılan bir təcrübədə məlum olmuşdur ki, dərsə hazırlıqlı gələn müəllimlərin üz ifadələri, danışıqları, fəaliyyətləri, gülümsəmə tərzləri, jest və mimikaları kimi davranışları dərsə hazırlıqsız gələn müəllimlərin eyni davranışlarından təqribən ikiqat daha təsirli olmuşdur).

Müəllimin səriştəli davranışı, pedaqoji hadisə və proseslərə səriştəli yanaşması onun pedaqoji məharətinin göstəricisi kimi də xarakterikdir. İstər dərs prosesinə, istərsə də dərsdənkənar aparılan tədbirlərə müəllimin səriştəli yanaşması dərsin və digər tədbirlərin səmərə və keyfiyyətinin yüksəlməsinə birbaşa təsir göstərir. Bu hər şeydən əvvəl müəllimin pedaqoji prosesə yenilikçi mövqedən yanaşması ilə xarakterizə olunur. Müəllimin yenilikçi olması onun təkcə yeni metodlara, müasir təhsil texnologiyalarına mükəmməl yiyələnməsi deyildir.

Yenilikçilik, novatorluq həm də ənənəvi metodları, texnologiyaları yaxşı bilmək, ənənəviliklə müasirliyi müqayisə edə və əlaqələndirmək, onlarda yaxşı nə varsa onu tətbiq edə bilməkdir. Buna görə də müəllimin pedaqoji proseslərə səriştəli yanaşması onun mütərəqqi pedaqoji təcrübəni öyrənməsi, ümumiləşdirməsi və onları özünün fəaliyyətinə tətbiq edə bilməsi, bir növ "özününküləşdirməsi" ilə də sıx bağlıdır. Müəllimin pedaqoji prosesə yenilik gətirməsi, təlim-tərbiyə prosesinə yenilikçi mövqedən yanaşması təhsil və tərbiyə işlərində, onun məqsəd və məzmununun reallaşdırılmasında, həyata keçirilmə prosesinin forma və metodlarında, eyni zamanda müəllim-şagirdbirgə fəaliyyətində yeniliklərdən istifadə etmək, pedaqoji prosesə yenilik gətirməkdir. Belə müəllimlər təkcə yeni pedaqoji texnologiyaları tətbiq etməklə deyil, həm də özləri yeni texnologiyaların müəllifi kimi də pedaqoji səriştəliliyə malik olurlar. **Bu baxımdan müəllimlərin yenilikçi mövqedə olması bir-neçə mühüm istiqamətlə müşayət olunur:**

1) müəllimlərin yeni pedaqoji ideyaları, konsepsiyaları, bu sahədə aparılan pedaqoji-psixoloji tədqiqatları öyrənməsi;

2) öyrəndiyi bilikləri ümumiləşdirə bilməsi, onların tətbiqinə təşəbbüs göstərməsi və tətbiq etməsi;

3) müəllimlərin özlərinin pedaqoji axtarışları nəticəsində yaratdıqları texnologiyalar və onlardan istifadə etməsi (müəllif texnologiyalarına malik olması).

Pedaqoji səriştəlilik müəllimlərin öz üzərlərində müntəzəm işləmələri ilə yaranır və cilalanır. Dərin müşahidəçi və yaradıcı təfəkkürə malik olmaq, innovasiyaya meyllik, tətbiq etdiyi yeniliklərin səmərəliliyini diaqnozlaşdıra bilmək və təhlil etmək, nəticə çıxarmaq kimi məsələlər bu prosesdə mühüm rol oynayır. Pedaqoji səriştəliliyə yiyələnmə müəllimin bütün müəllimlik fəaliyyəti prosesində davam edir. Bu, nə məktəb divarları, nə də müəllimin dərs prosesindəki fəaliyyəti ilə məhdudlaşmır. Pedaqoji səriştəlilik özünü hər bir prosesdə - dərsdə də, dərsdənkənar tədbirlərdə də özünü göstərir. Müəllimin digər həmkarları ilə fikir mübadiləsi aparanda da, pedaqoji konsliumlarda da, müəllim – şagird əməkdaşlığında, bir sözlə, müəllimin bütün pedaqoji fəaliyyətində pedaqoji səriştəliliyin olması vacibdir. Bu baxımdan pedaqoji

səriştəliliyin bir çox əlamətlərini və göstəricilərini qeyd etmək olar ki, bunlar müəllimin səriştəli olmasının kriteriyaları kimi önəmli xarakter daşıyır. **Bunların hamısının pedaqoji prosesin bütün tərkib hissələri üçün xarakterik olmasına baxmayaraq, onların xarakterinə və istiqamətlərinə görə aşağıdakı qruplar üzrə təsnif edilməsini zəruri hesab edirik:**

1.Təşkilatçılıq,idarəetmə səriştəliliyi:

- planlaşdırma və proqram materiallarının hazırlanması;

- tələb verə bilmək və onun icrasına nəzarət;

- şagirdlərin (tələbələrin) fəaliyyətinə nəzarət;

- sinifdə diskusiyanın idarə edilməsi;

- özünəinam, əminlik və özünənəzarət;

- şəxsiyyət və peşə nüfuzunun sintezinə malik olmaq;

-fərdlə kollektivin birliyinə nail ola bilmək, kollektivi ardınca apara bilmək.

2. Didaktik (öyrədə bilmə) səriştəliliyi:

- təlim-tərbiyə prosesində ən qısa və optimal yollardan istifadə edə bilmək;

- fəal dinləmə və başqalarının fikrinə hörmətlə yanaşa bilmək bacarığının olması;

- innovasiyalardan səmərəli istifadə edə bilmək;

- qabaqcıl təcrübəni tətbiq etmək;

-müəyyən səviyyələrdə tədqiqat aparmaq bacarığının olması;

- nəzəri biliklərin praktikaya tətbiqi;

- informasiya və kommunikasiya texnologiyalarından istifadə etmə.

3. Şagirdlərin idrakının inkişaf etdirilməsi səriştəliliyi:

- yaradıcı təfəkkürə malik olmaq, pedaqoji prosesə yaradıcı yanaşa bilmək;

- şagirdlərin fərdi xüsusiyyətlərniöyrənə bilmək, təlimdə fərdiləşdirmə və fərdi yanaşma bacarığına malik olmaq;

- sual vermə, əks əlaqə yarada bilmə bacarıqlarına malik olması;

- yaradıcılığa, axtarışa və öyrənməyə təhrik edə bilmə bacarığı;

- şagirdlərin təlim motivlərini inkişaf etdirə bilmə;

- yaradıcı tapşırıqların hazırlanması.

4. Pedaqoji prosesə kreativ yanaşma:

- müstəqil təfəkkür tərzinə malik olmaq;

- tolerantlıq, başqalarının fikir və düşüncəsinə hörmətlə yanaşmaq;

- pedaqoji prosesdə müstəqil və düzgün qərar qəbul edə bilmək;

- gözlənilməz vəqeyri standart situasiyalarda çevik ağıl və düzgün qərar qəbul edə bilmək.

5. Ünsiyyət və əməkdaşlıq səriştəliliyi:

- şagirdlərlə tez ünsiyyətə girə bilmək və tərəf – müqabil kimi əməkdaşlıq etmək;

- sosial məsuliyyətin dərk edilməsi və işinə vətəndaş mövqeyindən yanaşma;

- empatiya bacarıqlarının olması;

- verbal və qeyri verbal ünsiyyət tərzlərinə malik olmaq;

- pedaqoji peşəni və fənnini uşaqlara sevdirə bilməsiqabiliyyəti və s.

Qeyd edək ki, müəllimin peşə səriştəliliyinə malik olması təkcə bu kompotensiyalarla - səriştəlilik keyfiyyətləri ilə məhdudlaşmır. Hər bir müəllimin özünəməxsus fərdi-psixoloji xüsusiyyətləri olduğu kimi, pedaqoji fəaliyyətində də onu başqa müəllimlərdən fərqləndirən özünəməxsus səriştəlilik keyfiyyətlərinin olması da özünü göstərir. Xüsusən, novator müəllimlərdə elə səriştəlilik cizgilərinə rast gəlinir ki, bunlar pedaqoji prosesi daha da cazibədar, məzmunlu etməklə əsl yaradıcılıq laboratoriyasına çevirir. Təcrübə belə bir faktı təsdiq edir ki, müəllim öz üzərində işlədikcə, özünün fəaliyyətinə məsuliyyətlə, sosial borc və vətəndaşlıq mövqeyindən yanaşdıqca onun peşəkarlıq və səriştəlilik səviyyəsi də artır, yüksəlir. Bu həm onun özünün, həm də pedaqoji peşənin nüfuzunu yüksəldir, pedaqoji fəaliyyətə yeni-yeni çalarlar gətirir. Müşahidələr və həyati faktlar göstərir ki, şagirdlərin, xüsusilə ehtiyacı olan şagirdlərinmüəllimlər, valideynlər və sinif rəhbərləri tərəfindən dəstəklənməsi, onlara pedaqoji dəstək verilməsi pedaqoji prosesdə həmişə öz müsbət nəticəsini göstərir. Şagirdlərə özünəinam, gələcəyi proqnozlaşdırmaq hisslərini gücləndirir, ona bir şəxsiyyət kimi yanaşıldığını dərk edir, göstərilən etimadı doğrultmağa çalışır. Pedaqoji dəstəyin pedaqoji cəhətdən düzgün təşkili və verilməsi vacib metod-lardan olduğundan hər bir müəllim bu sahədə müəyyən səriştəyə malik olmalı və onun metodikasına yiyələnməlidir. Pedaqoji dəstəyin ilk növbədə şagirdin öz qüvvəsinə inam yaradılması, onun gücünə, bacarıq və qabiliyyətinə təkan verilməsi, çətinliklərin aradan qaldırılmasında onlara yardım göstərilməsi, həmçinin müəllim və tərbiyəçilərin təlim-tərbiyə prosesinin şəxsiyyətyönümlülüyünü və inkişafyönümlülüyünü təmin etməkdən ibarətdir. **Bu baxımdan pedaqoji dəstəyi obyektinə görə bir neçə istiqamətdə nəzərdən keçirmək mümkündür:**

1) yaşından, cinsindən və xarakterik xüsusiyyətlərindən asılı olmayaraq bütün uşaqlara (şagirdlərə) ümumi halda pedaqoji dəstəyin göstərilməsi;

2) dəstəyə, yardıma və xüsusi qayğıya ehtiyacı olan uşağa (şagirdə) pedaqoji dəstəyin göstərilməsi;

3) tərbiyənin və təhsilin ayrı-ayrı problemləri (məsələn, peşə özünütəyini zamanı, əxlaqi mədəniyyətin formalaşdırılması məsələsində, müəyyən psixoloji-pedaqoji situasiyaları düzgün həll etməkdə və s.) üzrə problemlərdə pedaqoji dəstəyin göstərilməsi və s.

Pedaqoji dəstək pedaqoji səriştəlilik, məharət tələb edən bir prosesdir. Görkəmli pedaqoq V.A.Suxomlinski qeyd edirdi ki, həyat məni inandırmışdır ki, çətin uşaqları tərbiyə etmək - son dərəcə diqqət, ustalıq, takt, səmimi və qayğıkeşlik, mehribanlıq

tələb edən, olduqca mürəkkəb işdir. Qeyd edək ki, bu təkcə çətin uşaqlarla deyil, ümumiyyətlə tərbiyə prosesinin bütün cəhətlərinə aiddir. Pedaqoji dəstəksadəcə olaraq şagirdi (uşağı) yerli – yersiz müdafiə etmək və ya tərifləmək, cüzi bir müvəffəqiyyətini şişirtmək demək deyildir. Həmçinin yersiz yardım və ya uşağın yerinə yetirməli olduğu hər hansı bir işi onun əvəzinə görmək də deyildir. Pedaqoji dəstək uşaqda (şagirddə) yüksək mənəvi keyfiyyətlərin formalaşdırılması və həyatın müxtəlif sahələrində nəzərdə tutulan nəticələrə müstəqil surətdə çatmaq istiqamətində qarşıya çıxan maneələrin aradan qaldırılması və müəyyən situasiyaların düzgün həlli istiqamətində "müəllim-şagird", "tərbiyəçi-uşaq" əməkdaşlığı şəraitində reallaşan təsir prosesidir. Pedaqoji dəstək "müəllim-şagird", "valideyn-uşaq" münasibətlərinin formalaşmasında əvəzsiz vasitədir. Onundüzgün təşkili və aparılması tərbiyə prosesinin elə mühüm tərəflərinin formalaşmasına səbəb olur ki, onu başqa vasitələrlə əvəz etmək bundan alınan nəticələrlə müqayisədə çox zəif təsirə malik olur.Buna görə də pedaqoji dəstəyin nə zaman, hansı şəraitdə və hansı vasitə və tərzlərlə aparılmasının onun təsirliliyi baxımından çox böyük əhəmiyyəti vardır.

Pedaqoji dəstəyin verilməsi şagirdlərin zəruri ehtiyacları ilə sıx bağlıdır. Obyektiv və subyektiv səbəblərdən yaranan bu ehtiyacların müəllimlər, tərbiyəçilər tərəfindən düzgün qiymətləndirilməsi və onların ödənilməsinə istiqamətlənən iş növlərindən istifadə edilməsi olduqca zəruridir. **Bu baxımdan onun hansı hallarda zəruri olması müəllimlərə və tərbiyəçilərə aydın olmalıdır. Onları aşağıdakı kimi qeyd etmək olar**:

- şagirdlərin öz "mən"ini təyin etmələri, "Mən" obrazının dərkedilməsi prosesində;

- yeniyetmə və yuxarı sinif şagirdlərinin peşə özünü təyininin müəyyənləşdirilməsində;

- yetim və valideyn himayəsindən məhrum olan uşaqların təlim və tərbiyəsində;

- sosial reablitasiyaya ehtiyacı olan uşaqların cəmiyyətə adaptasiya olunmalarında;

- şagirdlərin sağlamlığının qorunması və sağlam həyat tərzinin formalaşdırılmasında;

- şagirdlərin mənəvi–psixoloji tərbiyəsinin formalaşdırılmasında;

- təlim prosesində geridə qalan uşaqlarlatəlim prosesində;

- "şagird - şagird", "fərd - kollektiv", "kollektiv - fərd",münasibətlərinin formalaşdırılmasında;

- uşaqların sağlamlıq durumunun aşağı olması zamanında;

- ailə tərbiyəsində müəyyən çatışmazlıqlar olan uşaqların şəxsiyyətinin sosiallaşmasında

-uşaqlarda özünəqapanma halları tez-tez müşahidə edildikdə və s.

Pedaqoji dəstəkkortəbii şəkildə deyil, düşünülmüş şəkildə təşkil edilməli, sistemli, ardıcıl təşkil edilən müəyyən pedaqoji situasiyalar kimi (Q.A.Davıdov) həyata keçirilməlidir. Müəllim- şagird əmakdaşlığının elə müsbət münasibət formasına nail olunmalıdır ki, burada şagirdlər özlərini psixoloji cəhətdən olduqca rahat hiss edə bilsinlər, maneələri birlikdə dəf edə bilməyə maraqlı olsunlar, özlərinin problemlərini

tərbiyəçilərdən, müəllimlərdən gizlətməsinlər, ehtiyaclarının təmin olunması üçün onlardan məsləhət almaqdan çəkinməsinlər.

**Müəllimin peşəkar fəaliyyətində əsas məsələlərdən biri də onun şagird şəxsiyyətinin sosiallaşmasındakı roludur.** Sosiallaşma şagirdlərin həyati bilik, bacarıq və vərdişlər qazanmalarında mühüm funksiyaya malik olduğundan və pedaqoji prosesin müvəffəqiyyətinə nəzərə çarpacaq dərəcədə müsbət təsir göstərdiyindənmüəllimin ona xüsusi diqqət yetirməsi olduqca mühümdür.

Sosiallaşma "özünüaktuallaşdırma" prosesi kimi şəxsiyyətin öz potensial imkanlarınınvə yaradıcı bacarıqlarının realizə olunması (A.Maslou) olduğundan müəllimin ona səriştəli və peşəkarcasına yanaşmasının əhəmiyyəti böyükdür. Şagird şəxsiyyətinin sosiallaşmasışəxsin əhatəsində olan sosial mühitə fəal inteqrasiyasıvə daxil olması kimi sosial xarakter daşıması ilə yanaşı, həm də biososial xarakter daşıyır. Belə ki, uşaqların temperament tipi, genetik xüsusiyyətləri, ünsiyyət səviyyəsi, sərvət meylləri, xarakteri, ailədə aldığı tərbiyə və s.ilə də əlaqələnir və çox vaxt bunlardan asılı olaraq özünü göstərir. Sosial dərketmə, şəxsiyyətlərarası ünsiyyət və sosial davranışın səviyyəsi onun necə getməsinin göstəricisi kimi meydana çıxır. Bu prosesə müəllimin səriştəli və peşəkarcasına yanaşması, onu idarə edə bilməsi mühüm əhəmiyyət kəsb edir. Müəllim şagirdlərin müəyyən sosial biliklərə, əməli bacarıq və vərdişlərə, həmçinin sosial həyatın qəbul olunmuş müəyyən qayda və qanunlarına yiyələnmələrində iştirak edir. Bu keyfiyyətlərin ötürücüsü və daşıyıcısı kimi şagirdlərlə ünsiyyətdə olur, onların bir şəxsiyyət kimi formalaşmasına təsir göstərir. Burada səriştəli yanaşma bu prosesin səviyyəsinin yüksək olmasının qarantı kimi özünü göstərir. Şəxsiyyətin sosiallaşması həm də planlı və mütəşəkkil şəkildə gedən bir proses deyildir. Bu proses adətən kortəbii, yəni ətraf mühitlə qarşılıqlı təsir şəraitində, müxtəlif təsirlər altında getdiyindən bu amillər şəxsiy-yətin formalaşmasında müəyyən təsirlər yaradır və bu təsirlər heç də həmişə müsbət olmur. Buna görə də bu işdə müəllimin və valideynlərin rolu, həmçinin təsiri əhəmiyyətlidir. Şagird şəxsiyyətinin sosiallaşması prosesinin müvəffəqiyyətlə getməsi üçün əlverişli mühitin yaradılması vacibdir. Müəllimin səriştəli olması bu mühitin tərbiyələndirici və inkişafetdirici mühit olmasına səbəb olur. Müəllim şagirdlərin imkan və bacarıqlarını düzgün qiymətləndirməli, onların şəxsiyyətinə hörmətlə yanaşmalı, inanmalı, imkanlarının reallaşdırılmasına şərait yaratmalıdır. Bu prosesdəbaşlıca məsələlərdən biri təhsilin şəxsiyyətyönümlülüyünə nail olunmasıdır. Təhsilin şəxsiyyətyönümlülüyü də pedaqoji peşəkarlıq və səriştəliliklə bağlıdır. Buna nail olmaq üçün müəllim ilk növbədə tədris etdiyi fənnin bütün imkanlarını - təhsilləndirici, tərbiyələndirici və inkişafa səbəb ola biləcək funksiya və imkanlarını yaxşı bilməlidir. Şagirdlərin potensial imkanlarından xəbərdar olmalı, onların təfəkkürünün, təşəbbüskarlığının və fəallığının inkişaf etdirilməsinin əlverişliyollarını axtarıb tapmalı, tədris etdiyi fənnin, konkret ayrı-ayrı mövzuların şagirdlərin mənəvi tələbatlarının təmin edilməsi istiqamətində olmasına nail olmalıdır.

**"Şəxsiyyətyönümlü təhsil** - təhsil prosesinin əsas sərvəti olan şagirdə yönəldilmiş təhsildir. O, şagirdin mövcud təcrübəsinə arxalanmaqla onun şəxsi keyfiyyətlərinin formalaşması və üzə çıxarılması üçün yaradır, təfəkkürün inkişafına, yaradıcı, fəal, təşəbbüskar şəxsiyyətin təşəkkül tapmasına səbəb olur, şagirdin idrakı və mənəvi tələbatını təmin edir, onların intellektini, sosial və kommunikasiya qabiliyyətlərini, özünütəhsil və özünüinkişaf bacarıqlarını stimullaşdırır" (29, 26). Problemə bu

kontekstdən yanaşdıqda şəxsiyyətyönümlü təhsilin yeni pedaqoji təfəkkürlə, müəllimin peşəkarlığı və səriştəliliyi ilə sıx bağlı olduğunu aydın görmək mümkündür. Çünki, təhsilin şəxsiyyətyönümlülüyünə nail olunması mövzunu sadəcə başa salmaqdan ibarət deyildir. Bu elə bir prosesdir ki, müəllim ona öz üzərində işləməklə, özünün peşəkarlığını artırmaqla, pedaqoji prosesə əsl yaradıcı yanaşmaqla nail ola bilər.

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI


1. Əliyev H. Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002.

2. İlyasov M. Müəllimin pedaqoji ustalığı. Dərs vəsaiti. Bakı:  Elm və təhsil, 2013.215s.

3.Həsənov A.Məktəbəqədər pedaqogika. Dərs vəsaiti. Bakı:“Nasir nəşriyyatı”.2000.367s.


## ELEKTRON RESURSLAR


• https://anl.az/el/Kitab/2018/07/cd/2018-1050.pdf

• http://web2.anl.az:81/read/page.php?bibid=vtls000338011


**Mühazirə 10: Müəllimin pedaqoji ustalığında incəsənət motivlərinin rolu**

**PLAN:**

**1. Pedaqoji fəaliyyətdə incəsənət motivləri;**

**2. Müəllimin nitqi pedaqoji ustalığın vasitəsi kimi məlumatlara yiyələnir.**

"İqtisadiyyatda, mədəniyyətdə, elmdə - həyatın bütün sahələrində əldə olunmuş nailiyyətlərin başında duran, onun əsasını təşkil edən, kökü olan məktəbdir, təhsildir, müəllimdir".

Heydər Əliyev

Pedaqoji fəaliyyət pedaqoji incəsənətdir. Bu mənada pedaqoji incəsənət elə pedaqoji fəaliyyətdir ki, orada həm öyrətmə, həm də tərbiyə etmə keyfiyyətləri bir-biri ilə qarşılıqlı

surətdə əlaqələnir və bir vəhdət təşkil edir. Bu baxımdan pedaqoji fəaliyyətlə incəsənət, müəllim işi ilə aktyor və rejissor fəaliyyəti arasında sıx əlaqə, yaxınlıq vardır.

Müəllimin işini yaradıcı aşıqların sənətinə bənzətmək olar. Belə aşıqlar səhnədə həm çalır, həm oxuyur, həm də rəqs edirlər. Bəzən də özünün yazdığı sözləri oxumaqla, öz bəstələdiyi havanı çalmaqla bu işi yerinə yetirirlər. Müəllim də belədir, keçdiyi dərsin rejissoru da, aktyoru da, bəstəkarı da özü olur. Buna görə də pedaqoji fəaliyyəti bir aktyorun teatrı da adlandırırlar. Bu cəhətlər pedaqoji fəaliyyətlə incəsənət arasında müəyyən yaxınlıq olduğunu göstərir.

Pedaqoji ustalıq bir-biri ilə əlaqədar olan bir sıra amillərdən yaranır, formalaşır. Bunlar, əsasən, müəllimin pedaqoji biliyə və təcrübəyə nə dərəcədə yiyələnməsi ilə sıx əlaqədardır. Bunlar zəngin olduqda müəllimin pedaqoji ustalığı da artır, yüksəlir. Müəllim pedaqoji biliyə dərindən yiyələndikdə pedaqoji ustalığın nəzəriyyəsinə də yiyələnir və bunlardan istifadə edir. Bunlarla yanaşı, müəllim özünün pedaqoji fəaliyyətində yiyələndiyi bacarıq və qabiliyyətlərini təmkilləşdirir, onu yeniyeni pedaqoji çalarlarla zənginləşdirir. Başlıca məsələlərdən biri bu bacarıq və qabiliyyətlərdən istifadə edə bilməkdir. Burada incəsənət motivlərinin olması və onlardan istifadə edə bilmək bacarığı müvəffəqiyyətin əldə olunmasını təmin edən amillərdən birinə çevrilir.

**Pedaqoji fəaliyyətlə incəsənət arasında yaxınlıq və sıx bağlılıq, xüsusən aşağıdakı istiqamətlərdə özünü göstərir:**

1. Müəllimin fəaliyyətində aktyorluq və rejissorluq əlamətlərinin olması.

2. Pedaqoji situasiyalarda teatr sisteminin olması.

Bu iki istiqamət pedaqoji fəaliyyətlə incəsənəti bir-birinə yaxınlaşdırır və onları bir-biri ilə bağlayır.

Aktyorda olduğu kimi müəllimin də **pedaqoji talantı olmalıdır. Bu talant təkcə təbii, anadangəlmə deyil, həm də işgüzarlıq, zəhmət, axtarış nəticəsində yaranan, əldə edilən talantdır. Buna aşağıdakılar daxildir:**

**1. Sinfi ələ ala bilmək qabiliyyəti.** Bu, müəllim üçün çox vacib olan keyfiyyətdir. Elə ilk dərsindən müəllim sinifi əla ala bilərsə, onlara həm idrakı, həm də emosional təsir göstərə bilmək imkanından məharətlə istifadə edə bilərsə, sonrakı fəaliyyətdə problemlər də az olur. Müəllim özünün biliyi, davranışı, danışığı, ünsiyyət mədəniyyəti ilə şagirdlərin emosional aləminə təsir edərək onları bir növ "ovsunlaya" bilərsə, bu zaman şagirdlər daha yüksək emosional əhval-ruhiyyədə olur və belə dərslərdə yorğunluq, sıxıntı, gərginlik olmur.

**2. Yüksək ünsiyyət mədəniyyətinə malik olmaq.** Bu, müəllim şəxsiyyətində, onun pedaqoji fəaliyyətində ən önəmli vacib xüsusiyyətlərdən biridir (Bax: V fəsil).

**3. Müəllimdə yüksək hissetmə qabiliyyəti.** O, sinfində ayrı-ayrı şagirdlərin əhval-ruhiyyəsini hiss edə bilməli və öz fəaliyyətində bunları nəzərdən qaçırmamalıdır.

**4. Sinfin diqqətini özünə cəlb edə bilmək qabiliyyəti.** Bu qabiliyyət müəllimin işgüzarlığı, öz üzərində daim çalışması nəticəsində yarana bilir. Peşəsinə, sənətinə, fənninə səhlənkar münasibət bəsləyən müəllimlərdə bu alınmır. Qeyd edək ki, bu prosesdə müəllimin təbii

imkanları da müəyyən rol oynayır. Lakin əsas həlledici funksiya onun pedaqoji fəaliyyətində yiyələnə bildiyi bacarıq və qabiliyyətində, pedaqoji məharətindədir.

Müəllim nəinki, öz ixtisasını dərindən bilməklə, həmçinin ümumi intellektual səviyyəsi ilə şagirdlərin diqqətini özünə cəmləşdirə bilir. Şagirdlər müəllimdən yüksək bilik, savad, ağıl, zövq, bacarıq və qabiliyyət gördükdə onu daha yaxşı qəbul edirlər. Təcrübə göstərir ki, məhz belə müəllimlər şagirdlərin həmişə maraq dairəsində olurlar. Bu halda müəllim şagirdləri üçün əsl örnəyə çevrilir.

**5. Müəllimin öz emosional vəziyyətini idarə edə bilməsi.** Başqaları kimi müəllim də sevinir, kədərlənir, əsəbi olur və s., lakin bütün bunlar onun dərsinə, müəllim-şagird münasibətlərinə təsirsiz olmalıdır. Müəllimin bu hissləri, emosional gərginliyi sinfə "girməməlidir". Müəllim həmişə, hər zaman dərsə, sinfə yüksək əhval-ruhiyyə ilə daxil olmalı və bütün gərginlikləri sinif otağının qapısı arxasında qalmalıdır. Buna görə də müəllimin öz emosional vəziyyəti üzərində nəzarəti olmalı, onu idarə etməyi bacarmalıdır.

**6. Müəllimin öz davranışını idarə edə bilməsi.** Müəllim öz davranışını idarə etməyi bacarmalıdır. Bu, müəllimdən mühüm bacarıqlar tələb edir. Müəllim mimikadan, jestlərdən, səs dəyişmələrdən necə istifadə etməyi bilməlidir. Şagirdlər müəllimin təkcə bilik və bacarığına deyil, hətta onun sinifdə necə gəzişməsinə, stulda necə oturmasına, tənəffüslərdə öz həmkarları və şagirdlərlə necə davranmasına, müraciət formalarına da diqqət yetirirlər.

"Pedaqoji ustalığın əsası pedaqoji universitetlərdə və institutlarda qoyulur. Lakin belə bir paradoksal həqiqəti unutmaq olmaz ki, pedaqoji incəsənəti hər hansı səviyyədə öyrənmək olar, lakin təhsil alanlar (tələbələr-M.İ.) üç xüsusiyyətə: adamları (şagirdləri-M.İ.) özündən çox sevməyə və hörmət etməyə; həyati təcrübə və bilik toplamağa, təcrübə və biliyini şagirdlərə verə bilmək bacarığına yiyələnə bilməsələr, pedaqoq, müəllim olmağı öyrənmək olmaz".

Əsl müəllimlər yaradıcı və təşəbbüskar olmaqları ilə fərqlənirlər. Onlar hər bir dərslərinə nə isə bir yenilik, yaradıcılıq gətirməyə çalışırlar. Bu müəllimlərin dərsləri həmişə maraqlı, cazibədar olur.

Görkəmli ədib və pedaqoq Abdulla Şaiqin şagirdi olmuş Azad Əfəndizadə onun haqqında yazır: "Abdulla Şaiqlə ilk görüşdən onun sadə insan, qayğıkeş müəllim olduğunu duymaq mümkün idi. Uzun illər onun tələbəsi olduğumuz zaman biz bunu həmişə hiss etmişik. A.Şaiqi tanıyıb-bilənlər, o cümlədən onun tələbələri bu böyük maarif xadimini əsl insan kimi nəcib, saf, sadədil və cazibədar bir şəxs kimi gözümüzün qarşısında canlandırırıq. Mübaliğəsiz deyə bilərəm ki, Abdulla Şaiqi hamı ilk görüşdən sevir, ona inanır, dərin hörmət bəsləyirdi; hamı özünü ona oxşatmaq istəyirdi. Tələbələri onun tapşırıq və məsləhətlərini məmnuniyyətlə icra etməyi özlərinə şərəfli vəzifə sayırdılar. Şaiq böyük müəllim, mahir pedaqoq idi. Şagirdlər onun verdiyi dərslərə böyük həvəslə, şövqlə hazırlaşırdılar. Danışıq tərzi çox sadə, dərsləri məzmunca zəngin idi. Haqqında danışdığı şair və ya yazıçıya uşaqlarda məhəbbət oyadırdı". Lakin heç də bütün müəllimlər belə olmur. Elə bu **cəhətdən pedaqoqlar görkəmli rus teatrşünası və rejissoru K.S.Stanislavskinin aktyorları inkişaf, diqqət və təsəvvürlərinə görə ayırdığı 4 növə istinad edərək müəllimləri də 4 növə ayırırlar.**

**I növ** Təşəbbüskardır, təxəyyülü inkişaf etmişdir. Dərsi özünəməxsus şəkildə qurur, uşaqları həvəsləndirir, onların təxəyyülünü inkişaf etdirir. Uşaqlar onu asanlıqla başa düşürlər. Belə müəllimlərin siniflərində oxumaq asan olur. Onlar həmişə yenilik, yeni metodlar axtarırlar. Bu müəllimlərdə hisslər üstünlük təşkil edir və hisslər iradə və ağılla əlaqələnir.

**II növ** - Müəllimlər təşəbbüskar deyillər. Onlara müəyyən təsir lazım gəlir. Bəzən belə təsir rolunda dərs konspekti, tədris materialı, yeni təlimat və göstəriş, başqa müəllimlərin təcrübəsi və s. çıxış edə bilir. Müəyyən təsirdən sonra inkişaf müstəqil gedir. Bu növ müəllimlərdə iradə xüsusi yer tutur və yaradıcı fəaliyyətdə iradə ağıl və hisslərindən üstün olur. Bu növdə avtoritar tərbiyə üsulu üstünlük təşkil edir.

**III növ** - Müəllimlər hər zaman bərabər səviyyədə işləmirlər. Bəzən yaxşı dərs deyirlər, bəzən yox. Onlar təlimatları, iş metodikasını yaxşı yerinə yetirirlər. Lakin işlərində yenilik və təşəbbüskarlıq olmur. Bu tip müəllimlərdə ağıl iradə və hisslər üzərində hakim olur.

**IV növ** Müəllimlər üçün nə yaxşı kitab və metodik göstərişlər, nə də təlimatlar heç bir əhəmiyyət kəsb etmir. Onların təsəvvür etmək, görmək üçün nə bacarıqları, nə də təşəbbüskarlıqları yoxdur. Belə müəllimlərdə hər şey formal xarakter daşıyır, savadsız peşəkarlıq özünü göstərir. Bu tip müəllimlərin olmasından olmaması daha yaxşıdır.

Pedaqoji fəaliyyətin incəsənətlə əlaqəsi bu fəaliyyətin cazibədarlığını daha da artırır və pedaqoji prosesdə müəllimin "Bir aktyorun teatrı"nda olduğu kimi bütün ağırlığı və incəliyi öz üzərinə götürməsi özünü göstərir. Buna görə də usta müəllim bütün pedaqoji situasiyaları düzgün qiymətləndirməyi və həll etməyi bacarmalıdır.

Usta müəllimlər pedaqoji prosesdə yaranan situasiyaların həllində elə üsullardan və pedaqoji texnikalardan istifadə edirlər ki, yaranmış və ya müəllimin özü tərəfindən yaradılmış bu situasiyalar tərbiyəvi prosesin aləti kimi çıxış edir. Bu halda müəllim (tərbiyəçi), ilk növbədə, yaranmış situasiyanı düzgün qiymətləndirməyi, çevik sürətdə təhlil edib, nəticə çıxarmağı bacarmalı, onun məqsədini, yaranma səbəblərini araşdırmalı, dəqiq təhlil etməli, nəhayət, onu operativ şəkildə həll etməlidir. *Dos. Həmzə Əliyev bu münasibətlə yazır:* "Müəllimin ustalığı pedaqoji situasiyanı pedaqoji məqsədə çevirməkdən, onun şəklini, xarakterini dəyişib qarşıya qoyulmuş vəzifəyə istiqamətləndirməkdən ibarətdir. Beləliklə, situasiya məqsədyönlü pedaqoji fəaliyyətin məqsədinə çevrilir (situasiya+məram=məqsəd). Məqsədə çatmaq üçün müxtəlif yollardan istifadə olunur. Məhz burada pedaqoji ustalığın səviyyəsi özünü göstərir. Bu isə müəllimin məqsədyönlülüyündən, pedaqoji biliyindən, qabiliyyətindən, texnikanı idarəetməsindən və s. asılıdır".

## Müəllimin nitqi pedaqoji ustalığın vasitəsi kimi

"Mən əsl usta o zaman oldum ki, "Bura gəl" kəlməsini 15-20 səs tonu çaları ilə ifadə etməyi öyrəndim".

A.S.Makarenko

Müəllimin nitqi gənc nəslin təbiət və cəmiyyətin inkişaf qanunauyğunluqlarını dərk etmələrində, elmlərin əsaslarına və insanların mənəvi münasibətlərinin təcrübəsinə

yiyələnmələrində böyük rol oynayır. Müəllimin pedaqoji ustalığında mühüm yer tutan bu amil təkcə sözlərin məzmunluluğu və mənalılığı ilə deyil, onun tonu, intonasiyası, nitq zamanı istifadə edilən jestlər, mimikalar vasitəsi ilə daha da təsirli, kəsərli və yaddaqalan olur. Respublikamızda özünün gözəl nitq qabiliyyəti ilə şagirdləri və tələbələri ovsunlayan onlarda oxumağa, fənnə böyük maraq yaradan, onların qəlbini riqqətə gətirən müəllimlər çox olmuş və bu gün də vardır. Görkəmli ədibimiz və gözəl müəllim kimi yaddaşlarda, xatirələrdə qalmış Abdulla Şaiq haqqında onun tələbəsi, yazıçısı Mehdi Hüseyn yazırdı: "O, danışarkən sinfə elə bir sükut çökmüşdü ki, dediyi sözləri dəftərə qeyd edən yoldaşlarımızın qələmlərinin səsi lap aydın eşidilirdi".

Nitqin inkişafına nail olmaq mümkündür. Həm gənc müəllimlər, həm də gələcək **müəllimlər müstəqil olaraq öz nitqlərini təkmilləşdirə və yaxşılaşdıra bilərlər. Bunun üçün onlar aşağıdakı yollardan istifadə edə bilərlər:**

**1. Düzgün ədəbi tələffüz qaydalarına və normalarına yiyələnmə, özünənəzarət və nitq mədəniyyətinin inkişafı.** Bu məqsədlə müəllim nitqinin düzgünlüyünə fikir verməli, ədəbi tələffüz normalarına yiyələnməlidir, lüğət ehtiyatını artırmalı, sözlərdə vurğunun yerini müəyyənləşdirməli, eyni zamanda intonasiya qaydalarını mənimsəməlidir. Müəllim çoxlu söz ehtiyatına malik olmalı, çətin sözləri, terminləri düzgün və aydın tələffüz etməyi bacarmalıdır.

**2. İfadəli, təsirli nitq bacarığına malik olmaq.** İfadəli nitq həmişə xoş gəlir və dinləyicilərdə yaxşı əhval-ruhiyyə yaradır. Nitqin emosionallığı, ritmik xarakteri, sözlərdə vurğunun düzgünlüyü, intonasiyalılığı və s. əlamətləri ilə yanaşı, danışıqda atalar sözlərindən, aforizmlərdən, bədii ədəbiyyat nümunələrindən istifadə edilməsi də onun ifadəliliyini, təsirliliyini gücləndirir.

**3. Ünsiyyət dairəsində kommunikativ bacarıq və qabiliyyətlərin inkişafı.** Müəllimin nitqinin kommunikativ xarakteri onun ünsiyyətinin fərdi stilindən ibarətdir. Müəllim nitqində belə bir cəhətə xüsusi diqqət yetirilməlidir ki, onun nitqi başqaları tərəfindən necə dinlənilir. Qarşı tərəf üçün belə nitq maraqlıdırmı, yorucu deyil ki? Nitqin tonu, emosionallığı, təsirliliyi necədir? Müəllim üçün vacib olan keyfiyyətlərdən biri nitqli ünsiyyət zamanı qarşı tərəfin daxili vəziyyətini başa düşmək və ünsiyyət zamanı ona istiqamət götürə bilməkdir. Başqa bir keyfiyyət müəllimin öz psixi vəziyyətini idarə edə bilməsidir. Bunlar nitqin kommunikativ təsirini artırır, onu məzmunlu və maraqlı edir.

**4. Şəxsiyyətin ümumi psixofizioloji xüsusiyyətlərinin inkişafı.** Bu, müəllimin assosiasiyalı və obrazlı yaddaşı, təxəyyülü ilə bağlı olub, nitqin elə emosional təsirliliyini təmin edir ki, bu zaman müəllim şagirdlər qarşısında sanki sözlərin şəklini çəkir. Onlar təsvir olunan hadisə və prosesləri gözləri qarşısında canlandırırlar. Müəllimin nitqinə çox mühüm tələblər verilir və onun qarşısında bir sıra vəzifələr durur. Müəllimin nitqi şagirdlərin təlim-tərbiyə vəzifələrini yerinə yetirməli və bu vəzifələri həll etməyi təmin etməlidir. Bunun üçün müəllimin ümummədəni, pedaqoji və peşə tələblərinə cavab verə bilməsi və bu sahədə olan bacarıqlara yiyələnməsi olduqca vacibdir.

**Müəllimin nitqi kommunikativ təsir vasitəsi olduğundan və pedaqoji vəzifələri yerinə yetirmək funksiyası daşıdığından bir sıra tələblərə cavb verməlidir.**

1. Müəllimin nitqi təmiz və aydın olmalı, şagirdlərin başa düşəcəyi səviyyədə qurulmalıdır.

2. Müəllimin nitqi emosional olmalı, şagirdlərin hissi aləminə təsir etməlidir.

3. Müəllim yüksək ədəbi dil normalarını mənimsəməli və nitqində dialektlərdən, əlavə sözlərdən ("deməli", "belə demək mümkünsə", "beləliklə" və s.) istifadə etməməlidir.

4. Müəllimin terminoloji mədəniyyəti olmalı, terminlərdən düzgün istifadə etməyi bacarmalıdır.

5. Müəllim sözləri aydın, anlaşıqlı tələffüz etməli, orfoepik qaydalara əməl etməlidir.

6. Müəllim nitqində məsələnin düzgün qoyuluşuna diqqət yetirməlidir.

7. Müəllim nitqində sözlərin intonasiya qaydalarına əməl etməli, sözlərin deyilişində vurğunun düzgün işlənməsinə nail olmalıdır.

Müəllim nitqinin məzmun və keyfiyyətinə görə cəmiyyət qarşısında mühüm sosial cavabdehlik vəzifəsini yerinə yetirir. Buna görə də müəllimin nitqinə pedaqoji ustalığın mühüm elementi kimi baxılır.

**Müəllimin nitqi təlim-tərbiyədə bir sıra funksiyalar daşıdığına görə aşağıdakı məsələləri təmin etməlidir:**

• tərbiyə edənlər və tərbiyə olunanlar arasında səmərəli münasibətin qurulması;

• şagirdlərin hisslərinin, düşüncə və fəaliyyət motivlərinin təshihi və formalaşdırılması məqsədilə müəllimin müsbət təsiri;

• təlim prosesində biliyin mənimsənilməsi və möhkəmləndirilməsində mükəmməlliyin olması;

• şagirdlərin tədris fəaliyyətinin səmərəli təşkili və aparılması;

• şagirdlərin emosional aləminə təsiretmə və onların yaradıcı fəaliyyətə istiqamətləndirilməsi və s.

**Müəllimin nitqi özünü iki formada - monoloqda (monoloji nitq) və dialoqda (dialoji nitq) göstərir.** Uşaqlara münasibətdə bunlar özünün müxtəlif funksiyaları ilə bir-birindən fərqlənir. Monoloji nitqdə müəllim tədris etdiyi fənnə, mövzuya, dərsin tipi və qurluşuna görə səsin müxtəlif tonlarından, jestlərdən, mimikadan, intonasiyadan istifadə edərək nitqini optimal qurmağa çalışmalı və onun yüksək təsirə malik olmasına nail olmalıdır. Dialoji nitq zamanı müəllim yenə də öz nitqinin optimal təsir variantını tapmalı və müsahibə apararkən nitqinin aydınlığına, səlistliyinə ciddi fikir verməlidir. **Müəllimin nitqi bir sıra pedaqoji funksiyaları yerinə yetirməlidir.**

**1. Biliyin hərtətərfli verilməsinin təmin edilməsi.** Müəllimin nitqi elə səviyyədə olmalıdır ki, o verilən biliyin şagirdlər tərəfindən möhkəm mənimsənilməsinə və onların yaddaşında qalmasına səbəb olsun. Buna görə də müəllimin nitqi maraqlı, məntiqli və inandırıcı olmalıdır.

Elmi araşdırmalar sübut edir ki, verilən biliyin şagirdlərin yaddaşında uzun müddət qalmasının başlıca amillərindən biri də müəllimin nitqinin mükəmməl olmasıdır. Nitqi emosionallığı, intonasiyası, ritmik olması, sözlərin aydın tə əffüzü və s. bu baxımdan xüsusi qeyd edilməlidir. Müəllimin nitqi təkcə informasiya xarakteri daşımamalıdır. O, şagirdlərin idrakına, şüuruna, hisslərinə təsir edəcək bir səviyyədə, onları düşünməyə, axtarışa sövq edən şəkildə qurulmalı və onlarda idraki motivlərin yaranmasına səbəb olmalıdır.

**2. Şagirdlərin tədris fəaliyyətinin səmərəliliyinin təmin edilməsi.** Müəllimin nitqi hər şeydən öncə tədris fəaliyyətinin səmərəliliyinə xidmət etməlidir. Bunun üçün nitqin sürəti, tonu və həcmi üzrə müəyyən həddin olması vacibdir. Tədqiqatlar göstərir ki, əgər müəllimin nitqi orta sürət olarsa, şagirdlər verilmiş informasiyaların 14,2%-ni, iti sürət olarsa, 42,8%-ni, nisbətən yavaşıldılmış sürət olarsa, onda 70%-ni qəbul edə bilirlər. Bu, onu göstərir ki, uşaqlar onların zehni fəaliyyətlərindən fərqli gedən daha sürətli məlumatı keyfiyyətli şəkildə qəbul edə bilmirlər.

Tədqiqatlar göstərir ki, müəllim nitqində düzgün intonasiya seçmədikdə və sözlərdə məntiqi vurğunu düzgün işlətmədikdə, eyni tərzdə danışdıqda da şagirdlər onun verdiyi informasiyaları bütövlükdə qavraya bilmirlər.

Müəllimin davranışının və müəllim-şagird münasibətlərinin kommunikativ tərzdə olması da nitqin düzgün qavranılmasında mühüm rol oynayır. Şagirdlərə humanist yanaşma, onlarda öz güclərinə inam yaratma, bunun üçün inandırıcı nitqdən istifadə etmə onlarda təlim maraqlarının inkişaf etdirilməsinə səbəb olur.

**3. Müəllimlə şagirdlər arasında məhsuldar, səmərəli qarşılıqlı münasibətlərin təmin edilməsi.** Nitqin bu funksiyası olduqca mühüm rol oynayır. Müəllim və şagirdlər arasında normal münasibətlərin yaradılmasına xidmət edən bu funksiya nitqin tərbiyəlilik funksiyası kimi özünü göstərir və təlim- tərbiyə proseslərində özünün imkanlarını reallaşdıra bilir.

V.A.Suxomlinski yazırdı: "Sözə, onun çalarlarının zənginliyinə həssaslıq nə qədər incə olarsa, əxlaqi nəsihətlərə, yeni- yetmələrin mənəvi aləminə ən incə təsir vasitələrinə - tərbiyəçinin sözünə və insanın bütün gözəlliyinə gənc qəlbin həssaslığı bir o qədər dərin olar".

Müəllimin nitqi müəllimlə şagirdlər arasında münasibətlərin tənzimləyicisi kimi özünü göstərir. Burada müəllimin şagirdlərə müraciət forması, tələblərini hansı formada verməsi, necə irad tutması, intonasiyalardan necə istifadə etməsi, jestlərə, mimika ilə nitqini necə uzlaşdıra bilməsi və s. xüsusiyyətlər mühüm rol oynayır.

Bu prosesdə müəllimin fərdi üslubu da az rol oynamır. Hər bir müəllim öz fərdi üslubu ilə seçildiyi kimi nitqin bu funksiyasının reallaşmasında da özünün fərdi üslubunu göstərə bilir. Burada müəllimin hansı: avtoritar, avtokratik,demoktarik və liberal ünsiyyət tərzlərinə üslubuna malik olmasından asılı olaraq nitqinin funksiyası da müxtəlif cür ola bilir.

Təcrübə göstərir ki, müəllimin demokratik xarakterdə olması onun nitqinin kommunikativ təsirini artırır. Müəllim şagirdlərə hörmətlə yanaşdıqda, onun tələbi və tələbkarlığı hör- mətlə əlaqəli olduqda şagirdlər onun tələblərini sözsüz yerinə yetirirlər. Lakin burada şəraitin rolunu da nəzərdən qaçırmaq olmaz. Konkret şəraitdən asılı olaraq nitq ciddi, şən, ironiyalı, avtoritar

və yumşaq ola bilər. Lakin bunların hamısında şagird şəxsiyyətinə hörmət gözlənildikdə nitqin təsirliliyi daha da güclü olur.

**İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI**


1. Əliyev H. Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002.

2. İlyasov M. Müəllimin pedaqoji ustalığı. Dərs vəsaiti. Bakı: Elm və təhsil, 2013.215s.

3.Həsənov A.Məktəbəqədər pedaqogika. Dərs vəsaiti. Bakı:"Nasir nəşriyyatı".2000.367s.


**ELEKTRON RESURSLAR**


• https://anl.az/el/Kitab/2018/07/cd/2018-1050.pdf

• http://web2.anl.az:81/read/page.php?bibid=vtls000338011


**Mühazirə 11: Pedaqoji texnika və onun xüsusiyyətləri**

**PLAN:**

**1. Pedaqoji texnika və onun xüsusiyyətləri;**

**2. Tərbiyəçi-müəllimin xarici görünüşü və pedaqoji özünə nəzarət;**

**3. Nitq texnikası və pedaqoji texnologiyalar**

"Əgər başmaqçı pis usta olsa, dövlət ondan o qədər də zərər çəkməz - xalq yalnız pis ayaqqabı geyinər. Əgər tərbiyəçi öz vəzifəsini pis yerinə yetirsə, ölkədə cahil və yaramaz adamlar meydana çıxar".

Platon

Müəllimin qarşısında müxtəlif xarakterli və məzmunlu pedaqoji vəzifələr durur. Bu vəzifələrin müvəffəqiyyətlə həll edilməsi üçün onun yol və vasitələrinin, tərzlərinin müəllim tərəfindən düzgün seçilməsi və tətbiq olunması mühümdür. Bunun üçün müəllimin pedaqoji texnikaya yiyələnməsi olduqca vacibdir.

**Pedaqoji texnika** - müəllimin müxtəlif pedaqoji vəzifələri həll etməsinin mühüm və incə aləti olub, onun fəaliyyətinin məzmunu və ahəngdarlığını təmin edən üsulların məcmusudur. Pedaqoji texnikada ünsiyyət texnologiyası və müəllimin nitqi mühüm tərbiyə vasitəsi kimi əhəmiyyətli rol oynayır.

Pedaqoji ədəbiyyatlarda pedaqoji texnikanın bir çox komponentlərdən ibarət olduğu göstərilir və bunlar iki qrupa ayrılır.

**Birinci qrup komponentlər** müəllimin özünü, öz davranışını idarə etməsi bacarıqları ilə bağlıdır. Bunlara müəllimin özünün öz orqanizminə (mimikaya, pantomimikaya) yiyələnməsi, emosiyasını, əhval-ruhiyyəsini idarə edə bilməsi, sosial- qavrayış qabiliyyətinə (diqqətlilik, müşahidəçilik, anlamaq), nitq texnikasına (düzgün nəfəsalmaya, səsin nizamlanmasına, diksiyaya, nitqin normal sürətinə) malik olması və s. aiddir. Pedaqoji texnikanın **ikinci qrup komponentləri ayrı-ayrı şəxslərə və kollektivə təsiretmə bacarıqları ilə əlaqələnir və təlim-tərbi**yə proseslərinin texnoloji tərəfini açır. Bunlar: 1) didaktik, təşkilatçılıq, konstruktiv, kommunikativ bacarıqları; 2) pedaqoji ünsiyyətin idarə olunması və 3) kollektiv yaradıcı işlərin təşkili bacarıqlarından ibarət olub, müəllimin pedaqoji ustalığının formalaşmasında mühüm rol oynayır.

Pedaqoji texnikaya digər bir sıra komponentlər də: şagirdlərlə münasibətdə lazım olan üslub və intonasiyanı seçmək, şagirdlərin diqqətini yönəldə bilmək, davranışını idarə etmək, onlara öz münasibətini bildirmək bacarıqları və s. daxildir.

Təcrübə göstərir ki, yeni fəaliyyətə başlayan gənc müə limlər pedaqoji texnika ilə əlaqədar bir sıra tipik pedaqoji səhvlərə məsələn: şagirdlərlə, onların valideynləri ilə ürəkdən söhbət apara bilməmək, həmsöhbət olamağa inamsızlıq göstərmək, nitqdə canlılığın olmaması, monoton nitqə malik olması, diksi- yanın dəqiq olmaması, səsin optimal yüksəklik tonunu tapa bilməməsi və s. yol verirlər. Bütün bu səhvlər gənc müəllimin şagirdlərlə səmərəli, qarşılıqlı fəaliyyətinə mane olur. Buna görə də gələcək müəllimlərin belə səhvlərə yol verməmələri üçün bu sahədə geniş iş aparılması müəllim kadrlarının hazırlanması işində başlıca vəzifələrdən biri olmalıdır.

Pedaqoji texnika pedaqoji bacarıq və qabiliyyətlərin kompleksindən yaranaraq müəyyən birlik təşkil edir və formalaşır. Bu *birliyin təmin olunmasının bir sıra ümumi xüsusiyyətləri vardır. Bunlar, əsasən, aşağıdakılardan ibarətdir:*

1. **Müəllimin şagirdlərlə qarşılıqlı əlaqəsi**. Bu istiqamətdə formalaşmış pedaqoji texnika şagirdlərlə ünsiyyətdə əlveriş- li pedaqoji mühit yaratmaqda, çətin situasiyalarda tez və düzgün metod və tərzlər seçməkdə və qərar qəbul etməkdə, lazım olan sözü, intonasiyanı, jesti tapmaqda, gözlənilməz pedaqoji situasiyaları həll etməkdə, sakitliyin qorunmasında müəllimə böyük imkanlar yaradır.

2. **Müəllimin fərdi psixofizioloji xüsusiyyətləri əsasında formalaşan şəxsi xarakteri.** Bunlar müəllimin yaşı, cinsi, temperamenti, sağlamlıq vəziyyəti, anatomik-fizioloji xüsusiyyətləri və s. ilə bağlı olub, pedaqoji ustalıqda mühüm təsir imkanlarına malikdir.

3. **Müəllimin əxlaqi, estetik baxışları və ümumi mədəniyyəti**. Pedaqoji texnika bacarıqlarının bu xüsusiyyəti ondan ibarətdir ki, burada müəllimin əxlaqi, estetik baxışları və ümumi vəziyyəti açılır. Onun təkcə təlim-tərbiyə aşılayan bir şəxs kimi deyil, həmçinin bir insan, bir vətəndaş kimi mənəvi keyfiyyətləri üzə çıxır və görünür. Belə xüsusiyyətlər müəllimi bir şəxsiyyət kimi tamamlayır və onun fərdi xarakterini aydınlaşdırmaq imkanı yaradır.

## Müəllimin xarici görünüşü və pedaqoji özünə nəzarət

"İnsanın gərək hər şeyi gözəl olsun: üzü də, paltarı da, qəlbi də, fikirləri də".

A.S.Çexov

Müəllimin təkcə sözü, nitqi, keçdiyi dərsin mövzusu, mahiyyəti deyil, həmçinin xarici görünüşü (geyimi, saç forması və s.) də mühüm pedaqoji vəzifələrin həllinə, yəni tərbiyə edilən şəxsiyyətin formalaşmasına səmərəli şəkildə təsir etməyinə səbəb olmalıdır. Müəllim xarici görkəmində müəyyən ölçünü gözləməli və bunun yüksək tərbiyəvi imkana malik olduğunu unutmamalıdır. Müəllim üçün həddindən çox bəzək-düzəyə yol verməK, jest və hərəkətlərinin qeyri-estetik vəziyyəti yol verilməzdir. Hətta müəllimin şagirdlərə yanaşmaq tərzi, baxışı, salamlaşması və s. kimi "xırda" işləri də şagirdlərə təsir gücündədir. Müəllim bunların təsir gücünü heç vaxt yadından çıxartmamalı və hər bir hərəkətinin, sözünün şagirdlərə bu və ya digər səviyyədə təsir etdiyini unutmamalıdır.

Müəllimin özünün xarici görkəminə diqqət yetirməsi şagirdlərə və ətrafdakı adamlara xoş təsir bağışlayır. Buna görə də müəllim xarici görünüşünə müntəzəm olaraq diqqət etməli və qeyri-estetikliyə yol verməməlidir. Onun xarici görünüşü təmiz, səliqəli və estetik cəhətdən gözəl olmalıdır.

Müəllimin şagirdlərlə açıq ünsiyyəti sinifdən başlayır. Buna görə də müəllimin emosional vəziyyətini idarə edə bilməsi müəyyən bilik və bacarıq tələb edir. O, buna həm psixoloji cəhətdən, həm də metodik ustalıq baxımından hazır olmalıdır.

Müəllimin emosional vəziyyətini idarə edə bilməsi özünüidarəetmə ilə sıx əlaqədardır. **Müəllimin özünü idarə edə bilmək bacarıqları müxtəlifdir. Bunların içərisində aşağıdakıları xüsusi qeyd etmək olar:**

• xeyirxahlıq və optimistliyin tərbiyə edilməsi;

• özünün davranışına (əqli gərginliyinin, hərəkət tempinin, nitqinin, nəfəsinin idarə edilməsinə) nəzarət;

• fəaliyyətdə ara vermə (əmək terapiyası, musiqi terapiyası, yumor, əyləncəli oyun);

• özünü təlqin etmə və s.

Professor N.Kazımov müəllimin emosionallığının müxtəlif təzahür formalarının: razılıq və narazılığının, kədərlənmənin, mülayimliyin, sevincin, sərtliyin pedaqoji prosesə mühüm təsir göstərdiyini qeyd edir və onun müəllim tərəfindən idarə olunmasının vacibliyini və bunun üçün müxtəlif üsullardan istifadə olunmasını zəruri sayır. **N.Kazımov bu üsulları iki qrupa ayıraraq onların aşağıdakılardan ibarət olduğunu göstərir:**

1. Müəyyənləşdirici (özünümüşahidə, nöqsanın etiraf edilməsi, səbəblərin müəyyənləşdirilməsi).

2. Təkmilləşdirici (özünü ruhlandırmaq, özünə göstəriş vermək, psixoloji qüvvələri məşq etdirmək).

Müəllim emosional vəziyyətini idarə edərkən və yaranmış gərginliyi aradan qaldırmaq üçün hərdən yumora yer verməli,

şagirdlərlə xoş rəftar etməlidir. Bunun üçün müəllim hər şeydən öncə öz peşəsinin sosial rolunu dərindən dərk etməli, borc hissinə malik, hazırcavab, həssas olmalı, hadisə və prosesləri düzgün qiymətləndirməyi bacarmalıdır. Çeviklik və sayıqlıq göstərməli, eyni zamanda özünü təhlilə və özünü qiymətləndirməyə meyilli olmalıdır. Həmçinin müəllimin öz psixoloji vəziyyətini idarə etmək, lazım olan zaman təəccüb, sevinc, qəzəb və s. hisslərini büruzə vermək, intonasiyanı idarə etmək və müxtəlif hissləri onun vasitəsi ilə ifadə etmək (xahiş, tələb, sual, əmr, tövsiyə, təklif, istək və s.), söhbət zamanı təşəbbüsü əla alıb, idarə etmək, müsbət və mənfi emosiyaları ifadə edə bilmək, həmsöhbətlə özünü yaxınlaşdırmaq, məlumatı obrazlı- bədii şəkildə vermək və s. keyfiyyətləri olmalıdır.

Pedaqoji texnikada təkcə sözlü üsullar, tərzlər deyil, müəllimin sözsüz təsiri, üzün, əllərin ifadəsi də mühüm rol oynayır. Bunların içərisində pantomimika və mimika xüsusi əhəmiyyət kəsb edir.

**Pantomimika** - bədənin, əllərin, ayağın hərəkətidir. O, təlim-tərbiyə prosesində diqqətin əsas məsələyə yönəldilməsinə kömək edir. Müəllim onun vasitəsilə bir növ təsir etdiyi obrazın şəklini çəkir, onu aydınlaşdırır.

Tərbiyəçinin gözəl, nizamlı hərəkətləri onun daxili yetkinliyinin təzahürü kimi özünü göstərir. Buna görə də müəllim dərs prosesində şagirdlər qarşısında düzgün dayanmaq manerasına, davranış estetikasına malik olmalıdır. Həmçinin o, məzmunlu, təbii jestə malik olmalı və etdiyi bütün jestlər fikrinin düzgün açılmasına kömək etməlidir.

**Mimika -** özünün fikrini, hissini, əhval-ruhiyyəsini, vəziyyətini üzünün əzələlərinin hərəkəti ilə ifadə etmək incəsənətidir. Çox halda müəllimin mimikası uşaqlara onun sözündən daha çox təsir edir. Jest və mimika informasiyanın dolğunluğunu təmin edir və onun daha yaxşı mənimsənilməsinə kömək edir.

A.S.Makarenko yazırdı ki, "Mimikasına sahib olaraq, üzünə istənilən ifadəni verə bilməyən və ya öz əhval-ruhiyyəsini gizləyə bilməyən şəxs yaxşı tərbiyəçi ola bilməz. Tərbiyəçi təşkil etməyi, gəzişməyi, zarafat etməyi, nəşəli və kədərli olmağı, qəzəblənməyi bacarmalıdır. Tərbiyəçi özünü elə aparmalı, davranmalıdır ki, onun hər bir hərəkəti tərbiyə etsin və o hər zaman nəyi istəyib-istəmədiyini bilsin".

Uşaqlar müəllimin üzünün ifadəsini "oxumaqla" onun münasibətini, əhval-ruhiyyəsini anlayırlar. Buna görə də üz təkcə ifadə etmək deyil, həmçinin hissləri açıqlamağa səbəb olmalıdır.

Üzün ifadəliliyi nitqin və münasibətin xarakterinə uyğun olmalı və onlarla ahəngdarlıq yaratmalıdır. Burada müəllimin şagirdə necə baxması, baxışdakı ifadəlilik, mənalılıq da az rol oynamır. Buna görə də müəllim məşqlər vasitəsilə jestlərin, mimikanın yerli-yerində, mənalı olmasına nail olmağa çalışmalıdır.

## 4.3. Nitq texnikası

"Öz fikrini yaxşı ifadə edə bilməmək nöqsandır; lakin müstəqil fikrə malik olma- maq daha böyük nöqsandır; müstəqil fikir isə müstəqil kəsb edilmiş bilikdən doğur".

K.D.Uşinski

Müəllimin pedaqoji ustalığının başlıca vasitələrindən biri də onun gözəl nitq qabiliyyətinə malik olmasıdır. Müəllimin nitqi elə bir emosional təsir gücünə malikdir ki, çox vaxt onun yaratdığı təsir başqa vasitələrdən daha güclü olur. Şagirdlər müəllimin nitqinə çox həssas olurlar. Nitqin düzgünlüyü və lazımi tonda olması təlim-tərbiyə prosesinin səmərəliliyini artırır və ona emosional fon verir. Nitqin düzgün olmaması və ya intonasiyanın düzgün seçilməməsi isə şagirdlərdə müəllimə, onun sözünə qarşı inamsızlıq yaradır. Bu baxımdan müəllimin yüksək nitq mədəniyyətinə düzgün diksiyaya, tələffüzə, səs tonuna, tənəffüsə malik olması onun fəaliyyətinin zəruri tərkib hissəsinə çevrilir.

Səlist, düzgün nitq şagirdləri daha çox cəlb edir və müəllimin sözünə, fikrinə şagirdlərdə inamı daha da artırır.

İntonasiya düzgün seçildikdə, tələffüz aydın olduqda müəllimin nitqi daha ürəyəyatımlı, cazibəli olur. Əksinə, nitqin tonu düzgün seçilmədikdə, diksiya aydın olmadıqda və nitq texnikasının digər tələblərinə əməl etmədikdə ona maraq azalır. Müəllim fakt və hadisələri dəqiq şərh etsə belə, şagirdlərdə dinləmə səviyyəsi aşağı olur. Buna görə də müəllimin nitqi üzərində çoxlu çalışması, məşqlər etməsi və onu yaxşılaşdırmağa çalışması olduqca vacibdir.

A.S.Makarenko müəllimin gözəl nitq mədəniyyətinə malik olmasını xüsusi vurğulayırdı. "Mən əminəm ki, uşaqlara deyilən işgüzar, qəti söz böyük əhəmiyyət kəsb edir və bəlkə də, bizim təşkilatı işlərimizdəki səhvlərimiz çox zaman uşaqlarla əsl danışıq bacarığımızın olmamasından irəli gəlir. Elə deməyi bacarmaq lazımdır ki, onlar sizin iradənizi, sizin mədəniyyətinizi, sizin şəxsiyyətinizi hiss edib, duysunlar. Bunu öyrənmək lazımdır".

Elmi araşdırmalar sübut etmişdir ki, alınan informasiyaların 41%-i eşitmə orqanlarının vasitəsilə əldə edilir. Tədris prosesinin 1½-½ hissəsi isə eşitməyə sərf olunur. Buna görə də şagirdlərin tədris materialını mükəmməl başa düşməsi və mənimsəməsi prosesi müəllimin nitqinin kamilliyindən çox asılı olur.

Nitqin kamilliyi və emosionallığı tədris prosesinin, eyni zamanda tərbiyənin səmərəliliyini təmin edən amillərdəndir. Kamil, zəruri ton və deyim tərzində olan nitq inandırıcı, anlaşıqlı və cazibədar olur, dinləyiciləri ona qulaq asmağa stimullaşdırır. Bu baxımdan hər bir müəllimin nitq mədəniyyəti, nitq texnikası haqqında geniş biliyə və praktik bacarığa malik olmasının mühüm əhəmiyyəti vardır.

Eksperimental fiziologiya elmi sübut edir ki, səs, onun çalarları insana təbii verilsə də, onun keyfiyyətini əsaslı surətdə yaxşılaşdırmaq mümkündür. Bunun üçün hər bir müəllimin öz nitqi üzərində çalışması və onu yaxşılaşdırmaq üçün müxtəlif məşqlərdən istifadə etməsi, başlıcası isə, onu qoruması vacibdir.

Müəllimlər öz nitqləri üzərində iş apararkən səs aparatından düzgün istifadə etməyin mexanizmini bilməlidirlər. Onlar səsin gücü, ona yiyələnmə texnikası, səsin ucalığı, elastikliyi, mütəhərrikliyi, genişlik dairəsi (diapazonu), hər bir səs üçün xarakterik xüsusiyyəti (tembri), deyilən sözün, ifadənin aydınlığı (diksiyası), səsin ritmi haqqında ətraflı məlumata malik olmalıdır. Bunların bəzilərini nəzərdən keçirək.

**Nəfəsalma**. Bu, fizioloji funksiya daşıyır və orqanizmin həyat fəaliyyətini təmin edir. O eyni zamanda nitqin enerji bazası rolunda çıxış edir. Buna görə də müəllimin nitq və nəfəsa ma münasibətləri haqqında biliklərə malik olması vacibdir. Danışarkən burun vasitəsilə nəfəs almağı öyrənmək, şərh zamanı dərindən nəfəs almaqla nitqin enerjisini artırmaq, sözlər (cümlələr) arasında harada nəfəs alınacağını məşq etmək və s. bu qəbildən olan qaydalardır. Nitq üçün fizioloji nəfəsalma deyil, dərindən nəfəsalma lazım gəlir. Nitq və danışıq daha böyük həcmdə hava tələb etdiyindən onun istifadəsinə qənaətlə yanaş- maq tələb olunur (burada nəfəsalma, nəfəsvermə, fasilə və nəfəsalma, fasilə və nəfəsvermə ardıcıllığına düzgün riayət etmək lazımdır).

**Səs.** İnsanlar arasında səsi təbii və ürəyəyatımlı olanların nitqi adamlara olduqca xoş təsir bağışlayır. Müəllimlər arasında belələri az deyildir. Təcrübə göstərir ki, hər bir adam öz səsi üzərində işləməklə onu güclü, elastik və gur edə bilər. Bu, olduqca böyük və gərgin məşqlər, zəhmət tələb edir. Müəllimin səsinin özünəməxsus bir sıra xüsusiyyətləri vardır. Bunlardan biri səsin güclülüyüdür. Müəllimin səsi güclü olduqda onun təsirliliyi də artıq olur. Səsin gücü təkcə təbii imkanlardan deyil, səs aparatından düzgün istifadədən də asılıdır. Nəfəsalma

zamanı ağızdan nə qədər böyük həcmdə və təzyiqdə hava keçərsə, səs bir o qədər güclü olar. Səsin tez dəyişə bilməsində və dinləyicilərə təsir etməsində mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri səsin elastikliyi və mütəhərrikliyidir. Müəllimin səsi nə qədər elastik və mütəhərrik olursa, bir o qədər də təsirli olur. İstənilən anda onun yüksəldilə və ya alçaldıla bilməsi, situasiyalardan asılı olaraq dəyişdirilməsi onun təsirliliyini daha da artırır.

**Diapazon** səsin genişlik dairəsi, onun həcmidir. Səsin - sərhəddini yüksək və ən aşağı ton müəyyənləşdirir.

**Tembr** (hər bir səs üçün xarakterik olan səs xüsusiyyəti) səsin çalarları, aydınlığı, yumşaqlığı və fərdiliyidir.

Səsin tərbiyə edilməsi olduqca çətin və fərdi bir prosesdir. O, fərdi metodika və xüsusi mütəxəssis tərəfindən nəzarət tələb edir.

Tədqiqatlar göstərir ki, yüksək səslə müqayisədə aşağı səs uşaqlar tərəfindən daha yaxşı qəbul edilir, onların daha çox xoşlarına gəlir. Belə səslər güclü təsiredici olur.

Başlıca məsələlərdən biri müəllimin səs gigiyenasına düz- gün əməl etməsidir. Tədqiqatlar göstərir ki, "səsli peşə" adamları arasında səs aparatının xəstəliyi çox yüksəkdir. Müəllimlər arasında bu 40,2% təşkil edir.

**Səsin korlanması səbəbləri müxtəlifdir. Mütəxəssislər bunu dörd qrupa ayırırlar: 1) səs yükünün hər gün artırılması; 2) səs aparatından istifadəni bilməmək; 3) gigiyena qaydalarını gözləməmək; 4) səs orqanlarının anadangəlmə zəifliyi.**

Müəllimlər iş vaxtının 50%-ə qədərini danışdığından onların səs aparatından düzgün istifadə edə bilməsi və gigiyenik normaları gözləməsi olduqca vacibdir. Eyni zamanda peşə xəstəliyinin inkişaf etməməsi üçün məktəbdə normal şəraitin yaradılmasına nail olmaq lazım gəlir. İş vaxtı qurtardıqdan sonra 2-3 saat müəllim uzunmüddətli danışıqlardan qaçmalıdır. Zəruri hallarda isə qısa və sakit danışmağa çalışmalıdır.

Müəllim yuxarı tənəffüs orqanlarına, əsəb sisteminə, qida rejiminin qorunmasına xüsusi diqqət yetirməlidir. Nəzərdən qaçırmaq olmaz ki, səs orqanları tünd, qıcıqlandırıcı qidalara çox həssasdır. Olduqca soyuq, həddən artıq isti, tünd xörəklər, alkoqollu içkilər, siqaret səs aparatının korlanmasına səbəb olan amillərdir.

**Səsin və səs aparatının qorunması üçün mütəxəssislər aşağıdakı məsləhətləri faydalı hesab edirlər:**

✔boğazı vaxtaşırı olaraq soda və yodla yaxalamaq;

✔ monoton nitq səs aparatı əzələlərinə yorucu təsir göstərdiyindən ifadəli nitqdən istifadə etmək;

✔ yazı lövhəsində işləyərkən əmələ gələn tozun qarşısını almaq məqsədilə yaş silgidən istifadə etmək;

✔ işdən sonra soyuq havada tez-tez yeriməmək, nəfəs orqanlarını soyuqdan qorumaq və s.

**Diksiya**. Müəllim üçün onun nitqinin şagirdlər tərəfindən aydın başa düşülməsinin mühüm əhəmiyyəti vardır. Diksiya deyilən sözün, ifadənin, səsin aydınlığı və dəqiqliyidir. Bu, olduqca vacibdir. Çünki müəllimin sözü, ifadəsi, hətta ayrı-ayrı səsləri aydın tələffüz olunduqda şagirdlər onu tez anlayır və başa düşürlər. Əks halda, müəllimin nitqi şagirdlər üçün bilik mənbəyi funksiyasını ifadə edə bilmir.

Diksiya səs aparatının uyğunluğundan və enerjili işləməsindən asılıdır. Bunlarla bərabər, diksiyanın yaxşılaşdırılması üçün nitq üzrə tapşırıqlardan, səs orqanlarının hərəkətli gimnastikasından, məşqlərdən və mütəxəssis məsləhətlərindən istifadə edilməsi faydalıdır.

**Ritm**. Ayrı-ayrı sözlərin, hecanın sürətliliyi və uzunluğu, həmçinin danışıqda pauzanın ritmik təşkili danışığın ölçüsü, nitqin ritmikası ilə çox əlaqədardır. Ritm danışıqda çox vacib element hesab olunur və intonasiya, pauza, sözün başa düşülməsi, dinləyicilərə emosional təsir etmə gücünə malik olur.

Nitqin sürəti müəllimin fərdi keyfiyyətindən, nitqin məzmunluluğundan, ünsiyyətin situasiyalarından asılıdır. Eksperimental tədqiqatlar göstərir ki, V-VI siniflərdə müəllimin dəqiqədə 60-a qədər, X sinifdə isə 75 söz işlətməsi məqsədə müvafiqdir. Müəllim çətin materialları izah edərkən əvvəlcə onu asta-asta, sonra isə tez-tez, sürətlə izah etməlidir. Lakin müəllim qaydaları, prinsipləri, qanunları deyərkən və müəyyən nəticə çıxararkən səsin sürətini azaltmalıdır.

Müəllim nitqin təsirliliyini, ifadəliyini artırmaq üçün məntiqi və psixoloji pauzalardan istifadə etməyi bacarmalıdır. "Məntiqi pauzasız nitq-savadsız, psixoloji pauzasız-həyatiliksiz olacaqdır".

Nitqin bir sürətdə, monoton olması ona diqqəti və marağı azaldır, nitqi cansıxıcı edir. Buna görə də müəllimin nitqi təbii, maraqlı, aydın və təsirli olmalıdır. Bunun üçün, yəni nitqin intonasiyalı olması üçün müəllim xüsusi tapşırıqlardan istifadə etməlidir. Müəllimin səsi aydın, dəqiq, intonasiyalı, təsirli, diqqəti cəlb edən, fikirləşməyə və fəaliyyətə sövq edən olmalıdır. Bunun üçün müəllimin öz nitqi üzərində müntəzəm olaraq işlənməsi və müəyyən tapşırıqları yerinə yetirilməsi zəruridir.

## Pedaqoji texnologiyalar

"Dünyanı nizama peşəkar salar, Hər nizam peşədən, hünərdən olar".

Əvhədi Marağalı

Son zamanlar bir sıra pedaqoji tədqiqatlarda texnologiyalar haqqında çox yazılır və məktəb təcrübəsində, bir çox qabaqcıl müəllimlərin təcrübəsində onlardan istifadə olunduğu göstərilir. Lakin məsələni daha da konkretləşdirməyə gəldikdə, bu sahədə bir sıra qaranlıq məsələlərin olması və fikir ayrılıqları üzə çıxır. Bu da ən çox texnologiya anlayışının metodika anlayışı ilə eyniləşdirilməsində, sırf metodik məsələləri texnoloji proseslər kimi təqdim etməkdə, ya da pedaqoji texnologiyaları həddindən artıq şişirtməklə və onu yeni bir tapıntı-"kəşf" kimi izah etməkdə özünü göstərir. Əvvəlcə texnologiya sözünün leksik mənasına diqqət yetirək.

Texnologiya - iki yunan sözü olan "techne" (sənət, ustalıq,bacarıq) və logiya (elm) sözlərinin birləşməsindən olub, istehsalat prosesində hazır məhsul almaq üçün işlədilən xammal, material və ya yarımfabrikatların emalı, hazırlanması, aqreqat halının, xassələrinin, formasının dəyişdirilməsi metodlarının məcmusu, xammal, material və ya yarımfabrikata müvafiq istehsalat alətləri ilə təsir göstərmə üsulları haqqında elmdir.

Bəs onda pedaqoji texnologiya nədir, onu necə xarakterizə etmək mümkündür?

Qeyd edək ki, keçmiş sovet pedaqogikalarında pedaqogikanın texnologiya ilə əlaqələndirilməsi ilk növbədə görkəmli pedaqoq A.S.Makarenkonun adı ilə bağlıdır. Makarenko hələ ötən əsrin 30-cu illərində pedaqoji texnologiyalar haqqında fikir söyləmiş və onun bəzi xüsusiyyətlərini göstərmişdir. A.S.Makarenko özünün məşhur "Pedaqoji poema" adlı əsərində yazırdı ki, bizim pedaqogikamızda aparıcı rolu mənəvi nəsi- hət məntiqi oynadığından texnoloji məntiq əsas yer tutmamış və buna görə də pedaqoji istehsalın ən mühüm şöbələri olan texnoloji proses, əməliyyatların qeyd olunması, müxtəlif konstruktor ləvazimatlarının tətbiqi, normallaşdırma, nəzarət, buraxılış, keyfiyyətə nəzarət və saf-çürük etmə kimi əməliyyatlar aparılmır.

Pedaqogikada pedaqoji prosesin tədqiqatçılar tərəfindən kütləvi tətqiqi keçən əsrin 60-cı illərinin əvvəllərinə təsadüf edir. Bu ilk növbədə Amerika və Avropa ölkələrində məktəb islahatlarının aparılması ilə əlaqədar olmuşdur. Bu sahədə birçox Amerika və Avropa alimləri: C.Korell, B.Blum, D.Vrunner, Q.Seys, Y.Koskarellin, rus pedaqoqları: P.Y.Qalpern, N.F.Talizina, N.Landa, Y.K.Babanski, P.M.Erdniyev, V.S.Kukuşin, V.P.Bespalko, Azərbaycan pedaqoqlarından N.M.Kazımov, B.A.Əhmədov, Ə.X.Paşayev, F.A.Rüstəmov və b. göstərmək olar. Bu tədqiqatçılar pedaqoji texnologiyaların izahında ayrı-ayrılıqda təlim texnologiyaları, tərbiyə texnologiyaları anlayışlarını izah etməklə yanaşı, pedaqoji texnologiya anlayı- şının da mahiyyətini aydınlaşdırmışlar.

A.Mehrabov, Ə.Abbasov, Z.Zeynalov, R.Həsənov tərəfindən yazılan "Pedaqoji texnologiyalar" vəsaitində pedaqoji texnologiyalar, təhsil, tədris, tərbiyə və s. texnologiyaların sistemli kombinasiyası kimi xarakterizə olunur. Burada yazılır: "Pedaqoji texnologiya mahiyyət etibarı ilə təlim-tərbiyə prosesinin layihələndirilməsinin sistemli metodu kimi səciyyələndirilir".

Hazırda pedaqoji texnologiya müəllimin pedaqoji məsələlərinin həllinə yönəlmiş ardıcıl, qarşılıqlı əlaqəli hərəkətlər sistemi kimi, yaxud əvvəlcədən planlaşdırılmış pedaqoji prosesin planlı şəkildə və ardıcıl olaraq təcrübədən keçirilməsi, reallaşması kimi qəbul edilir.

Bu izahatda göründüyü kimi pedaqoji texnologiyalar pedaqoji prosesin sistemli, ardıcıl və planlaşdırılmış elə bir hissəsidir ki, burada ardıcıl və qarşılıqlı əlaqəli hərəkət sistemi, dinamik ardıcıllıq vardır. Bu prosesdə müəllim və şagirdlərin (tələbələrin) qarşılıqlı fəaliyyəti ilə bir və ya bir neçə təlim- tərbiyə işi həyata keçirilir ki, bu da müəyyən üsul və vasitələrin köməyi ilə reallaşır.

Lakin qeyd edək ki, **pedaqoji ədəbiyyatlarda pedaqoji texnologiyalar haqqında fərqli yanaşmalar, fikirlər də az deyildir. Bunları aşağıdakı kimi qruplaşdırmaq olar:**

1. Pedaqoji texnologiyalar dedikdə yalnız təlim texnologiyaları nəzərdə tutulur.

2. Pedaqoji texnologiyalar dedikdə müəllimin texnoloji cəhətdən işləyib hazırlamış olduğu metodlar, priyomlar sistemi və tərbiyə metodları nəzərdə tutulur.

Pedaqoji texnologiya haqqında irəli sürülən bu baxışların təhlili göstərir ki, problemə yanaşmada yeniliklər, fərqli fikirlər olsa da, bəzi müəlliflər təlim-tərbiyə metodlarını da pedaqoji texnologiya kimi şərh etmiş və bununla pedaqoji texnologiya anlayışını metodika anlayışı ilə eyniləşdirmişlər. Bu da pedaqoji texnologiya anlayışının izahında müəyyən çətinliklərin olmasından irəli gəlir. Bizcə, yalnız respublikamızda deyil, keçmiş ittifaqın bir çox yerlərində 1980-1990-cı illərdə yazılmış pedaqogika üzrə dərslik və dərs vəsaitlərinin xeyli qismində "pedaqoji texnologiya" termininə və onun izahına rast gəlinməməsi də məhz texnologiya ilə metodika anlayışlarına eyni nöqteyi- nəzərdən yanaşma ilə bağlı olmuşdur. Lakin məsələnin mahiyyətinə dlərindən fikir verdikdə görünür ki, "metodika"-təlim- tərbiyə prosesində metod və vasitələrin cəmi, şagirdlərin təlim- tərbiyə olunması yollarının toplusu, məcmusundan ibarətdir. Təlim metodları isə “təlim mərhələlərinə uyğun olaraq müəllimin rəhbərliyi altında şagirdlərin müəyyən biliklərə, bacarıq və vərdişlərə yiyələnmələri, tərbiyə olunmaları və inkişaf etmələri yollarıdır.

"Tərbiyə metodları müəyyən olunmuş keyfiyyətləri şagirdlərdə tərbiyə etmək məqsədilə onların şüuruna, iradəsinə, hisslərinə, davranışına təsir göstərmək üçün nizama salınmış fəaliyyətdir", "tərbiyənin vəzifələrinə çatmaq üçün tərbiyəçinin (valideynin, müəllimin) istifadə etdiyi yol və vasitələr, üsullar sistemidir".

Pedaqoji texnologiyalarda isə bunlardan fərqli xüsusiyyətlər, cəhətlər vardır. Belə ki, pedaqoji texnologiyalar konkret götürülmüş hər hansı bir təlim-tərbiyə işinin müəyyən sistem və ardıcıllıqla, kiçikdən-böyüyə, təhlildən-tərkibə doğru hərəkət, iş prosesi, təlim-tərbiyə prinsiplərinin ardıcıl olaraq həyata keçirilməsinə yönəlmiş xarici və daxili hərəkətlər toplusu kimi özünü göstərir.

Respublikamızın təhsil sistemində aparılan islahatlar, tətbiq olunan yeniliklər gənc nəslə vacib olan bir çox zəruri keyfiyyətlərin formalaşmasına geniş imkanlar yaradır. Bir sıra sosial keyfiyyətlər, biliyə yiyələnmə, müasir elmi-texniki yeniliklərdən baş çıxara bilmə və onlardan istifadə etmək bacarıqları, yaradıcılıq və öz qabiliyyətlərini həyata keçirə bilmək bacarıqları və s. bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

Təcrübə və tədqiqatlar göstərir ki, XXI əsrdə yaşayan və fəaliyyət göstərən bugünkü məktəblilərin yeni dövrün tələbləri baxımından təlim və tərbiyə alması üçün ənənəvi təlim və onun metodları kifayətləndirici deyildir. Buna görə də dünyanın bir sıra qabaqcıl ölkələrinin müsbət təcrübəsini öyrənməklə fəal təlim metodlarından istifadə etmək və təlim prosesini fəallaşdırmaq, təlim və tərbiyə metodlarını yeniləşdirmək, şagirdlərdə fəallığın təmin edilməsinə yönələn fəal, intensiv iş formalarından istifadə etmək, yeni təlim-tərbiyə texnologiyalarına yiyələnmək və onları tətbiq edə bilmək olduqca vacibdir. **Bunun üçün təlim prosesində aşağıdakı bir sıra məsələlərin nəzərə alınmasını zəruri hesab edirik:**

• təlim prosesində şagirdlərin müəllimlərlə tərəf-müqabil kimi iştirakına və müəllim-şagird əməkdaşlığına nail olunması, dərsin subyekt-subyekt əməkdaşlığı əsasında qurulması;

• təlim prosesinin intensiv təşkili və şagirdlərin bütün dərs boyu fəallığı;

• dərs zamanı problemli vəziyyətin-problem-situasiyanın yaradılması və bütün dərs müddətində şagirdlərin fikri fəallığının təmin edilməsi;

• şagirdlərin təfəkkür müstəqilliyinə nail olunması, onların yeni bilikləri müstəqil öyrənməyə istiqamətləndirilməsi;

• dərsdə əks-əlaqə metodundan geniş istifadə edilməsi, şagirdlərin daxili imkanlarının "oyadılmasına", onların müstəqil axtarış vərdişlərinə yiyələnmələrinə nail olunması;

• təlimin qruplar üzrə aparılmasının genişləndirilməsi və qruplarda fəal, işgüzar iqlimin yaradılması;

• biliklərin tətbiqi üçün yaradıcı, əlverişli şəraitin yaradı ması və s.

Bu xüsusiyyətlərin nəzərə alınması təlim prosesində bir sıra texnoloji əməliyyatların həyata keçirilməsi ilə sıx surətdə bağlıdır. Müasir təlim prosesini ənənəvi təlimdən fərqləndirən bu xüsusiyyətlər birbaşa şagirdlərin təfəkkürünə əsaslandığından biliklərin şüurlu mənimsənilməsini təmin edir və onların uzun müddət yadda qalmasına səbəb olur.

Yeni pedaqoji texnologiyaların tətbiqi təlimin məqsədlərindən çox asılıdır. Belə ki, təlimin nəticəsi onun hansı məqsədə yönəldiyi ilə sıx surətdə bağlı olduğundan hər bir müəllim təlim-tərbiyə prosesində texnoloji prosesləri planlaşdırarkən ilk növbədə bu prosesdə hansı məqsədin olmasını aydın dərk etməli və bütün iş növlərinin həmin məqsədin reallaşmasına xidmət etməsinə çalışmalıdır.

Beləliklə, istər orta məktəblərdə, istərsə də ali tədris müəssisələrində təlim texnologiyası tədris prosesinin təşkilati-metodik aləti kimi çıxış edir və bu prosesin həyata keçirilməsinin forma, metod, vasitə və yollarının xüsusiyyətlərini tam şəkildə müəyyənləşdirir. Başqa sözlə, təlim texnologiyası tədris komponentlərinin və strukturlarının məcmusundan ibarət olub, onun tam pedaqoji proses kimi həyata keçirilməsinin qarşılıqlı asılılığını və mexanizmini özündə birləşdirir.

Tədris prosesinin həyata keçirilməsi müəllimlər və şagirdlərin (tələblərinin) qarşılıqlı əlaqəsinin və əməkdaşlığının təşkili ilə sıx bağlıdır. **Ümumi məqsədə yönəldilən bu əlaqə və əməkdaşlıq təlim texnologiyalarının aşağıdakı bir sıra istiqamətlərdə reallaşdırılmasını tələb edir:**

• müəllimlərin fəaliyyət texnologiyası;

• şagirdlərin (tələbələrin) fəaliyyət texnologiyası;

• ayrı-ayrı dərslərin (o cümlədən mühazirə və seminar məşğələlərinin) təşkili və həyata keçirilməsi texnologiyası;

• laborator və praktik məşğələlərin hazırlanması və həyata keçirilməsi texnologiyası;

• ali məktəblərdə kurs və buraxılış işlərinin (layihələrinin) hazırlanması və reallaşdırılması texnologiyası və s.

Təlim prosesində müəllimlərin şagirdlərlə (tələbələrlə) qarşılıqlı fəaliyyəti psixoloji-pedaqoji fəaliyyət kimi onun informasiyaları məqsədyönlü sistemləşdirməsi, məntiqi tamlığın yaranması üçün bir növ "özünü təşkil etməsi", yəni daxili təşkilatçılığı, tədris prosesini idarə edə bilməsi və praktik fəaliyyətində aldığı nəticələrin necəliyi ilə xarakterizə edilir. **Bu baxımdan müəllimin fəaliyyət strukturunda aşağıdakı sistem və ardıcıllığın olması mühümdür:**

a) tədris prosesinin iştirakçıları tərəfindən məqsədin aydın dərk olunması;

b) tədris prosesinin optimal variantının planlaşdırılması;

c) öyrədici kommunikativ fəaliyyətin təşkili;

d) müəllimlərin şagirdlərlə (tələbələrlə) fəaliyyət növlərinin, formalarının seçilməsi və onun təşkilinə nail olma;

e) başlıca arqumentlərə diqqətin yönəldilməsi;

f) nəzarət və qeydəalma.

**Şagirdlərin (tələbələrin) tədris-idrak fəaliyyətinin düzgün təşkili olduqca vacibdir. Bununla bağlı şagirdlərin (tələbələrin) fəaliyyət xüsusiyyətləri aşağıdakı bir sıra komponentlərlə xarakterizə olunur:**

• müəllim (mühazirəçi) tərəfindən verilən informasiyaların, məlumat və biliklərin passiv formada dinlənilməsi, qəbulu və qeydə alınması;

• şagirdlərin (tələbələrin) fəal, müstəqil axtarışa qoşulması, informasiya və məlumatların müstəqil olaraq əldə edilməsi və onlardan yaradıcılıqla istifadə edilməsi;

• biliklərin və informasiyaların müəllim-şagird (müəllim- tələbə) qarşılıqlı əməkdaşlığında müəllimlər tərəfindən istiqa- mətləndirilmiş şəkildə axtarılması, tapılması və onlardan istifadə edilməsi.

Qeyd edək ki, tədris prosesində şagirdlərin (tələbələrin) tədris-idrak fəaliyyətinin təşkili və idarə olunması, fəaliyyətə stimullaşdırıcı ustanovkanın təşkili, öyrədici və inkişafetdirici fəaliyyət üçün şəraitin yaradılmasından çox asılıdır.

Digər bir asılılıq müəllimin pedaqoji ustalığı, məharəti ilə bağlıdır. Belə ki, müəllim yüksək peşəkarlığa, didaktik bacarıqlara, təlim-tərbiyənin nəzəri və praktik biliklərinə yiyələndikcə onun texnoloji proseslərə dair pedaqoji təfəkkürü də bir o qədər artır, genişlənir. Aparacağı dərsin, keçirəcəyi tərbiyəvi tədbirin ən xırda ünsürlərinə belə yaradıcı münasibət bəsləyir, onu bir növ "yaradır", "qurur" və özünün yaradıcılığını üzə çıxarır. Onun başqa müəllimlərdən fərqli cəhətləri də, yaradıcı keyfiyyətə malik xüsusiyyətləri də məhz bu fərdi üslublarında, pedaqoji əməliyyatların həllində özünəməxsus texnologiyalarından istifadə etməsində, yəni "müəllif texnologiyaları"nda özünü göstərir.

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI

1. Əliyev H. Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002.

2. İlyasov M. Müəllimin pedaqoji ustalığı. Dərs vəsaiti. Bakı:  Elm və təhsil, 2013.215s.

3.Həsənov A.Məktəbəqədər pedaqogika. Dərs vəsaiti. Bakı:“Nasir nəşriyyatı”.2000.367s.

**ELEKTRON RESURSLAR**

• https://anl.az/el/Kitab/2018/07/cd/2018-1050.pdf

• http://web2.anl.az:81/read/page.php?bibid=vtls000338011

**Mühazirə 12: Müəllim uşaq ünsiyyəti pedaqoji ustalığın vasitəsi kimi**

**PLAN:**

**1. Pedaqoji ünsiyyətin mahiyyəti və başlıca funksiyaları;**

**2. Müəllim-uşaq ünsiyyətinin formalaşmasına təsir edən amillər**

"Ən ülvi cah-cəlal insanlar arasında səmimi ünsiyyətdir".

A.S. Ekzüperi

Pedaqoji ünsiyyət təlim-tərbiyə prosesinin təsirli vasitələrindən biri olub şagird şəxsiyyətinin formalaşmasında mühüm yer tutur. "Müəllim-şagird cütlüyündə ünsiyyətin istənilən növü situasiyadan asılı olmayaraq tərbiyəvi xarakter daşıyır".Lakin bir məsələyə də xüsusi diqqət yetirmək lazım gəlir ki, müəllim-şagird ünsiyyəti o zaman daha yüksək nəticələrə səbəb olur ki, bu ünsiyyətin əsasında hörmət, humanist münasibət dayanmış olsun. Belə olduqda müəllim-şagird ünsiyyəti şəxsiyyətin formalaşdırılmasının alətinə, vasitəsinə çevrilə bilir. Bunu aparılmış bir sıra tədqiqatlar da sübut edir. Psixoloji tədqiqatların nəticələri göstərir ki, uşaqlarla ünsiyyətə girmək qabiliyyəti müəllimin onlara məhəbbətinə əsaslanmalıdır. Respublikamızın görkəmli psixoloqu professor Ə.Əlizadə yazır: "Şagirdlər müəllimin erudisiyasını yüksək qiymətləndirirlər. Bilikli müəllimi sayırlar. Ancaq onlar səmimi, xeyirxah, qılıqlı, həssas, qəlbini uşaqlara verən və onlarla söhbət etməyi bacaran, hətta sinifdənkənar vaxtlarda da onlarla həvəslə məşğul olan müəllimi sevirlər".

Faktlar göstərir ki, uşağı sevməyən və ya sevə bilməyən müəllimin onlarla ünsiyyəti də alınmır. Buna görə də pedaqoji ünsiyyət üçün müəllimdən xüsusi bacarıq və qabiliyyətlər

tələb olunur. Belə bacarıq və qabiliyyətlərə malik olmadan müəllim- şagird ünsiyyətinin pedaqoji səmərəliliyi mümkün deyildir.

Müəllim-şagird ünsiyyəti müəllimin bu və digər bir sıra bacarıq və keyfiyyətlərə nə dərəcədə malik olmasından çox asılıdır. Müəllim özünün pedaqoji fəaliyyətində müxtəlif xarakterli, müxtəlif temperamentli şagirdlərlə qarşılaşdığından onların hər birinə fərdi yanaşma bacarığına yiyələnməlidir. Şagirdlərinin heç birinin diqqətdən kənarda qalmaması üçün onlarla "dil tapmağı" bacarmalıdır. Şagirdlərin hər birinin fərdi xüsusiyyətlərini öyrənməli, onlarla ünsiyyətə girə bilmək üçün "açar" tapmalıdır. Bu isə olduqca çətin və mürəkkəb iş olub, müəllimdən səbr, təmkin, yaradıcı axtarış və diaqnostik bilik tələb edir. Müəllim pedaqoji ünsiyyətin qayda-qanunlarını bilməli, kommunikativ bacarıqlara və kommunikativ mədəniyyətə malik olmalıdır.

Müəllim təkcə müxtəlif temperamentə və müxtəlif xüsusiyyətlərə malik şagirdlərlə işləmir. O həmçinin bir-birlərinə bənzəməyən valideynlərlə də qarşılıqlı münasibətdə olur. Onlarla iş aparır. Buna görə də müəllim valideynlərlə pedaqoji ünsiyyətə girə bilmə bacarıqlarına da malik olmalıdır.

Pedaqoji ünsiyyətin yüksək keyfiyyətlərinə yiyələnən müəllim məktəblilərlə xoş, mehriban münasibət yaratmağı, ünsiyyətə girməyi, onların təlim-tərbiyə fəaliyyətinə rəhbərlik etməyi bacarır və onun yüksək səviyyədə təşkil edilməsinə nail olur. Buna görə də müəllimin şagirdlərlə ünsiyyət mədəniyyətinə yiyələnməsi, qarşılıqlı ünsiyyətin yüksək kommunikativ səviyyəsinə malik ola bilməsi pedaqoji fəaliyyətin səmərəliliyi üçün ən zəruri şərtlərdən və amillərdən birini təşkil edir.

**Pedaqoji ünsiyyət sosial-psixoloji proses kimi aşağıdakı bir sıra funksiyalarla xarakterizə edilir: şəxsiyyəti dərk etmək, informasiya mübadiləsi, fəaliyyətin təşkili, rolların dəyişdirilməsi, başqalarının dərdinə şərik olmaq, özünütəsdiq.**

Pedaqoji ünsiyyət zamanı bu funksiyaların həyata keçirilməsi müəllimin qarşısındakı şagirdi haqqında ətraflı məlumatlara malik olmasına, onunla səmimi fikir mübadiləsi etməsinə, dialoqa girməsinə, şagirdlərin fəaliyyətini düzgün təşkil edə bilməsinə, şagirdlərin kollektivdə müxtəlif-həm icra etdirən, həm də icraçı kimi çıxış edə bilmələrinə, başqalarının dərdinə şərik ola bilmə hisslərinin formalaşmasına, nəhayət, özünütəsdiqə səbəb olur.

Pedaqoji ünsiyyət müəyyən quruluşa malik bir prosesdir. Pedaqoji ünsiyyət problemi üzrə bir sıra maraqlı və məzmunlu tədqiqatlar aparmış **V.A.Kan-Kalik pedaqoji ünsiyyətin quruluşunu aşağıdakı kimi təsnif edir:**

1. Siniflə qarşılıqlı ünsiyyətin müəllim tərəfindən modelləşdirilməsi (proqnozlaşdırma mərhələsi).

2. İlkin qarşılıqlı təsir anında səmimi ünsiyyətin təşkili (kommunikativ hücum).

3. Pedaqoji prosesdə ünsiyyətin idarə edilməsi.

4. Qazanılmış ünsiyyət sisteminin təhlili və gələcək fəaliyyət üçün onun modelləşdirilməsi.

Müəllimin öz ünsiyyətini bu sistem üzrə qura bilməsi müəllim-şagird ünsiyyətinin formalaşmasında mühüm təsir gücünə malik ünsiyyət mədəniyyətinin yaranmasına səbəb olur.

Müəllimin əvvəlcədən şagirdlərlə qarşılıqlı ünsiyyət yarada bilməsinin proqnozlaşdırılması bir tərəfdən onun öz ünsiyyətini necə qura bilməsi, digər tərəfdən isə ünsiyyət mədəniyyətində olan çatışmazlıqların ləğv edilməsi üzərində düşünməsinə səbəb olur. Özünü səmimi ünsiyyətə hazır hesab edən müəllim şagirdlərlə ilk görüşündən onlarla mehriban, qayğıkeş, nəvazişli rəftar etməklə qarşılıqlı səmimi ünsiyyətə nail olur. Bir növ "kommunikativ hücuma keçmiş olur, bu da müəllim-şagird münasibətlərinin ilk vaxtlardan səmimiyyət və nəzakət üzərində qurulmasına səbəb olur.

Pedaqoji prosesdə dərsdə, dərsdənkənar tərbiyəvi tədbirlərdə müəllimin ünsiyyət üzərindəki nəzarəti ünsiyyəti idarə edə bilməsi, yəni ora ünsiyyətə xələl gətirən ünsürlərin qaba sözlərin, ifadələrin, sərt davranışın, avtoritar iş üsulunun və s. gətirilməsinə, daxil olmasına imkan vermir. Bu da müəllimlərin ünsiyyət mədəniyyətinin fomalaşmasına olduqca müsbət təsir göstərir.

Son mərhələdə müəllimin malik olduğu ünsiyyət mədəniyyətinin özü tərəfindən təhlil edilməsi, müəllim-şagird münasibətlərində buraxdığı nöqsanlar, nail ola bilmədiyi nəticələr barədə düşünməsinə, özünü, öz fəaliyyətini təhlil etməsinə və gələcək fəaliyyəti üçün öz işini necə quracağı üzərində fikirləşməsinə və onu modelləşdirməsinə səbəb olur. Müəllimin buna özünü təhrik etməsi müəllim-şagird ünsiyyətinin gələcək istiqaməti üçün mühüm əhəmiyyət kəsb edir.

Müəllim-şagird ünsiyyətinin formalaşmasında xüsusi yer tutan məsələlərdən biri müəllimlərlə şagirdlər arasında informasiya mübadiləsinin aparılmasıdır. Müəllimin şagirdlərlə səmimiyyətlə apardığı müsahibə, onlara müəyyən informasiyanı verməsi və lazımi informasiyaların alınması zamanı emosional və kommunikativ təsir vasitələrindən istifadə edilməsi olduqca vacibdir.

Müəllim-şagird ünsiyyətinin formalaşması eyni zamanda şagirdlərin davranışını tənzim etməklə sıx surətdə bağlıdır. *A.S.Makarenko* yazırdı: İnsanın tərbiyə edilməsi-adamlara düzgün münasibətlər tərbiyə edilməsi deməkdir.

Bu baxımdan sinifdə şagirdlər üzərində, onların davranışı üzərində nəzarətin olması və bu davranışın tənzimlənməsi müəllim-şagird ünsiyyətində mühüm mərhələlərdən birini təşkil edir.

Müəllim-şagird ünsiyyətinin formalaşmasında nəzərə alınması vacib olan məsələlərdən biri də şəxsiyyətlərarası anlamadır. Anlama olmadan bu ünsiyyətin yüksək nəticəsindən danışmaq olmaz. X.İbrahimov bu münasibətlə yazır: “Anlama qarşılıqlı münasibətlərin əsas tənzimləyicisindən biri, şagird şəxsiy- yətinə hörmətin başlıca şərtidir. Onun köməyi ilə müəllim şagirdin daxili dünyasına varır, onun qəlbində, şüurunda cərəyan edənləri duyur ki, bu da obyektin idarə olunmasını asanlaşdırır. *Anlama persepsiya, empatiya, identifikasiya ilə sıx bağlı şəkildə baş verir.* **Persepsiya** üz ifadəsindən, nitqdən, fəaliyyətdən adamın daxilini duymaq, empatiya duymaq, kədəri yaşama bacarığı, uşağın dərdinə şərik ola bilmək qabiliyyəti, **identifikasiya** - başqasının daxili aləmini tam mənada öz daxili dünyasına gətirmə bacarığı deməkdir"

Pedaqoji ünsiyyət sosial, psixoloji və qarşılıqlı təsir prosesləridir. Bu münasibətlərin səmimiliyi, dərinliyi, emosional tərzi, valideyn-övlad münasibətləri səviyyəsində təşkili təlim-

tərbiyə işinin müvəffəqiyyətlə nəticələnməsində mühüm əhəmiyyətə malikdir. Prof. Ə.Əlizadə bu münasibətlə yazır: "Müəllim-şagird(lər) münasibətlərinin əhəmiyyətinə uzun müddət kifayət qədər diqqət yetirilməmişdir. Ancaq tərbiyə işinin öz realizmi var: müasir məktəbin bir çox köklü məsələləri, ilk növbədə, önəmli tərbiyə effektləri məhz bu sahə ilə əsas məziyyətlərinə görə daha çox valideyn-övlad münasibətlərinə bənzəyən "müəllim-şagird(lər)" münasibətləri ilə şərtlənir".

Respublikamızın "Təhsil Qanunu'nda təsbit olunan humanistlik prinsipi məktəbdə müəllim-şagird münasibətləri, onlar arasında olan qarşılıqlı ünsiyyəti yeni tələblər səviyyəsində qurmağı tələb edir. Bu isə prof. Ə.Əlizadənin dediyi kimi şagirdin insan ləyaqətinə hörmət etmək, ona etibar və inamla yanaşmaq, bir şəxsiyyət kimi onun məqsədləri, tələbatları və mənafeyi ilə hesablaşmaq məhz bu keyfiyyətlər müəllimlərin şagirdlərlə münasibətlərinə nurlu insani çalarlar bəxş edir.

Kiçikyaşlı məktəblilərin özlərinəməxsus xüsusi psixoloji xüsusiyyətləri var. Onlar müəllimi ideal bir şəxsiyyət, varlıq kimi qəbul edir və onların tələblərini sözsüz yerinə yetirməyə çalışırlar. Çox vaxt onlardan "müəllim belə deyib, belə olmalıdır" - ifadəsini eşitmək olur. Xüsusilə bu yaşda olan şagirdlərlə səmimi,mehriban və işgüzar münasibət yaratdıqda onlar müəllimlərini bir ata, ana-valideyn kimi sevir, onlara "bağlanırlar". Belə münasibətin qoyduğu xatirələr, saldığı izlər çox vaxt insanın bütün ömrü boyu davam edir. Təsadüfi deyildir ki, sorğu apardığımız bir çox gənclər, yaşlı adamlar unudulmaz müəllimlərindən danışarkən ilk növbədə ibtidai sinif müəllimlərini qeyd etmişlər. Bakı şəhəri Nəsimi rayonundakı Y.Mirzəyev adına 44 saylı orta məktəbin IV sinfində şagirdlərlə apardığımız söhbət zamanı onların əksəriyyəti Südabə müəlliməni (Südabə Xələfzadə) yaxşı müəllim kimi çox istədiklərini bildirdilər. Çox maraqlıdır ki, "Yaxşı müəllim dedikdə nəyi nəzərdə tutursunuz?" sualına onlar müəllimin uşaqlarla qayğıkeş, mehriban, ana kimi rəftar etməsini xüsusi qeyd etdilər və yalnız bir- iki nəfər şagird onun həm də "yaxşı bilikli" və "yaxşı dərs deməsini bildirdi.

**Psixoloq M.Həmzəyev yazır**: "Kiçik məktəblilər üçün müəllim və yoldaşları ilə ünsiyyət xatirinə ünsiyyətə girmək xarakterik haldır. Kiçik məktəblilər heç də həmişə ünsiyyətlərini dərk edə bilmirlər. Yuxarı siniflərə keçdikcə şagirdlərin ünsiyyətində seçicilik müşahidə olunmağa başlayır.

Lakin bu da həqiqətdir ki, nəinki kiçikyaşlı məktəblilər, yeniyetmə və gənclər də mehriban, kommunikativ fonda olan ünsiyyəti daha çox qiymətləndirir və belə ünsiyyət onların inkişafı və təlim-tərbiyə baxımından mühüm əhəmiyyətə malik olur. Xoş, mehriban, hörmət və tələbkarlığa əsaslanan ünsiyyət şagirdlərin inkişafı və fəaliyyəti üçün daha çox əlverişli şərait yaradır.

Müəllim şagirdlərlə qarşılıqlı fəaliyyətində, onlara müxtəlif pedaqoji təsirlərində rəhbərlik funksiyasını özündə saxlayır və şagirdlərə rəhbərlik edir. Lakin bu rəhbərlik müxtəlif tərzlərdə özünü göstərir. Müəllimlərin bir qismi bir cür, başqaları isə başqa rəhbərlik tərzlərinə və üslublarına malik olurlar. Pedaqoji ünsiyyət də bu rəhbərlik tərzlərindən kənarda qalmır. **Təcrübə və tədqiqatlarda müəllimlərin şagirdlərlə qarşılıqlı ünsiyyətlərində aşağıdakı ünsiyyət tərzləri özünü göstərir:**

1) Avtokratik

2) Avtoritar

3) Demokratik

4) Liberal və s.

**Avtokratik** ünsiyyət tərzinə malik olan müəllim həmişə özünün hakim mövqeyi ilə seçilir. Şagirdlərlə quru əmrlər, göstəriş, tələblər vermək yolu ilə ünsiyyət saxlayır. Uşaqlar hər an müəllimin onlara nəyisə irad tutacağını, onlara sərt davranacağını gözləyirlər. Qeyd edək ki, xüsusilə ibtidai siniflərdə belə rəhbərlik üslubu olduqca zərərlidir. Çünki belə müəllimlərin dərslərində şagirdlərin əqli inkişafı, intellektual səviyyəsi və bir çox mənəvi keyfiyyətləri yalnız müəllimin rəhbər göstərişlərinə tabe etdirilir. Şagirdlər belə müəllimdən çəkinir, onunla məsləhətə, əməkdaşlığa həvəs göstərmirlər.

**Avtoritar** ünsiyyət tərzi müəllimin şəxsiyyətinə əsaslanan ünsiyyət tərzidir. Bu zaman yalnız müəllimin göstərişləri həyata keçirilir və müəllim bütün işlərin onun özünün istədiyi kimi yerinə yetirilməsinə çalışır. Burada müəllim adətən böyük, yolgöstərən, əsas simvoldur, şagird isə itaət edən, icraçı obyektdir. Müəllim nə desə, necə hərəkət etsə elə də olmalıdır.

**Demokratik** ünsiyyət tərzi müəllim-şagird ünsiyyətinin formalaşmasının ən əlverişli yolu, şagird şəxsiyyətinin formalaşmasının təsirli vasitəsidir. Belə ünsiyyət prosesində müəllimlə şagird arasında qarşılıqlı işgüzar əməkdaşlıq yaranır. Bu ünsiyyət tərzinə malik olan müəllimlər şagirdlərə bir şəxsiyyət kimi baxır, onların sözlərinə, təkliflərinə diqqətlə yanaşır, onları dinləyir, nəzərə alır. Demokratik müəllim daha çox öyrətdiyi kimi, şagirdlərə də daha yaxın olur. O, şagirdləri tərəfindən çox sevilir və onun hörməti, nüfuzu yüksək olur. Şagirdlər belə müəllimlərin dərslərinə diqqətlə qulaq asır, onunla əməkdaşlıq edir, məsləhətlərini həvəslə dinləyirlər. Onların emosional səviyyələri də yüksək olur və dərsdə əsəbilik yaradan, onları həyəcanlandıran məsələlərlə qarşılaşmırlar.

**Liberal** ünsiyyət tərzi müəllim-şagird münasibətlərində qeyri-sağlam ünsiyyət tərzi kimi təkcə şagirdlərin tərbiyəsinə deyil, bütün təlim-tərbiyə prosesinə mənfi təsir göstərir. Belə ünsiyyət tərzinə malik olan müəllimlər şagirdlərin bütün hərəkətlərinə adi məsələlər kimi baxır, onlara həddən çox güzəştlər edir və tələbkarlıq göstərmirlər. Liberal ünsiyyətli müəllimlər bəzən şagirdlərlə ünsiyyətə xələl gətirən tərzdə söhbətlər, zarafatlar edir, tərbiyə prosesinə laqeyd münasibət bəsləyirlər. Onlar əvvəllər şagirdləri tərəfindən yaxşı qəbul edilsələr də, sonralar onların belə yanaşma metodu özünün mənfi nəticələrini göstərir və nüfuzları get-gedə aşağı düşür.

Bütün bunlar müəllim-şagird ünsiyyətinin səmərəli tərzlərinin, forma və üslublarının müəyyənləşdirilməsinə geniş imkanlar yaradır.

**Pedaqoji və psixoloji ədəbiyyatlarda şagirdlərlə qarşılıqlı ünsiyyətin səmərəliliyinə görə müəllimləri şərti olaraq 4 qrupa ayırırlar.**

**Birinci qrupa** şagirdlərlə daimi ünsiyyətdə olan müəllilləri aid etmək olar. Belə müəllimlər dərsdə və dərsdənkənar bütün tədbirlərdə şagirdlərlə yaxın ünsiyyətdə olurlar. Demokratik rəhbərlik üslubuna malik olan belə müəllimlər şagirdlərlə demək olar ki, həmişə ünsiyyətdə

olur, onların fikir və arzuları, təşəbbüsləri ilə hesablaşırlar. Bu qrupa daxil edilən müəllimlər təkcə şagirdlərlə ünsiyyət saxlamalarına görə deyil, həmçinin ünsiyyətin səmərəliliyinə, qayğıkeş, mehriban münasibətlərinə görə də şagirdlər tərəfindən sevilirlər.

**İkinci qrupu** şagirdlərə həmişə hörmətlə yanaşan və şagirddə onlara qarşı dərin inam və etimad olan müəllimlər təşkil edir. Lakin belə müəllimlər vaxtın çatışmaması ucbatından hər zaman şagirdlərlə ünsiyyət saxlaya bilmirlər. Buna baxmayaraq onların şagirdlərlə ünsiyyəti alınır və çox vaxt dərs prosesi ilə məhdudlaşır. Belə müəllimlər də şagirdlərə hörmət və qayğıkeşliklə yanaşır, onlara kömək göstərir, şagird şəxsiyyətinə hörmət edirlər.

**Üçüncü qrupa** daxil olan müəllimlər şagirdlərlə daim ünsiyyət saxlamağa cəhd edən, buna can atan, lakin ona nail ola bilməyən müəllimlərdir. Bunun başlıca səbəbi isə belə müəllimlərin şagirdlərlə (uşaqlarla) nəsihətçilik mövqeyindən ünsiyyət saxlamasıdır. Belə müəllimlərlə hər görüşdə quru nəsihətlər, öyüd, danlaq eşidən şagirdlər onlardan qaçmağa çalışır və buna görə də müəllimin ünsiyyəti onlarla alınmır.

**Dördüncü qrupa** daxil olan müəllimlər şagirdlərlə çox məhdud ünsiyyətdə olurlar. Belə müəllimlər şagirdlərlə öz aralarında məsafə saxlamağa daha çox üstünlük verir. Onlar özləri ünsiyyətə can atmadıqları kimi dərs dedikləri şagirdlər də onlarla yaxın ünsiyyətə meyil göstərmirlər.

Qeyd etmək lazımdır ki, şagirdlər müəllimləri ilə yaxın ünsiyyətə malik olduqda, yəni onların özlərinə məxsus ünsiyyət tələbatları formalaşdıqda onlar məktəbdə, pedaqoji prosesin bütün sahələrində özlərini daha yaxşı hiss edirlər. Ünsiyyət münasibətləri onlarda bir çox keyfiyyətlərin inkişafına kömək edir. Şagirdlər tapşırılan iş üçün məsuliyyət daşıdıqlarını, üzərlərinə düşən vəzifəni yerinə yetirməli olduqlarını dərk edir, bu işdə həm müəllimin rəhbərliyinə, köməyinə arxalanır, həm də ona köməkçi olurlar.

**Təcrübədə müəllimlərin şagirdlərlə ünsiyyətinin bir çox tərzləri özünü göstərir. Pedaqoji ədəbiyyatlarda bunlar aşağıdakı kimi xarakterizə olunur:**

1. Birgə yaradıcı fəaliyyətə əsaslanan ünsiyyət.

2. Dostluq meylinə əsaslanan mehriban ünsiyyət.

3. Şagirdlərlə müəyyən məsafə saxlamaqla ünsiyyət.

4. Qorxu əsasında ünsiyyət.

5. Zarafat, dilxoşluq etməklə ünsiyyət.

Birgə yaradıcı fəaliyyətə əsaslanan ünsiyyət müəllim və şagirdlərin mənəvi yaxınlığı əsasında qurulur. Belə ünsiyyət, əsasən, dərs və dərsdənkənar tərbiyəvi tədbirlər prosesində, yəni şagirdlərin yaradıcı fəaliyyəti zamanı yaranmış olur və fəaliyyətə istiqamətlənir. Belə ünsiyyət dostluq və qarşılıqlı hörmətlə bağlı olduqda daha da məhsuldar nəticələrə səbəb olur. Şagirdlər daha həvəslə yaradıcı fəaliyyətə qoşulur və çalışırlar.

Dostluq meylinə əsaslanan mehriban ünsiyyət də təlim- tərbiyə prosesinin səmərəliliyinə istiqamətləndikdə daha səmərəli olur. Əks halda, belə ünsiyyət sadəcə olaraq müəllim- şagird münasibətlərini tənzimləsə də, elə bir faydalı nəticəyə səbəb olmur.

Şagirdlərlə müəyyən məsafə saxlamaqla olan ünsiyyət müəllimlərlə şagirdlər arasında bəzən elə bir "səd" yaradır ki, belə ünsiyyət onların bir-birinə daha yaxın olmasına maneçilik törədir və müəllim-şagird münasibəti quru rəsmiyyətçiliyə, əmrlərə və sərəncamlara əsaslanır. Bu da yaradıcı fəaliyyətə elə bir fayda vermir. Yuxarıda qeyd etdiyimiz dördüncü qrup müəllimlər məhz ünsiyyətin bu tərzindən istifadə edən müəllimlərdir ki, onlar şagirdlərlə yaxın, mehriban ünsiyyəti pedaqoji prosesə zərər vuran bir hal kimi qiymətləndirir və buna görə də ünsiyyət prosesində həmişə pərdə saxlamağa çalışırlar.

*Ünsiyyətin daha iki tərzini yəni, qorxu əsasında yaradılan ünsiyyəti və zarafat, dilxoşluq etməklə olan ünsiyyəti* biz pedaqoji prosesə, müəllim-şagird münasibətlərinə zərər vuran, ona xələl gətirən mənfi, zərərli tərzlər kimi qiymətləndiririk. Bunun birincisi şagirdləri daim qorxu altında, həyəcanlı vəziyyətdə saxladığı halda, ikincisi müəllim şəxsiyyətinə, onun nüfuzuna xələl gətirir. İlk baxışda yaxşı görünən belə müəllim bir müddətdən sonra şagirdlər arasında nüfuzunu itirmiş olur.

**V.K.Kovalyov müəllimlərin reflektiv qabilliyətlərinə əsaslanaraq onları 5 qrupa (tipə) ayırır.**

**1-ci qrup**: Özünü qiymətləndirməsi şagirdlərin onu qiymətləndirilməsinə uyğun gəlir. Bu müəllimlərdə demokratik ünsiyyət üslubu səciyyəvidir. Başqa sözlə desək, demokratik ünsiyyət üslubuna malik olan müəllimlərin özlərinə verdikləri qiymətlə şagirdlərin onlara verdikləri qiymətlər bir-birinə uyğun gəlir.

**2-ci qrup**: Müəllim ona verilən qiymətləndirməni düzgün proqnozlaşdırır. Belə müəllimlərin ünsiyyətində avtoritarlıq müşahidə olunur. Başqa cür desək, avtoritar ünsiyyət üslubuna malik olan müəllimlər şagirdlərin onlara verdikləri qiymətləndirməni düzgün proqnozlaşdıra bilirlər.

**3-cü qrup**: Bu müəllimlərin münasibətlərində liberallıq müşahidə olunur. Onlar üçün adekvat özünüqiymətləndirmə və qeyri-adekvat proqnoz səciyəvidir.

**4-cü qrup**: Bu qrup müəllimlərə qeyri-adekvat özünüqiymətləndirmə xasdır. Belə müəllimlər özləri haqqında rəyi şagirdlərdən öyrənmək istəyir, lakin onlarla ünsiyyət qurmağı bacarmır ki, bu da nəticədə münaqişələrin yaranmasına səbəb olur. Bu tip müəllimlərə avtoritar üslublu ünsiyyət səciyyəvidir.

**5-ci qrup**: Müəllimlərin özləri haqqında təsəvvürləri uşaqların onlar haqqında rəyləri ilə üst-üstə düşmür. Bu da ünsiyyətdə çoxlu çətinliklər yaradır.

Pedaqoji ünsiyyətin yüksək səviyyədə təşkil edilməsi həmişə və hər zaman faydalıdır. Müəllim şagirdlərlə nə qədər mehriban, səmimi, dostluğa, mehribanlığa əsaslanan ünsiyyətdə olarsa, onun istər təlim, istərsə də tərbiyə prosesində əldə etdiyi nəticələr yüksək olar. Deyl Karneqinin "General motors" (ABŞ) şirkətində apardığı müşahidələr sübut etmişdir ki, əmək məhsuldarlığının cəmi 15%-i texniki biliklərin, 85%-i isə fəhlə ilə rəftarın, işçinin əhval-ruhiyyəsinin hesabınadır.

Hər bir müəllim pedaqoji ünsiyyətin həm nəzəri, həm də praktik cəhətləri haqqında dərin biliyə malik olmalı və ünsiyyət mədəniyyətinə yiyələnməlidir. Müəllim və şagird ünsiyyətinin yüksək səviyyədə təşkili pedaqoji prosesin təşkili nəticəsinə çevrilir və təlim-tərbiyənin səviyyəsini yüksəldir. Müəllimin şagirdlərə emosional, ağıllı təsiri, təlim-tərbiyənin

inkişafının vasitəsi və üsulu kimi yüksək pedaqoji alət rolunda çıxış edir. Bu baxımdan da müəllimlərin pedaqoji ünsiyyət mədəniyyətinə yiyələnməsi olduqca faydalıdır. Bunun üçün hər bir müəllim, ilk növbədə özünə, özünün daxili aləminə nəzər salmalı, özü-özünü dərk etməyi bacarmalıdır. Ünsiyyət üçün hansı şəxsi keyfiyyətləri vardır, hansı şəxsi keyfiyyətləri özündə görmək istəyir və s. Özünün şəxsi keyfiyyətlərini düzgün qiymətləndirən hər bir müəllim ünsiyyət mədəniyyətinə yiyələnmək üçün hansı keyfiyyətlərin zəruri olduğunu da dərindən bilməli və bunu özündə tərbiyə etməyi bacarmalıdır.

Ünsiyyət mədəniyyətinə malik olmaq fitri, anadangəlmə bir qabiliyyət deyildir. Təcrübə göstərir ki, xarakterindən, temperament xüsusiyyətlərindən asılı olmayaraq müəllimlər buna yiyələnə bilər və yiyələnməlidirlər. Pedaqoji ustalığa yiyələnməyin bir yolu, bir vasitəsi də bu olduğundan ona yiyələnmək olduqca vacibdir.

**Müəllim-şagird ünsiyyətinin formalaşmasına təsir edən amillər**

"İnsan tərbiyəsinin ən başlıca yolu əqidədir, əqidəyə ancaq əqidə yolu ilə təsir etmək olar".

K.D. Uşinski

Müəllim-şagird ünsiyyətinin formalaşması birdən-birə baş verən proses deyildir. Bu hər şeydən öncə müəllimlərin peşə fəaliyyətləri ilə daha yaxından və daha uzun müddət məşğul olmaları ilə sıx surətdə əlaqədardır. Təcrübə göstərir ki, ali pedaqoji məktəblərin yuxarı kurs tələbələri ümumtəhsil məktəblərində pedaqoji təcrübə zamanı şagirdlərlə yaxından ünsiyyətdə ola bilmirlər. Bəzən buna çalışsalar da, sanki ünsiyyətə girməkdən qorxurlar, çəkinirlər. Bu hal gənc müəllimlər arasında da özünü göstərir. Lakin vaxt gəldikcə belə bir gərginlik yavaş-yavaş aradan götürülür və müəllim şagirdlərlə müəyyən ünsiyyət yarada bilir.

Müəyyən edilmişdir ki, stajlı müəllimlərin 74,6%-i üçün uşaqlarla, onların valideynləri və həmkarları ilə ünsiyyətdə, gənc müəllimlərin 65,5%-i dərsə hazırlaşmaqda, 7,6%-i şagirdlərlə birgə fəaliyyət təşkil etməkdə, 45,5%-i isə uşaqların və kollektivin şəxsiyyətini öyrənməkdə çətinliklə qarşılaşırlar.

V.S.*Qrexnev* yazır: “Ünsiyyətin əsasında həmişə müəyyən motivlər: borc, tələbat, maraq, adət, tərslik, moda və s. kimi həm fərdi əhəmiyyətli, həm də sosial əhəmiyyət kəsb edən motivlər dayanır. Müəllimin peşə ünsiyyətində motivlər həmişə sosial əhəmiyyət kəsb edir".

Bu fikir M.Ə.Həmzəyev tərəfindən də müdafiə olunur və o, hətta pedaqoji ünsiyyətin səmərəliliyinin motivlərdən asılı olduğu fikrini irəli sürür. M.Ə.*Həmzəyev* yazır: "Pedaqoji ünsiyyətin səmərəliliyi onun motivlərindən də asılıdır. Motivin düzgünlüyü və dərk edilmiş xarakter daşıması pedaqoji ünsiy- yətin gedişini şərtləndirir".

Bu fikirlərdən göründüyü kimi pedaqoji ünsiyyət zamanı müəllimin ünsiyyət üçün müəyyən motivlərdən çıxış etməsi və sosial əhəmiyyətli motivlərə əsaslanması olduqca vacibdir. Peşə borcu, peşə məsuliyyəti, peşəsinə maraq kimi motivlər burada xüsusi əhəmiyyət kəsb edir.

Aparılmış bir sıra tədqiqatlar və müşahidələr göstərir ki, pedaqoji ünsiyyət bir neçə mərhələdən keçərək reallaşır. Yəni yuxarıda dediyimiz kimi birdən-birə deyil, müəyyən vaxt və mərhələlər üzrə həyata keçir. **V.A.Kan-Kalik və N.D.Nikandrov bunun aşağıdakılardan ibarət olduğunu göstərirlər:**

1. Uşaqlarla bilavasitə fəaliyyətə hazırlıq prosesində siniflə, auditoriya ilə qarşıda duran ünsiyyəti müəllimin modelləşdirməsi (proqnoz mərhələsi).

2. Onlarla ilk qarşılıqlı təsir anında siniflə, auditoriya ilə ünsiyyətin bilavasitə təşkili (ünsiyyətin ibtidai mərhələsi).

3. İnkişafetdirici pedaqoji prosesdə ünsiyyətin idarə edilməsi.

4. Qarşıda duran fəaliyyətdə modelləşdirilən ünsiyyət sisteminin və həyata keçirilən ünsiyyət sisteminin təhlili.

Bu müddəaları təhlil etdikdə belə bir nəticəyə gəlmək olar ki, müəlimin şagirdlərlə ünsiyyəti o zaman səmərəli nəticələnə bilər ki, o düşünülmüş və müəyyən hazırlıqdan sonra yaranmış ünsiyyət olsun. Yəni müəllim fəaliyyətə başlamazdan əvvəl ünsiyyəti necə yaradacağını, siniflə ünsiyyətdə necə olacağını modelləşdirə (proqnozlaşdıra) bilsin, sonra onu təşkil etsin, yəni aparsın, daha sonra bu gedişi idarə edə bilsin, yəni nəzarətdən çıxarmasın və nəhayət, əvvəlcədən modelləşdirdiyi ünsiyyətlə, həyata keçirilən ünsiyyəti müqayisəli təhlil edə bilsin, nəticəni ümumiləşdirsin. Fikrimizcə, ünsiyyətin belə təşkili və aparılması onun bir çox funksiyaları olan sistem kimi çıxış etməsinə səbəb olur və o, həm məlumatverici, tənzimləyici, həm də inkişafetdirici funksiyaları yerinə yetirir.

Beləliklə də, müəllim-şagird ünsiyyəti müəllimin pedaqoji ustalığından asılı olaraq müxtəlif funksiyaların yerinə yetirilməsinə xidmət edir. Təbii ki, onun formalaşması **bir sıra obyektiv və subyektiv amillərlə əlaqələnir və bunlardan asılı olur. Bu amilləri konkret olaraq aşağıdakı kimi quruplaşdırmaq olar:**

**1. Pedaqoji ünsiyyət üçün müəllimin kifayət qədər nəzəri məlumata və biliyə malik olması.** Müəllimin ali məktəbdə psixologiyadan və pedaqoqikadan aldığı biliklər müəllim-şagird ünsiyyətinin əsasları, ünsiyyətin mahiyyəti, onun həyata keçirilməsi mexanizmi, yolları, vasitələri, müəllimin fəaliyyət mədəniyyəti və s. məsələlər haqqında onların biliklərinin formalaşmasına səbəb olur. Belə biliklərin yaranması, formalaşması isə gənc müəllimlərdə müəyyən əqidənin, inamın formalaşmasına gətirib çıxarır. Buna görə də müəllimin ali təhsil müəssisələrində bu sahədə aldığı biliklərə mühüm əhəmiyyət verilməli və onun müntəzəm olaraq artırılmasını, təkmilləşdirilməsini əsas məsələlərdən biri, bəlkə də birincisi kimi qiymətləndirmək lazımdır.Bununla bağlı olaraq müəllim-şagird ünsiyyətinin pedaqoji fəaliyyət üçün necə böyük əhəmiyyət kəsb etdiyi tələbələrə dərk etdirilməli, onların bu sahədə şüurunun formalaşdırılmasına nail olunmalıdır.

**2. Müasir psixologiyanın sübut etdiyi fəaliyyət nəzəriyyəsinə əsasən şəxsiyyətin formalaşması məhz fəaliyyət prosesində baş verir.** Müəllimin ünsiyyət bacarıqları da belədir. Biliyin reallaşdırılması üçün müəllimin pedaqoji fəaliyyətdə olması bu prosesdə mühüm yer tutur. Bir çox pedaqoqların göstərdikləri və qeyd etdiyimiz kimi müəllim-şagird

ünsiyyətinin formalaşması üçün pedaqoji fəaliyyət xüsusi yer tutur və əsl baza rolu oynayır. Buna görə də müəllimin ünsiyyətin yaradılması, istiqamətləndirilməsi və tənzimlənməsi üzrə yiyələndiyi biliklərdən "istifadə edə bilməsi" bacarıqları bu prosesdə mühüm əhəmiyyət kəsb edir. Bu da özünü təlim və sinifdən və məktəbdənkənar tədbirlərin aparılmasında daha qabarıq şəkildə büruzə göstərir.

**3. Pedaqoji prosesdə müəllimin şagirdlərə qarşı ədalətli mövqe tutması pedaqoji ünsiyyətin yaranmasında mühüm rol oynayır.** Hətta müəllimin şagirdi cəzalandırması belə ədalətli, düzgün, obyektiv olduqda bu münasibət onun şagirdlərlə ünsiyyətinə xələl gətirmir və ona mane olmur. Lakin bu prosesdə buraxılan səhvlər ünsiyyətin pozulmasına, hətta şagirdlər arasında olan ünsiyyətin korlanmasına gətirib çıxarır. Pedaqoji prosesdə baş verən belə bir "hadisə" bunu aydın sübut edir.

**4. Müəllimin perseptiv qabiliyyətə malik olması müəllim- şagird ünsiyyətinin formalaşmasına mühüm təsir göstərən amillərdən biridir.** Bunun üçün hər şeydən əvvəl müəllimdə güclü müşahidəçilik qabiliyyətinin olması və bunu özündə tərbiyə edə bilməsi mühümdür. Şagirdlərlə ünsiyyətə girərkən ünsiyyətin qarşılıqlı olmasına çalışılmalı, qarşı tərəfin, yəni şagirdin də bu ünsiyyət üçün maraqlı olmasına, ona can atmasına nail olunmalıdır.

Müəllimin pedaqoji nəzakəti, mərifəti, taktı ünsiyyət üçün əsas şərtlərdəndir. Müəllim bunlara yüksək səviyyədə yiyələnməklə sanki ünsiyyət üçün də yol açmış olur.

Təcrübə və tədqiqatlar göstərir ki, şagirdlərlə qarşılıqlı ünsiyyət yarada bilmək baxımından heç də bütün müəllimlər eyni səviyyədə deyildirlər. Onların bəziləri bunu zəruri sayır, ondan pedaqoji texnika kimi geniş istifadə edir, bəziləri buna nail ola bilmir, bəziləri isə bunu zəruri hesab etmirlər.

**5. Müəllim-şagird ünsiyyətində başlıca amillərdən biri müəllimin öz hisslərini, fikirlərini emosional və dəqiq şəkildə üzə çıxara bilməsi bacarığından ibarətdir.** İstər təlim prosesində, istərsə də tərbiyəvi tədbirlər prosesində müəllimin belə bacarıqlar nümayiş etdirə bilməsi müəllim-şagird ünsiyyətini daha da dərinləşdirir, onu daha da səmərəli edir.

**Müəllim-şagird ünsiyyətinin yaradılmasında bir sıra çətinliklər, maneələr də özünü göstərir. Kan-Kalik bunları aşağıdakı kimi xarakterizə edir:**

1) Ustanovkaya sahib olmamaq "maneəsi": Müəllim sinfə maraqlı dərs demək niyyəti ilə gəlir, sinif isə laqeyddir. Diqqətsizlik və pərakəndəlik göstərir, nəticədə təcrübəsiz müəllim hirslənir, əsəbiləşir və s.

2) Fəaliyyətə təzə başlayan müəllimlər üçün sinifdən qorxmaq "maneəsi" də xarakterik haldır: Adətən, onlar materialı yaxşı bilir, dərsə yaxşı hazırlaşır, lakin şagirdlərlə bilavasitə təmasda olmaq fikri onları "qorxudur", yaradıcılıqlarını bir növ buxovlayır.

3) Təmasın olmaması "maneəsi": Müəllim sinfə daxil olur, bu zaman şagirdlərlə dərhal və əməli şəkildə qarşılıqlı əlaqə yaratmaq əvəzinə, bir növ "avtonom" hərəkət etməyə başlayır (məsələn, yazı taxtasında izahat yazır və s.).

4) Ünsiyyət funksiyasının məhdudlaşdırılması "maneəsi": Müəllim yalnız ünsiyyətin məlumatvermə funksiyasını nəzərə alır, onun qarşılıqlı təsir, sosial-perspektiv funksiyalarına əhəmiyyət vermir.

5) Sinif haqqında neqativ ustanovkanın yaranması "maneəsi": Bu cür ustanovka həmin kollektivdə işləyən başqa müəllimlərin fikrinə və ya müəllimin özünün pedaqoji uğursuzluğuna müvafiq olaraq yarana bilər.

6) Siniflə və ya şagirdlə keçmiş neqativ ünsiyyət təcrübəsi ilə bağlı "maneə".

7) Pedaqoji səhv etməkdən qorxmaq "maneəsi" (dərsə gecikməkdən, vaxtdan düzgün istifadə edə bilməməkdən, şagirdləri düzgün qiymətləndirə bilməməkdən və s.).

8) Təlqin "maneəsi": Gənc müəllim başqa müəllimin fəaliyyətini, ünsiyyət tərzini yamsılamağa başlayır, lakin başqasının ünsiyyət üslubunu mexaniki şəkildə öz fərdi pedaqoji fəaliyyətinə keçirməyin mümkün olmadığını başa düşmür.

Qeyd etmək lazımdır ki, bu maneələr həmişə müəllim- şagird ünsiyyətinin formalaşmasına mənfi təsir göstərən zərərli amillər olduğundan müəllim onların aradan qaldırılmasına səy göstərməli, onları dəf etmək üçün öz üzərində məşqlər aparmaqla müntəzəm işləməli və bu sahədə müvəfəqiyyət qazanmağa çalışmalıdır. Tədqiqatlar göstərir ki, ünsiyyətə mane olan ünsürlərin aradan qaldırılması üçün müəllimin ünsiyyət mədəniyyətinin artırılması olduqca mühümdür. Bunun üçün sosial- psixoloji treninqlər aparılmasına geniş yer verilməlidir.

Sosial-psixoloji treninqlərdən istifadə edilməsi müəllim üçün zəruri olan kommunikativ vərdişlərin formalaşmasına səbəb olur. Müəllimin şagirdlərlə ünsiyyəti zamanı treninqlərdən bacarıqla istifadə etməsi bu prosesdə meydana çıxan çətinliklərin məşqlər yolu ilə aradan qaldırılması olur ki, onda həm ünsiyyət vərdişlərinin və kommunikativ mədəniyyətin formalaşması prosesi baş verir, həm də müəllimin şagirdlərlə qarşılıqlı əməkdaşlıq şəraitində ünsiyyətə girə bilməsi prosesi fəallaşır. Bunun üçün hələ ali məktəb illərində tələbələrlə xüsusi işlərin-seminarların, seçmə kursların aparılmasını zəruri hesab edirik. Bu baxımdan pedaqoji universitet və institutlarda "Pedaqoji ünsiyyətin yaradılması", "Müəllimin ünsiyyət mədəniyyəti" və s. mövzularda xüsusi seminarların və ya kursların tədrisi vacibdir. **Nümunə üçün belə seminarlardan birinin "Müəllimin ünsiyyət mədəniyyəti" adlı xüsusi seminarın mövzularını nəzərdən keçirək:**

1. Pedaqoji ünsiyyətin elmi-nəzəri problemləri.

2. Pedaqoji ünsiyyətin funksiyaları və tərzləri.

3. Müəllim şəxsiyyəti və ünsiyyət texnikası.

4. Təlim prosesində müəllimin ünsiyyət mədəniyyəti.

5. Müəllimin ünsiyyət mədəniyyətinin formalaşmasının yolları və vasitələri.

6. Müəllimin pedaqoji etikası və s.

Belə mövzularda aparılan seminarlar müəllimlərin ünsiyyət mədəniyyətinin həm nəzəri, həm də praktik tərəflərini mənimsəmələri üçün olduqca faydalıdır.

Ünsiyyət vasitələri çoxdur. Onun müxtəlif-həm təbii, yəni baxış, mimika, təbəssüm, həm dil, yəni təbii dillər, süni dillər, həm də yazı və qrafika, yəni yazışmalar və s. vasitələrindən geniş və hərtərəfli surətdə istifadə etməklə müəllim-şagird ünsiyyətinin formalaşmasına nail olunmalıdır. Bunun üçün müəllim bu vasitələrin hər birindən geniş istifadə etməyi bacarmalı və onların ünsiyyət prosesində funksional imkanlarını bilməlidir.

Ünsiyyətin ən mühüm və ən təsirli vasitəsi dildir. Dil ilə həyata keçirilən ünsiyyətdə isə əsas yeri nitq tutur. Ünsiyyətdə nitqin necəliyi mühüm rol oynayır. Söz, onun təsiri ünsiyyət üçün əsas mənbə rolu oynayır. Sözün, nitqin emosional, xoş təsirə malik olması, yüksək mənəvi duyumları özündə əks etdirməsi ünsiyyətin səmərəliliyi üçün mühüm şərtlərdən biridir

Təcrübə göstərir ki, müəllimlərin şagirdlərə xoş sözlərlə müraciət etməsi, xoş sözlər deməsi, sinifdə əhval-ruhiyyənin yüksəldilməsinə, işgüzarlığın artmasına və bir sıra nəcib əxlaqi keyfiyyətlərin formalaşmasına kömək edir. Buna görə də hər bir müəllim şagirdlərlə normal, səmərəli ünsiyyət yaratmaq üçün nitqindən düzgün istifadə etməyi, onu əsl ünsiyyət vasitəsinə çevirməyi bacarmalıdır. Belə olduqda müəllimin nitqi müəllim və şagirdlər arasında qarşılıqlı təsir alətinə çevrilir və təlim-tərbiyənin səmərəliliyi çox vaxt bu alətin necəliyindən asılı olur. "Elə buna görə çox vaxt deyilmiş sözün məzmunu deyil, onun deyiliş tərzi daha əhəmiyyətli olur. Odur ki, çox zaman ünsiyyət prosesində fərdin nə dediyinə deyil, necə dediyinə daha artıq fikir verməik lazım gəlir. Bəzən sadəcə baxış, gözün süzülməsi, qaşın çatılması, təbəssüm, gülüş, ağlama, gözlərin dolması və s. deyilən sözdən daha artıq təsir edir".

Nitqin təsirliliyi, yəni onun əsl ünsiyyət vasitəsi kimi çıxış etməsi nitqin məzmunlu olması ilə sıx əlaqədar olduğu kimi, onun kommunikativ vasitələrlə müşayiət edilməsi ilə də sıx əlaqədardır. Təcrübə və tədqiqatlar göstərir ki, müəllimin nitqi bu vasitələrlə, yəni mimika, pantomimika, jestlər, nitqin intonasiyası, ifadəliliyi, səsin tempi və s. ilə zənginləşdikcə nitq daha çox təsirli olur və ünsiyyətin səmərəliliyini artırır. Belə nitq şagirdlərin əqidəsinə, dünyagörüşünə inkişafetdirici təsir göstərir və onların münasibətlərində, davranışlarında və bir şəxsiyyət kimi formalaşmalarında mühüm təsir gücünə malik olur. Ünsiyyətin əvvəlcədən düşünülmüş formada təşkili və aparılması bunun daha da məzmunlu olmasına səbəb olur.

Bir çox müəllimlər, həmçinin tədqiqatçılar belə hesab edirlər ki, öz fənnini dərindən bilmək, onu ustalıqla tədris etmək, şagirdlərinə və ətrafdakı adamlara həssaslıqla yanaşmaq, onlara qayğı göstərmək həm onların təlim müvəffəqiyyətinin, həm də ünsiyyət mədəniyyətinin əsasını təşkil edir. Təbii ki, bunlar ünsiyyət prosesində başlıca amillər kimi özünü göstərir. Lakin bunlarla yanaşı, müəllim üçün lazım olan bir sıra keyfiyyətlər də vardır ki, bunlar müəllim-şagird ünsiyyətində mühüm yer tutur və pedaqoji ünsiyyətin formalaşmasına mühüm təsir göstərir. Bunlara misal olaraq müəllimin psixoloji xüsusiyyətləri, qabiliyyətləri, danışıq və davranış tərzlərini və s. göstərmək olar ki, bunların da ünsiyyət mədəniyyətinin formalaşmasında mühüm rolu vardır. Hətta bəzi müəlliflər müəllimin geyiminin belə şagirdlərlə ünsiyyətdə xüsusi təsir gücünə malik olduğunu qeyd edirlər. Buna görə müəllim öz geyiminə xüsusi diqqətlə yanaşmalı, təmiz, səliqəli, ciddi, heç bir bəzək-düzəyə aludə olmadan, modanın əsiri olmadan geyinməyə çalışmalıdır. Deməli, təkcə daxili amillər deyil, həmçinin xarici amillər də ünsiyyət prosesində müəyyən rol oynayır. Buna görə də müəllim-şagird ünsiyyətində bunların hər ikisinin kompleks təsirinə nail olmaq lazımdır. Nəzərdən qaçırmaq olmaz ki, müəllimin xarici görkəmi elə ilk görünüşdə şagirdləri özünə

cəlb edə bilər, onu yaxınlaşdırar və ya onu dəf edər. Bu baxımdan da müəllim təkcə özünün ifadəli nitqi, səmimi ünsiyyəti, qayğıkeş münasibəti, mehriban, ülfətli və diqqətli davranışı, rəftarı ilə deyil, özünün geyimi, səliqəsi, özünə, öz geyiminə, xarici görkəminə münasibəti ilə də ünsiyyətin səmimiliyinə şərait yaratdığını dərindən dərk etməli və buna nail olmalıdır.

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI


1. Əliyev H. Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002.

2. İlyasov M. Müəllimin pedaqoji ustalığı. Dərs vəsaiti. Bakı:  Elm və təhsil, 2013.215s.

3.Həsənov A.Məktəbəqədər pedaqogika. Dərs vəsaiti. Bakı:“Nasir nəşriyyatı”.2000.367s.


## ELEKTRON RESURSLAR


• https://anl.az/el/Kitab/2018/07/cd/2018-1050.pdf

• http://web2.anl.az:81/read/page.php?bibid=vtls000338011

**Mühazirə 13: Şagirdlərin idrak fəaliyyətinin idarə edilməsində müəllimin rolu**

**PLAN:**

**1. Məşğələdə uşaqların idrak fəaliyyətinin idarə edilməsi və onun funksiyaları;**

**2. Fəal təlim təfəkkürə əsaslanan təlimdir;**

**3. Uşaqların idrakı və onun inkişaf etdirilməsi istiqamətində müəllimin etdiyi pedaqoji təsirlər.**

"Çoxlu miqdarda əla istedadlı adamlar azad və yüksək insanları idarə etməyi bacarmayan tərbiyəçilərin səhvi nəticəsində tələf olub gedirlər".

Plutarx

Pedaqoji prosesdə, xüsusən dərsdə ən çətin və mürəkkəb məsələlərdən biri şagirdlərin idrak fəaliyyətinin idarə edilməsidir. Şagirdləri cəlb edən informasiyaların çoxluğu və maraq dairlərinin genişliyi onların idrak fəaliyyətinin idarə edilməsi üçün müəllimin bu prosesə ustalıqla yanaşmaq tələbini qarşıya qoyur. Şagirdlərin diqqətini tələb olunan obyektə yönəldə bilmək, onların dərketmə imkanlarını genişləndirmək, təlimi gücüçatan çətinlik səviyyəsində qurmaqla şagirdlərin hər birinin intellektual səviyyəsinin inkişafına nail olmaq bu prosesin mühüm nəticəsi kimi özünü göstərir. Bu baxımdan hər bir müəllim üçün zəruri olan belə bir vəzifənin həll edilməsi olduqca vacibdir.

N.B.Kuzmina yazır: "Pedaqoji prosesi və uşaqlarla qarşı-lıqlı münasibətləri onlara, onların ağılına hörmətlə yanaşma əsasında quran müəllim heç vaxt səhv etmir. Bundan başqa, əgər o, uşaqların davranışını, onların onun özünə münasibətini öz ustalığını təkmilləşdirmək məqsədilə daimi təhlil edirsə, onda o, ən qısa yolla ustalığa yiyələndirən çox gözəl bir kompas tapmış olur".!

**Dərsdə şagirdlərin idrak fəaliyyətinin idarə edilməsi vacib olduğu qədər də mürəkkəbdir. Onun bir sıra funksiyaları vardır.**

**Bu proses:**

• şagirdlərin diqqətini vacib olan problemə yönəldir;

• əsas məsələni ikinci dərəcəlilərdən ayırmağa imkan verir;

•bütün dərs boyu şagirdlərin fəallığına səbəb olur;

•şagirdlərin marağını və təlim motivlərini formalaşdırır;

•təlimin inkişafetdirici vəzifəsinin reallaşdırılmasını təmin edir və s.

Dərsdə şagirdlərin idrak fəaliyyətinin idarə edilməsi ustalığı bir çox amillərdən asılıdır. Bunların ən vacib olanlarından biri müəllimin öz fənnini şagirdlər üçün maraqlı edə bilmə bacarığıdır.

**Usta müəllim təlimə maraq yaratmaq və formalaşdırmaq üçün aşağıdakı bir sıra müddəaları rəhbər tutmalıdır:**

1. Tədris prosesini elə qurmalıdır ki, yeni biliklər şagird- lərə hazır şəkildə verilməsin. Şagirdlər bütün dərs boyu fəal fəaliyyətə, axtarışa, yeni biliklər axtarmağa, tapamağa qoşulsunlar.

2. Tədris prosesinin müxtəlif formalarda və rəngarəng təşkil edilməsi şagirdlərin təlim prosesinə marağını yüksəldir.

3. Yeni material keçmişdə öyrənilən materiallarla nə qədər çox əlaqələnərsə, o, şagirdlər üçün bir o qədər maraqlı olar.

4. Həddindən artıq yüngül və həddindən artıq çətin material maraq oyatmır. Təlim çətin olmalıdır. Lakin güc çatan çətinlikdə olmalı və anlaşılmalıdır.

5. Şagirdlərin fəaliyyəti nə qədər tez-tez yoxlanılarsa və qiymətləndirilərsə, onların işləməsi də bir o qədər asan olar.

6. Tədris materialının aydınlığı, emosionallığı və müəllimin özünün əhval-ruhiyyəsi şagirdlərin fənnə münasibətinə güclü təsir edir.

Təcrübə göstərir ki, müəllimin öz fənninə maraq yarada bilmək qabiliyyəti çox vaxt şagirdlərin müəllimlik peşəsinə maraq göstərmələrinə də güclü təsir göstərir. Müəllimlik peşəsini seçən məktəblilərin xeyli hissəsi məhz bu peşəni müəlliminə oxşamaq və onun fənnini sevdikləri üçün seçirlər.

Dərsdə şagirdlərin idrak fəaliyyətinin idarə edilməsində başlıca amillərdən biri bütün dərs boyu şagirdlərin diqqətinin səfərbər edilməsi və təlim materialına yönəldilməsidir. K.D.Uşinski yazırdı: "Diqqət şüurumuzun elə bir yeganə qapısıdır ki, şüurumuzda olan hər bir şey mütləq buradan keçir. Ona görə də şagirdləri təlim prosesində həmin qapını açıq saxlamağa alışdırmaq lazımdır". Təcrübə göstərir ki, müəllim dərs prosesində şagirdlərin diqqətini nə qədər çox öyrənməyə, bilməyə, məhsuldar fəaliyyətə yönəldərsə, bu zaman nəticə daha yüksək olar. Hər bir şagirdin marağının təmin edilməsi, onların təlim prosesinin iştirakçısına çevrilməsinə nail olunması, müəllim-şagird əməkdaşlığının düzgün təşkili və nəhayət, şagirdlərin bilavasitə özlərinin həll olunacaq problemin axtarışına qoşulmasının təmin edilməsi onların idrak fəallığının artmasına və düzgün formalaşmasına səbəb olur. Bunun üçün ənənəvi metodlarla yanaşı, məktəblərimizdə uğurla həyata keçirilməyə başlanılan, bir çox qabaqcıl müəllimlərin təcrübəsində özünün səmərəliliyini təsdiq edən **fəal təlim metodlarından** istifadə edilməsi mühüm əhəmiyyət kəsb edir.

Fəal təlim təfəkkürə əsaslanan təlim olduğundan burada başlıca məqsəd dərsin bütün mərhələlərində şagirdlərin fəallığının təmin edilməsi, məntiqi, yaradıcı və tənqidi təfəkkürlərinin inkişaf etdirilməsi və müəllimin bələdçiliyi ilə axtarılan nəticənin şagirdlərin bilavasitə özləri tərəfindən əldə edilməsinə nail olmaqdır. Klassik alman pedaqoqu A.Disterveq yazırdı: "Pis müəllim həqiqəti təqdim edir, yaxşı müəllim isə onu tapmağın yollarını öyrədir".

Fəal dərsin quruluşu tədqiqat prosesinin mərhələlərini xatırladır. Tədqiqat təlim prosesinin mərkəzində dayanır. Fəal dərsdə yeni məlumatlar tədqiqat nəticəsində əldə edilir və dərsin sonunda şagirdlərin özləri vasitəsilə meydana çıxır. Tətbiqetmə mərhələsi yaradıcı xarakter daşıyır və şagirdlərin fəallığı ilə həyata keçirilir və refleksiya mərhələsində şagird öz tədqiqat fəaliyyətinin əsas mərhələlərini dərk etmiş olur.

Fəal dərsin bütün mərhələlərində müəllim fasilitator (bələdçi) kimi çıxış etsə də, bu mərhələlərin hamısını, ümumiyyətlə, təlim prosesini elə qurur ki, burada sanki hər şeyi şagirdlər özləri həll edirlər. Lakin unutmaq olmaz ki, burada müəllimin pedaqoji ustalığı, hadisə və prosesləri dərindən bilməsi, dərsin mərhələləri arasında əlaqə və keçidin yaradılması və bütün bunlarla bərabər şagirdlərin idrak fəaliyyətinin idarə edilməsi məhz müəllimdən, onun səriştəsindən, pedaqoji məharətindən asılıdır. Əks halda dərsdə yaradılan fəallıq da, şagirdlərin fəaliyyəti də səmərəsiz olacaqdır.

Dərs elə bir mürəkkəb prosesdir ki, burada həyata keçirilən təlim birbaşa idrak prosesləri ilə əlaqələnir və onun inkişafını şərtləndirir. Lakin bunlar özbaşına yaranmır. Bu zaman müəllimin idarəçiliyi, təlim prosesini idarə edə bilməsi xüsusi rol oynayır. Burada müəllimin peşə bacarıqları, xüsusən kommunikativ və təşkilatçılıq bacarıqları onun köməyinə gəlir.

**Şagirdlərin idrakı və onun inkişaf etdirilməsi istiqamətində müəllimin etdiyi pedaqoji təsirlər bilavasitə təlim prosesində bir sıra qaydaların gözlənilməsini nəzərdə tutur. Bunlar, əsasən, aşağıdakılardan ibarətdir:**

1. Təlim prosesində şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə almaq və təlimi onların gücü çatan çətinlik səviyyəsində qurmaq.

2. Dərsdə şagirdləri subyekt səviyyəsinə qaldırmaq və dərsi "müəllim-şagird" əməkdaşlığına əsaslanmaqla aparmaq.

3. Qarşıya qoyulmuş problemin həlli istiqamətində fərziyyələrin qoyulmasına və nəticələrin çıxarılmasına şagirdləri cəlb etmək.

4. Dərsdə vaxt itkisinə yol verməmək, öyrədilən materialların həcminin genişliyinə və dərinliyinə nail olmaq.

5. Problemin bir yox, bir neçə yollarla həll edilməsinə çalışmaq.

6. Cütlərlə və qruplarla iş zamanı bütün şagirdlərin fəal işləməsinə nail olmaq.

7. Dərsdə əks-əlaqədən geniş istifadə etmək, şagirdlərin müstəqil və sərbəst fikir söyləmələrinə şərait yaratmaq.

8. Şagirdləri müstəqil tapşırıqlar üzərində işlətmək və s.

Geniş islahatlar dövrünü keçirən Azərbaycan məktəbində hazırda tətbiq olunan bir çox fəal təlim metodları müəllimdən böyük yaradıcılıq axtarışları tələb edir. Bunlar-didaktik oyunlar, insert, Bibo cədvəli, klaster, ziqzaq, dəyirmi masa, Venn diaqramı, intellektual auksion və s. ibarət olub, müəllim və şagirdlərin qarşılıqlı əlaqəsini, işgüzar ünsiyyətini təmin edən təlim metodları kimi müəllimlərin pedaqoji ustalığa yiyələnmələrində də mühüm yer tutur.

Fəal təlim metodları müəllimin bələdçiliyi ilə şagirdlərin təlim prosesində bilikləri müstəqil olaraq əldə etmələrinə və dərk etmələrinə geniş şərait yaradır. Müəllimlər bu prosesdə qarşıya qoyulmuş problemin həllinə istiqamət verir, şagirdləri sərbəst düşünməyə, axtarışa, tapmağa sövq edir. Şagirdlər yalnız müəllimin informasiyası ilə kifayətlənmir, özləri yaradıcı axtarışa qoşulur, yeni biliklər kəsb etməyə can atır. Bu da  onlarda təlim motivlərinin güclənməsinə, öyrənməyə, öz qüvvə və bacarıqlarına inamı artırır, təlim keyfiyyətinin yüksəlməsinə səbəb olur.

Fəal təlim metodlarından istifadə edilməsi dərs prosesinə tədqiqat xarakteri verir, şagirdi tədqiqatçılığa, axtarışa sövq edir. Pedaqoji prosesin belə təşkili və aparılması şagirdləri təlim prosesinin obyekti olmaqdan çıxararaq ikinci bir tərəfə subyektə çevirir, onları tədqiqatçılığa istiqamətləndirir. Şagird müəllimlərin bələdçiliyi ilə axtarışa qoşulur, fakt və hadisələrə, hətta müəllimin fikirlərinə öz münasibətini, tənqidi mülahizələrini bildirir, müqayisələr edir, nəticə çıxarır.

Pedaqoji innovasiyalar pedaqoji prosesin daxili ehtiyatları hesabına baş verir. Müəllim əlavə imkanlardan, vasitələrdən deyil, şagirdlərin əqli qabiliyyətlərinin "oyadılması, onların hərəkətə gətirilməsi" hesabına onların inkişafına təkan verir.

Pedaqoji innovasiyaların tətbiq olunduğu dərslərdə müəllimlər az, şagirdlər isə çox işləyirlər. Müəllimin əsas vəzifəsi şagirdlərə yardımçı olmaqdan, təlim prosesində onların fəaliyyətini istiqamətləndirməkdən, şagirdlərdə yaradıcı axtarışa həvəs oyatmaqdan ibarət olur. Belə dərslərdə yaradıcı fəallıq, canlı müzakirə, müstəqil iş, qarşılıqlı əməkdaşlıq, qrupdaxili və qruplararası münasibətlərin dinamik inkişafı özünü göstərir. Dərsin bu cür təşkili həmçinin müəllimi də yaradıcı fəaliyyətə, yeni-yeni axtarışlara sövq edir və istiqamətləndirir. Müəllim pedaqoji prosesin əsl yaradıcısına, memarına çevrilir.

**İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI**

1. Əliyev H. Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002.

2. İlyasov M. Müəllimin pedaqoji ustalığı. Dərs vəsaiti. Bakı:  Elm və təhsil, 2013.215s.

3.Həsənov A.Məktəbəqədər pedaqogika. Dərs vəsaiti. Bakı:“Nasir nəşriyyatı”.2000.367s.

**ELEKTRON RESURSLAR**

• https://anl.az/el/Kitab/2018/07/cd/2018-1050.pdf

• http://web2.anl.az:81/read/page.php?bibid=vtls000338011

**Mühazirə 14: Tərbiyə prosesində müəllimin pedaqoji ustalığı**

**PLAN:**

**1. Tərbiyə prosesində müəllimin uşaqlarla ünsiyyəti;**

**2. Şagirdlərin təlim prosesinə mənfi təsirləri**

**3 Dərsdə pedaqoji ünsiyyətin yaradılması**

**4. Tərbiyə prosesinin sosial-psixoloji cəhətdən təmin olunması pedaqoji ünsiyyətin vasitəsi kimi**

Pedaqoji prosesin əsasında təlim durur. Müəllimin də başlıca vəzifəsi onun təlim-öyrətmək vəzifəsidir. Bu prosesin həyata keçirilməsində müəllimin ünsiyyət məharəti mühüm əhəmiyyət kəsb edir.

**Təlim prosesinin üç mühüm vəzifəsi (funksiyası) vardır:**

**təhsilləndirici** (öyrədici), **tərbiyələndirici** və **inkişafetdirici**. Bu vəzifələrin hər birinin yerinə yetirilməsində müəllim-şagird ünsiyyəti özünəməxsus rol oynayır. Prof.M.Həmzəyev həmin vəzifələrin həyata keçirilməsi ilə əlaqədar pedaqoji ünsiyyətə verilən tələblərdən bəhs

edərək yazır: "Təlimin öyrədici vəzifəsini həyata keçirərkən ünsiyyət aşağıdakıların təmin olunmasına şərait yaratmalıdır: şagirdlərlə real psixoloji təmasın təmin olunması; təlimin müsbət motivləşməsinin formalaşdırılması; kollektiv, idraki axtarıcılıq və birgə fikirləşmək üçün psixoloji şəraitin yaradılması.

Təlimin tərbiyələndirici vəzifəsini yerinə yetirərkən pedaqoji ünsiyyətin köməyi ilə tərbiyəvi və pedaqoji münasibətlər, müəllimlə uşaqlar arasında psixoloji təmas qaydaya salınır və bu təlimin müvəffəqiyyətinə əsaslı təsir göstərir; şagirdin idrak istiqaməti formalaşır; psixoloji maneələr aradan qaldırılır: şagird kollektivində şəxsiyyətlərarası münasibətlər formalaşır.

Təlimin inkişafetdirici vəzifəsini həyata keçirərkən pedaqoji ünsiyyətin köməyi ilə şəxsiyyətin özünütəhsili və özünütərbiyəsi üçün psixoloji şərait yaradılmış olur".

Buradan göründüyü kimi, təlim vəzifələrini həyata keçirən müəllim pedaqoji ünsiyyətin məqsəd və vəzifələrini dərindən bilməli, ona yiyələnməli və ondan təlim müvəffəqiyyəti üçün istifadə etməyi bacarmalıdır.

Müşahidələr göstərir ki, pedaqoji ünsiyyətin xarakteri konkret pedaqoji situasiyalarla sıx əlaqədar olur. Pedaqoji situasiyalar müxtəlif olduğu kimi pedaqoji ünsiyyətin xarakteri də müxtəlif olur. Lakin təcrübə göstərir ki, müəllim-şagird ünsiyyətində heç də bütün müəllimlər yüksək müvəffəqiyyətlərə nail ola bilmirlər.

Dərsləri müşahidə əsasında gəldiyimiz nəticəyə görə müəllimlər dərs zamanı şagirdlərə tələb verərkən emosional- psixoloji baxımdan heç də eyni səviyyədə onlara yanaşa bilmirlər. Belə ki, bir qrup müəllimlər öz yetişdirmələrinə müsbət münasibət göstərir, onların tələbləri xahiş, inam və bəyənmə ilə ifadə olunur. Belə müəllimlərin dərslərində həmişə yüksək emosional əhval-ruhiyyə, qarşılıqlı hörmət və işgüzarlıq müşahidə edilir. Belə dərslərdə onlar yorğunluq, gərginlik hiss etmədən fəal iştirak edirlər. İkinci bir qrup müəllimlər isə özlərinin tələblərini ümidsiz, müzakirə və hədə-qorxu ilə ifadə edirlər. Bu tip müəllimlərin dərslərində isə şagirdlərin fəaliyyətində və müəllimlə münasibətində çox vaxt bir inamsızlıq, ümidsizlik, qorxu hissi ifadə olunur. Digər bir qrup müəllimlər isə öz tələblərini məsləhət, şərt, eyham və s. formada verirlər ki, bunların münsibətlərində emosional-psixoloji cəhətlər olsa da, bu münasibətlər bitərəf xarakter daşıyır.

Müşahidə etdiyimiz bir neçə dərsi müqayisəli surətdə nəzərdən keçirək.

Nəsimi rayonundakı Y.Mirzəyev adına 44 saylı orta məktəbin II sinifində resublikamızın qabaqcıl sinif müəllimlərindən biri olan metodist müəllim N. Laçınovun bir neçə il öncə müşahidə etdiyimiz riyaziyyat dərsi.

**Cədvəl 1.**

| Tələbin forması | Tələbin növü | | Frontal | | Fərdi | | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| | | | Müsbət | Mənfi | Müsbət | Mənfi | |
| Birbaşa | | | 35 | - | 48 | - | 83 |
| Dolayısı yolla | Müsbət | Xahiş | 1 | - | 6 | - | 7 |
| | | Bəyənmə | 4 | - | 21 | - | 25 |
| | | İnam | - | - | 2 | - | 2 |
| | | Məsləhət | - | - | 1 | - | 1 |
| | Neytral | Eyham | 1 | 1 | 3 | - | 5 |
| | | İstehza | - | - | 1 | - | 1 |
| | | Şərti | - | 1 | - | - | 1 |
| | Mənfi | İnamsızlıq ifadəsi | - | - | - | - | - |
| | | Məzəmmət | - | - | 5 | 2 | 7 |
| | | Hədə | - | - | - | - | - |
| Yekun<br>Cəmi: | | | 41 | 2 | 87 | 2 | 132 |

Şagirdlərə verilən tələblərin növləri və formaları aşağıdakı cədvəldə qeyd edilmişdir (cədvəl 1).

Cədvəldən göründüyü kimi, müəllim bir dərs müddətində şagirdlərə 132 tələb vermiş, bunlardan 43-ü frontal şəkildə, 89- u isə fərdi şəkildə olmuşdur. Frontal və fərdi tələblərin hər birində yalnız 2 tələbi mənfi tələb kimi qiymətləndirmək olar ki, bu da çox azdır. Müəllimin bütün tələbləri şagirdlərə qarşı inam əsasında, onların cavablarını, hərəkətlərini bəyənməklə, bəzən də xahiş və müsbət mənada eyham və məzəmmət formasında olurdu ki, bu da şagirdlərdə öz gücünə inam, dərsdə yüksək psixoloji əhval-ruhiyyə yaradırdı. Digər tərəfdən isə, dola- yısı yolla verilən 45 tələbdən 35-i müsbət, 7-si neytral, 7-si isə mənfi tələblər olmuşdur.

Dərsdə müəllim-şagird ünsiyyətinin belə formada təşkili müəllimin şagirdlərə qarşı yüksək mədəniyyətlə, pedaqoji ustalıqla yanaşması, müraciət və tələblərindəki incəlik və pedaqoji takt müəllim-şagird ünsiyyətinin formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Lakin çox təəssüflər ki, heç də bütün müəl- limlər, bütün dərslər belə qarşılıqlı münasibətlər fonunda, pedaqoji ustalıqla nümayiş olunmur.

Digər bir dərs nümunəsinə baxaq:

V sinif "Ədəbiyyat dərsi. Şagirdlərə verilən tələblərin növləri və formaları aşağıda göstərilən cədvəldəki kimi olmur (cədvəl 2).

**Cədvəl 2.**

| Tələbin forması | | Tələbin növü | Frontal Müsbət | Frontal Mənfi | Fərdi Müsbət | Fərdi Mənfi | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| Birbaşa | | | 30 | 4 | 24 | 2 | 60 |
| Dolayısı yolla | Müsbət | Xahiş | - | - | - | - | - |
| | | Bəyənmə | 1 | - | 2 | - | 3 |
| | | İnam | - | - | - | - | - |
| | | Məsləhət | 1 | - | | - | 1 |
| | Neytral | Eyham | 1 | 1 | - | - | 2 |
| | | İstehza | - | - | - | - | - |
| | | Şərti | - | - | - | - | - |
| | Mənfi | İnamsızlıq ifadəsi | - | - | - | 2 | 2 |
| | | Məzəmmət | - | 7 | 9 | - | 16 |
| | | Hədə | 3 | - | - | 2 | 5 |
| Yekun Cəmi: | | | 36 | 12 | 35 | 6 | 89 |

Cədvəldən göründüyü kimi, müəllimin dolayısı yolla verdiyi 29 tələbdən 23-ü mənfi, 4-ü müsbət, 2-i isə neytral istiqamətli, xarakterli tələblər olmuşdur. Birinci müəllimlə müqayisədə ikinci müəllimin mənfi tələblərinin daha çox olması özünü göstərir. Aydın məsələdir ki, müəllim şagird münasibətlərində belə situasiyalar dərsin gedişinə və nəticələrinə təsirsiz qalmır.

Beləliklə, apardığımız müşahidə və təhlillər aydın şəkildə göstərir ki, təlim prosesində müəllimin şagirdlərlə ünsiyyətinin səmərəli şəkildə qurulması onun verdiyi tələblərinin formasından da asılıdır. Hərçənd ki, hər bir müəllimin özünün müəyyən tələb forması vardır.

Tədqiqatların nəticəsi və təhlillər göstərir ki, sinfə və ayrıca şagirdə verilən tələb məsləhət və inam formalarında olduqda sinifdə səmimiyyət, yoldaşlıq və ünsiyyət daha yüksək səviyydə olur. Müəllimin şagirdlərə inam göstərməsi, rəsmi göstərişlərində belə xeyirxahlıq, səmimilik nümayiş etdirməsi sinifdə işgüzar və fəal bir iqlimin olmasına gətirib çıxarır. Belə münasibət və ünsiyyətin köməyi ilə təkcə müəllim-şagird münasibət- ləri deyil, həmçinin kollektivdaxili əlaqələr, “şagird-şagird" münasibətləri də formalaşır. Bu da həm şagird şəxsiyyətinin formalaşmasına, həm də təlim-tərbiyə prosesinin səviyyəsinin yüksəlməsinə öz müsbət təsirini göstərir.

Dərslərin təhlili göstərir ki, hansı müəllim ki, müəllim- şagird münasibətlərində qayğı ilə tələbkarlığı, tələblərində hörmətlə yanaşmağı, şagirdlərə qarşı humanistliyi yüksək mədəni rəftar və mədəniyyətlə birləşdirə bilirsə, onun dərslərində həmişə nəticələr yüksək olur. Onların siniflərində şagirdlər, demək olar ki, dərslərinə həmişə hazırdırlar. Onlar təlim prosesinə yüksək məsuliyyətlə yanaşır və yüksək qiymətlərlə oxuyurlar. Deməli, müəllim-şagird ünsiyyətinin səmərəliliyi təlim prosesinin səmərəliliyinə də təsirsiz qalmır, onu daha məzmunlu edir, səmərəliliyini və keyfiyyətini artırır.

Maraqlıdır ki, şagirdlərlə apardığımız söhbətlərdə, sorğularda onlar şagirdlərlə səmimi ünsiyyət yarada bilən, şagird şəxsiyyətinə hörmətlə yanaşan müəllimlərini çox yüksək hörmət və məhəbbətlə xarakterizə etmiş və onları çox sevdiklərini bildirmişlər.

Təcrübə göstərir ki, müəllim-şagird ünsiyyəti pedaqoji prosesə mühüm təsir göstərir. Ünsiyyətin yüksək emosional fonda, işgüzar və səmimi formada təşkili müəllimin verdiyi tələblərin fərqində də aydın görünür. Belə ki, birbaşa-bilavasitə tələblərin sayı getdikcə azalır, dolayısı yolla olan tələblər artır.

Həmçinin mənfi tələblər azalır, müsbət tələblər çoxalır. Bu da sinfin daha canlı, daha fəal formada fəaliyyət göstərməsinə səbəb olur. Müəllimlə şagird arasında əməkdaşlıq münasibətləri geniş şəkil alır və möhkəmlənir.

Müəllim-şagird ünsiyyətinin düzgün formalaşması təlim prosesinin müvəffəqiyyətli olmasına nə qədər müsbət təsir göstərirsə, onun düzgün qurulmaması da təlim prosesinə bir o qdər mənfi, əks təsir göstərir. Belə olduqda müəllimin bir çox tələbləri yerinə yetirilməmiş qalır və sinifdə müəllimin nüfuzu bir növ aşağı düşür. Eyni zamanda şagirdlər bir sıra mənfi vərdişlərə yiyələnir ki, onlar da təlim prosesinin keyfiyyətinə öz mənfi təsirini göstərir.

**Müşahidə olunan nöqsanları aşağıdakı kimi qruplaşdırmaq olar:**

• tez-tez dərsə gecikmək;

• dərsə başlamaq üçün lazım olan dərs vəsaitlərinin vax- tında hazırlamaq;

• əlləri qaldırmadan yerindən qışqırmaq;

• ev tapşırıqlarını yerinə yetirməmək;

• dərsdə başqa işlə məşğul olmaq, yoldaşı ilə söhbət etmək;

• yoldaşdan köçürmək və ya ona demək;

• səmimi olmamaq, müəllimə qarşı diqqətsizlik və s.

Bütün bunlar onu göstərir ki, müəllim-şagird münasibətlərinin formalaşması üçün müəllimin öz işinə, sözünə, tətbiq etdiyi iş metodikasına qarşı diqqətli olması çox vacibdir. Onun liberal iş tərzi, şagirdlərlə nəzakətsiz və ya həddindən artıq sərt rəftarı, verdiyi tələblərinin nəticəsini yoxlamaması və s. məsələlər təlim prosesinə öz mənfi nəticələrini göstərir. Buna görə də müəllim şagirdlərlə səmimi, işgüzar münasibət yaratmalı və onu təlim vəzifələrinin həllinə yönəltməyi bacarmalıdır.

Təcrübə və tədqiqatlar göstərir ki, belə şərait və münasibət demokratik rəhbərlik üslubuna malik olan müəllimlərdə özünü daha çox göstərir. Şagirdlərin belə müəllimlərin dərsində özlərini necə aparmalarını professor Ə.Əlizadə aşağıdakı kimi xarakterizə edir:

a) şagirdlər müəllimlərlə və öz aralarında daha çox danışırlar. Bu söz-söhbətlərin ana xətti dərslə bağlı olur. Onlar müəllimə suallar verirlər, aydın səslənməyən məsələləri açıqlayırlar, öz aralarında isə fikir mübadiləsi edirlər;

b) dərsə diqqətlə qulaq asırlar. Müəllim hər hansı bir məsələni izah edəndə gözlərini çox vaxt müəllimə zilləyib ona baxırlar;

c) daha çox düşünürlər, götür-qoy edirlər, məsələlərin mahiyyətini aydınlaşdırmağa çalışırlar, mənalı yaddasaxlama vasitələrindən səmərəli istifadə edirlər;

ç) sinifdə həmişə özünəməxsus yaradıcılıq ovqatı əmələ gəlir. Şagirdlərin bir qayda olaraq gözləri gülür. Onlar dərsdə özlərini sərbəst hiss edirlər;

d) sinifdə konformist şagirdlərə, demək olar ki, təsadüf edilmir. Onlar öz fikirlərini, qənaətlərini açıq deməyi və prinsipial mövqe tutmağı öyrənirlər.

Buradan göründüyü kimi demokratik müəllimlərin dərsləri şagirdlərin işgüzar fəaliyyəti üçün zəngin baza olmaqla yanaşı, müəllim-şagird ünsiyyətinin yaranması, inkişafı və formalaşmasında da mühüm rol oynayır. Belə dərslərdə şagirdlər müəllimə, müəllimlər də şagirdə təkcə “öyrədən-öyrənən" kimi yox, qarşı tərəflər, tərəf müqabillər kimi baxır və yaxından əməkdaşlıq edirlər. Belə dərslər diqqəti daha çox fikirləşmə, sual- cavab, təfəkkürün işləməsi ilə cəlb edir. Bu zaman nə müəllimdə, nə də şagirdlərdə yorğunluq, əsəbilik, narazılıq hiss olunmur. Şagirdlər həvəslə, inamla müəllimin növbəti gəlişini gözləyirlər.

Dərs müəllimin yaradıcılığıdır. Müəllimin ona təkcə idraki baxımdan deyil, psixoloji cəhətdən də hazırlaşması, onun yüksək emosional səviyyədə tədrisinə nail olması bu yaradıcılığı daha da məzmunlu edir. Professor Yəhya Kərimov yazır: "Müəllim öz fənnini mükəmməl bilməklə, onun metodikasını öyrənməklə yanaşı, dərsdə şagirdlərin fəaliyyətini ustalıqla idarə etməyi, ciddi, lakin canlı, emosional öyrətməyi bacarmalıdır. Dərsə təbəssümlə girən, yeri gəldikcə ürəkdən gülməyi, uşaqları güldürməyi bacaran müəllim hamının qəlbinə yol tapır. Müəllim çalışmalıdır ki, hər bir dərsdə uşaqların həyatına, mənəviyyatına yenilik, gümrahlıq gətirsin, onlar evə şən əhval-ruhiyyə ilə, yorğunluq hiss etmədən qayıtsınlar. Bir sözlə, uşağın həyatı evə qayıtdıqdan sonra deyil, dərsdə başlanmalıdır".

Təcrübə göstərir ki, dərsin bu səviyyədə təşkili və keçilməsi müəllim-şagird ünsiyyətinə daha geniş yollar açır və ünsiyyətin səmərəliliyi üçün real şərait yaradır. Belə dərslərdə yüksək tələbkarlıq da var, yüksək hörmət də. Ona görə də müəllim çalışmalıdır ki, onun ünsiyyəti, şagirdlərə qarşı tələbləri, göstərişləri, dərs zamanı işlətdiyi ifadələr, onlara müraciətləri, narazılıqları və s. hamısı özünə və şagirdlərə olan hörmət və ləyaqət hisslərindən nəinki kənar olmasın, hətta onların daha da artmasına, möhkəmlənməsinə kömək etsin. Onun şagirdlərlə ünsiyyəti şagirdlərin fəaliyyətinin daha da yaradıcı olmasına, onların bir qədər də fəal olmalarına təkan versin.

Dərsin səmərə və keyfiyyətinin yüksəlməsində müəllimin şagirdlərlə düzgün ünsiyyət münasibətləri ən təsirli vasitələrdən biridir. Müəllimin ünsiyyət mədəniyyətinə malik olması, şagirdlərlə sıx ünsiyyət yarada bilməsi onun dərs prosesində işinin təsirliliyini, səmərəliliyini artırır və şagirdlərlə qarşılıqlı fəaliyyət, əməkdaşlıq üçün sərbəst şərait yaradır. Belə dərslərdə istər müəllim, istərsə də şagirdlər üçün elə bir emosional rahatlıq yaranmış olur ki, burada iştirak etmək hər iki tərəf üçün xoş əhval-ruhiyyə yaradır.

**Dərsdə pedaqoji ünsiyyətin yaradılması müəllimdən bir sıra bacarıqlar tələb edir.** Bununla əlaqədar olaraq A.Polyakova aşağıdakı cəhətlərin əhəmiyyətli olduğunu qeyd edir:

• uşaqların yaşını və marağını nəzərə almaqla tədris informasiyasını onlara müvafiq surətdə tərtib etmək və sinfə təqdim etmək metodu;

• şəkillərdə verilən sualların xarakteri (ifadənin dəqiqliyi, şərhin aydınlığı və xeyirxahlıq), müxtəlif variantlı cavabların izahı;

• dərsdə rolların (cavab vermək, kömək etmək, tamamlamaq, şərh etmək, suallar vermək və s.) şagirdlər arasında dəqiq bölüşdürülməsi;

• şagirdin fikrinin nəzərə çarpdırılması (ondan nəticə çıxarmaq və ya onun əsasında ümumiləşdirmə aparmaqla şagirdin fikrini təkrar etmək);

• tərif (sadəcə bəyənmək, izah etməklə səmərəli razılıq ifadəsi);

• məzəmmət (qısa, dəlillər əsasında izahatlar).

Müşahidə etdiyimiz dərslər və qabaqcıl müəllimlərin təcrübəsi göstərir ki, dərsdə şagirdlərlə ünsiyyət yaradılması əv vəldən axıra qədər, yəni dərsin bütün mərhələlərində olmalıdır. Belə ki, müəllimin sinfə necə daxil olması, onun üz-göz ifadəsi, siniflə salamlaşma tərzi, ayrı-ayrı şagirdlərə və bütün sinfə müraciəti, müraciət formaları, keçmiş dərsin sorğusu və ev tapşırıqlarının yoxlanması, şagirdlərin cavablarına münasibəti, verdiyi tələblərin xüsusiyyətləri, sinifdə işgüzar əhval-ruhiyyənin yaradılması, zəif şagirdlərə münasibəti və digər bir sıra hallar müəllimin ünsiyyətinin necəliyi üçün olduqca vacib məsələlərdir. Bütün bu hallarda müəllimin sadə və ciddi xarici görkəmi, xoş təsir bağışlayan ifadəli, gözəl, səlist və emosional nitqi, özünə və şagirdlərə qarşı tələbkarlığı, şagird şəxsiyyətinə hörməti, onlara qarşı xeyirxahlığı və nəzakətliliyi və s. ünsiyyətin səmərəliliyini təmin edən başlıca şərtlər kimi özünü göstərir.

**Tərbiyə prosesinin sosial-psixoloji cəhətdən təmin olunması pedaqoji ünsiyyətin vasitəsi kimi**

Tərbiyə prosesi geniş, mürəkkəb və çoxamilli bir prosesdir. Buna görə də onun müvəffəqiyyətlə həyata keçirilməsi və nəticələnməsi bir sıra amillərlə bağlıdır. Bunlardan biri də tərbiyə prosesinin sosial-psixoloji cəhətdən təmin olunmasıdır. Sosial-psixoloji tamlıq tərbiyənin daha da uğurlu və məzmunlu aparılmasına səbəb olur. Pedaqoji ünsiyyət də məhz sosial-psi- xoloji qarşılıqlı təsir prosesi kimi meydana çıxır və özünü göstərir. V.A.Kan-Kalik və N.D.Nikandarov bu haqda yazırlar: "Pedaqoji ünsiyyət sosial-psixoloji qarşılıqlı təsir prosesidir. Onun əsas istiqamətləri bunlardır: müəllimin ayrıca şagirdlərlə ünsiyyəti, müəllimin ayrıca şagird vasitəsilə bütövlükdə kollektivlə ünsiyyəti, kollektiv vasitəsilə müəllimin ayrıca şagirdlə ünsiyyəti".

Müəllimin pedaqoji ünsiyyəti ilk növbədə onun ayrıca şagirdlərlə münasibətindən deyil, ümumi kollektivlə münasibətindən, onlarla ünsiyyətindən yaranır, formalaşır. Lakin kollektiv də ayrı-ayrı fərdlərdən ibarət olduğu üçün burada müəllimin ayrıca şagirdlə ünsiyyəti də mühüm yer tutur. Yəni bunlar qarşılıqlı şəkildə bir-birini tamamlayaraq sinifdə pedaqoji ünsiyyətin formalaşmasına gətirib çıxarır. Buna görə də pedaqoji ünsiyyət zamanı bu komponentlərin hər birinin özünün funksiyası olduğunu unutmaq və nəzərdən qaçırmaq olmaz.

Tərbiyəvi işlər prosesində müəllimin ayrıca şagirdlərlə səmimi ünsiyyət yarada bilməsi, onlarla qarşılıqlı münasibətdə olması mühüm yer tutur. Hər bir şagirdə qarşı müəllimin həssaslığı, mədəni rəftarı, üz-göz ifadəsi, pedaqoji taktı, ədəbli- mədəni münasibət göstərməsi, yüksək nitq mədəniyyətinə malik olması, nitqinin düzgünlüyü, emosionallığı, diqqətliliyi və s.

şagirdin ünsiyyət zamanı özünü daha sərbəst və daha fəal göstərməsinə gətirib çıxarır və müəllim-şagird münasibətinin formalaşmasına səbəb olur.

Müəllimin ayrı-ayrı şagirdlərlə ünsiyyətdə olmasının mühüm üstünlüklərindən biri onun ayrı-ayrı fərdlərlə, müxtəlif temperamentli şagirdlərlə ünsiyyəti zamanı onların fərdi xüsusiyyətlərini nəzərə ala bilməsi imkanlarının geniş olmasıdır. Aydındır ki, müəllim, tərbiyəçi şagirdlərin fərdi-psixoloji xüsusiyyətlərini nə qədər dərindən bilərsə, onun apardığı tərbiyə işləri də bir o qədər elmi və hərtərəfli şəkildə aparıla bilər. Böyük rus pedaqoqu K.D.Uşinskinin dediyi kimi: "Əgər pedaqogika insanı hərtərəfli tərbiyə etmək istəyirsə, onda pedaqogika insanı hərtərəfli öyrənməlidir". Buna görə də müəllimlər şagirdlərlə bütün tərbiyəvi işlər zamanı onların fərdi xüsusiyyətlərinə əsaslanaraq tərbiyəvi tədbirlərin yüksək səviyyədə olmasına çalışmalıdır. Belə ünsiyyət ibtidai siniflərdən şagirdlərdə məktəbin davranış qaydaları, yoldaşlıq, dostluq münasibətləri, sadə ədəb və nəzakət qaydaları haqqında məlumatların və davranış normalarının yaranmasına, formalaşmasına səbəb olur. Bu siniflərdə şagirdlərlə ünsiyyət zamanı onlara aşılanan keyfiyyətlər bir sıra müsbət adət və vərdişlər formalaşdırır ki, bunlar da yuxarı siniflərə keçdikcə daha da möhkəmlənir və şagirdlərin əqidəsinin və davranışının vəhdətinə gətirib çıxarır. Buna görə də şagirdlərlə tərbiyəvi işlərin aparılmasına ciddi yanaşılmalıdır. X.İbrahimov bu münasibətlə şagirdlərin aşağıdakıları bilməsini vacib sayır:

a) məktəbdaxili qaydalara əməl etmək;

b) salamlaşma qaydalarını mənimsəmək;

c) səliqəli geyinmək, məktəbdə səliqə-səhmanı gözləmək;

d) böyüklərlə ünsiyyət qaydaları (konkret nümunələr göstərmək, məsələn: böyüklərə qulaq asmaq, onların sözündən çıxmamaq, qocalara kömək etmək, yanındakı adam danışanda sözünü kəsməmək və s.);

e) ədəb və nəzakət qaydaları.

Müəllimin tərbiyə işləri zamanı ayrı-ayrı şagirdlərlə yaxından ünsiyyət saxlaması olduqca mühümdür. Onun ayrı-ayrı şagirdlərə müraciət tərzi, verdiyi tələblər, izahatlar, açdığı müzakirələr ünsiyyətin etik və emosional normalarına uyğun olduqca onun səmərəliliyi də artır və şagirdlər müəllimlərlə daha yaxın ünsiyyətdə olurlar. Bunun nəticəsində də aparılan tədbirin təsirliliyi və səmərəliliyi artır.

Bakı şəhəri Nəsimi rayonu Y.Mirzəyev adına 44 saylı orta məktəbin III sinfində sinif müəllimi Salatın Zülfüqarovanın "Sən anana necə kömək edirsən?" mövzusunda apardığı tərbiyəvi söhbət bu baxımdan maraqlı və diqqətəlayiqdir. Müəllimənin öz nitqində tez-tez "Oğlum", "Qızım", "Çox sağ ol", "Afərin", "Çox yaxşı", "Tamamilə doğrudur", "Düzdür", "Əy- ləş", "İnanıram ki, sən yaxşı bir şeir deyəcəksən” və s. sözlərini, ifadəsini işlətməsi sinifdə səmimi, mehriban və fəal bir psixoloji atmosfer yaratmışdır. Müəllimin belə kommunikativ təsir vasitələrindən istifadə etməsi təkcə sinifdə xoş ovqatın yaranmasına deyil, eyni zamanda söhbətdə, hətta zəif şagirdlərin də iştirakına səbəb olmuşdu. Bunun nəticəsidir ki, müəllimin ayrı-ayrı şagirdlərlə səmimi ünsiyyəti sinifdə mehriban, gərginliksiz bir

əhval-ruhiyyə yaratmışdır. Şagirdlər suallara maraqlı cavablar verir, şeirlər söyləyir, müəllimə səylə qulaq asırdılar.

Müəllimin ayrıca şagirdlə ünsiyyət saxlaması, səmimi ünsiyyət yaratması kollektivlə yaxından ünsiyyətə də səbəb olur. Yəni ayrıca şagirdlə ünsiyyəti genişləndikcə bu ünsiyyət kollektivlə olan ünsiyyətə çevrilir və sinifdə yüksək emosional iqlim yaranmış olur. Bəzən ayrı-ayrı şagirdlə yaranan ünsiyyətə bütün sinif kollektivinin qoşulması da ünsiyyətin möhkəmlənməsinə güclü təsir göstərir. Buna görə də müəllim tək-tək şagirdlərlə ünsiyyətdə olarkən bütün şagirdləri ora cəlb etməyə çalışmalı və onların da fəal rolunu təmin etməlidir.

Görkəmli pedaqoq A.S.Makarenkonun "Paralel təsir prinsipi"nə əsaslanaraq müəllimin kollektiv vasitəsilə ayrı-ayrı şagirdlərlə ünsiyyət yarada bilməsi də münasibətlər prosesində mühüm yer tutur. Müəllim burada ayrı-ayrı şagirdlərlə şəxsən ünsiyyətdə olmaq, ona təsir göstərməkdən başqa, həm də kollektiv vasitəsilə ayrı-ayrı şagirdlərlə ünsiyyətdə olmağa çalışmalıdır. Belə olduqda ikiqat ünsiyyət prosesi yaranmış olur. Bir tərəfdən müəllim ayrı-ayrı şagirdlə və ya kollektivlə ünsiyətdə olur, digər tərəfdən kollektiv üzvlərilə kollektivin ünsiyyəti yaranmış olur ki, bu da sinifdə həm səmimi, mehriban kollektivin formalaşmasına, həm də kollektivin tərbiyəçi rolunda çıxış etməsinə, paralel təsir sisteminin yaranmasına səbəb olur.

Faktlar göstərir ki, tərbiyəvi tədbirlərin həyata keçirilməsi zamanı, xüsusilə sinifdənkənar tərbiyəvi tədbirlər prosesində müəllimlə şagirdlər arasında olan ünsiyyət münasibətləri daha dərin və geniş xarakter alır. Bu zaman təlim prosesində özünü göstərən avtoritarlıq öz yerini sıx əxlaqi münasibətlərə verir və şagirdlər müəllimlə daha yaxından ünsiyyətdə olurlar. Eyni zamanda təlim prosesinə nisbətən burada ünsiyyətin forma və üsulları da çoxalır, müxtəlif xarakter alır. Müəllim şagirdlərlə münasibətlərində müxtəlif forma və üsullardan istifadə edir ki, bu da bir tərəfdən ünsiyyət münasibətlərinin genişlənməsinə, digər tərəfdən isə keçirilən tədbirin daha məzmunlu və səmərəli olmasına səbəb olur.

Tərbiyə prosesinin sosial-psixoloji cəhətdən təmin olunması müəllim-şagird ünsiyyətinin formalaşması işində mühüm yer tutur. Bunun üçün eyni zamanda aparılacaq tərbiyəvi tədbirlərin məzmunu və xarakterinə də ciddi yanaşmaq tələb olunur. Müəllim bu məqsədlə elə tədbirlər hazırlayıb həyata keçirməyin qayğısına qalmalıdır ki, həmin tədbirlər kollektivdə münasibətlərin daha da dərinləşməsinə və yaxınlaşmasına səbəb olsun. Bu baxımdan Bakı şəhəri Nərimanov rayonundakı 82 saylı orta məktəbin IX sinif rəhbəri Ülkər Quliyevanın sinif ənənələrinə yaxından diqqət yetirməsini qeyd etmək yerinə düşər. Beşinci sinifdən başlayaraq bütün şagirdlərin ad gününü sinifdə təntənəli şəkildə qeyd etmək, birlikdə şənlənmək, bir yerdə şəkil çəkdirmək artıq bu sinifdə bir ənənə şəklini almışdır. Az qala bütün şagirdlər bir-birinin doğum gününü əzbərdən bilirlər. Diqqətəlayiq haldır ki, sinif rəhbəri bundan bir tərbiyə vasitəsi kimi istifadə edə bilir və kollektivdə səmimiyyətin, qarşılıqlı münasibətin formalaşması üçün belə ənənələri vacib hesab edir.

Müəllimin şagirdlərlə düzgün ünsiyyət münasibətlərinə malik olması olduqca faydalıdır. Bunun üçün müəllimlərin bir sıra keyfiyyətlərə yiyələnməsi və müəyyən şərtləri gözləməsi lazımdır.

Dosent Ə.Sarıyev müəllim-şagird münasibətlərinin formalaşdırılmasında müəllimin həssas olması, nəzakətli olması, prinsipial olması tələblərinin mühüm olduğunu qeyd edir.

Qeyd etmək lazımdır ki, bir-biri ilə sıx əlaqəsi olan və biri o birini tamalayan bu keyfiyyət və tələblər müəllimlər üçün çox vacib və zəruridir. Müəllimin şagirdlərlə ünsiyyəti zamanı mehribanlıq göstərməsi, onların fikir, hiss və istəklərinə, arzu və maraqlarına səmimi yanaşması, onların qəlbinin dərinliklərini duya bilməsi, onlara canıyananlıq göstərməsi, yaxşı cavabları və cəhətləri yüksək qiymətləndirməsi, müvəffəqiyyətləri, uğurları tərifləməsi və s. məsələlər bu baxımdan olduqca fadalıdır.

Prof.Ə.Əlizadə yazır: "Şagirdin insan ləyaqətinə hörmət etmək, ona etibar və inamla yanaşmaq, bir şəxsiyyət kimi onun məqsədləri, tələbatları və mənafeyi ilə hesablaşmaq - məhz bu keyfiyyətlər müəllimlərin şagirdlərlə münasibətlərinə nurlu insani çalarlar bəxş edir. Müəllim bir şəxsiyyət kimi şagirdlərin ona münasibətlərində yaşayır".

İstər təlim prosesində verilən tərbiyə (təlimin tərbiyəedici funksiyasının reallaşması), istərsə də sinifdənkənar aparlan tərbiyə şagird şəxsiyyətinin formalaşmasında mühüm yer tutur. Tərbiyə işlərinin təsirliliyi məhz bu prosesin sosial - psixoloji cəhətdən təmin olunması ilə sıx surətdə bağlı olur.

Sinifdə, məktəbdə bir çox tərbiyəvi tədbirlər həyata keçirilə bilər. Lakin onlarda bu təmimat yoxdursa, onun təsirliliyi də az olur. Belə bir təminat varsa, onda müəllim-şagird ünsiyyəti də yüksək səviyyədə yarana bilir və bunlar ünsiyyət üçün vasitəyə çevrilir. Yəni burada müəllimin ayrıca şagirdlə ünsiyyəti, müəllimin ayrıca şagird vasitəsi ilə kollektivlə ünsiyyəti və kollektiv vasitəsilə ayrıca şagirdlə də ünsiyyəti səmimi, mehriban, işgüzar və faydalı olur.

Tərbiyə prosesinin sosial-psixoloji cəhətdən təmin olunması xüsusilə iki bir-biri ilə qarşılıqlı əlaqəsi olan əlamətlərdə özünü göstərir: 1) keçiriləcək tərbiyəvi tədbirin məzmununun sosial-ictimai xarakterə malik olması; 2) bu tədbirin psixoloji təminatı, yəni onun şagirdlərin psixikasına təsir göstərəcək səviyyədə olması. Bu baxımdan ibtidai siniflərdə "Çörək elin sərvətidir", "Qəhrəmanlar ölmürlər", "Ana-Vətən", "Doğma Vətənimiz", "Şəhidlik zirvəsi", "Təbiəti qoruyaq", yuxarı siniflərdə "Gənclik və zaman", "Sənin həyat yolun", "Ataların yolu ilə", "Torpaq, uğrunda ölən varsa vətəndir", "Ekologiya və biz" və s. məzmunda müxtəlif tərbiyəvi tədbirlərin aparılması zəruridir. Məktəb təcrübəsi ögöstərir ki, bu səpgidən olan tədbirlərin yüksək səviyyədə təşkil edilməsi və aparılması şagirdlərlə səmimi dialoq, ünsiyyət yaratmaq baxımından da xeyli əlverişli olur. Belə ki, bu tədbirlərdə şagirdlərə öz fikirlərini, hisslərini açıq şəkildə ifadə edə bilmələri üçün şərait yaradılması, onlarla səmimi sual-cavab aparılması, müəllimin şagirdlərin qəlbini həyəcanlandıra biləcək faktlar və nümunələrdən istifadə etməsi, yeri gəldikcə müxtəlif əyaniliklərə müraciət etməsi və s. bu tədbirlərin həm dəyərini artırır, həm də onların emosional əhval-ruhiyyəsinə təsir göstərir. Bu baxımdan sinifdə aparılan tərbiyəvi tədbirlərin sosial-psixoloji cəhətdən təmin edilməsi aşağıdakı bir sıra nəticələrin alınmasına şərait yaratmış olur:

- şagirdlərlə səmimi, mehriban ünsiyyətin yaranması;

- şagirdlərin öz fikirlərini açıq, sərbəst ifadə etməsi;

- ayrıca şagird vasitəsilə bütün kollektivlə ünsiyyətin yaranması;

- kollektiv vasitəsilə tək-tək şagirdlərlə ünsiyyətin yaranması;

- keçirilən tədbirin şagirdlərin emosional və rasional əməllərinə təsir etməsi;

- şagird şəxsiyyətinin inkişafına nail olunması və s.

## Pedaqoji ünsiyyətin formalaşmasında müəllim və şagirdlərin qarşılıqlı əxlaqi münasibətləri

"Sözlərində, ifadələrində və hərəkətlə- rində saxta danışanlardan çəkin... Saxta və riya ilə danışmaq qəlbi qəflətə salar, insanın batininin zay olmasına səbəb olar".

İmam Qəzali

Müəllimin şagirdlə qarşılıqlı ünsiyyətində əxlaqi münasibətlərin yaradılması mühüm yer tutur. "Əxlaqi münasibətlərin xüsusiyyəti onunla nəticələnir ki, onlarda hər şey-tənzimləmə və nəzarət konkret vəzifələri yerinə yetirən əxlaqi qiymətə əsaslanır. Mənəvi münasibətlərin bütün növləri qarşılıqlı əlaqədə olan tərəflərin öz davranış və fəaliyyətində əxlaqi prinsiplərə, normalara, tələblərə, ənənələrə, göstərişlərə əməl edib-etməmələri nöqteyi-nəzərdən qiymətləndirilir".

Müəllimin şagirdlərlə yüksək mənəvi və etik normalara əsaslanan pedaqoji ünsiyyəti çox vaxt onun şagirdlər tərəfindən sevilməsinin əsas səbəbi olur. Şagirdlər o müəllimi daha çox sevirlər ki, bu sevgi müəllimdə də şagirdlərə qarşı yüksək olsun. Müəllim onları bir şəxsiyyət kimi qəbul edə bilsin, onlarla öz övladları kimi rəftar etsin, hətta günahkarların qəbahətləri olsa belə onlarla nəzakətsiz rəftara yol verməsin.

Lakin müşahidələr göstərir ki, bir sıra müəllimlər, hətta uzun illər uşaqlarla işləmələrinə baxmayaraq, rəftarlarında müəyyən əxlaq normalarına uyğun gəlməyən ifadələrdən istifadə edir, onlarla kobud tərzdə davranırlar. Belə müəllimlər uşaqlara təhqiramiz ifadələr işlətməkdən çəkinmir, xırda bir nöqsan üstündə onları acılayırlar. Bu isə müəllim-şagird ünsiyyətinə, qarşılıqlı münasibətlərə böyük xələl gətirir və incə uşaq qəlbində müəllimə qarşı inamsızlıq, inciklik, qeyri-səmimilik yaradır.

"Şagirdlərə müraciətində kobudluğa yol verən, onların mənliyini təhqir edən müəllim şagirdlər arasında nüfuzundan istifadə edə bilməz. Uşaqlar belə müəllimə hətta o, düz olduqda belə, münasibətlərində fəal müqavimət göstərirlər". Buna görə də müəllim şagirdlərin müqavimətinə rast gəlməmək üçün tələbi cavabsız qaldıqda, etdiyi təsir müsbət cavabla qarşılanma- dıqda belə, öz təmkinini pozmamalı, kobudluğa, nəzakətsizliyə, pedaqoji etikadan kənar hallara yol verməməlidir. Belə olduqda müəllim-şagird münasibətlərində mənfi hallar az müşahidə edilir və şagirdlər belə müəllimlərə daha dərindən rəğbət göstərirlər.

Həyati faktlar sübut edir ki, müəllimlərin şagirdlərlə səmimi ünsiyyəti, mehriban münasibəti həmin müəllimi şagirdlərin gözündə ucaldır. Xüsusən aşağı siniflərdə belə müəllimlər uşaqların idealına çevrilir və onlar həmin müəllimi qeyri-tənqidi qəbul edərək ona öz valideynləri, bəzən də onlardan da yüksək ideal münasibət bəsləyirlər. Bəzən belə ideal münasibət onların bütün ömrü boyu davam edir.

Yuxarı siniflərdə isə şagirdlərin bir qismi müəllimin şəxsiyyətinə və nüfuzuna görə onun tədris etdiyi fənnə böyük maraq göstərir, onu sevirlər. Bəzən də həmin fənlər üzrə özlərinə peşə və ixtisas seçirlər. Lakin bunun əksinə də az rast gəlinmir. Belə ki, bəzən müəllimin kobud münasibəti, peşəsinə laqeyd yanaşması, şagird şəxsiyyətinə hörmət etməməsi, onların ləyaqətini, şərəf və mənliyini alçaldan səhvlərə yol verməsi, onları yerli-yersiz cəzalandırması və s. məsələlər şagirdin həmin müəllimin fənninə də marağını söndürür, onu laqeyidləşdirir. Buna görə də müəllim unutmamalıdır ki, onun şagirdlərlə ünsiyyətinin normal olması pedaqoji prosesdə bir çox məsələlərin həllinə səbəb olur.

Şagirdlərin öz müəllimlərində qiymətləndirdikləri yaxşı keyfiyyətlər sırasında ən çox onların səmimiliyi, mehribanlığı, şagirdləri çox istəməsi, onlara qayğıkeşliklə yanaşması, onları yaxşı başa salması mühüm yer tutur. Bütün bunlar onu göstərir ki, müəllimin şagirdlər tərəfindən çox sevilməsində, onun bir tərbiyəçi, müəllim kimi müvəffəqiyyət qazanmasında əsas məsələlərdən biri onun şagirdlərlə düzgün pedaqoji münasibət, səmimi, mehriban ünsiyyət yaratması, qarşılıqlı əməkdaşlıq formalaşdırmasıdır.

Təcrübə və tədqiqatlar göstərir ki, şagirdlərin daxili aləmini dərk etmək, onları başa düşmək, onların qəlbinin çırpıntılarını duya bilmək müəllimin mühüm peşə keyfiyyətlərindəndir. Onun mədəniyyətinin səviyyəsini, müəllimlik işinin sirlərinə dərindən bələd olmasını göstərə bilən xüsusiyyətidir. Müəllim şagirdi nə qədər çox qəlbən duya bilsə, onun narahatlığını, gərginliyini, çətinliyini, emosional aləmini hiss etsə və buna laqeyd qalmasa, şagirdlərin qəlbinə daha çox yaxın olar, onların ürəyinə yol tapa bilər. Müəllim şagirdlərlə ünsiyyətində şagirdlərin təhsil müvəffəqiyyətinə, tərbiyəlilik səviyyəsinə, yaxşı və ya pis oxumasına, fəal və ya qeyri-fəal olmasına, sosial vəziyyətinə və s. amillərə görə fərq qoymamalıdır. Belə fərq olmadıqda bütün şagirdlər müəllimlərini özlərinin tərbiyəçisi, xeyirxahlıq simvolu kimi qəbul edir, ona hörmət bəsləyir, onunla yaxın, səmimi münasibətdə olurlar. Əks halda, müəllim yaxşı oxuyanlarla bir cür, pis oxuyanlarla başqa cür rəftar etdikdə, onları "sevimli" və "pis" uşaqlar kimi qruplaşdırdıqda ünsiyyətdə tarazlıq pozulur və həmin ikinci qrup şagirdlərin müəyyən konfliktli, münaqişəli rəftarı meydana çıxır. Belə münasibət təkcə müəllim- şagird ünsiyyətinin deyil, eyni zamanda şagird kollektivində də ünsiyyətin pozulmasına, düzgün olmayan münasibətlərin cücərməsinə imkan yaradır. Buna görə də müəllim yetirməyən, yaxşı oxumayan şagirdlərə münasibətində də yüksək etik normalara əməl etməli, onlara qayğı ilə yanaşmalı, onlarla düzgün pedaqoji münasibətə nail olmalıdır. Ə.Sarıyev "Müəllim-şagird münasibətləri haqqında" adlı əsərində bu barədə yazır: "Şagirdlər kollektivdə baş verən hadisələri görür və ondan nəticə çıxarmağı bacarırlar. Ona görə də kollektivin bütün üzvləri ilə səmimi, təbii, sadə, qayğıkeş, ədəbli və nəzakətli olmaq kollektiv münasibətlərin yaranmasında hava, su kimi vacibdir. Kollektivdə ayrıseçkilik, kobudluq, ikiüzlülük, yalançılıq və s. məktəbyaşlı uşaqlara daha pis təsir edir, onlarda başqalarına qarşı mənfi münasibətlərin yaranmasına şərait yaradır, onların bir şəxsiyyət kimi formalaşmasına maneçilik törədir. Şagirdlərin qəlbi kövrək olur. O, ədalətsizliyə, xüsusilə də müəllimin ədalətsiz münasibətinə dözə bilmir. Belə vəziyyətin yaranmaması üçün müəllim şagirdin ən kiçik qüsuruna, xoşagəlməz davranışına obyektiv, ədalətli münasibət bəsləməlidir".

Pedaqoji prosesdə müəllimin şagirdlərlə qarşılıqlı əxlaqi münasibətləri mühüm tərbiyəvi təsir gücünə malikdir. Yüksək mənəvi keyfiyyətlərə malik olan, nəzakətli, səmimi, mehriban, ədalətli və obyektiv münasibətləri ilə seçilən müəllimlər balaca uşaqların qəlbinə asanlıqla yol

tapır və onların qəlbində özlərinə mübaliğəsiz desək "abidə" ucaldırlar. Şagirdlər belə müəllimləri sevir, onlara bir valideyn kimi hörmət bəsləyirlər. Böyük rus mütəfəkkiri N.A.Dobrolyubov yazırdı: "Müəllim- şagird üçün heyranedici təəccüb oyadan bəşəri kamilliyin ali nümunəsidir. Kiçik bir qız öz kitabında ətrafı karandaşla dövrəyə alınmış yeri nəvazişlə mənə göstərərək dedi: bax, bizim müəllim barmağı ilə bura toxunmuşdur". Bizcə, kiçikyaşlı şagird yalnız yuxarıda göstərdiyimiz keyfiyyətlərə malik olan bir müəllim haqqında bunu deyə bilərdi.

Müəllimin şagirdlərlə qarşılıqlı münasibətləri sistemində qarşılıqlı əxlaqi münasibətlər əsas, mərkəzi yer tutur. Bəzən müəllim sinifdə baş verən və ya şagirdlərin hərəkət və davranışlarında müşahidə etdiyi müəyyən xoşagəlməz nöqsanı məhz bu əxlaqi münasibətlər vasitəsi ilə tənzimləyə, aradan qaldıra bilər. Qeyd edək ki, müəllimin belə münasibəti həmişə faydalı olur və şagirdlərin tərbiyəsinə müsbət təsir göstərir.

Bir nümunəyə diqqət edək.

Bakı şəhəri, Nərimanov rayonu, 82 saylı məktəbin IV sinfində A. adlı çox da yaxşı oxumayan bir nəfər artıq üçüncü gün idi ki, dərsə gəlmirdi. Sinif müəllimi Gülşən Əliyeva onunla maraqlandıqda məlum oldu ki, A. xəstədir və evdə yatır. Müəllimə 2-3 nəfər şagirdlə ona baş çəkmək fikrini sinifdə bildirdi. Bəzi şagirdlər müəllimənin bu fikrinə heyrət etsələr də həvəslə razılaşdılar. Müəllimə G.Əliyeva dərsdən sonra, hətta kiçik hədiyyə də alaraq 3 nəfər sinif fəalı ilə birlikdə bu ailəyə getdi. Şagird doğrudan da xəstələnmiş və yataqda yatırdı. Müəllimə və uşaqların gəlişi nəinki A. üçün, hətta onun valideynləri üçün o qədər sevindirici oldu ki, onlar xəstəliyi unudaraq çox səmimi və xoş anlar yaşadılar. Müəllimin A.-nın ailə şəraiti, ailədə valideynlərin onun təliminə münasibəti ilə maraqlanması, valideynlərə məsləhəti də onların ürəyindən oldu. Müəllimə və şagirdlər A.-nın tez sağalaraq məktəbə gəlməsini arzu etdilər. Artıq aradan bir neçə vaxt keçmişdi. A. sağalmış və dərsə gəlirdi. Onun təlimə münasibətində daha da ciddilik müşahidə edilirdi. O, çox inadla dərslərinə hazırlaşır və verilən tapşırıqları yerinə yetirirdi. A. sinfin yaxşı oxuyan şagirdlərindən olmuşdu...

Müəllimin bu şagirdə mehriban, qayğıkeş münasibəti, dərsə gəldikdən sonra onunla əlavə məşğul olması, şagird yoldaşlarının ona köməyini və qayğısını təşkil etməsi artıq öz bəhrəsini vermişdi. Müəllimin mənəvi keyfiyyəti, şagirdə insani münasibəti onu daha da həvəsləndirmiş, təlimə marağını artırmış və yaxşı oxumağa stimullaşdırmışdı.

Müəllim və şagirdlərin qarşılıqlı əxlaqi münasibətləri bütün proseslərdə dərsdə də, dərsdənkənar tədbirlərdə də, hətta məktəbdən kənarda da gözlənilməlidir. Müəllim özünün hərəkət və davranışının şagirdlərin iti gözlərindən yayınmadığını, sözünün və münasibətinin onların həssas qəlbi tərəfindən duyulduğunu, qiymətləndirildiyini bir an da belə unutmamalı və əxlaqi münasibətlərə xələl gətirəcək heç bir artıq lüzumsuz sözə, ifadəyə və hərəkətə yol verməməlidir.

Apardığımız müşahidələr göstərir ki, valideynlərin öz uşaqlarının hansısa müəllimin sinfində oxumalarını arzu və tələb etmələrinin əsas səbəblərindən biri təkcə o müəllimin savadlı, yaxşı bilikli olması deyil, həm də onun yüksək pedaqoji nəzakətə, əxlaqi münasibətə, pedaqoji ustalığa malik olmasıdır. Belə münasibətlər müəllimi şagirdlərin və onların valideynlərinin nəzərində ucaldır və hörmətli edir.

Müəllimin şagirdlərlə əxlaqi münasibətləri şagirdlərdə mənəvi keyfiyyətlərin formalaşmasına da təsirsiz qalmır. Belə ki, onlar hər addımda müəllimlərinin qayğıkeşliyini, humanistliyini duyduqca, nəzakətli rəftarı ilə qarşılaşdıqca belə keyfiyyətlər onların da xarakterində özünə yer tapmağa başlayır və onlarda vətəndaşlıq, vətənpərvərlik, humanistlik, qarşılıqlı hörmət, kollektivçilik və bir sıra yüksək insani keyfiyyətlər inkişaf edir və formalaşır. Görkəmli Ukrayna pedaqoqu V.A.Suxomlinski ya- zırdı: "Söz tərbiyənin müəyyən mənada yeganə vasitəsidir. Bu, xüsusilə yeniyetmə dövrünə ideyaları, prinsipləri, ümumiləşdirici həqiqətləri dərketmə yaşına aiddir. Mürəkkəb hadisələri və münasibətləri əhatə etmək arzusu sözə və onun çalarlarına böyük həssaslıq tələb edir. Yeniyetmənin mənəvi, emosional, estetik tərbiyəsi onda insanların fikir və hisslərinin çalarlarını duymaq qabiliyyətinin inkişafı olmadan mənasızdır. Bu həssaslıq insanın cinası (sözü): onun daxili məna zənginliyini, emosional rəngini başa düşdüyü və hiss etdiyi zaman əmələ gəlir. Sözə və onun çalarlarına həssaslığın tərbiyəsi şəxsiyyətin ahəngdar inkişafının ilk şərtlərindən biridir. Söz mədəniyyətindən emosional mədəniyyətə, emosional mədəniyyətdən əxlaqi hisslərin və əxlaqi münasibətlərin mədəniyyətinə – biliklərin və əxlaqın ahəngdarlığına yol belədir".

Buradan aydın olduğu kimi, müəllimin sözünün təsirli olması, ünsiyyət zamanı yeniyetmələrin, eyni zamanda kiçik və böyükyaşlı şagirdlərin daxili aləminə, onların inkişafına təsir edə biləcək sözlərin seçilməsi qarşılıqlı əxlaqi münasibətlərin yaranmasına olduqca mühüm təsir edir. Ünsiyyət prosesində düzgün seçilən söz onlarda daxili emosional fikrin oyanmasına, mənəvi sərvətinin yaranmasına təsir edən tərbiyə vasitəsinə çevrilir.

Müəllimin şagirdlərlə qarşılıqlı əxlaqi münasibətləri pedaqoji ünsiyyətə düzgün yol açır. Əxlaqi münasibətlərin düzgün tənzimlənməsi, milli və bəşəri əxlaqa söykənən "böyük-kiçik", "valideyn-övlad", "ustad-şagird" münasibətlərinin düzgün formalaşdırılması pedaqoji ünsiyyəti daha da səmimi və səmərəli edir.

Müəllimin şagirdlərlə qarşılıqlı əxlaqi münasibətlərinin formalaşması vacib olduğu qədər də mürəkkəbdir və onun formalaşması müəllimdən böyük pedaqoji ustalıq, səbr və təmkin tələb edir. Bizcə, bunun üçün müəllimdə aşağıdakı bir sıra keyfiyyətlərin olması zəruridir:

- uşaqlara dərin sevgi və məhəbbət;

-öz işinə maraq, müəllimliyə, pedaqoji peşəyə məhəbbət;

-yüksək mənəvi keyfiyyətlərə malik olmaq;

-xalqımızın milli əxlaqına, milli və bəşəri əxlaqi dəyərlərə yiyələnmək;

-səmimi, mehriban, xoşxasiyyət və kinsiz olmaq;

-şagirdlərə, özünə və işinə qarşı tələbkar olmaq;

-sözü ilə işi, əməli arasında uyğunluq;

-dərin müşahidəçilik qabiliyyətinə malik olmaq;

-qayğıkeşlik və nəzakətlilik;

-ədalətlilik, obyektivlik və s.

Bu keyfiyyətləri özündə əks etdirə bilən müəllim yüksək mənəviyyata malik olduğundan onun şagirdlərlə əxlaqi münasibətlərində heç bir şübhəyə yer qalmır. Belə müəllimlər şagirdləri və öz peşələrini sevdikləri kimi şagirdlər də onları sevir və onlara hörmət edirlər. Onların dərslərində, keçirdikləri tərbiyəvi tədbirlərdə şagirdlər həmişə fəallıq, işgüzarlıq və əməkdaşlıq nümayiş etdirirlər. Belə müəllimlərin şagirdlər üzərində nə qəyyumluğu, nə də avtoritarlığı, hökmranlığı görünmür. Qarşılıqlı hörmət, səmimiyyət, mehribançılıqla bərabər, tələbkarlıq, obyektivlik, məsuliyyətlilik kimi yüksək keyfiyyətlər onların apardıqları təlim-tərbiyə işlərində özünü vəhdət halında göstərir. Bu da yüksək nəticələrin alınmasına səbəb olur.

**İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI**

1. Əliyev H. Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002.

2. İlyasov M. Müəllimin pedaqoji ustalığı. Dərs vəsaiti. Bakı:  Elm və təhsil, 2013.215s.

3.Həsənov A.Məktəbəqədər pedaqogika. Dərs vəsaiti. Bakı:“Nasir nəşriyyatı”.2000.367s.

**ELEKTRON RESURSLAR**

• https://anl.az/el/Kitab/2018/07/cd/2018-1050.pdf

• http://web2.anl.az:81/read/page.php?bibid=vtls000338011

**Mühazirə 15: Müəllimin pedaqoji ustalığının yüksəldilməsi yolları**

**PLAN:**

**1. Pedaqoji biliklərin formalaşmasının əsasında duran prinsip və qaydalar;**

**2. Pedaqoji texnikaya yiyələnmək pedaqoji ustalığa yiyələnməyin zəruri elementlərindən biri olması**

Pedaqoji peşəkarlığın və müəllim səriştəliliyinin formalaşması uzun və mürəkkəb bir yol keçir. Bu nə birdən-birə yaranır, nə də ali təhsil diplomu ilə birgə verilir. Peşəkarlıq və səriştəlilik müəllimin daim öz üzərində işləməsi, yaradıcı axtarışda olması, özünün fəaliyyətinə tənqidi yanaşması, əldə etdikləri ilə kifayətlənməyərək qabaqcıl təcrübəni öyrənməsi və ondan yara- dıcı şəkildə faydalana bilməsi və digər bir sıra amillərlə əlaqədardır. Müəllimin öz fəaliyyətinə yeniliklər gətirməsi onun peşəkarlığının ildən-ilə artmasına gətirib çıxarır. Peşə fəaliyyətinə yeni-yeni rənglər, çalarlar əlavə olunur ki, bu da onun zənginləşməsinə səbəb olur. Xüsusən, gənc, yeni fəaliyyətə başlayan müəllimlər

pedaqoji prosesin incəliklərinə yiyələndikcə bu proses daha məzmunlu xarakter alır və yeniliklər müəllimin fəaliyyətində öz əksini tapır. Müəllim yeni-yeni keyfiyyətlərə, bacarıqlara malik olduqca əvvəllər buraxılan səhvlər aradan qaldırılır, o, daha zəngin pedaqoji bilik və bacarıqlara yiyələnir. Beləliklə, pedaqoji peşəkarlıq və səriştəlilik birdən birə deyil, müəyyən zaman ərzində formalaşaraq meydana çıxır. Onun bir çox istiqamətləri içərisində daha önəmli olanlarını aşağıdakı kimi xarakterizə etmək olar:

**1. Müəllimin qabaqcıl təcrübəyə yiyələnməsi və onun yaradıcı tətbiqi.** Bu iş müəllimlərin peşəkarlıq və səriştəlilik səviyyəsinin yüksəldilməsində həmişə müsbət nəticələr vermişdir. Müəllimin ixtisasına, peşəsinə aid oxuduğu, gördüyü yaxşı nə varsa onu özünün fəaliyyətinə gətirməsi həmişə faydalı olmuşdur. Təhsilimizin dünya təhsil məkanına inteqrasiya etməsi, təhsil sahəsində əlaqələrin artması və əməkdaşlığın genişlənməsi imkan verir ki, nəinki, öz respublikamızda, yaxın və uzaq xaricdə olan qabaqcıl təcrübəni, yenilikləri fəaliyyət sahəmizə gətirə bilək və ondan yararlanaq. Bu baxımdan hazırda qabaqcıl təcrübənin ünvanları getdikcə genişlənərək artır: dünyanın inkişaf etmiş bir sıra ölkələrinin ABŞ, Almaniya, Fransa, Yaponiya, İsveç, Norveç, Türkiyə və s.məktəb və müəllimlərinin qabaqcıl təcrübəsi; MDB ölkələrinin, xüsusən Rusiyanın qabaqcıl təcrübəsi; respublikamızın qabaqcıl məktəb və müəllimlərinin iş təcrübəsi; işlədiyi məktəbdə əz həmkarlarının qabaqcıl təcrübəsi və s.

Qabaqcıl pedaqoji təcrübə çevik struktura malikdir. Bir neçə il öncə qabaqcıl sayıla bilən təcrübə bu gün aktual olmaya bilər. Yeni pedaqoji təfəkkürün meydana gəlməsi, təhsildə aparılan islahatlar, yeni təhsil texnologiyalarının tətbiqi və digər bir sıra məsələlər qabaqcıl təcrübəninünvanının tez-tez dəyişməsinə səbəb olduğu kimi, onun məzmun və mahiyyətinin də dəyişməsinə səbəb olur. Buna görə də ona dəyişməz bir etalon kimi baxmaq düzgün deyildir. Bu, daim yeniləşən bir prosesin nəticəsi olduğundan ona səriştəli yanaşmaq lazım gəlir. Lakin onun öyrənilməsi və tətbiq olunmasının yol və vasitələri özünə nisbətən az dəyişəndir. Onlardan ən sınanılmış və mühüm olanlar aşağıdakılardan ibarətdir:

1. Nəşr olunmuş yeni elmi-pedaqoji, psixoloji və metodik ədəbiyyatlarla tanışlıq, tövsiyə olunan təcrübənin sınaqdan keçirilməsi.

2. İnternet resurslarından istifadə. Qabaqcıl təcrübəni əks etdirən elmi-pedaqoji mənbələrdən, yaxşı dərs nümunələrindən istifadə etmək.

3. Televiziya, radio, qəzet, jurnal və digər kütləvi informasiya vasitələrindən istifadə etmək.

4. İşlədiyi məktəbdə yaxşı iş təcrübəsi olan, yüksək

nəticələr göstərən müəllimlərin dərslərində iştirak etmək, onların təcrübəsini öyrənmək.

5. Fənn metodbirləşmələrində fəal iştirak etməklə müəllimlərlə hərtərəfli əməkdaşlıq etmək.

6. Eksperiment xarakterli tədqiqatlar aparmaq, özünün təcrübəsini təkmilləşdirmək və s.

Buradan müəllimin fəaliyyət istiqamətləri aydın göründüyündən belə bir nəticəyə gəlmək olar ki, qabaqcıl pedaqoji təcrübənin öyrənilməsi də, tətbiq olunması da bilavasitə müəllimin özündən, onun təşəbbüskarlığından, yenilik axtarışında olmasından asılıdır.

Müəllimin pedaqoji təcrübəni öyrənib özünün fəaliyyətinə gətirməsi və onu tətbiq edə bilməsi mərhələli bir prosesdir. Belə ki, konkret bir müəllim və ya məktəb yenilik kimi gördüyü və onun tətbiqində yüksək nəticələr əldə edə biləcəyinə inamı olduqda onu dərindən öyrənmək və təhlil etməklə özü üçün müəyyən metodika, texnoloji plan hazırlayır. Bu, öyrənməyin **birinci mərhələsini** təşkil edir. **İkinci mərhələdə** müəllim yeniliyi tətbiq etmək üçün əlverişli öyrədici mühit hazırlayır. Belə bir mühit olmadıqda yeniliyi tətbiq etmək və ya ondan müsbət nəticə əldə etmək mümkün olmadığından ona xüsusi fikir vermək olduqca vacibdir. **Üçüncü mərhələdə** müəllim qəbul etdiyi yeniliyi özünün hazırladığı texnolojiplana əsaslanaraq tətbiq edir. **Dördüncü mərhələdə** müəllim aldığı nəticələri təhlil edərək ümumilədirmələr aparır, müvəffəq və nöqsan cəhətləri nəzərdən keçirir, müəyyən korreksiyaedici işlər aparır və nəticələr çıxarır. Yenilikçi müəllimin özünün də bu prosesə müəyyən əlavələr və düzəlişlər etməsi, onu özünün yaradıcılığı, yeni fikirləri ilə daha da zənginləşdirməsi pedaqoji prosesin optimallığını artırır və başqa yeniliklərə, yeni bir təcrübəyə də yol açır. Sınaqdan çıxmış və qəbul edilmiş və müsbət qiymətləndirilmiş belə yeniliklər, qabaqcıl təcrübələr bir müəllimin, bir məktəbin çərçivəsindən çıxaraq daha geniş miqyas alır.

**2. Məktəbdə metodik işin yüksək səviyyədə təşkili və müəllimin ondanyararlana bilməsi.** Müəllimlərin elmi-metodik səviyyələrinin yüksəldilməsində məktəbdə aparılan metodik işlərin böyük rolu vardır. Metodik işlər müəllimlərin pedaqoji və metodik yeniliklərlə tanış olmalarında, qabaqcıl təcrübənin öyrənilib tətbiq edilməsində, müəllimlər arasında əməkdaşlığın gücləndirilməsində, qarşılıqlı şəkildə fəaliyyət göstərə bilmələrində geniş imkanlara malikdir. Məktəb rəhbərliyi direktor, onun müavinləri, həmçinin bütün müəllimlər bu işə həvəs göstərdikdə, maraqlı olduqda məktəbdə metodik işlərin səviyyəsinin yüksəldilməsi bilavasitə müəllimlərin peşəkarlığının artması, səriştəliliyinin yüsəldilməsi üçün əlverişli zəmin olur.

Məktəbdə metodik işlərin yüksək səviyyədə təşkili və aparılması müəllimlərin yaradıcı inkişafı üçün xeyli imkanlara malikdir. **Bu baxımdan məktəbdə metodik işlərin qarşısında aşağıdakı bir sıra məqsəd və vəzifələr durur:**

-qabaqcıl pedaqoji təcrübənin öyrənilməsi, ümumiləşdirilməsi və yayılması;

-müəllimlərin elmi-nəzəri və metodik hazırlıqlarının təkmilləşdirilməsi üzrə işlərin təşkili;

-yeni elmi-pedaqoji və metodik ədəbiyyatların müzakirəsi;

-alternativ dərsliklər, dərs proqramları (kurikulumu) və s. üzrə müzakirələr;

-məktəb, müəllim, təhsil haqqında yeni normativ sənədlərin öyrənilməsi;

-qarşılıqlı dərs dinləmələrinin həyata keçirilməsi;

-pedaqoji konsliumların keçirilməsi;

-yeni pedaqoji texnologiyaların və təlim metodlarının tətbiqi haqqında debatlar və dəyirmi masaların keçirilməsi;

-gənc müəllimlərə metodik köməyin təşkili;

-istedadlı şagirdlərlə işin təşkili;

-müəllimlərin yaradıcı işlərinin təşkili və onların tətbiqi.

Məktəbin metodik işlərinə təlim-tərbiyə işləri üzrə direktor müavini rəhbərlik edir. Direktor müavini bu sahəni yaxşı bilməli, sözün əsl mənasında özü metodist olmalıdır.

Məktəbdə müəllimlərin metodik səviyyələrinin, peşəkarlıq və səriştəlilik keyfiyyətlərinin yüksəldilməsində mühüm əhəmiyyət kəsb edən metodilk işlərin məzmunlu və maraqlı keçməsi məktəbdə təşkil edilən metodşuraların işi ilə sıx bağlıdır. Məktəbin metodşuraları sanki bir yaradıcılıq laboratoriyası olub, müəllimlərin təkmilləşməsində, yaradıcı qabiliyyətlərinin üzə çıxmasında və inkişafında geniş imkanlara malikdir. Başlıca məsələ bu imkanlardan bəhrələnə bilmək, onlardan istifadə edə bilməkdir.

**3. Müəllimin özünütəhsil və özünütərbiyəsinin müntəzəmliyi.** Müəllimlərin özünütəhsili onun peşəkar fəaliyyətinin əsas istiqamətlərindən biri, bəlkədə birincisidir desək səhv etmərik. Çünki müəllim əməyi elə əməkdir ki, o hər gün nə isə bir yeniliklə zənginləşdirilməsə gec-tez geridə qalma özünü göstərəcək və artan tələblərə cavab vermək çətinləşəcdəkdir. Bu baxımdan müəllim ixtisas biliklərini artırmaqla yanaşı, həm də pedaqoji, psixoloji və metodik səviyyəsini yüksəltmək qayğısına qalmalı, biliyini, bacarığını, səriştə və peşəkarlığını yüksəltmək üçün özünütəhsillə məşğul olmalıdır. Özünütəhsil proqramının olması bu işin ən optimal həlli yollarından biridir. Müəllim il ərzində və ya yarım il ərzində özünütəhsillə əlaqədar nələri oxuyacağını, hansı istiqamətdə təcrübi-tədqiqat işi aparacağını, nə işlər görəcəyini özü üçün planlaşdırmalı və onun həyata keçməsini reallaşdıra bilməlidir.

**Müəllimin özünütəhsili və özünütərbiyəsi işində aşağıdakı bir sıra amillərin nəzərə alınması vacibdir:**

1. Pedaqoji prosesdə qarşıya çıxa biləcək və çıxan çətinliklərinaradan qaldırılması üçün özünün bilik, bacarıq və mənəvi qüvvəsini inkişaf etdirməsi.

2. Müəllimlik fəaliyyətində özünün mənəvi məsuliyyətini və borcunu dərk edərək xarakterində peşəsi ilə bağlı müəyyən zəruri keyfiyyətlərin tərbiyə olunmasına çalışması.

3. Peşəkarlıq səviyyəsinin yüksəldilməsi üçün intellektual, yaradıcı və metodik fəaliyyətini genişləndirməsi, özünüinkişafa nail olması.

Müəllimin özünütəhsil və özünütərbiyəsionun özünütəkmilləşdirmə tələbatından irəli gəlir. Özünütəkmilləşdirmə tələbatının olması özünütəhsil və özünütərbiyənin əsasını təşkil edir ki, bu da müəllim şəxsiyyətinin inkişafının şüurlu istiqamətini təşkil edir. Müəllimin öz peşəkarlığını daim artırmaq meyli, buna çalışması, özünün peşə səriştəliliyini yüksəltmək üçün müəy- yən metod və vasitələrdən istifadə etməsi onun həm müəllim kimi, həm də bir şəxsiyyət kimi inkişafına səbəb olur və peşəkar inkişafla şəxsiyyət inkişafının sintezi yaranır. Müəllimdə özünütəkmilləşdirmək, peşə və ixtisas biliklərini artırmaq təşəbbüsləri və bunların reallaşdırılması özünütərbiyənin və özünütəhsilin gedişini sürətləndirir və nəticənin səmərəliliyini artırır. Burada vaxtdan səmərəli istifadə etmək, prinsipiallıq göstərmək, özünütəhsildə perspektivlərin olması, minimum və maksimum planların olması və müntəzəmlilik mühüm rol oynayır.

**4. Məktəbdə yaradıcı və yenilikçi mühitin olması.** Mühitin təlim, təhsil və tərbiyə işlərinin səviyyəsinin yüksəldilməsində güclü amillərdən biri olması müəllimlərin yaradıcılığına, yenilikçi olmağına da onun böyük təsiri vardır. Xüsusən gənc müəllim yeni işləməyə başladığı məktəbdə yenilikçi bir mühitlə qarşılaşdıqda, müəllimlərin yeniliyə meylli və yaradıcılıqla məşğul olduğunu gördükdə, belə bir mühit onda da yenilikçi və yaradıcılıq motivlərinin yaranmasına və inkişafına mühüm təsir göstərir. O da özünün qüvvə və bacarığından istifadə edərək yeniliklərdən geri qalmamağa, yenilikçi müəllim kimi fəaliyyətlə  məşğul olmağa can atır.

Yenilikçi və yaradıcı mühitin səciyyələndiyi başlıca xüsusiyyət ondan ibarətdir ki, burada mühafizəkarlıq deyil, elə bir demokratik şərait vardır ki, müəllimlər yeni təlim metodlarını, müasir təhsil texnologiyalarını tətbiq etməklə məktəbdə fəal bir təhsil mühiti yaradırlar. Müəllimlər yenilikləri izləyir, qabaqcıl təcrübəni öyrənir, tətbiq edir və peşəkarlıqlarını artırmağa çalışırlar.

İkinci bir xüsusiyyət isə təhsilverənlərlə təhsilalanlar arasında səmərəli və işgüzar əməkdaşlığın olmasıdır. Öyrədənlərin humanizmi ilə öyrənənlərin təlim maraqları bir-birini tamamlamalıdır. Sinifdə elə bir psixoloji iqlim, qarşılıqlı münasibət vardır ki, öyrədənlər daha yaxşı öyrətməyə, öyrənənlər isə daha yaxşı öyrənməyə maraqlıdırlar. Belə bir mühitin olması təbii ki, müəllimlərin peşəkarlıq və səriştəliliyinin səviyyəsinin artırılmasına öz müsbət təsirini göstərməyə bilməz.

Səriştəli müəllimin dərsi təkcə məzmun baxımından mükəmməl olmasında deyil, eyni zamanda onun maraqlı olmasında, düşündürücü, cəlbediciaparılmasında da özünü göstərir. Belə dərslərdə şagirdlərin hafizəsi ilə yanaşı təfəkkürü də fəal fəaliyyətdə olur. Şablon, standart metodlar deyil, elə yeni metodlar və priyomlar tətbiq olunur ki, bunlar şagirdlərin bütün dərs boyu fəallığını təmin edə bilir. Digər bir tərəfdən də səriştəli müəllim dərsdə meydana çıxan problemlərivə qeyri-adi situativ hadisələri çox ustalıqla və rahatlıqla həll edə bilir.

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI

1. Əliyev H. Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002.

2. İlyasov M. Müəllimin pedaqoji ustalığı. Dərs vəsaiti. Bakı:  Elm və təhsil, 2013.215s.

## ELEKTRON RESURSLAR

• https://anl.az/el/Kitab/2018/07/cd/2018-1050.pdf

• http://web2.anl.az:81/read/page.php?bibid=vtls000338011

**Mühazirə 15: Müəllimin pedaqoji ustalığının yüksəldilməsi yolları**

**PLAN:**

**1. Pedaqoji biliklərin formalaşmasının əsasında duran prinsip və qaydalar;**

**2. Pedaqoji texnikaya yiyələnmək pedaqoji ustalığa yiyələnməyin zəruri elementlərindən biri olması**

Pedaqoji peşəkarlığın və müəllim səriştəliliyinin formalaşması uzun və mürəkkəb bir yol keçir. Bu nə birdən-birə yaranır, nə də ali təhsil diplomu ilə birgə verilir. Peşəkarlıq və səriştəlilik müəllimin daim öz üzərində işləməsi, yaradıcı axtarışda olması, özünün fəaliyyətinə tənqidi yanaşması, əldə etdikləri ilə kifayətlənməyərək qabaqcıl təcrübəni öyrənməsi və ondan yara- dıcı şəkildə faydalana bilməsi və digər bir sıra amillərlə əlaqədardır. Müəllimin öz fəaliyyətinə yeniliklər gətirməsi onun peşəkarlığının ildən-ilə artmasına gətirib çıxarır. Peşə fəaliyyətinə yeni-yeni rənglər, çalarlar əlavə olunur ki, bu da onun zənginləşməsinə səbəb olur. Xüsusən, gənc, yeni fəaliyyətə başlayan müəllimlər pedaqoji prosesin incəliklərinə yiyələndikcə bu proses daha məzmunlu xarakter alır və yeniliklər müəllimin fəaliyyətində öz əksini tapır. Müəllim yeni-yeni keyfiyyətlərə, bacarıqlara malik olduqca əvvəllər buraxılan səhvlər aradan qaldırılır, o, daha zəngin pedaqoji bilik və bacarıqlara yiyələnir. Beləliklə, pedaqoji peşəkarlıq və səriştəlilik birdən birə deyil, müəyyən zaman ərzində formalaşaraq meydana çıxır. Onun bir çox istiqamətləri içərisində daha önəmli olanlarını aşağıdakı kimi xarakterizə etmək olar:

**1. Müəllimin qabaqcıl təcrübəyə yiyələnməsi və onun yaradıcı tətbiqi.** Bu iş müəllimlərin peşəkarlıq və səriştəlilik səviyyəsinin yüksəldilməsində həmişə müsbət nəticələr vermişdir. Müəllimin ixtisasına, peşəsinə aid oxuduğu, gördüyü yaxşı nə varsa onu özünün fəaliyyətinə gətirməsi həmişə faydalı olmuşdur. Təhsilimizin dünya təhsil məkanına inteqrasiya etməsi, təhsil sahəsində əlaqələrin artması və əməkdaşlığın genişlənməsi imkan verir ki, nəinki, öz respublikamızda, yaxın və uzaq xaricdə olan qabaqcıl təcrübəni, yenilikləri fəaliyyət sahəmizə gətirə bilək və ondan yararlanaq. Bu baxımdan hazırda qabaqcıl təcrübənin ünvanları getdikcə genişlənərək artır: dünyanın inkişaf etmiş bir sıra ölkələrinin ABŞ, Almaniya, Fransa, Yaponiya, İsveç, Norveç, Türkiyə və s.məktəb və müəllimlərinin qabaqcıl təcrübəsi; MDB ölkələrinin, xüsusən Rusiyanın qabaqcıl təcrübəsi; respublikamızın qabaqcıl məktəb və müəllimlərinin iş təcrübəsi; işlədiyi məktəbdə əz həmkarlarının qabaqcıl təcrübəsi və s.

Qabaqcıl pedaqoji təcrübə çevik struktura malikdir. Bir neçə il öncə qabaqcıl sayıla bilən təcrübə bu gün aktual olmaya bilər. Yeni pedaqoji təfəkkürün meydana gəlməsi, təhsildə aparılan islahatlar, yeni təhsil texnologiyalarının tətbiqi və digər bir sıra məsələlər qabaqcıl təcrübənin ünvanının tez-tez dəyişməsinə səbəb olduğu kimi, onun məzmun və mahiyyətinin də dəyişməsinə səbəb olur. Buna görə də ona dəyişməz bir etalon kimi baxmaq düzgün deyildir. Bu, daim yeniləşən bir prosesin nəticəsi olduğundan ona səriştəli yanaşmaq lazım

gəlir. Lakin onun öyrənilməsi və tətbiq olunmasının yol və vasitələri özünə nisbətən az dəyişəndir. Onlardan ən sınanılmış və mühüm olanlar aşağıdakılardan ibarətdir:

1. Nəşr olunmuş yeni elmi-pedaqoji, psixoloji və metodik ədəbiyyatlarla tanışlıq, tövsiyə olunan təcrübənin sınaqdan keçirilməsi.

2. İnternet resurslarından istifadə. Qabaqcıl təcrübəni əks etdirən elmi-pedaqoji mənbələrdən, yaxşı dərs nümunələrindən istifadə etmək.

3. Televiziya, radio, qəzet, jurnal və digər kütləvi informasiya vasitələrindən istifadə etmək.

4. İşlədiyi məktəbdə yaxşı iş təcrübəsi olan, yüksək

nəticələr göstərən müəllimlərin dərslərində iştirak etmək, onların təcrübəsini öyrənmək.

5. Fənn metodbirləşmələrində fəal iştirak etməklə müəllimlərlə hərtərəfli əməkdaşlıq etmək.

6. Eksperiment xarakterli tədqiqatlar aparmaq, özünün təcrübəsini təkmilləşdirmək və s.

Buradan müəllimin fəaliyyət istiqamətləri aydın göründüyündən belə bir nəticəyə gəlmək olar ki, qabaqcıl pedaqoji təcrübənin öyrənilməsi də, tətbiq olunması da bilavasitə müəllimin özündən, onun təşəbbüskarlığından, yenilik axtarışında olmasından asılıdır.

Müəllimin pedaqoji təcrübəni öyrənib özünün fəaliyyətinə gətirməsi və onu tətbiq edə bilməsi mərhələli bir prosesdir. Belə ki, konkret bir müəllim və ya məktəb yenilik kimi gördüyü və onun tətbiqində yüksək nəticələr əldə edə biləcəyinə inamı olduqda onu dərindən öyrənmək və təhlil etməklə özü üçün müəyyən metodika, texnoloji plan hazırlayır. Bu, öyrənməyin **birinci mərhələsini** təşkil edir. **İkinci mərhələdə** müəllim yeniliyi tətbiq etmək üçün əlverişli öyrədici mühit hazırlayır. Belə bir mühit olmadıqda yeniliyi tətbiq etmək və ya ondan müsbət nəticə əldə etmək mümkün olmadığından ona xüsusi fikir vermək olduqca vacibdir. **Üçüncü mərhələdə** müəllim qəbul etdiyi yeniliyi özünün hazırladığı texnolojiplana əsaslanaraq tətbiq edir. **Dördüncü mərhələdə** müəllim aldığı nəticələri təhlil edərək ümumilədirmələr aparır, müvəffəq və nöqsan cəhətləri nəzərdən keçirir, müəyyən korreksiyaedici işlər aparır və nəticələr çıxarır. Yenilikçi müəllimin özünün də bu prosesə müəyyən əlavələr və düzəlişlər etməsi, onu özünün yaradıcılığı, yeni fikirləri ilə daha da zənginləşdirməsi pedaqoji prosesin optimallığını artırır və başqa yeniliklərə, yeni bir təcrübəyə də yol açır. Sınaqdan çıxmış və qəbul edilmiş və müsbət qiymətləndirilmiş belə yeniliklər, qabaqcıl təcrübələr bir müəllimin, bir məktəbin çərçivəsindən çıxaraq daha geniş miqyas alır.

**2. Məktəbdə metodik işin yüksək səviyyədə təşkili və müəllimin ondanyararlana bilməsi.** Müəllimlərin elmi-metodik səviyyələrinin yüksəldilməsində məktəbdə aparılan metodik işlərin böyük rolu vardır. Metodik işlər müəllimlərin pedaqoji və metodik yeniliklərlə tanış olmalarında, qabaqcıl təcrübənin öyrənilib tətbiq edilməsində, müəllimlər arasında əməkdaşlığın gücləndirilməsində, qarşılıqlı şəkildə fəaliyyət göstərə bilmələrində geniş imkanlara malikdir. Məktəb rəhbərliyi direktor, onun müavinləri, həmçinin bütün müəllimlər bu işə həvəs göstərdikdə, maraqlı olduqda məktəbdə metodik işlərin səviyyəsinin

yüksəldilməsi bilavasitə müəllimlərin peşəkarlığının artması, səriştəliliyinin yüsəldilməsi üçün əlverişli zəmin olur.

Məktəbdə metodik işlərin yüksək səviyyədə təşkili və aparılması müəllimlərin yaradıcı inkişafı üçün xeyli imkanlara malikdir. **Bu baxımdan məktəbdə metodik işlərin qarşısında aşağıdakı bir sıra məqsəd və vəzifələr durur:**

-qabaqcıl pedaqoji təcrübənin öyrənilməsi, ümumiləşdirilməsi və yayılması;

-müəllimlərin elmi-nəzəri və metodik hazırlıqlarının təkmilləşdirilməsi üzrə işlərin təşkili;

-yeni elmi-pedaqoji və metodik ədəbiyyatların müzakirəsi;

-alternativ dərsliklər, dərs proqramları (kurikulumu) və s. üzrə müzakirələr;

-məktəb, müəllim, təhsil haqqında yeni normativ sənədlərin öyrənilməsi;

-qarşılıqlı dərs dinləmələrinin həyata keçirilməsi;

-pedaqoji konsliumların keçirilməsi;

-yeni pedaqoji texnologiyaların və təlim metodlarının tətbiqi haqqında debatlar və dəyirmi masaların keçirilməsi;

-gənc müəllimlərə metodik köməyin təşkili;

-istedadlı şagirdlərlə işin təşkili;

-müəllimlərin yaradıcı işlərinin təşkili və onların tətbiqi.

Məktəbin metodik işlərinə təlim-tərbiyə işləri üzrə direktor müavini rəhbərlik edir. Direktor müavini bu sahəni yaxşı bilməli, sözün əsl mənasında özü metodist olmalıdır.

Məktəbdə müəllimlərin metodik səviyyələrinin, peşəkarlıq və səriştəlilik keyfiyyətlərinin yüksəldilməsində mühüm əhəmiyyət kəsb edən metodilk işlərin məzmunlu və maraqlı keçməsi məktəbdə təşkil edilən metodşuraların işi ilə sıx bağlıdır. Məktəbin metodşuraları sanki bir yaradıcılıq laboratoriyası olub, müəllimlərin təkmilləşməsində, yaradıcı qabiliyyətlərinin üzə çıxmasında və inkişafında geniş imkanlara malikdir. Başlıca məsələ bu imkanlardan bəhrələnə bilmək, onlardan istifadə edə bilməkdir.

**3. Müəllimin özünütəhsil və özünütərbiyəsinin müntəzəmliyi.** Müəllimlərin özünütəhsili onun peşəkar fəaliyyətinin əsas istiqamətlərindən biri, bəlkədə birincisidir desək səhv etmərik. Çünki müəllim əməyi elə əməkdir ki, o hər gün nə isə bir yeniliklə zənginləşdirilməsə gec-tez geridə qalma özünü göstərəcək və artan tələblərə cavab vermək çətinləşəcdəkdir. Bu baxımdan müəllim ixtisas biliklərini artırmaqla yanaşı, həm də pedaqoji, psixoloji və metodik səviyyəsini yüksəltmək qayğısına qalmalı, biliyini, bacarığını, səriştə və peşəkarlığını yüksəltmək üçün özünütəhsillə məşğul olmalıdır. Özünütəhsil proqramının olması bu işin ən optimal həlli yollarından biridir. Müəllim il ərzində və ya yarım il ərzində özünütəhsillə əlaqədar nələri oxuyacağını, hansı istiqamətdə təcrübi-tədqiqat işi aparacağını, nə işlər görəcəyini özü üçün planlaşdırmalı və onun həyata keçməsini reallaşdıra bilməlidir.

**Müəllimin özünütəhsili və özünütərbiyəsi işində aşağıdakı bir sıra amillərin nəzərə alınması vacibdir:**

1. Pedaqoji prosesdə qarşıya çıxa biləcək və çıxan çətinliklərinaradan qaldırılması üçün özünün bilik, bacarıq və mənəvi qüvvəsini inkişaf etdirməsi.

2. Müəllimlik fəaliyyətində özünün mənəvi məsuliyyətini və borcunu dərk edərək xarakterində peşəsi ilə bağlı müəyyən zəruri keyfiyyətlərin tərbiyə olunmasına çalışması.

3. Peşəkarlıq səviyyəsinin yüksəldilməsi üçün intellektual, yaradıcı və metodik fəaliyyətini genişləndirməsi, özünüinkişafa nail olması.

Müəllimin özünütəhsil və özünütərbiyəsionun özünütəkmilləşdirmə tələbatından irəli gəlir. Özünütəkmilləşdirmə tələbatının olması özünütəhsil və özünütərbiyənin əsasını təşkil edir ki, bu da müəllim şəxsiyyətinin inkişafının şüurlu istiqamətini təşkil edir. Müəllimin öz peşəkarlığını daim artırmaq meyli, buna çalışması, özünün peşə səriştəliliyini yüksəltmək üçün müəy- yən metod və vasitələrdən istifadə etməsi onun həm müəllim kimi, həm də bir şəxsiyyət kimi inkişafına səbəb olur və peşəkar inkişafla şəxsiyyət inkişafının sintezi yaranır. Müəllimdə özünütəkmilləşdirmək, peşə və ixtisas biliklərini artırmaq təşəbbüsləri və bunların reallaşdırılması özünütərbiyənin və özünütəhsilin gedişini sürətləndirir və nəticənin səmərəliliyini artırır. Burada vaxtdan səmərəli istifadə etmək, prinsipiallıq göstərmək, özünütəhsildə perspektivlərin olması, minimum və maksimum planların olması və müntəzəmlilik mühüm rol oynayır.

**4. Məktəbdə yaradıcı və yenilikçi mühitin olması.** Mühitin təlim, təhsil və tərbiyə işlərinin səviyyəsinin yüksəldilməsində güclü amillərdən biri olması müəllimlərin yaradıcılığına, yenilikçi olmağına da onun böyük təsiri vardır. Xüsusən gənc müəllim yeni işləməyə başladığı məktəbdə yenilikçi bir mühitlə qarşılaşdıqda, müəllimlərin yeniliyə meylli və yaradıcılıqla məşğul olduğunu gördükdə, belə bir mühit onda da yenilikçi və yaradıcılıq motivlərinin yaranmasına və inkişafına mühüm təsir göstərir. O da özünün qüvvə və bacarığından istifadə edərək yeniliklərdən geri qalmamağa, yenilikçi müəllim kimi fəaliyyətlə  məşğul olmağa can atır.

Yenilikçi və yaradıcı mühitin səciyyələndiyi başlıca xüsusiyyət ondan ibarətdir ki, burada mühafizəkarlıq deyil, elə bir demokratik şərait vardır ki, müəllimlər yeni təlim metodlarını, müasir təhsil texnologiyalarını tətbiq etməklə məktəbdə fəal bir təhsil mühiti yaradırlar. Müəllimlər yenilikləri izləyir, qabaqcıl təcrübəni öyrənir, tətbiq edir və peşəkarlıqlarını artırmağa çalışırlar.

İkinci bir xüsusiyyət isə təhsilverənlərlə təhsilalanlar arasında səmərəli və işgüzar əməkdaşlığın olmasıdır. Öyrədənlərin humanizmi ilə öyrənənlərin təlim maraqları bir-birini tamamlamalıdır. Sinifdə elə bir psixoloji iqlim, qarşılıqlı münasibət vardır ki, öyrədənlər daha yaxşı öyrətməyə, öyrənənlər isə daha yaxşı öyrənməyə maraqlıdırlar. Belə bir mühitin olması təbii ki, müəllimlərin peşəkarlıq və səriştəliliyinin səviyyəsinin artırılmasına öz müsbət təsirini göstərməyə bilməz.

Səriştəli müəllimin dərsi təkcə məzmun baxımından mükəmməl olmasında deyil, eyni zamanda onun maraqlı olmasında, düşündürücü, cəlbediciaparılmasında da özünü göstərir.

Belə dərslərdə şagirdlərin hafizəsi ilə yanaşı təfəkkürü də fəal fəaliyyətdə olur. Şablon, standart metodlar deyil, elə yeni metodlar və priyomlar tətbiq olunur ki, bunlar şagirdlərin bütün dərs boyu fəallığını təmin edə bilir. Digər bir tərəfdən də səriştəli müəllim dərsdə meydana çıxan problemlərivə qeyri-adi situativ hadisələri çox ustalıqla və rahatlıqla həll edə bilir.

**İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI**

1. Əliyev H. Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002.

2. İlyasov M. Müəllimin pedaqoji ustalığı. Dərs vəsaiti. Bakı:  Elm və təhsil, 2013.215s.

**ELEKTRON RESURSLAR**

• https://anl.az/el/Kitab/2018/07/cd/2018-1050.pdf

• http://web2.anl.az:81/read/page.php?bibid=vtls000338011